“HÜQUQ VƏ İNSAN HAQLARI İNSTİTUTU”
PUBLİK HÜQUQİ ŞƏXS

# HEYDƏR ƏLİYEV: CİNAYƏTKARLIQLA MÜBARİZƏ

*(dərs vəsaiti)*

BAKI - 2024

**Heydər Əliyev: cinayətkarlıqla mübarizə. Dərs vəsaiti.**
**Bakı, 2024, 268 s.**

*Kitabda cinayətkarlıqla mübarizə məsələləri iki aspektdən tədqiq və şərh edilir. Tədqiqatın birinci istiqaməti müasir Azərbaycan dövlətinin müstəqilliyinin bərpası, formalaşması və möhkəmləndirilməsində əvəzsiz xidmətləri olan Heydər Əliyevin cinayətkarlıqla mübarizə ilə bağlı ideya və düşüncələrinə həsr olunub. Kitabda cinayətkarlıqla mübarizədə dövlət orqanları və Azərbaycan vətəndaşlarının rolu təqdim edilir, cinayətkarlıqla mübarizənin demokratik dövlət quruculuğunda yeri və əhəmiyyəti ilə bağlı Ulu Öndərin tövsiyələri araşdırılır, Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə cinayətkarlıqla mübarizə təcrübəsi konkret faktlar əsasında dəyərləndirilməklə, nəzəriyyə ilə təcrübənin vəhdəti nəticəsində bu sahədə qazanılan uğurlar diqqətə çatdırılır.*

*Cinayətkarlıqla mübarizənin kitabda araşdırılan ikinci istiqaməti bu sahədə milli qanunvericiliyə, beynəlxalq hüquq və təcrübəyə əsaslanır. Burada dövrün xüsusiyyətləri nəzərə alınmaqla cinayətkarlıqla mübarizənin təşkili, bu sahədə beynəlxalq təcrübəyə əsaslanmaqla milli qanunvericiliyin təkmilləşdirilməsi, cinayətkarlıqla mübarizənin insan hüquqları ilə uzlaşdırılması, cəmiyyətin təhlükəsizliyinin və insan hüquq və azadlıqlarının təminində, ölkədə cəza siyasətinin humanistləşdirilməsində Heydər Əliyev ideyalarının əhəmiyyəti öz əksini tapıb.*

*Kitab ali və orta-ixtisas məktəblərinin tələbələri, hüquq-mühafizə orqanlarının əməkdaşları, vəkillər, hüquqşünaslar üçün faydalı dərs vəsaiti kimi nəzərdə tutulmuşdur.*

***İSBN 978-9952-39-300-2***

***© Hüquq və İnsan Haqları İnstitutu, 2024***

# Mündəricat

**Ön söz.........................................................................................5**

**1. Heydər Əliyev cinayətkarlıqla mübarizə və onun əsas istiqamətləri haqqında.......................................................................7**

1.1. Cinayətkarlıqla mübarizə dövlətin funksiyalarından biri kimi.........................................................................................7

1.2. Heydər Əliyev cinayətkarlıqla mübarizə haqqında................9

1.3. Cinayətkarlıqla mübarizə haqqında 1994-cü il Fərmanı......21

1.4. Heydər Əliyev cinayətkarlıqla mübarizədə dövlət orqanlarının rolu haqqında...........................................................26

1.5. Cinayətkarlıqla mübarizə üzrə beynəlxalq əməkdaşlığın inkişafında Heydər Əliyevin rolu.................................................37

1.6. Azərbaycan Respublikasının Prezidenti yanında Hüquqi İslahat Komissiyasının yaradılması və onun fəaliyyəti haqqında......................................................................................45

**2. Heydər Əliyevin ayrı-ayrı cinayətlərlə mübarizə barədə fikirləri. Həmin cinayətlərlə mübarizənin hüquqi əsasları.........53**

2.1. Korrupsiya cinayətləri...........................................................53

2.2. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər......................................................................91

2.3. Soyqırımı cinayəti..............................................................122

2.4. Terrorçuluq cinayəti............................................................146

2.5. Hərbi cinayətlər...................................................................179

**3. Heydər Əliyev cəza və onun humanistləşdirilməsi haqqında........................................................................................195**

3.1. Cinayət hüququnda cəza və onun məqsədi........................195

3.2. Heydər Əliyevin cəza və onun humanistləşdirilməsi haqqında fikirləri.....................................................................204

3.3. Əfvetmə, onun hüquqi əsasları və tətbiqi qaydaları...........210

3.4. Heydər Əliyevin cəzanı humanistləşdirmə siyasətində əfvetmənin əhəmiyyəti...........................................................216

3.5. Amnistiya, onun hüquqi əsasları və tətbiqi qaydaları.........................................................................................226

3.6. Amnistiya və əfvin oxşar və fərqli cəhətləri.......................235

3.7. Heydər Əliyevin amnistiya haqqında fikirləri....................238

3.8. Heydər Əliyevin ideyaları reallığa çevrilməkdə davam edir..................................................................................245

3.9. Ölüm cəzasının ləğvi Avropa Şurasına üzvlüyün zəruri şərti kimi.......................................................................251

3.10. Ölüm cəzasının ləğvi ilə bağlı Heydər Əliyevin düşüncələri.....................................................................................254

**Nəticə...................................................................................263**

# Ön söz

Hər bir xalq öz dövlətinin formalaşması, tanınması, müstəqilliyinin qazanılması, dünya birliyində yerinin müəyyən edilməsində əməyi olan, torpaqlarının bütövlüyü, toxunulmazlığı, müdafiəsi uğrunda düşmənə sinə gərən övladları ilə fəxr edir. Azərbaycan dövlətinin qorunması və möhkəmləndirilməsində, dövlətin ərazi bütövlüyünün təmin olunmasında, demokratik dövlət quruculuğunun başa çatdırılmasında, onun müdafiə qüdrətini təmin edən ordunun yaradılmasında, respublikanın daxili və xarici təsirlərə dayanıqlılığının artırılmasında, iqtisadi yüksəlişinin təməlinin qoyulmasında böyük xidmətləri olan Heydər Əliyev də Azərbaycan xalqının həmişəyaşar övladlarındandır. Gənc yaşlarından Dövlət Təhlükəsizlik Komitəsində qüsursuz fəaliyyəti onu həmin orqanın sədri, sonra isə respublikanın rəhbəri səviyyəsinə yüksəltmiş, nəticədə dövlətin inkişafı üçün geniş perspektivlər açılmışdır. Heydər Əliyevin 1969-cu ildən Azərbaycan SSR Kommunist Partiyasının Birinci katibi kimi fəaliyyətə başlaması və o zaman SSR İttifaqı miqyasında geridə qalmış aqrar respublika kimi dəyərləndirilən, dünya miqyasında isə demək olar ki, tanınmayan Azərbaycanın yoluna işıq salmış, onu İttifaqın qabaqcıl kənd təsərrüfatı, sənaye, mədəniyyət respublikasına çevirmişdir.

Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə ikinci dəfə Azərbaycanın rəhbəri kimi fəaliyyətə başlaması ölkəni vətəndaş müharibəsindən, parçalanmaqdan, iqtisadi tənəzzüldən, böhrandan, cinayətkar silahlı dəstələrdən, torpaqlarının tam işğal olunmasından qorumuş, ölkədə demokratik dövlət quruculuğuna başlanılmasına təkan vermişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 10 may 2004-cü ildə Heydər Əliyev Fondunun təntənəli açılış mərasimində demişdir: “Bu gün Heydər Əliyev bizimlə deyil, amma onun fiziki yoxluğu bizi ruhdan salmamalıdır. Onun ideyaları yaşayır, onun fəl-

səfəsi – azərbaycançılıq fəlsəfəsi, ideologiyası yaşayır və onun qurduğu, yaratdığı müasir Azərbaycan yaşayır və onun yolu ilə inkişaf edir".

Əziz oxucu, Hüquq və İnsan Haqları İnstitutu bu kitabı sizə təqdim etməklə dahi şəxsiyyət Heydər Əliyevin çoxşaxəli fəaliyyətinin kiçik bir istiqaməti üzrə tədqiqatlarını müzakirənizə verir. Ulu Öndər təkcə cinayətkarlıqla mübarizə sahəsində deyil, həmçinin dövlət quruculuğu, dövlət idarəçiliyi, dövlətimizin müstəqilliyi, xalqımızın milli-mənəvi dəyərləri, ərazi bütövlüyümüzün təmin olunması, ümumiyyətlə ictimai-siyasi həyatın bütün sahələrinə dair son dərəcə dəyərli, gələcəyə, inkişafa, yüksəlişə aparan müdrik fikirlərin, ideyaların müəllifidir. Həmin fikirləri, ideyaları tədqiq etmək və öyrənmək hər birimiz üçün çox faydalıdır.

**Natəvan Rüstəmova,**
*Hüquq və İnsan Haqları İnstitutunun*
*İdarə Heyəti sədrinin müavini*

# 1. Heydər Əliyev cinayətkarlıqla mübarizə və onun əsas istiqamətləri haqqında

## 1.1. Cinayətkarlıqla mübarizə dövlətin funksiyalarından biri kimi

Cinayətkarlıqla mübarizə dövlətin daxili funksiyalarının bir istiqamətini təşkil edir. İnsanların hüquq və azadlıqlarını hər cür qəsdlərdən qorumalı olan dövlət qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi üçün müvafiq tədbirlər həyata keçirir. Bu tədbirlərə şəxsiyyətin hüquqlarının müdafiəsi sahəsində dövlət siyasətinin işlənib hazırlanması, insan və vətəndaşların əsas hüquq və azadlıqlarının təmin edilməsi, pozulmuş hüquq və azadlıqların müdafiəsi və bərpası, bütövlükdə hüquq qaydasının təmin olunması, cinayətkarlıqla mübarizənin aparılması və mülkiyyətin bütün formalarının müdafiəsini aid etmək olar.

Cinayətkarlıqla mübarizənin məqsədi cəmiyyətdə ictimai-siyasi sabitliyə nail olmaq, insan hüquq və azadlıqlarını qorumaq, dövlət hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyətinə mane olan halları aradan qaldırmaq, şəxsiyyətin əmlak və şəxsi qeyri-əmlak hüquqlarını, onun üçün vacib olan maraqlarını qorumaq, ölkə ərazisində yaşayanların təhlükəsizliyini təmin etmək, cəmiyyət və dövlətçilik üçün təhlükə yaradan halların qarşısını almaq və cəmiyyətin normal inkişafına mane ola biləcək bütün neqativ halları aradan qaldırmaqdan ibarətdir.

"Cinayətkarlıq" termini müəyyən ərazi hüdudlarında (məsələn, dövlət ərazisi) çoxsaylı cinayətlərin törədilməsində öz ifadəsini tapır. Ölkədə cinayətkarlığın vəziyyəti əksər hallarda törədilmiş cinayətlərlə bağlı statistik məlumatların toplanması və müqayisə olunması əsasında müəyyən edilir. Müəyyən ərazidə eyni zaman kəsiyində cinayətlərin sayının azalması, baş verən cinayətlərin açılması, cinayətkarların aşkar edilərək cinayət məsuliyyətinə cəlb edilməsi cinayətkarlıqla mübarizənin səmərəliliyini nümayiş etdirən göstəricilərdəndir.

Cinayətkarlıqla mübarizənin hüquqi əsaslarından biri Azərbaycan Respublikasının Cinayət Məcəlləsidir. Əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət kimi qiymətləndirilməsi və ona görə cəzanın müəyyən edilməsi həmin əməlin törədildiyi vaxt Cinayət Məcəlləsində cinayət kimi nəzərdə tutulması və qüvvədə olan cinayət qanunu ilə tənzimlənməsi şərti ilə mümkündür.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin vəzifələri sülhü və bəşəriyyətin təhlükəsizliyini təmin etməkdən, insan və vətəndaş hüquq və azadlıqlarını, mülkiyyəti, iqtisadi fəaliyyəti, ictimai qaydanı və təhlükəsizliyi, ətraf mühiti, Azərbaycan Respublikasının konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumaqdan, habelə cinayətlərin qarşısını almaqdan ibarətdir.Bu vəzifələri həyata keçirmək üçün Azərbaycan Respublikasının Cinayət Məcəlləsi cinayət məsuliyyətinin əsaslarını və prinsiplərini, şəxsiyyət, cəmiyyət və dövlət üçün təhlükəli olduğuna görə cinayət sayılan əməllərin dairəsini və həmin cinayətlərin törədilməsinə görə tətbiq edilən cəzaların növlərini, həddini və həcmini, habelə digər cinayət-hüquqi xarakterli tədbirləri müəyyən edir.

Bəşər tarixinin müəyyən inkişaf mərhələlərində bir sıra əməllərin cinayət kimi qiymətləndirilməklə onların törədilməsi cəza təhdidi ilə qadağan edilmişdir. Cəza törədilmiş cinayətə mütənasib, həm də ədalətli olmalıdır. Cəza cinayətkarı cəzalandırmaq funksiyası ilə yanaşı, həm də cəmiyyətin digər üzvlərini xəbərdaretmə funksiyasını özündə ehtiva etməlidir.

Cinayətkarlıqla mübarizə dövlətin funksiyalarından biri olmaqla hüquq-mühafizə orqanlarının bu sahədə fəaliyyəti onların vəzifələrinin icrası kimi təzahür edir. Hüquqi dövlətin bərqərar olduğu inkişaf etmiş cəmiyyətlərdə ictimai-siyasi sabitliyin, əmin-amanlığın təmin olunması üçün bu funksiyanın həyata keçirilməsində cəmiyyətin digər üzvləri də iştirak edirlər.

Cinayətkarlıqla mübarizə özündə cinayətin baş verməsinin qarşısının alınması sahəsində fəaliyyəti də birləşdirir. Bu olduqca vacib

amildir. Cinayətlərin baş verməsinin qarşısının alınması üçün zəruri preventiv tədbirlərin hazırlanıb həyata keçirilməsi daha səmərəli mübarizə üsulu kimi qiymətləndirilməlidir. Çünki cinayət baş verməmiş onun qarşısının alınması cəmiyyəti cinayətlərin zərərli nəticələrindən azad edir. Təbii ki, bu sahədə cəmiyyətin, elmi-texniki tərəqqinin inkişafına uyğun olaraq profilaktik tədbirlərin də hazırlanıb həyata keçirilməsində operativlik nümayiş etdirilməlidir.

Cinayətkarlıqla mübarizənin təşkilində hərtərəfli yanaşma mühüm rol oynayır. Bu, cinayətkarlığın vəziyyətinin qanuni əsaslarla mütəmadi olaraq qiymətləndirilməsi, mübarizənin planlı və mərhələli şəkildə həyata keçirilməsi, təhsil, səhiyyə, hüquq-mühafizə orqanları, media subyektləri, cəzaçəkmə müəssisələri və müvafiq təhsil müəssisələri arasında əlaqələndirilmiş fəaliyyətin təmin olunması ilə mümkündür. Eyni zamanda, cinayətkarlıqla mübarizə orqanlarında çalışanların peşəkarlıq səviyyəsinin daim artırılması və cəmiyyət üzvlərinin hüquq mədəniyyətinin yüksəldilməsi də xüsusi əhəmiyyət kəsb edir.

## 1.2. Heydər Əliyev cinayətkarlıqla mübarizə haqqında

Heydər Əliyevin cinayətkarlığa qarşı mübarizədə tətbiq etdiyi ən effektiv üsullardan biri cinayətkar fəaliyyətin vaxtında qarşısını almaq cinayətkarın qanunazidd əməllərini davam etdirməsinə mane olmaq idi. Əslində, hər hansı bir qanunazidd əməllə effektiv mübarizə həmin əməl baş verməmişdən əvvəl onun qarşısının alınması üçün tədbirlərin görülməsi və qanunazidd əməlin baş verməsinə yol verilməməsidir. Cinayətkar niyyətli insanların baş verə biləcək qanunazidd əməllərin ağır nəticələri barədə xəbərdar edilməsi həmin əməllərin, cinayətlərin törədilməsinin qarşısının alınması üçün səmərəli vasitələrdən biridir. Bu cür xəbərdarlığın dövlət rəhbərliyi səviyyəsində səslənməsi, bir tərəfdən vəziyyətin son dərəcə gərginlik mərhələsində

olmasından xəbər verirsə, digər tərəfdən cinayət törətməyə hazırlaşan şəxslərin qanunazidd əməllərinin onlar üçün həqiqətən ağır nəticələrə səbəb ola biləcəyini dərk etmələri ehtimalını artırır. Heydər Əliyev 23 avqust 1993-cü il tarixində Azərbaycan milli televiziyası ilə xalqa müraciətində bir tərəfdən ölkəni regionlara parçalamaq hərəkətlərinə rəvac verən şəxsləri xəbərdar edərək onların öz çirkin əməllərinə son qoymalarını tələb edir, digər tərəfdən isə həmin cinayətlərin qarşısının alınması üçün xalqa müraciət edərək səfərbər olmağı tələb edirdi. Heydər Əliyev üçün cinayətkarlıqla mübarizə vasitələrindən biri və önəmlisi xalqın gücü, xalqın dəstəyi idi. Bu məqsədlə o, vaxtında xalqa müraciət edir, xalqı cinayətkarlarla mübarizəyə çağırırdı: "Əgər onlar belə cinayətkar hərəkətlərini bundan sonra da davam etdirsələr, gələcəkdə daha böyük cəzaya məhkum ediləcəklər. Əgər onlar bu hərəkətlərindən əl çəksələr, bizim bağışlamaq üçün böyük ürəyimiz var. ...tam qətiyyətlə deyirəm ki, xalqın gücü qarşısında heç bir silah üstün gələ bilməz. Xalqın iradəsini heç vaxt, heç bir silahla qırmaq olmaz. Ona görə mən də xalqa müraciət edirəm, həmin rayonların əhalisinə, onların ağsaqqallarına, ziyalılarına müraciət edirəm. ...Eyni zamanda, Azərbaycan Respublikasının bütün vətəndaşlarına müraciət edirəm: bizimlə həmrəy olduqlarını bildirsinlər, respublika rəhbərliyinin bu qanuni, ədalətli hərəkətlərinə qoşulsunlar" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 98).

Silahlı dəstələrin yaranması, güc və zordan istifadə etməklə hakimiyyətin ələ keçirilməsinə cəhdlərin göstərilməsi keçid dövrü dövlətləri üçün xarakterik cəhətdir. Hakimiyyət uğrunda demokratik mübarizəni dəstəkləyən Heydər Əliyev zorakılığı, qeyri-qanuni silahlı dəstələri qətiyyətlə rədd edir, onları ölkədə sabitliyin təmini üçün böyük təhlükə hesab edirdi. Qeyri-qanuni silahlı dəstələrlə mübarizə cinayətkarlıqla mübarizənin mühüm cəhətini təşkil edir. 10 sentyabr 1993-cü il tarixində keçirilən mətbuat konfransındakı bəyanatında Heydər Əliyev silahlı dəstələrə münasibətini bu cür ifadə edirdi: "Belə quldur dəstələrini, belə qrupları ayrı-ayrı adamlar öz şəxsi

məqsədlərini keçirmək üçün yaratmışlar. Təəssüf ki, bəzən adamlar adını siyasətçi qoyub hakimiyyət uğrunda mübarizə apararkən siyasi, yaxud ictimai imkanlarının məhdud olduğunu bilərək, məqsədlərinə ancaq bir yolla – silahla, təxribatla nail olmağa çalışırlar. ...Biz onlara qarşı ciddi mübarizə aparacağıq" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 136-137).

Heydər Əliyev 22 sentyabr 1993-cü il tarixində Ali Sovetdə gənclərin nümayəndələri ilə görüş zamanı ölkədəki vəziyyət, cinayətkarlıqla mübarizə, sabitliyin yaradılması, gənclərlə iş və vəziyyətdən çıxış yolları ilə bağlı mövqeyini açıqladı. Narahatlıq doğuran əsas problemlər sırasında gənclər arasında cinayətkarlığın artması, əxlaq pozğunluğunun olması, sərxoşluğa, narkomaniyaya meylin çoxalmasına xüsusi diqqət yetirən Heydər Əliyev qeyd etdi ki, "Azərbaycanda gənclər arasında cinayətkarlığın artması, əxlaq pozğunluğunun olması, sərxoşluğa, narkomaniyaya meylin çoxalması haqqında məlumatları ürək ağrısı ilə qarşılayırıq. Spirtli içkilərə, narkotik maddələrə aludəlik gənclərin fiziki sağlamlığına mənfi təsir göstərir, onların mənəviyyatını korlayır, cəmiyyətin sağlamlığını zəhərləyir. Gənclər bizim gələcəyimizdir. Azərbaycanın genofondu gənclərdir. Biz onları hərtərəfli qorumalıyıq. Onlar özləri də özlərini, valideynləri də onları qorumalıdırlar. Şübhəsiz ki, dövlət orqanları da bu mənfi halların gənclərə sirayət etməsinin qarşısını almaq üçün lazımi tədbirlər görməlidirlər. Ancaq bunlar təkcə cəza tədbirləri olmamalıdır. Birinci növbədə profilaktik tədbirlər görülməli, təlim-tərbiyə işləri aparılmalı, valideynlər tərəfindən, təhsil ocaqlarında gənclərin tərbiyəsinə ciddi fikir verilməlidir. Bunların hamısı birlikdə şərait yaratmalıdır ki, gənclərin arasında belə mənfi proseslər yayılmasın, onların kökü kəsilsin ... Biz Azərbaycanın müstəqilliyini böyük bir nailiyyət kimi əldə saxlamaq istəyiriksə, – bu isə bizim borcumuzdur, gənclərimizin borcudur, – buna ciddi fikir verməliyik" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 172-173).

28 sentyabr 1993-cü il tarixində Bakı Məişət Kondisionerləri Zavodunda paytaxtın sənaye müəssisələrinin əmək kollektivləri nümayəndələrinin mitinqində çıxış edən Heydər Əliyev Azərbaycanın demokratik dövlət quruculuğu yolu ilə irəliləməsinin, müstəqilliyin qorunub saxlanılmasının, ölkədə sabitliyin bərpasının cinayətkarlıqla mübarizə ilə bağlılığı kontekstində deyirdi: "Mən xalqın birləşməsi haqqında öz fikirlərimi sizə çatdırarkən bunu xüsusi qeyd etmək istəyirəm. Çünki indi Azərbaycanda bir çox partiyalar, ayrı-ayrı siyasi qruplar, ayrı-ayrı ictimai təşkilatlar var. Şübhəsiz ki, hər bir partiyanın, hər bir təşkilatın özünə aid, özünə məxsus proqramı var, istiqaməti var. Lakin hamı üçün bir istiqamət olmalıdır: Azərbaycanın müstəqilliyini qorumaq, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, Azərbaycan Respublikasında siyasi sabitlik yaratmaq, qanun-qayda yaratmaq və Azərbaycan Respublikası vətəndaşlarının rahat yaşaması üçün şərait yaratmaq. Bu sahədə görüləsi işlər çoxdur..." (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 187-188).

Cinayətkarlığa qarşı mübarizənin səmərəliliyini təmin edən hallardan biri də bu işin kompleks şəkildə həyata keçirilməsidir. Xüsusən, dövlət orqanlarının, ictimaiyyətin, media subyektləri əməkdaşlarının bu işdə birgə və əlaqələndirilmiş fəaliyyəti uğur əldə edilməsi, müsbət nəticələrin qazanılması, son nəticədə cinayətkarlığın azaldılması üçün zəmin yarada bilər. Cəbhəyanı rayonlarda yaranmış vəziyyətlə əlaqədar həmin rayonlara səfər edən Heydər Əliyev Ağcabədi və Gəncədə keçirilən müşavirələrdəki çıxışında cinayətkarlığın artmasına diqqəti cəlb etməklə yanaşı, bunun qarşısının alınması üçün çıxış yollarını da göstərmişdir: "İcra hakimiyyəti orqanları hüquq-mühafizə orqanlarının işinə ciddi nəzarət, rəhbərlik etməlidirlər. Təəssüf ki, alınan siqnallara görə, hüquq-mühafizə orqanlarının işçiləri bəzən özləri cinayət törədir, cinayətkarlara havadarlıq edir, böyük iddialarla yaşayır, bəzi hallarda icra hakimiyyəti orqanlarına tabe olmadıqlarını bildirirlər. Nəzərə çatdırmaq istəyirəm ki, biz belə hallara yol verməyəcəyik. İcra başçıları dövlətin, prezidentin yerlərdəki nümayən-

dələridir. Onlar bu şərəfli ada layiq işləməlidirlər. Bunu hamınızdan tələb edirəm. Ümumiyyətlə, rayonlarda, şəhərlərdə cinayətkarlıq-la mübarizə gücləndirilməlidir. Hüquq-mühafizə orqanları bir-biri ilə sıx əlaqədə, icra başçıları ilə birlikdə fəaliyyət göstərməlidir... ” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 287).

Keçid dövrü cinayətkar ünsürlər üçün münbit zəminin mövcud olduğu, sabitlik yaratmağa çalışanlar üçün isə əzab-əziyyətli zaman kəsiyi, çətin sınaqlar meydanıdır. Müharibə və onunla bağlı qanunsuz silahların, silahlı dəstələrin artması, iqtisadi sistemin dağılması və yaranan sosial-iqtisadi böhran, ayrı-ayrı siyasi qüvvələrin hakimiyyət uğrunda çəkişməsi kimi amillər keçən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda cinayətkarlığın artmasını, sabitliyin pozulmasını şərtləndirmişdi. Heydər Əliyev vəziyyəti obyektiv qiymətləndirir, çıxış yolunu bilir, bu yolun keçilməsinin əzab-əziyyətini göz önünə alırdı: “Son beş-altı ildə Azərbaycan xalqı bir çox sınaqlardan çıxmış, əzab-əziyyətlərdən keçmişdir. Bir tərəfdən müharibə, sosial-iqtisadi böhran, digər tərəfdən isə respublikadakı ayrı-ayrı siyasi qüvvələrin hakimiyyət uğrunda bir-biri ilə çəkişməsi son illərdə Azərbaycanın daxilində ictimai-siyasi vəziyyəti gərginləşdirmişdir. İndi biz sabitliyə doğru gedirik. ... Bu ağır dövrdə xalqımız daha sıx birləşməli, əl-ələ verməli, daxili sabitliyi möhkəmləndirərək xarici düşmənlərlə mübarizəni gücləndirməlidir” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 509-510).

Cinayətkarlıqla mübarizədə uğurun şərtlərindən biri də bu mübarizənin həyatın bütün sahələrini əhatə etməsi, onun kompleks şəkildə aparılmasıdır. Keçid dövründə sabitliyə nail olunması, silahlı dəstələrin tərk-silah edilməsi vacib olduğu kimi, həyatın digər sahələrində, o cümlədən iqtisadiyyatda qanun-qaydanı, nizam-intizamı möhkəmləndirmək də zəruri idi. İqtisadi sahədə cinayətkarlığın artmasının səbəblərini hüquq-mühafizə orqanlarında işin keyfiyyətinin aşağı düşməsi, həm dövlət orqanlarında, həm inzibati orqanlarda, həm də iqtisadiyyatla məşğul olan orqanlarda cürbəcür yollarla oğur-

luq, vəzifədən sui-istifadə və korrupsiya hallarının olması ilə izah edən dövlət başçısı bu cür hallara qarşı ciddi mübarizənin aparılmasını vacib hesab edərək dövlət başçısı 11 avqust 1994-cü ildə Prezident sarayında keçirilən respublika iqtisadiyyatının vəziyyətinə həsr olunmuş geniş müşavirədəki giriş sözündə deyirdi: "İqtisadiyyatımızın bu kökə düşməsinin səbəblərindən biri də rüşvətxorluğun geniş yayılmasıdır. Həm dövlət orqanlarında, həm inzibati orqanlarda, həm də iqtisadiyyatla məşğul olan orqanlarda cürbəcür yollarla oğurluq, vəzifədən sui-istifadə və rüşvətxorluq halları bütün həyatımıza çox böyük zərbələr vurur. Bu hallara qarşı ciddi mübarizə aparmaq lazımdır.

…Biz respublikamızda haqq-ədaləti, insanlara ədalətli münasibəti təmin etməliyik. Avqustun 9-da verilən fərman, yəqin ki, siz onunla tanışsınız, bu sahədə qarşıya ciddi tələblər qoyur. Həm hüquq-mühafizə orqanları, həm yerli hakimiyyət orqanları, həm də həyatımızın müxtəlif sahələrində çalışan vəzifəli şəxslər cinayətkarlıqla mübarizə aparmalıdırlar. Cinayətkarlığın – banditizmin, reketlərin, cürbəcür digər təhlükəli cinayətlərin qarşısı alınmalıdır. Hüquq mühafizə orqanları öz işlərini ciddi şəkildə qurmalıdırlar.

Hüquq-mühafizə orqanlarının işi bu gün bizi qane edə bilməz. Ona görə də onlardan tələb olunur ki, birinci növbədə cinayətkarlıqla mübarizəni gücləndirsinlər, eyni zamanda bu orqanlarda şəxsi heyətin mənəvi cəhəti ilə çox ciddi məşğul olsunlar… Vəzifəsindən sui-istifadə edənlər, ayrı-ayrı hallarda rüşvətxorluq edənlər var, onları aşkara çıxarmaq, ifşa etmək lazımdır. İndiki şəraitdə cəmiyyətimiz daha da möhkəm olmalıdır. Mən hesab edirəm ki, görülən tədbirlər məhz bu məqsədi daşıyır və hamı bu istiqamətdə fəaliyyət göstərməlidir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab, s. 120-121).

18 avqust 1994-cü il tarixində Prezident sarayında respublikanın kənd təsərrüfatında 1994-cü ilin birinci yarısının yekunlarına və islahatların keçirilməsi vəziyyətinə həsr olunmuş müşavirədə yenə də eyni xarakterli məsələlərə münasibət bildirən ölkə başçısı deyirdi: "…İqtisadiyyatda olan qanunsuzluqlar haqqında bir neçə kəlmə

deməkistəyirəm. Avqustun 11-də keçirilən müşavirədə bu barədə danışmışam. Lakin elə hesab etməyin ki, bu, yalnız sənaye işçilərinə aiddir. Yox, bu, iqtisadiyyatın bütün sahələrinə aiddir. İqtisadiyyatda, hüquq-mühafizə, vergi orqanlarında çoxlu qanunsuzluqlar, öz vəzifəsindən sui-istifadə edən, çirkin əməllərlə məşğul olan adamlar var. Bütün bu cinayətkarlığın qarşısını almaq üçün avqustun 9-da fərman vermişəm. Onun ardıcıl surətdə yerinə yetirilməsi həm hüquq-mühafizə, həm yerli hakimiyyət, həm də təsərrüfat orqanlarının və bütün başqa dövlət orqanlarının əsas vəzifəsidir...” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab, s. 138-139).

Cinayətkarlıqla mübarizə təkcə cinayət törətmiş şəxslərin axtarılıb tapılması, onların qanuna müvafiq olaraq cəzalandırılmasının təmin olunmasından ibarət deyildir. Cinayətkarlıqla mübarizənin vacib hissəsini cinayətlərin profilaktikası, yəni onların baş verməsinin qarşısının alınması təşkil edir. Cinayətlərin qarşısının alınmasında əsas məqamlardan biri, gənc nəslin düzgün tərbiyə olunması və onlarda mənəvi keyfiyyətlərin formalaşdırılmasıdır. Cinayətlərin baş verməsinin qarşısının alınmasının əsas məqamlarından biri gənc nəslin düzgün tərbiyə olunması, onlarda mənəvi keyfiyyətlərin formalaşdırılması ilə bağlıdır. Heydər Əliyev bu baxımdan təlim-tərbiyə işlərinə mühüm əhəmiyyət verir, gənclərin tərbiyəsində milli, dini adət və ənənələrimizdən istifadə olunmasını vacib hesab edirdi. 31 avqust 1994-cü il tarixində Bakı şəhərinin təhsil işçiləri ilə görüşdə ölkə daxilində sabitliyin təmin olunması üçün görülməli işlərdən söhbət açaraq deyirdi: “ ...Gənclərin tərbiyəsində milli, dini adət və ənənələrimizdən istifadə etmək lazımdır. Əsrlərin dərinliyindən bu günə gəlib çatan adət-ənənələrimiz həmişə adamları saflığa, təmizliyə dəvət etmişdir. Milli və dini adət-ənənələrimiz məhz bu prinsiplərə əsaslanır. Bu gün biz də gəncləri paklıq, saflıq, yüksək əxlaq, yüksək mənəviyyat ruhunda tərbiyə etməliyik. .... Bir də təkrar edirəm, cinayətkarlıqla mübarizə, gənclərin sağlam ruhda tərbiyə olunması

üçün hər kəs öz sahəsində lazımi tədbirlər görməlidir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab, s. 180).

Heydər Əliyev ölkənin hər bir vətəndaşının hüquq və azadlıqlarının qorunmasının zəruriliyini qeyd etməklə yanaşı, cinayət törədən hər bir şəxsin də layiqli cəza almasını vacib hesab edirdi: "Hər bir vətəndaşın hüququ, həyatı qorunur və biz çalışacağıq ki, dövlətimizi də, cəmiyyətimizi də, hər bir vətəndaşı da, onun hüququnu da qoruyaq. Kim bizim dövlətçiliyimizə, vətəndaşların hüququna, insanlara qəsd edəcəksə, biz onlara qarşı amansız olmuşuq və şübhəsiz ki, bundan sonra da amansız olacağıq" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab, s. 325).

Ulu Öndərin demokratik dövlət quruculuğu ilə bağlı fəaliyyətinin bir istiqamətini də ölkə iqtisadiyyatının dirçəldilməsi, iqtisadi inkişaf təşkil edirdi. Dövlət kifayət qədər iqtisadi imkanlara malik olmadıqda vətəndaşların maddi tələbatının ödənilməsi, demokratik institutların səmərəli fəaliyyətinin təmini çətinliklərlə üzləşir. Ona görə də dağıdılmış ölkə iqtisadiyyatının bərpası, xarici ölkələrlə iqtisadi əlaqələrin yenilənməsi, milli səviyyədə istehsalda irəliləyişlərə nail olunması prioritet məsələlərdən idi. İnkişafın təmini isə sənaye, kənd təsərrüfatı və digər istehsal sahələrində qanunçuluğun təmin olunmasını, həmin sahələrdə mənimsəmə, israfçılıq, səhlənkarlıq, sui-istifadə hallarına qarşı geniş və hərtərəfli mübarizə aparılmasını tələb edirdi. Heydər Əliyev 2 aprel 1996-cı ildə keçirilən və kənd təsərrüfatının 1995-ci il yekunlarına həsr olunmuş müşavirədə həmin sahədə çalışanların, xüsusən vəzifəli şəxslərin sağlam mənəviyyat əsasında fəaliyyət göstərmələrini cinayətkarlıqla mübarizənin vacib şərti kimi qiymətləndirir, dövlət əmlakının dağıdılması, mənimsənilməsi və israfçılığına qarşı mübarizəni gücləndirməyi tələb edirdi: "...Ancaq bir şeyə yol vermək olmaz. Dövlətin əmlakı dağıdılmamalıdır, mənimsəməyə yol vermək olmaz, cinayətə, oğurluğa, quldurluğa, talançılığa yol vermək olmaz..." (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Beşinci kitab, s. 91-92).

Heydər Əliyev cinayətkarlığa qarşı mübarizədə tələbkarlığı artırmaqla yanaşı, görülən işlərin nəticəsini də görür, bu mübarizənin milli həmrəyliyə əsaslanmasını qürurla bəyan edirdi. 14 yanvar 1997-ci ildə Fransanın həftəlik "Puan" jurnalının müxbirinə müsahibəsində Heydər Əliyev deyirdi: "…Son iki ildə apardığımız düzgün siyasət və qanunçuluğun möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin güclənməsi və xalqda, ictimaiyyətdə milli həmrəylik yaranması nəticəsində biz belə silahlı dəstələri, demək olar ki, aradan götürmüşük" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab, s. 279).

Ümummilli Lider bir sıra beynəlxalq və beynəlxalq xarakterli cinayətlərin təkcə meydana çıxdığı, törədildiyi ölkələr üçün deyil, həmçinin beynəlxalq birlik üçün də təhlükə yaratmasını nəzərə alaraq, bu kimi cinayətlərə, o cümlədən separatçılığa qarşı mübarizənin beynəlxalq əməkdaşlıq səviyyəsində aparılmasını vacib hesab edir, bu barədə fikirlərini beynəlxalq təşkilatlarda, onların nümayəndələri və digər dövlətlərin başçıları ilə keçirdiyi görüşlərdə səsləndirirdi. 23 aprel 1997-ci il tarixində Qırğızıstan Respublikasının Prezidenti Əskər Akayevin şərəfinə verilmiş rəsmi ziyafətdə ölkə başçısı deyirdi: "...Əgər bu gün Azərbaycan kimi hər hansı bir ölkə separatçılıqdan əziyyət çəkirsə, bu ona dəlalət etmir ki, açığını deyəcəyəm, bu cinayətdən sabah başqa bir ölkə də əziyyət çəkməyə bilməz. Odur ki, separatçılığa münasibət, ona qarşı qətiyyətlə mübarizə aparmaq, separatçılığın qarşısını almaq məsələlərində bütün beynəlxalq təşkilatlarda, o cümlədən də MDB-də həmrəylik beynəlxalq əhəmiyyətə malikdir. Buna görə də biz bundan sonra da öz dövlət müstəqilliyimizi, ərazi bütövlüyümüzü əzmlə qoruyacaq, hər hansı formada, yer kürəsinin hər hansı bölgəsində separatçılığın əleyhinə çıxacağıq" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Doqquzuncu kitab, s. 223-224).

Heydər Əliyev ölkədə ictimai-siyasi sabitliyin yaranması ilə demokratik dövlət quruculuğu arasında qarşılıqlı asılılığı görür, onların bir-biri ilə bağlılığını, birinə nail olmadan ikincisinin mümkün

olmamasını qeyd etməklə, hər iki istiqamətdə işin faydalı nəticələr verməsini, onların arasında tarazlığın daim təmin olunmasını vətəndaşların rifahı üçün vacib hesab edirdi: “Azərbaycanda dövlət quruculuğu prosesi inkişaf etdikcə, dövlət strukturları sağlamlaşdıqca bu cinayətkar qruplar, dəstələr, cinayətkar şəxslər get-gedə ifşa olundular, yaxalandılar və zərərsizləşdirildilər. Hesab edirəm, müstəqillik, Azərbaycanın dövlətçiliyi yolunda əldə etdiyimiz ən böyük nailiyyət ondan ibarətdir ki, indi artıq Azərbaycan ərazisində ictimai-siyasi sabitlik əldə olunub, həmin o cinayətkar dəstələrin, qrupların özbaşınalığına, cəzasız hərəkətlərinə son qoyulubdur” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Onuncu kitab. s. 15-16).

31 dekabr 1997-ci ildə Azərbaycan xalqına Yeni il bayramı ilə bağlı təbrikində Heydər Əliyev 1997-ci ildə qazanılmış nailiyyətlər sırasında cinayətkarlıqla mübarizənin uğurlarını da qeyd edərək, görülmüş səmərəli işlər nəticəsində vətəndaşların rahat, sərbəst yaşamaq, çalışmaq, təhsil almaq, istirahət etmək imkanları əldə etmələrini yüksək qiymətləndirirdi: “Bizi keçən illərdə həyatımızda narahat edən daxili sabitlik yaratmaq idi. 1997-ci ildə bu sahədə görülən işlər, apardığımız siyasət cinayətkarlıqla mübarizəni də gücləndirmiş və ictimai-siyasi sabitliyi pozan cinayətkar ünsürlərin zərərsizləşdirilməsinə nail olunmuşdur. Belə bir şəraitdə vətəndaşlarımız rahat, sərbəst yaşamaq, çalışmaq, təhsil almaq, istirahət etmək imkanları əldə etmişlər” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On dördüncü kitab, s. 49).

Heydər Əliyev 22 yanvar 1998-ci il tarixli bəyanatında cinayətkarlıqla mübarizənin müxtəlif aspektləri ilə bağlı deyirdi: “... Məlumdur ki, Azərbaycanda son illər cinayətkarlığa qarşı mübarizə güclənibdir. Hakimiyyət, hüquq-mühafizə orqanları dövlətin siyasətini həyata keçirərək ardıcıl tədbirlər keçiriblər və bunlar da öz müsbət nəticələrini veribdir.

1993-cü ildə baş vermiş vətəndaş müharibəsinin qarşısı alındı. Ondan sonrakı dövrdə - 1993-1994-cü illərdə və 1995-ci ilin birinci yarı-

sında respublikamızda demək olar ki, o dövrə, zamana qədər yaranmış kriminogen vəziyyətin aradan götürülməsi üçün ardıcıl işlər görüldü.

...O dövrlərdə insanlar öz həyatlarını qorumaq üçün çox əziyyətlər çəkirdilər. Reket qrupları insanları soyurdu. İnsan oğurlamaq, öldürmək adi bir hala çevrilmişdi. Bunlar bir ilin işi deyildi. Hesab edirəm ki, 1993-cü ilə qədər, ondan əvvəlki illərdə cəzasızlıq, hakimiyyətsizlik, özbaşınalıq nəticəsində Azərbaycanda belə bir vəziyyət yaranmışdı.

Biz vəziyyəti normallaşdırmaq üçün çox işlər görməli olduq, çox çətinliklərlə rastlaşdıq. Ancaq məmnuniyyətlə qeyd edə bilərəm ki, biz bu vəzifələrin öhdəsindən gələ bildik. Bunların da ən əsas nəticəsi ondan ibarətdir ki, nəhayət, Azərbaycanda daxili ictimai sabitlik, əmin-amanlıq yaranıbdır.

....Azərbaycanda bütün vətəndaşların hüquqlarının qorunması, Azərbaycan vətəndaşlarının sərbəst yaşaması üçün əmin-amanlığın təmin edilməsi bizim vəzifəmizdir. Biz bu vəzifəni həyata keçirəcəyik, humanistlik siyasətimizi bundan sonra da davam etdirəcəyik və Azərbaycanda ictimai-siyasi sabitlik gündən-günə möhkəmlənəcəkdir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On dördüncü kitab, s. 148-156).

18 oktyabr 1998-ci ildə Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə andiçmə mərasimində Heydər Əliyev yenə də cinayətkarlıqla mübarizənin uğurlu nəticələrinə istinad edərək deyirdi: "Azərbaycanda ictimai-siyasi sabitliyi təmin etmək üçün dövlət orqanları cinayətkarlıqla mübarizəni gücləndirmişlər. Bu gün məmnuniyyətlə deyə bilərəm ki, bu mübarizə öz müsbət nəticələrini vermişdir. Bir neçə il bundan əvvəl Azərbaycanda mövcud olan mütəşəkkil cinayətkarlar dəstəsi zərərsizləşdirilmiş, ləğv olunmuş, cinayətkarlar cəzalandırılmış və beləliklə də Azərbaycan vətəndaşlarının rahat yaşaması, işləməsi, fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmışdır. Ancaq bununla yanaşı, biz ötən illərdə Azərbaycanda bir tərəfdən dövlətçiliyi möhkəmləndirərək, qanun-qayda yaradaraq, nizam-intizamın gözlənilməsinə nail olaraq, eyni zamanda humanistlik siyasətini aparmışıq.

Bugünkü Azərbaycan dövlətinin fəaliyyətinin əsas istiqamətlərindən biri də humanistlikdir. Məhz bu humanist siyasətin nəticəsində son iki ildə mənim fərmanlarımla 1856 vətəndaş cəza yerlərindən, cəzadan azad olunmuşdur. Cəza çəkən 40 mindən yuxarı adam mənim təşəbbüsümlə həyata keçirilən amnistiyaların nəticəsində cəza yerlərindən, cəza çəkməkdən azad olunmuşdur. Biz bu siyasətimizi bundan sonra da davam etdirəcəyik. Bəyan edirəm ki, bu yaxın vaxtlarda mən yenə əfv fərmanları verəcəyəm və böyük amnistiya həyata keçirmək üçün yeni təşəbbüs irəli sürəcəyəm" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On beşinci kitab, s. 58).

Heydər Əliyevin başçılığı ilə ölkənin ən ağır keçid dövründə cinayətkarlıqla aparılan mübarizə özünün səmərəli nəticəsini verirdi. Ölkədə hökm sürən əmin-amanlıq, vətəndaş həmrəyliyi, qarşılıqlı hörmət münasibətləri xarici qonaqların belə, diqqətindən yayınmırdı. 26 iyun 2000-ci ildə Bakıda səfərdə olan Rusiya Konstitusiya Məhkəməsinin sədri Marat Baqlay Azərbaycandakı əmin-amanlıqla bağlı fikirlərini bu cür ifadə edirdi: "Sizin sözlərinizin arxasında bu baxımdan real, böyük işlər də durur. Biz bunu ancaq alqışlayırıq. Biz buraya gələndə görürük ki, dövlətdə, hər halda, qayda-qanun var. Bütün sahələrdə, məsələn, cinayətkarlıqla mübarizə ilə bağlı sahələrdə hər şeyin təmin edilib-edilmədiyini bilmirəm, lakin göz qabağında olan bəzi şeylər aşkar şəkildə göstərir ki, qayda-qanun var, küçələrdə, hər halda, azğınlıq yoxdur..." (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İyirmi səkkizinci kitab, s. 365).

Cinayətkarlıqla mübarizənin səmərəliliyinin göstəricilərindən biri də cinayətkarlığın dinamikasının statistik müqayisəsidir. Heydər Əliyevin ölkə başçısı kimi fəaliyyətinin cinayətkarlıqla mübarizə sahəsində nəticələri cinayətkarlığın dinamikasının statistik müqayisəsində aydın görünür.




## 1.3. Cinayətkarlıqla mübarizə haqqında 1994-cü il Fərmanı

Dövlətlərarası münasibətlərin və elmi-texniki tərəqqinin irəliləməsi ilə yanaşı, cinayətkarlıq da daha təkmil və mürəkkəb formalar alır; texniki təchizat və silahlanma səviyyəsi yüksəlir, banditizm, terrorizm, narkotik vasitələrin qanunsuz dövriyyəsi kimi təhlükəli cinayət növləri genişlənir. Cinayətkarlığın inkişafına paralel olaraq onunla mübarizə üçün dəqiq dövlət siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi zərurəti də meydana çıxır. Cinayətin qarşısını almaq üçün dövlətin daha güclü olması, cinayətkarlıqla mübarizənin təşkili və bu mübarizəni aparan orqanların fəaliyyətinə səmərəli rəhbərliyin

aktuallığı artır. Cəmiyyətin bütün sahələrində dövlətin rolu yüksəldiyi kimi cinayətkarlıqla mübarizə sahəsində də bu artımın gözlənilməsi lazımdır. Dövlət iqtisadi və sosial dəyişikliklərin əsas amillərindən biri kimi çıxış etməli, ölkə Konstitusiyası ilə elan edilmiş vətəndaşların hüquq və azadlıqlarının real təminatçısı olmalıdır.

Cinayətkarlıqla mübarizənin səmərəliliyinin təmin olunması üçün cinayətkarlığın vəziyyəti daimi olaraq nəzarətdə saxlanılmalı, mütəmadi müzakirə və təhlil edilməli, ictimai inkişafın imkan və tendensiyaları real, balanslaşdırılmış qiymətləndirməyə əsaslanmaqla cinayətin cəmiyyətin həyatına intensiv müdaxiləsinə qarşı göstəriləcək müqavimətin yolları və vasitələri dəqiq müəyyən edilməli, cinayətkarlığın qarşısının alınması üçün strategiya və konkret tədbirlər hazırlanmalıdır.

Cinayətkarlıqla mübarizənin səmərəliliyini artıran amillərdən biri güc və imkanların birləşdirilməsidir. Ona görə də hakimiyyətin bütün qollarının fəaliyyətinin əlaqələndirilməsi, cinayətkarlıqla mübarizə sahəsi ilə bağlılığı olan dövlət orqanları və vətəndaş cəmiyyəti strukturlarının təkcə hüquq-mühafizə sistemi çərçivəsində deyil, bütövlükdə ölkə hüdudlarında kriminal cəbhəyə qarşı mübarizəsinin keyfiyyətcə yeni səviyyəsinə nail olmaq lazımdır.

Dövlətin cinayətkarlıqla mübarizə siyasəti imkan dərəcəsində bu neqativ halın məhdudlaşdırılmasını, onun elə bir səviyyəyə düşməsini təmin etməlidir ki, cinayətkarlıq ölkənin təhlükəsizliyi üçün qorxu törətməsin, cəmiyyət həyatının əsaslarını sarsıtmaq iqtidarında olmasın, onun yüksələn xətlə inkişafının qarşısı alınsın.

Bu cür şəraitdə cinayətkarlıqla mübarizə üçün dəqiq dövlət siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi daha vacibdir. Cinayətin qarşısını almaq üçün dövlət güclü olmalı, ona rəhbərlik yüksək səviyyədə edilməlidir. Bu isə cəmiyyətin bütün sahələrində dövlətin rolunun artırılmasını tələb edir.

Azərbaycan Respublikası Prezidentinin "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qay-

dasının möhkəmləndirilməsi tədbirləri haqqında" 9 avqust 1994-cü il tarixli Fərmanı keçid dövründə cinayətkarlıqla mübarizədə imkanların səfərbər edilməsinə, cinayətkarlığa qarşı mübarizənin sistemli aparılmasının təşkilinə yönəlmişdi.

Hər bir dövlətdə keçid dövrü cinayətkarlığın artması, cinayətkarlıqla mübarizənin zəifləməsi, cinayət törətmiş şəxslərin məsuliyyət və cəzadan kənarda qalması, cəzasızlıq mühitinin yaranması, cinayətkarlığın daha da mütəşəkkil xarakter alması, cinayətlərin törədilməsində silahlardan istifadə olunması, silahlı dəstələrin çoxalması kimi xüsusiyyətlərlə səciyyələnir. Heydər Əliyevin Azərbaycan üçün olduqca çətin bir zamanda - vətəndaş müharibəsinin reallığa çevrilməsinin bir addımlığında, hakimiyyət uğrunda mübarizənin kəskinləşdiyi bir dövrdə yenidən hakimiyyətə gəlməsi onu çoxsaylı problemlərlə üz-üzə qoymuşdu. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan ərazilərinin işğalı ilə davam etməsi, ölkədə bir milyona yaxın qaçqın və məcburi köçkün ordusunun mövcudluğu vəziyyətin daha da gərginləşməsinə səbəb olmuşdu. Belə bir vəziyyətdə hər hansı bir sahəni diqqətdən kənarda saxlamaq növbəti problemlər üçün zəmin yaradırdı. Heydər Əliyev dövlət idarəçiliyində böyük təcrübəyə malik olan insan kimi, bütün məsələləri diqqətdə saxlayır, vəziyyətin sabitləşməsinə daha çox fayda verə biləcək məsələlərin həllini önə çəkirdi. 1994-cü ilin yay aylarında ölkədəki mövcud vəziyyət cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirlərini aktuallaşdırmışdı. Ona görə də 9 avqust 1994-cü il tarixində bilavasitə Heydər Əliyevin göstərişi və rəhbərliyi ilə hazırlanmış "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalandı. Heydər Əliyev həmin Fərmanın imzalanmasını aşağıdakılarla əsaslandırırdı: "Son vaxtlar dövlətin iqtisadi, siyasi əsaslarının təhlükəsizliyi, vətəndaşların həyatı, səhhəti və mülkiy-

yət hüquqları əleyhinə yönəldilən və əsasən mütəşəkkil cinayətkar dəstələr, qanunsuz silahlı birləşmələr və digər cinayətkar ünsürlər tərəfindən törədilən cinayətlərin, o cümlədən terror aktları, təxribat, qəsdən adam öldürmə, banditizm, silahın, döyüş sursatının və partlayıcı maddələrin talanması və digər yollarla ələ keçirilməsi kimi narkotik maddələrlə bağlı cinayətlərin, maliyyə-kredit fırıldaqlarının və iqtisadi xarakterli sair cinayətlərin çoxalması müşahidə olunur. Cəmiyyətdə rüşvətxorluq və korrupsiya kimi cinayətlərin geniş yayılması xüsusi narahatlıq doğurur və bir sıra vətəndaşlar, o cümlədən vəzifəli şəxslər bu faktları adi bir hal hesab edirlər.

Bir çox hallarda cinayətlərin üstünün açılması üçün zəruri hərəkətləri hüquq-mühafizə orqanlarının lazımi çeviklikə, qanunla müəyyən edilmiş formalarda və vaxtında yerinə yetirməməsi, qanunun nəzərdə tutduğu məcburiyyət tədbirlərinin tətbiqində səhvlərə yol verməsi, öz səlahiyyətlərindən təsirli istifadə etməməsi əhalinin haqlı narazılığına və cəmiyyətdə gərginliyin artmasına səbəb olmuşdur".

Heydər Əliyevin Fərmanı cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi və qanunçuluğun möhkəmləndirilməsinə yönəlmiş əhatəli bir sənəd idi. Fərmanın birinci hissəsi Ədliyyə, Daxili İşlər, Milli Təhlükəsizlik nazirliklərinə, Respublika Prokurorluğuna və Ali Məhkəməyə cinayətkarlığa qarşı mübarizə üzrə dövlət proqramının hazırlanmasını tapşıraraq, bu mübarizənin koordinasiyalı və elmi əsaslara söykənən bir şəkildə aparılmasını təmin etməyi məqsəd qoyurdu. Bu, cinayətkarlığa qarşı mübarizənin pərakəndə deyil, hərtərəfli və planlı şəkildə həyata keçiriləcəyini göstərirdi.

Fərmanın 2-ci hissəsi rüşvətxorluğa qarşı mübarizənin gücləndirilməsini nəzərdə tuturdu. Burada rüşvətxorluğun aşkarlanması, belə hallara yol vermiş vəzifəli şəxslərin qanuna uyğun olaraq cəzalandırılması və bu cinayətlərin qarşısının alınması üçün təsirli tədbirlərin görülməsi tələb olunurdu. Rüşvətxorluqla mübarizə sahəsində açıq və səyyar məhkəmə proseslərinin keçirilməsi isə bu cinayətlərlə bağlı xəbərdaredici funksiyanın gücləndirilməsinə xidmət edirdi.

Fərmanın digər hissələrində ağır və mütəşəkkil cinayətkarlıqla mübarizənin daha da sərtləşdirilməsi, cinayətkar dəstələrin fəaliyyətinin qarşısının alınması üçün əməliyyat-axtarış tədbirlərinin gücləndirilməsi, cinayətkarların maliyyə və təsərrüfat fəaliyyətinin nəzarət altına alınması, qanunsuz silahların inventarlaşdırılması və onların mənbələrinin aşkarlanması kimi məsələlər əks olunmuşdu. Bu tədbirlər cinayətkarlığın qarşısının alınması, mövcud təhlükələrin vaxtında aşkar olunması və lazımi tədbirlərin görülməsi üçün zəruri hesab edilirdi.

Fərman, həmçinin, mütəşəkkil cinayətkarlıq, terrorizm və banditizmlə mübarizəyə xüsusi önəm verirdi. Daxili İşlər Nazirliyinin tərkibində bu sahələrə qarşı mübarizə idarəsinin yaradılması və idarənin fəaliyyətinin dərhal təmin edilməsi tapşırılmışdı. Bu addım həmin sahələrdə cinayətkarlığın ciddi təhlükə yaratdığını və bu təhlükənin aradan qaldırılması üçün xüsusi tədbirlərin görülməsinin vacibliyini göstərirdi.

Cinayətkarlığa qarşı mübarizədə hüquq-mühafizə orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir kriminalistika texnikası vasitələri ilə təchiz edilməsi və bu sahədə çalışan işçilərin həvəsləndirilməsi də fərmanda əksini tapmışdı. Hüquq-mühafizə orqanlarının fəaliyyətinin planlaşdırılması, əlaqələndirilməsi və onların əməliyyat qabiliyyətinin artırılması cinayətkarlıqla mübarizədə müsbət nəticələr əldə olunmasına yönəlmişdi.

Ümumilikdə, fərman cinayətkarlığa qarşı mübarizənin kompleks şəkildə və müxtəlif sahələri əhatə edən tədbirlər vasitəsilə aparılmasını nəzərdə tuturdu. Bu mübarizədə hüquq-mühafizə orqanlarının rolu ilə yanaşı, ictimaiyyətin də iştirakının təmin olunması məqsədi güdülürdü.

Beləliklə, Heydər Əliyev tərəfindən imzalanmış "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" Fərman cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, bu mübarizənin

elmi cəhətdən hazırlanmış plan əsasında həyata keçirilməsi və kompleks şəkildə bütün hüquq-mühafizə orqanlarının iştirakının, müasir maddi-texniki imkanların təmin edilməsinin öz təzahürünü tapması ilə, aparılacaq mübarizənin daha səmərəli və uğurlu olacağından xəbər verirdi.

## 1.4. Heydər Əliyev cinayətkarlıqla mübarizədə dövlət orqanlarının rolu haqqında

Heydər Əliyev 20 sentyabr 1993-cü il tarixində Daxili İşlər Nazirliyində keçirilən müşavirədəki çıxışında keçid dövrünə xas olan çətinliklərdən söz açaraq müstəqil Azərbaycan dövləti və onun əsas sütunlarından olan Daxili İşlər Nazirliyinin qarşısında duran vəzifələri şərh etdi. Daha sonra cinayətkarlıqla mübarizənin gücləndirilməsinin zəruriliyinə də diqqət çəkərək bu sahədə çoxtərəfli işlərin görülməsinin tələb olunduğunu əsaslandırdı: "Azərbaycan Respublikası öz tarixinin ağır mərhələsini keçirir. Bu mərhələnin nə qədər ağır, məsuliyyətli, çətin olduğu aydındır və əsas səbəbləri də məlumdur. Bildiyiniz kimi, beş ildən artıqdır ki, Azərbaycan Respublikası Ermənistanın silahlı qüvvələri tərəfindən hərbi təcavüzə məruz qalmış və nəticədə torpaqlarımızın bir qismi işğal olunmuş, şəhərlərimiz, qəsəbələrimiz, kəndlərimiz dağılıb viran olunmuş, yüz minlərlə həmvətənimiz, vətəndaşımız qaçqın düşmüşdür.... Bunların hamısı Azərbaycan Respublikasını çox ağır vəziyyətə salmışdır. Şübhəsiz ki, bu ağır vəziyyət respublika vətəndaşlarının həyat tərzini gərginləşdirmiş, çətinləşdirmiş və respublikada ümumi gərgin bir vəziyyət yaratmışdır. Eyni zamanda, son dövrün ən əlamətdar hadisəsi ondan ibarətdir ki, Azərbaycan Respublikası müstəqil dövlət olmuşdur. Azərbaycan xalqı indi artıq öz həyatını müstəqil dövlət çərçivəsində, öz arzu və niyyətləri əsasında qurmaq imkanına malik olmuşdur. Beləliklə, bir tərəfdən Azərbaycan müstəqil dövlət kimi böyük imkanlar əldə edibsə, ikinci tərəfdən

bu imkanlardan istifadə etmək həddindən artıq çətinləşmiş və ağırlaşmışdır.... Biz, Azərbaycanın indiki nəsli, bu imkanlardan bütün sahələrdə səmərəli istifadə etməliyik. Bunun üçün çox iş görülməlidir...” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 139-140).

Heydər Əliyev çıxışında Daxili İşlər Nazirliyinin potensialından bəhs edərək, polis peşəsinin özünəməxsusluğunu və çətinliklərini vurğulayır. O polis peşəsini seçənlərin cəsarət, şəxsi mətanət, bilik və dərrakəyə sahib olmasının vacibliyini qeyd edir. Ulu Öndər bu keyfiyyətlərin bir yerdə cəmləşməsinin zəruriliyini bildirir: “Polis xüsusi bir peşədir. Heç kim anadan polis kimi doğulmur. Bunun üçün xüsusi təhsil almaq və təcrübə toplamaq lazımdır. Polis peşəsi cəsarət, şəxsi mətanət, bilik, dərrakə, elm və təcrübə tələb edir. Bu keyfiyyətlər olmasa, layiqli polis zabitləri yetişməz, polis orqanları Azərbaycanın müstəqilliyini təmin edən orqan kimi fəaliyyət göstərə bilməz”. Heydər Əliyev həmçinin, Daxili İşlər Nazirliyinin böyük kadr potensialı, maddi-texniki bazası və xüsusi əməliyyatlar üçün təchizatının mövcud olduğunu vurğulayır. O bu potensialın illərlə formalaşdığını və dövlət rəhbərliyinin bunu yüksək qiymətləndirdiyini bildirir: “Biz Daxili İşlər Nazirliyinin kadrlarına və onun potensialına güvənirik və onların Azərbaycanın müstəqilliyini təmin etmək və ictimai-siyasi vəziyyəti tənzimləmək üçün səmərəli istifadə olunacağına inanırıq” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 141-142).

Heydər Əliyev müşavirədəki çıxışında əsas vəzifəsi cinayətkarlıqla mübarizə olan Daxili İşlər Nazirliyi və onun strukturları qarşısında duran vəzifələri, onların əsas istiqamətlərini təhlil edərək, polis işçisinə olan əsas tələbləri irəli sürdü: “Mən bunları deməklə münasibətimizi bildirmək və qeyd etmək istəyirəm ki, Azərbaycanın müstəqilliyi və Azərbaycan dövlətinin özü güclü Daxili İşlər Nazirliyi, güclü polis orqanları ilə təmin olunmalıdır. Azərbaycanın dövlət rəhbərliyi belə bir orqanın yaranması və inkişaf etməsi üçün səy göstərəcəkdir. Bu sizdən də çox asılı olacaqdır. Şübhəsiz ki, biz Daxili İşlər Nazirliyinin, polis orqanlarının qanun çərçivəsində tam fəa-

liyyət göstərməsi üçün şərait və imkanlar yaradacağıq. Ancaq Daxili İşlər Nazirliyi orqanları, onun qoşun hissələri, polis orqanları bu imkanlardan qanun çərçivəsində, dövlət mənafeyinə, Azərbaycanın milli mənafeyinə, Azərbaycan vətəndaşlarının hüquqlarının qorunması mənafeyinə uyğun surətdə səmərəli istifadə etməlidirlər… ” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s.143-144).

Heydər Əliyev polis işçisi üçün zəruri olan xüsusiyyətləri sadalayaraq belə deyirdi: “Polis orqanı xalq tərəfindən hörmət edilən bir orqan olmalıdır. Polis işçisi xalq, kütlə və ictimaiyyət tərəfindən sevilməli və ona hörmət bəslənməlidir”. Heydər Əliyevin fikrincə, bunun üçün polis işçisi, Daxili İşlər Nazirliyinin hər bir nümayəndəsi, nazirliyi təmsil edən şəxs qanuna riayət etməli, qanunun tətbiqində nümunə olmalı, yüksək mənəviyyat sahibi olmalıdır. Hər bir vətəndaş polis işçisinin şəxsiyyətində dövlətin qanunçuluğunu və dövlətin ucalığını görməlidir, çünki polis işçisi Daxili İşlər Nazirliyinin nümayəndəsi olaraq, dövləti təmsil edir.

Rüşvətxorluq, vəzifədən sui-istifadə, insanlara qanunsuz təzyiq göstərmək, zorakılıq və digər bu kimi hallar polis orqanlarının əməliyyat fəaliyyətindən tamamilə uzaq olmalıdır. Siz bu hallarla mübarizə aparmalısınız. Bir daha qeyd etmək istəyirəm ki, fəaliyyətinizin səmərəli olması, böyük bir dövlət orqanı kimi yüksək hörmətə layiq olmağınız və dövlətə sədaqətlə xidmət etməyiniz üçün bu prinsiplər əsas amillərdir” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s.144).

Mənəviyyatı insanın ən ali keyfiyyəti kimi qiymətləndirən Heydər Əliyev polis işçilərində də mənəvi keyfiyyətlərin yüksək olmasını mühüm amil kimi  dəyərləndirirdi: “Ancaq hər bir insan üçün yüksək mənəviyyat ən ali amil olmalıdır. O cümlədən və xüsusən dövlət işçiləri üçün, polis orqanlarının işçiləri üçün” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s.144 -145).

Heydər Əliyev Daxili İşlər Nazirliyinin orqanlarında problemlər və həmin orqanlara qarşı tələblərdən söhbət açaraq deyirdi: “...Daxili İşlər Nazirliyi, polis orqanları gərək həm güclü, həm

mənəviyyatca sağlam, həm də dəmir nizam-intizamlı bir təşkilat olsun. Belə bir təşkilat Azərbaycan Respublikasının müstəqilliyini, müstəqil dövlət kimi inkişafını təmin etməlidir. Biz dəfələrlə demişik ki, Azərbaycanda demokratik prinsiplər əsasında dövlət qurulur, demokratiyanın inkişafına tam şərait yaradılıb, bundan sonra da yaradılacaq, Azərbaycanda siyasi plüralizm, çoxpartiyalı sistem əsasında demokratik dövlət qurmaq niyyətindəyik...

Biz demokratiyanı inkişaf etdirərək, siyasi plüralizmə şərait yaradaraq, demokratik dövlət qurmaq əzmində olaraq, eyni zamanda həm cəmiyyətdə, həm də dövlətdə nizam-intizamı möhkəmlətməliyik. Demokratiya hərc-mərclik deyildir, özbaşınalıq deyildir, xaos deyildir. Demokratiya yüksək mədəniyyət, yüksək nizam-intizam, vətəndaş həmrəyliyi, vətəndaşların bir-birinə hörməti, dövlət orqanlarına hörməti, dövlətin vətəndaşlara hörməti, sayğısı və qayğısıdır. Bunların əsasında biz Azərbaycanda demokratik dövlət qurmaq yolu ilə gedir və demokratik cəmiyyət təşkil olunmasını istəyirik. Bu sahədə Daxili İşlər Nazirliyi orqanlarının, polis orqanlarının çox böyük vəzifələri var, sizin üzərinizə çox böyük məsuliyyət düşür və siz qanun çərçivəsində hərəkət edərək bu prinsiplərin həyata keçirilməsini təmin etməlisiniz...” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s.147-148).

Heydər Əliyev Daxili İşlər Nazirliyinin orqanlarında mövcud olan problemlərdən söhbət açaraq həmin problemlərin vaxtında aradan qaldırılmasını tövsiyə edirdi: “Daxili İşlər Nazirliyinin işində çox böyük problemlər də vardır. DİN və onun orqanları bu problemlərin həll olunması üçün daha böyük fəallıq göstərməli, işlərini düzgün qurmalıdırlar.

...Respublikamızın hazırkı ağır vəziyyətində qarşımızda duran vəzifələrin yerinə yetirilməsi DİN-in, onun orqanlarının fəaliyyətindən çox asılıdır...” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 538-539).

Heydər Əliyev cinayətkarlıqla mübarizənin səmərəliliyi üçün Daxili İşlər Nazirliyi ilə başqa hüquq-mühafizə orqanları arasında,

xüsusən də prokurorluq orqanları arasında lazımi işgüzar münasibətlərin yaradılmasını mühüm amil kimi nəzərə çatdırırdı: "Bütün bunlar ondan irəli gəlir ki, bir tərəfdən Daxili İşlər Nazirliyinin özündə, onun ətrafında qeyri-sağlam şərait yaranmışdır, ikinci tərəfdən isə, təəssüf ki, Daxili İşlər Nazirliyi ilə başqa hüquq-mühafizə orqanları arasında, xüsusən də prokurorluq orqanları arasında lazımi işgüzar münasibətlər yaranmamışdır. Söz yox ki, belə vəziyyətdə cinayətkarlıqla ciddi mübarizə aparmaqdan söhbət gedə bilməz. Bundan ötrü bütün hüquq-mühafizə orqanları bir-biri ilə çəkişməməli, hərə öz üstünlüyünü iddia etməməli, əksinə, işgüzar, sağlam prinsiplər, qanun prinsipləri əsasında əməkdaşlıq etməli, birgə işləməlidirlər" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 544-545).

2 iyul 1998-ci il tarixində Azərbaycan polisinin 80 illik yubileyinə və Polis Gününə həsr olunmuş təntənəli yığıncaqdakı nitqində Heydər Əliyev polis işçisi üçün zəruri olan keyfiyyətləri aşağıdakı kimi xarakterizə edirdi: "Polis peşəsi ağır, çətin peşədir. Polis peşəsinə öz həyatını sərf edən insan bir çox xüsusi keyfiyyətlərə malik olmalıdır. Polis əməkdaşı birinci növbədə ölkəsinin dövlətinə, Konstitusiyasına, qanunlarına tam sadiq olmalıdır. Polis əməkdaşı bilikli, öz sahəsində yüksək təhsilə, yaxşı təcrübəyə malik, iradəli, cəsarətli, qorxmaz olmalıdır. Polis əməkdaşı saf mənəviyyata malik olmalıdır. Polis əməkdaşı yalnız və yalnız qanun çərçivəsində fəaliyyət göstərməlidir, qanunun aliliyini daim rəhbər tutmalıdır, qanuna həmişə hörmət etməlidir. Polis əməkdaşı vətəninə, torpağına hədsiz sədaqətli və istənilən vaxt öz vəzifəsini yerinə yetirərək həyatını belə qurban verməyə hazır olmalıdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On altıncı kitab, s. 173).

Dövlət başçısı Daxili İşlər Nazirliyinin, onun orqanlarının Azərbaycanın Konstitusiyasında, qanunlarında, prezidentin fərmanlarında əksini tapan vəzifələrini düzgün, səmərəli, qanunlar əsasında yerinə yetirmələrini tələb edirdi: "Vəzifələrimiz məlumdur. Onlar birinci növbədə Azərbaycanın Konstitusiyasında, qanun-

larında, prezidentin fərmanlarında əks olunubdur. Siz bu vəzifələrin yerinə yetirilməsi üçün daha da səmərəli işlər görməlisiniz.

…Daxili İşlər Nazirliyinin rəhbərliyinə çox böyük səlahiyyətlər verilibdir. Vəzifə bu səlahiyyətlərdən düzgün, səmərəli, qanunlar əsasında istifadə etməkdən ibarətdir. … Daxili İşlər Nazirliyinin əsas vəzifəsi xalqa xidmət etmək, hər bir Azərbaycan vətəndaşına xidmət etmək, Azərbaycan dövlətinə xidmət etməkdən ibarətdir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On altıncı kitab, s. 174).

Heydər Əliyev yığıncaqdakı çıxışında cinayətkarlıqla mübarizənin əsas cəhətlərinə toxunaraq, əldə olunmuş nailiyyətlərlə kifayətlənməyin düzgün olmamasını, hüquq-mühafizə orqanlarının birlikdə öz işlərini daha yaxşı qurmasını, səlahiyyət, imtiyaz və imkanlardan yalnız qanun çərçivəsində, ölkənin və xalqın mənafeyi naminə istifadə edilməsini, cinayətkarlıqla mübarizənin gücləndirilməsini, ancaq eyni zamanda, qanun çərçivəsində hərəkət edilməsini tələb edirdi: "…biz öz işimizi tək bununla ölçməməliyik, öz işimizi mövcud vəziyyətlə ölçməliyik. Əgər bu gündə vətəndaşların həyatına sui-qəsd edilirsə, kimsə kimisə öldürə bilirsə, kimsə kimisə narahat edə bilirsə, kimsə hansısa başqa cinayət edə bilirsə, demək, hələ görüləsi işlər çoxdur, biz hələ istənilən səviyyəyə gəlib çatmamışıq. Ümid edirəm ki, əgər hüquq-mühafizə orqanları hamısı birlikdə bundan sonra da əldə etdiyi təcrübələrdən istifadə edərək işlərini daha yaxşı qurmuş olsalar, biz qarşıdakı illərdə respublikamızda cinayətkarlıqla mübarizədə, ictimai asayişin qorunmasında, dövlətçiliyimizin, vətəndaşların hüquqlarının qorunmasında daha da yüksək səviyyəyə çata bilərik. Hesab edirəm ki, buna imkan vardır.

…Hüquq-mühafizə orqanları hamısı birlikdə Azərbaycanda cinayətkarlıqla mübarizəni gücləndirməlidirlər. Bir daha qeyd edirəm, ancaq eyni zamanda, onlar qanun çərçivəsində hərəkət etməlidirlər. Onların fəaliyyəti Azərbaycanda demokratik, siyasi, iqtisadi islahatların həyata keçirilməsinə kömək etməlidir, mane olmamalıdır.

…Cinayətkarlıqla mübarizədə korrupsiya ilə, rüşvətxorluqla mübarizə xüsusi yer tutmalıdır. Bu, təkcə hüquq-mühafizə orqanlarının işi deyil, bütün dövlət orqanlarının, hökumətin işidir, ümumxalq işidir. Ancaq hüquq-mühafizə orqanlarının bunun üçün xüsusi imkanları var. Ona görə də korrupsiya ilə, rüşvətxorluqla mübarizə sahəsində hüquq-mühafizə orqanlarından daha da çox səmərəli iş tələb olunur" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On altıncı kitab, s. 177-180).

İnsan hüquq və azadlıqlarının təmin olunmasının dövlətin ali məqsədi olmasını hər zaman vurğulayan Heydər Əliyev hüquq-mühafizə orqanları tərəfindən dövlətin mənafeyinin qorunması ilə hər bir vətəndaşın hüquqlarının qorunmasının eyni səviyyədə tutulmasını tövsiyə edirdi: "Hüquq-mühafizə orqanları üçün dövlətin mənafeyinin qorunması ilə hər bir vətəndaşın hüquqlarının qorunması eyni səviyyədə durur. Vətəndaşların hüququnu qoruyaraq, cəmiyyətdən cinayətkarlığı sıxışdırıb çıxararaq dövlətçiliyin qorunması üçün yaxşı zəmin yarana bilər" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On altıncı kitab, s.181).

Heydər Əliyev cinayətkarlıqla mübarizədə daxili işlər orqanları ilə yanaşı, milli təhlükəsizlik orqanlarının roluna da böyük əhəmiyyət verir, terrorçuların, qanunsuz silah işlədən şəxslərin, dövlətə qarşı çıxanların aşkar edilib cəzalandırılmasında həmin orqanların mübariz olmasını tələb edirdi. Heydər Əliyev 5 iyul 1997-ci il tarixində Respublikanın Milli Təhlükəsizlik Orqanları Əməkdaşlarının Peşə Bayramı Gününün təsis edilməsinə həsr olunmuş təntənəli yığıncağdakı nitqində deyirdi: "Siz həqiqətən dövləti sarsıtmaq, dövlətin qanunlarını pozmaq işinə mane olmaq istəyən, yaxud cəhd göstərən qüvvələrin işi ilə məşğul olmalı, onların fəaliyyətini öyrənməli və bu barədə məlumatlar verməlisiniz. Terrorçuları meydana çıxarmalısınız.

... Kimsə silah işlətməyə çalışırsa, terror etmək istəyirsə, kimsə silahlı dəstə yaratmaq, silah yolu ilə yenə hakimiyyətə gəlmək istəyirsə, hansı partiyaya mənsubluğundan, kimliyindən asılı olmayaraq o adamlar aşkara çıxarılmalı, onların haqqında qanun çər-

çivəsində ölçü götürülməlidir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Onuncu kitab, s. 356-357).

5 iyul 1997-ci il tarixdə Respublikanın Milli Təhlükəsizlik Orqanları Əməkdaşlarının Peşə Bayramı Gününün təsis edilməsinə həsr olunmuş təntənəli yığıncağındakı nitqində Ulu Öndər diqqəti ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunması, saxlanması və möhkəmləndirilməsinin vacibliyinə yönəldərək deyirdi: "Ona görə də mən bu gün bu fürsətdən istifadə edərək 1988-ci ildən etibarən silah gücü ilə, terrorizm yolu ilə hakimiyyət əldə etmək cəhdləri etmiş adamlara bir daha xəbərdarlıq edirəm: onların heç birisinə heç bir şey bağışlanmayacaqdır. Siyasi fəaliyyət heç vaxt silahla, güc ilə, zorakılıqla bir araya gələ bilməz. Siyasi fəaliyyət beynəlxalq hüquq normaları, konstitusiyamız çərçivəsində, Azərbaycanın hüquq normaları çərçivəsində aparılmalıdır. Kimsə bu çərçivədən çıxırsa, qoy özündən incisin, onlar bağışlanmayacaqlar. Ona görə də mən sizi də xəbərdar edirəm ki, öz həddinizi aşmayasınız və heç kəsin haqqında qanunsuz heç bir tədbir görməyəsiniz.

... Azərbaycanda cinayətkarlığı tamamilə yox etmək lazımdır. Azərbaycan bir sivil, demokratik, hüquqi dövlət kimi cinayətkarlıqdan tamamilə xilas olmalıdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Onuncu kitab, s. 357-358).

Cinayətkarlıqla mübarizədə prokurorluq orqanlarının da xüsusi yeri və rolu vardır. Azərbaycan Respublikasının prokurorluq orqanlarına və onların əməkdaşlarına həmişə xüsusi diqqətlə yanaşan Ulu Öndər 26 aprel 2000-ci il tarixində Azərbaycan Respublikasının prokurorluq orqanlarının rəhbər işçiləri ilə görüşdəki nitqində deyirdi: "1993-cü ildən başlayaraq Azərbaycanın hüquq-mühafizə orqanları Azərbaycanda vaxtilə mövcud olan cəzasızlığın, hərc-mərcliyin, qanunsuzluğun qarşısını almaq üçün çox işlər görmüşlər. Azərbaycanda 1992-ci ildə yaranmış ağır, gərgin vəziyyətdən çıxmaq üçün, vətəndaş müharibəsinin qarşısını almaq üçün, qanunsuz silahlı dəstələrin aşkar edilib ləğv olunması üçün, çox qatı, təhlükəli cinayətlər törət-

miş insanların, qrupların aşkara çıxarılması, onların yaxalanması və cinayətlərini sübut etməkdən ötrü istintaqların aparılması üçün və son olaraq bu adamların məhkəmə tərəfindən ədalətli cəza almaları üçün hüquq-mühafizə orqanları, o cümlədən Azərbaycan prokurorluğu çox iş görmüşlər. 1994-cü ildə, 1995-ci ildə Azərbaycanda dövlət çevrilişinə cəhdlər olmuşdur. Buna cəhd edən insanlar Azərbaycanı dağıtmaq, Azərbaycanda konstitusion hakimiyyəti ələ keçirmək məqsədi daşıyırdılar. Biz onların qarşısını aldıq. Təbiidir ki, mən bunda hüquq-mühafizə orqanlarının xidmətlərini də qiymətləndirirəm və keçmişdə də qiymətləndirmişəm...” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İyirmi altıncı kitab, s. 409-410).

Görüşdə Heydər Əliyev prokurorluğun fəaliyyətindəki müsbət və mənfi cəhətləri qeyd edərək ayrı-ayrı prokurorluq işçilərinin vəzifədən sui-istifadə etməsini, qanun pozuntularına, istintaq zamanı cinayət xarakterli hərəkətlərə yol verilməsini, bu cür halların aşkara çıxarılıb lazımi tədbirlər görülməməsini ədalətsizlik kimi qiymətləndirirdi: “Demək, prokurorluğun fəaliyyətinin bax, bu müsbət tərəfləri var və mən bunu bu gün də inkar etmirəm. Ancaq bununla bərabər, bununla yanaşı çox ciddi nöqsanlar, qüsurlar, ayrı-ayrı prokurorluq işçilərinin vəzifədən sui-istifadə etməsi, qanun pozuntularına yol verilməsi…olub və onların bəzi nöqsanlarına, hətta cinayət xarakterli əməllərinə qiymət verilməyib və lazımi tədbirlər görülməyibdir. …Bu gün Azərbaycanda yaranmış ictimai-siyasi sabitlik, sağlam mühit, sağlam əhval-ruhiyyə şəraitində dövlətin mühüm orqanı olan prokurorluqda belə vəziyyətə dözmək olmaz” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İyirmi altıncı kitab, s. 410-411).

28 noyabr 1998-ci il tarixində Azərbaycan Respublikasının prokurorluq orqanlarının 80 illiyinə həsr olunmuş təntənəli yığıncaqdakı nitqində Heydər Əliyev deyirdi: “Azərbaycan keçid dövrü yaşayan bir ölkədir. Keçmişdə Sovetlər İttifaqına mənsub olmuş ölkələrin hamısı bu dövrü yaşayır. Bu keçid dövrünün özünəməxsus xüsusiyyətləri vardır. Keçid dövrünün əsas məqsədi Azərbaycanda demokratik

dövlət quruculuğunu təmin etməkdən, hüquqi vətəndaş cəmiyyəti yaratmaqdan, iqtisadiyyatı bazar iqtisadiyyatı prinsipləri əsasında qurmaqdan, insan hüquqlarını qorumaq və təmin etməkdən, insanlara bütün azadlıqları, o cümlədən mətbuat, söz, fikir azadlıqlarını verməkdən, siyasi plüralizmi təmin etməkdən ibarətdir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On səkkizinci kitab, s. 282-283).

Heydər Əliyev həmin nitqində cinayətkarlıqla mübarizənin vacibliyini statistik rəqəmlərin müqayisəsi ilə nəzərə çatdıraraq, bu mübarizədə prokurorluq orqanlarının da xüsusi rol oynadığını, dövlət çevrilişlərinə cəhdlərin qarşısının alınmasında, bunun nəticəsində cinayətkarların yaxalanmasında, törədilmiş cinayətlərin açılmasında, cinayətkarların qanun əsasında məsuliyyətə cəlb olunmasında, beləliklə də cinayətkarlığın qarşısının alınmasında prokurorluğun xidmətlərini yüksək qiymətləndirirdi: "1992-ci ildə Azərbaycanda cinayətkarlığın səviyyəsi demək olar ki, ən yüksək dərəcəyə gəlib çatmışdı. Bir ildə 22 min 440 cinayət baş vermişdi. Bu, müqayisədə əvvəlki bütün illərin hamısından çox olmuşdur.

...Azərbaycanda aparılan işlər birinci növbədə respublikamızda daxili ictimai-siyasi vəziyyəti sabitləşdirməyə və bunun üçün də cinayətkarlıqla mübarizəni gücləndirməyə yönəldilmişdir. Bütün bu işlərdə hüquq-mühafizə orqanlarının hamısı, o cümlədən Azərbaycan prokurorluğu fəal iştirak etmişdir. Aparılan işlərin nəticəsini rəqəmlər artıq özü-özlüyündə göstərir. Keçən il, 1997-ci ildə cinayətkarlıq 1992-ci ilə nisbətən xeyli azalmışdır. 1992-ci ildə 22 min 450, 1997-ci ildə isə 16 min 400 cinayət baş vermişdir. Şübhəsiz ki, bu da çoxdur, biz bununla da razı ola bilmərik. Ancaq biz görülən işlərin nəticəsini də qiymətləndirməliyik.

Bütün bu işlərdə Azərbaycan prokurorluğu fəal iştirak etmişdir, öz xidmətlərini göstərmişdir. Xüsusən, Azərbaycanda cinayətkar dəstələr tərəfindən güclə, silah yolu ilə dövlət çevrilişlərinə cəhdlərin qarşısının alınmasında və bunun nəticəsində cinayətkarların yaxalanmasında, törədilmiş cinayətlərin üstünün açılmasında, cinayətkarların qanun

əsasında məsuliyyətə cəlb olunmasında, beləliklə də cinayətkarlığın qarşısının alınmasında prokurorluğun xidmətləri böyükdür" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On səkkizinci kitab, s. 285-286).

Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının təsdiq edilməsi haqqında" Sərəncamında qeyd olunur ki, "Dünyada baş verən sürətli dəyişikliklər şəraitində ayrı-ayrı dövlətlər və bütövlükdə bəşəriyyət terrorçuluq, etnik separatizm və münaqişələr, transmilli mütəşəkkil cinayətkarlığın artması, kütləvi qırğın silahlarının yayılması, təbii ehtiyatların tükənməsi, əhalinin sayının durmadan çoxalması və kütləvi miqrasiyası, ətraf mühitin çirklənməsi və sair təhlükələrlə üzləşir.

Bu amillər hər bir dövlətin prioritetlərinin, təhlükəsizliyə qarşı risklərin müəyyənləşdirilməsini, həmin risklərin qabaqlanması və aradan qaldırılması üzrə adekvat tədbirlərin həyata keçirilməsini zəruri edir".

Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası dövlətin müstəqilliyini, ərazi bütövlüyünü və demokratik inkişaf yolunu, strateji seçimi kimi Avro-Atlantik məkana inteqrasiyasını, bununla yanaşı tarazlaşdırılmış xarici siyasətinin çoxşaxəliliyini vurğulayan, Azərbaycan Respublikasında şəxsiyyət, cəmiyyət və dövləti xarici və daxili təhdidlərdən qorumağa yönəlmiş siyasət və tədbirlərin məqsəd, prinsip və yanaşmalarının məcmusudur.

Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında qeyd olunur ki, əsas terrorçu qrupların yerləşdiyi və kütləvi qırğın silahlarının yayılması problemlərinin olduğu bölgələrə yaxınlıq ölkə üçün potensial təhdid yaradır. Kütləvi qırğın silahları və ya onların istehsalat texnologiyalarının terrorçuluq məqsədilə əldə olunması ehtimalı bu təhdidləri daha da kəskinləşdirə bilər.

...Daxili təhlükəsizliyin təmin olunması dövlətin ən vacib vəzifələrindən biridir. Bu, həmçinin onun beynəlxalq risk və təhdidlərə cavab vermə qabiliyyətini gücləndirir.

Davamlı daxili təhlükəsizlik yalnız insan hüquq və əsas azadlıqlarına hörmət, vətəndaş cəmiyyətinin və sosial rifahın inkişafı

vasitəsilə mümkündür. Azərbaycan Respublikasının müvafiq dövlət orqanları öz növbəsində ictimai asayişi qorumaq, cinayətkarlıq və korrupsiya ilə mübarizə aparmaqla, daxili təhlükəsizliyin təmin olunmasında məsuliyyət daşıyır. Bu sahədə hüquq-mühafizə orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə qanunvericilik və institusional islahatlar aparılır, praktiki tədbirlər görülür.

Qeyd olunanlar cinayətkarlığa qarşı mübarizədə dövlət hakimiyyətinin bütün qollarının və hüquq-mühafizə orqanlarının fəaliyyət istiqamətlərini və vəzifələrini müəyyən edən prinsiplərin, fundamental ideyaların işlənib hazırlanması istiqamətində mühüm əhəmiyyət kəsb edir.

## 1.5. Cinayətkarlıqla mübarizə üzrə beynəlxalq əməkdaşlığın inkişafında Heydər Əliyevin rolu

Cinayətkarlıqla mübarizə sahəsində beynəlxalq əməkdaşlıq dövlətlər tərəfindən cinayətlərin qarşısının alınması, onunla mübarizə və hüquq pozuntuları törədənlərlə rəftar baxımından özünəməxsus xüsusiyyətləri ilə fərqlənən fəaliyyətdir. Bu əməkdaşlığın həcmi, əsas istiqamətləri və formaları konkret cəmiyyət hadisəsi kimi cinayətkarlığın məzmunu və özəllikləri ilə, əhəmiyyətli dərəcədə isə dövlətin cinayətkarlıqla mübarizədə milli siyasəti ilə müəyyən edilir. Bununla belə, həmin sahədə dövlətlərin əməkdaşlığına bütövlükdə həm tarixi şərait, həm də dövlətlərarası ikitərəfli və çoxtərəfli münasibətlərin vəziyyəti öz təsirini göstərir.

Ulu Öndər Heydər Əliyev dövlətlərarası münasibətlərdə qarşılıqlı sərfəli əməkdaşlığı və beynəlxalq hüququn prinsiplərinə riayət olunmasını dəstəkləyərək, 21 oktyabr 1996-cı il tarixində Türkdilli Dövlət Başçılarının IV Forumunda bildirmişdir: “Separatçılıq, davakar millətçilik və beynəlxalq terrorizm təzahürləri, mövcud dövlət sərhədlərinin dəyişdirilməsi niyyəti ilə zor işlətmək cəhdlə-

ri beynəlxalq sabitlik üçün bilavasitə və real təhlükədir və bu təhlükə bizim regionda da mövcuddur. Ona görə də beynəlxalq hüquq normalarını, ərazi bütövlüyü prinsiplərini, ölkələrimizin beynəlxalq aləmdə tanınmış sərhədlərinin və suverenliyinin pozulmazlığını əlbir səylərlə qətiyyətlə müdafiə etməli, bu normalara və prinsiplərə ciddi əməl olunmasına çalışmalıyıq".[1]

Beynəlxalq miqyasda cinayətkarlığın qarşısının alınması dövlətlərdə bu mənfi təzahürün səviyyəsinə də öz müsbət təsirini göstərir. Qeyd etmək lazımdır ki, cinayətkarlıqla mübarizə sahəsində beynəlxalq əməkdaşlığın fərqləndirici cəhəti bu əməkdaşlığın konkret dövlətlərin daxili aspektləri ilə sıx bağlı olmasındadır. Yəni, müəyyən sahələrdə cinayətkarlıqla mübarizə beynəlxalq xarakter daşımaqla yanaşı, həm də hər bir dövlətin daxili işi kimi meydana çıxır. Beləliklə, cinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlıq bir növ dövlətlərin öz daxili funksiyalarını yerinə yetirməsi ilə qovuşur və vəhdət təşkil edir.

23 oktyabr 2001-ci il tarixində Rusiyanin daxili işlər naziri Boris Qrızlovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş zamanı Ümummilli Lider Heydər Əliyev bildirmişdir ki, "… hüquq-mühafizə orqanlarının xətti ilə əməkdaşlıq isə xüsusi əhəmiyyətə malikdir. Xüsusən də beynəlxalq terrorizm, narkotik maddələr alveri kimi cinayətlər və digər təhlükəli cinayətlər geniş yayıldıqda birgə fəaliyyətin və sıx əməkdaşlığın müstəsna əhəmiyyəti var". [2]

Cinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlıq özünü bir sıra istiqamətlərdə və səviyyələrdə təzahür etdirir. Həmin əməkdaşlığın istiqamətləri ayrı-ayrı cinayətlərlə mübarizədə, məsələn, korrupsiya, narkotik vasitələrin qanunsuz dövriyyəsi, terrorçuluq, müharibə cinayətləri və s. sahələrdə birgə fəaliyyətlərdə meydana çıxa bilər. Cinayətkarlıqla beynəlxalq səviyyədə mübarizə aparılması məqsədilə universal, regional və ikitərəfli müqavilələr bağlamaq,

---

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Yeddinci kitab, s. 434
[2] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz altıncı kitab, s. 380

eləcə də beynəlxalq təşkilat və qurumlarda fəal iştirak etmək kimi istiqamətləri fərqləndirmək olar.

Cinayət törətmiş şəxslərin verilməsi, məhkumların qaytarılması, beynəlxalq cinayət törətmiş şəxslərin tutulması və müvafiq istintaq hərəkətlərinin aparılması sahəsində əməkdaşlıq məsələləri də cinayətkarlıqla mübarizədə önəmli yer tutur.

Ulu Öndər beynəlxalq cinayət törətmiş şəxslərin mütləq məsuliyyətə cəlb edilməsini bu cür cinayətlərin gələcəkdə təkrarlanmaması istiqamətində mühüm şərt hesab edirdi. O, 25 fevral 2002-ci il tarixində Xocalı soyqırımının onuncu ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində yazırdı: "Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir...

Azərbaycan müstəqillik əldə etdikdən sonra erməni separatçılarının Dağlıq Qarabağda başladıqları təcavüzkar siyasət yüzlərlə kənd və qəsəbənin dağılması, on minlərlə günahsız insanın qanının axıdılması, yüz minlərlə insanın öz evindən, elindən didərgin salınması ilə nəticələnmişdir. Lakin Xocalı faciəsi bunların ən dəhşətlisi olmuşdur…

Bu gün Azərbaycan hökuməti və xalqı qarşısında Xocalı soyqırımı və bütövlükdə ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında həqiqətləri olduğu kimi, bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların əsl soyqırımı aktı kimi tanınmasına nail olmaq vəzifəsi durur. Bu, Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur.

Digər tərəfdən, faciənin əsl beynəlxalq hüquqi-siyasi qiymət alması, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılması bütövlükdə insanlığa qarşı yönəlmiş belə qəddar aktların gələcəkdə təkrarlanmaması üçün mühüm şərtdir".[3]

[3] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz yeddinci kitab, s. 395-398

Beynəlxalq hüququn əsas mənbəyi olan beynəlxalq müqavilələr cinayətkarlıqla mübarizə üzrə əməkdaşlığın əsasını təşkil edir. Ölkənin iqtisadi və mədəni inkişafını, əhalinin təhlükəsiz yaşamasını, gənc nəslin sağlam ruhda böyüməsini hədəf seçmiş dövlətlər cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq üçün həmişə hazır olmalıdırlar.

21 iyul 1998-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Baş nazirinin dostluq münasibətləri və tərəfdaşlıq haqqında birgə bəyanatında da terrorizmə qarşı əməkdaşlıq məsələləri öz əksini tapmışdı: "Prezident və Baş nazir mütəşəkkil cinayətkarlığa, beynəlxalq terrorizmə, narkotiklərin dövriyyəsinə, qanunsuz silah alverinə, incəsənət əsərlərinin qanunsuz aparılmasına, pulların yuyulmasına və saxta pul buraxılmasına qarşı mübarizədə beynəlxalq ikitərəfli və çoxtərəfli əməkdaşlığı inkişaf etdirməyin əhəmiyyətini qeyd etdilər. Prezident və Baş nazir yüksək səviyyədə dialoqun vacibliyi və nazirliklər arasında sıx əlaqələr saxlanılması barədə razılaşdılar".[4]

Ölkədə sabitliyin təmin olunmasını müstəqillik üçün əsas şərt hesab edən Ulu Öndər cinayətkarlıqla mübarizəni dövlətin mühüm funksiyası kimi dəyərləndirməklə və bu mübarizənin ölkə daxilində aparılmasının zəruriliyini tələb etməklə yanaşı, həmin sahədə beynəlxalq əməkdaşlığa da xüsusi önəm verirdi. Bu, ilk növbədə özünü cinayətkarlığa qarşı mübarizə sahəsində müxtəlif dövlətlərlə ikitərəfli müqavilələr bağlanılmasında, regional və universal səviyyədə mövcud olan beynəlxalq müqavilələrə qoşulmaqda, cinayətkarlıqla mübarizə sahəsində fəaliyyət göstərən müxtəlif qurumlarda iştirakda və nəhayət, bu sahədə qarşılıqlı yardımın təşkilində özünü büruzə verirdi.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan Respublikası cinayətkarlıqla mübarizə sahəsində aşağıda göstərdiyimiz bir sıra müqavilələrə tərəfdar çıxmaqla, bu sahədə əməkdaşlığa hazır olduğunu nümayiş etdirmişdir:

---

[4] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz altıncı kitab, s. 380

– “Adamların girov götürülməsinə qarşı mübarizə haqqında” Beynəlxalq Konvensiyaya (18 dekabr 1979-cu il) qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu (9 noyabr 1999-cu il);

Bu Konvensiya iştirakçı dövlətlərin üzərinə üçüncü tərəfi (dövləti, beynəlxalq təşkilatı, fiziki və ya hüquqi şəxsi, qrupu) hər hansı bir hərəkəti etməyə məcbur etmək və ya hərəkəti etməkdən çəkindirmək üçün hər hansı bir şəxsi onun iradəsinin əksinə olaraq saxlamağı və onu öldürməklə, xəsarət yetirməklə hədələməyi cinayət əməli kimi təsbit etmək və bu cinayətlərin təqibində əməkdaşlıq etmək öhdəliyini qoyur.

– “Hava gəmilərinin qanunsuz zəbt edilməsinə qarşı mübarizə haqqında” Konvensiyaya (16 dekabr 1970-ci il) qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu (9 noyabr 1999-cu il);

Bu Konvensiya hava gəmilərinin qanunsuz zəbt edilməsi və mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönələn əməllərlə mübarizədə iştirakçı dövlətlərin əməkdaşlığını təşviq edir.

– “Məhkum olunmuş şəxslərin verilməsi haqqında” Avropa Konvensiyasına (21 mart 1983-cü il) Azərbaycan Respublikasının qoşulması barədə Azərbaycan Respublikasının Qanunu (12 dekabr 2000-ci il);

Bu Konvensiya iştirakçı dövlətlərin digər bir iştirakçı dövlətdə məhkum olunmuş şəxsləri cəzasını çəkmək üçün vətəndaşı olduğu ölkəyə vermək öhdəliyini nəzərdə tutur.

– “Beynəlxalq müdafiədən istifadə edən şəxslərə, o cümlədən diplomatik agentlərə yönəlmiş cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında” Konvensiyaya (14 dekabr 1973-cü il) Azərbaycan Respublikasının qoşulması barədə Azərbaycan Respublikasının Qanunu (2 fevral 2001-ci il);

Bu Konvensiya iştirakçı dövlətlərin beynəlxalq müdafiədən istifadə edən şəxslərə, o cümlədən diplomatik agentlərə yönəlmiş cinayətlərin qarşısının alınması və cəzalandırılması öhdəliyini, o cümlədən bu sahədə beynəlxalq əməkdaşlığı təşviq edir.

– “Bomba terrorizmi ilə mübarizə haqqında” Beynəlxalq Konvensiyaya (16 dekabr 1997-ci il) Azərbaycan Respublikasının qoşulması barədə Azərbaycan Respublikasının Qanunu (2 fevral 2001-ci il);

Bu Konvensiya iştirakçı dövlətlərin üzərinə partlayıcı və ya hər hansı bir məhvedici qurğu vasitəsilə törədilməklə insanların məhvinə səbəb olan əməlləri təqib etmək və onların qarşısının alınmasında və cəzalandırılmasında digər iştirakçı dövlətlərlə əməkdaşlıq etmək öhdəliyini qoyur.

– “Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında” Beynəlxalq Konvensiyaya (9 dekabr 1999-cu il) Azərbaycan Respublikasının qoşulması barədə Azərbaycan Respublikasının Qanunu (1 oktyabr 2001-ci il);

Bu Konvensiya iştirakçı dövlətlərin üzərinə terrorizmin maliyyələşdirilməsini və ona hər hansı bir formada dəstək göstərilməsini öz qanunvericiliklərində cinayət əməli kimi təsbit etmək, bu əməlləri törədən və ya onların törədilməsində iştirak edən subyektləri təqib etmək və onunla mübarizədə digər iştirakçı dövlətlərlə əməkdaşlıq etmək öhdəliyini qoyur.

– “Ekstradisiya haqqında” Avropa Konvensiyasının (13 dekabr 1957-ci il) və onun Əlavə Protokollarının (15 oktyabr 1975-ci il, 17 mart 1978-ci il) təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (17 may 2002-ci il);

İştirakçı dövlətlər səlahiyyətli orqanlarının hər hansı cinayətə görə barəsində cinayət təqibini həyata keçirdikləri, yaxud göstərilən orqanların hökmün və ya həbs barədə qərarın icrası üçün axtardıqları bütün şəxsləri bu Konvensiyada şərh olunmuş müddəa və şərtlərə riayət etmək şərti ilə bir-birinə verməyi öhdələrinə götürürlər. Konvensiyaya 1-ci Əlavə Protokolda bəşəriyyətin və ayrı-ayrı şəxslərin müdafiəsini gücləndirmək məqsədilə müvafiq Konvensiyanın maddələrinə əlavələr edilir, Konvensiyanın məqsədləri üçün bəşəriyyət əleyhinə cinayətlər kimi bir sıra əməllərin siyasi cinayətlər hesab edilmədiyi təsbit olunur

və bəzi digər əlavələr edilir. 2-ci Əlavə Protokol isə müvafiq Konvensiyanın müddəalarını fiskal (maliyyə) cinayətlərə də şamil edir.

– "Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılması, aşkar olunması, götürülməsi və müsadirə edilməsi haqqında" Konvensiyanın (8 noyabr 1990-cı il) təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (1 mart 2003-cü il);

Konvensiya cinayət fəaliyyətindən əldə edilən gəlirlərin və ya əmlakın leqallaşdırılması, aşkar olunması, götürülməsi və müsadirə edilməsini mümkün edən qanunverici və digər zəruri tədbirləri müəyyən edir, istintaq və məhkəmə icraatlarının aparılmasında iştirakçı dövlətlərin bir-biri ilə mümkün qədər geniş şəkildə əməkdaşlığını təşviq edir.

– "Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında" Avropa Konvensiyasının (20 aprel 1959-cu il) və ona əlavə Protokolun (17 mart 1978-ci il) təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (1 mart 2003-cü il);

İştirakçı dövlətlər bu Konvensiyanın müddəalarına uyğun olaraq, cəzası sorğu edən Tərəfin məhkəmə orqanlarının cinayət yurisdiksiyası altına düşən cinayətlərə görə cinayət təqibi məsələsində qarşılıqlı əsaslarla bir-birinə ən geniş hüquqi yardım göstərilməsini öz öhdələrinə götürürlər. Protokol isə müvafiq Konvensiyanın maliyyə cinayətləri sahəsində tətbiq edilməsini asanlaşdırmaq məqsədi daşıyır.

– BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasının (15 noyabr 2000-ci il), onu tamamlayan "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" (15 noyabr 2000-ci il) və "Miqrantların quru, dəniz və hava ilə sərhəddən qanunsuz keçirilməsinə qarşı" (15 noyabr 2000-ci il) Protokolların təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (13 may 2003-cü il);

Bu Konvensiyanın məqsədi transmilli mütəşəkkil cinayətkarlığın qarşısının alınması və onunla mübarizə işində əməkdaşlığı təşviq etməkdən ibarətdir. Konvensiyaya 1-ci Əlavə Protokol qadınlara və uşaqlara xüsusi diqqət yetirərək, insan alverinin qarşısının

alınması və onunla mübarizə etmək, bu cür alverin qurbanları olan şəxslərə, onların insan hüquqlarına tam hörmət bəsləyərək, müdafiə və yardım etmək və bu məqsədlərin gerçəkləşməsində iştirakçı dövlətlər arasında əməkdaşlığı təşviq etmək məqsədi daşıyır. 2-ci Əlavə Protokolun məqsədi isə miqrantların sərhəddən qanunsuz keçirilməsinin qarşısını almaq və onunla mübarizə aparmaqdan, habelə bu məqsədlərə nail olmaq üçün sərhəddən qanunsuz keçirilmiş miqrantların hüquqlarının müdafiəsi zamanı iştirakçı dövlətlər arasında əməkdaşlığın təşviq edilməsindən ibarətdir.

Bundan başqa, cinayətkarlıqla mübarizə sahəsində çoxsaylı ikitərəfli sazişlər də imzalanmışdır. Belə ki, Bolqarıstan Respublikası ilə cinayət işləri üzrə hüquqi yardım haqqında müqavilə, BƏƏ ilə cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında müqavilə, Çin Xalq Respublikası ilə məhkumların verilməsi haqqında müqavilə, Əlcəzair Xalq Demokratik Respublikası ilə ekstradisiya haqqında saziş, Gürcüstan Respublikası ilə mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında müqavilə, Hindistan Respublikası ilə cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında müqavilə, İİR ilə azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi haqqında müqavilə, İordaniya Haşimilər Krallığı ilə ekstradisiya haqqında müqavilə, Qazaxıstan Respublikası ilə azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi haqqında müqavilə, Qırğızıstan Respublikası ilə mülki, ailə və cinayət işləri üzrə hüquqi münasibətlər haqqında müqavilə və azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi haqqında müqavilə, Litva Respublikası ilə mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında müqavilə və azadlıqdan məhrum edilmiş şəxslərin cəzanın qalan hissəsini çəkmək üçün verilməsi haqqında müqavilə, Mərakeş Krallığı ilə cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında müqavilə, Moldova Respublikası ilə mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında müqavilə, Öz-

bəkistan Respublikası ilə mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında müqavilə və azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi haqqında müqavilə, Pakistan İslam Respublikası ilə məhkumların verilməsi haqqında saziş, RF ilə hüquqi yardım və mülki, ailə və cinayət işləri üzrə hüquq münasibətləri haqqında saziş və məhkumların cəza çəkmək üçün verilməsi haqqında müqavilə, Ukrayna ilə məhkumların cəza çəkmək üçün verilməsi haqqında müqavilə imzalanmışdır.

Onu da qeyd edək ki, kitabın ikinci bölməsində korrupsiya cinayətləri, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər, soyqırımı cinayəti və terrorçuluq cinayətindən bəhs edilərkən beynəlxalq əməkdaşlıq məsələləri araşdırılmış, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin bu sahədəki tarixi fəaliyyəti geniş təhlil olunmuşdur.

## 1.6. Azərbaycan Respublikasının Prezidenti yanında Hüquqi İslahat Komissiyasının yaradılması və onun fəaliyyəti haqqında

Azərbaycan Respublikasının Prezidenti yanında Hüquqi İslahat Komissiyası hüquq sisteminin təkmilləşdirilməsi və hüquq sahəsində islahatların həyata keçirilməsi məqsədilə ölkəmizdə yaradılan mühüm qurumlardan biri olmuşdur. Bu komissiya ölkədə hüquq islahatlarının koordinasiyası, yeni qanunvericilik təşəbbüslərinin hazırlanması və beynəlxalq standartlara uyğun hüquqi normativ aktların qəbul olunmasını təmin etmişdir.

Hüquqi İslahat Komissiyasının yaradılması zərurəti Azərbaycanın müstəqillik əldə etdiyi dövrdə ortaya çıxmışdı. 1993-cü ildə Azərbaycanın dövlət müstəqilliyini yenidən bərpa etməsindən sonra ölkə ciddi siyasi və iqtisadi problemlərlə üzləşmiş, bu çətinliklərin aradan qaldırılması üçün hüquq sistemində fundamental islahatların

həyata keçirilməsi zərurəti yaranmışdı. Çünki Sovet hüquq sistemindən müasir, demokratik və insan hüquqlarına əsaslanan bir hüquq sisteminə keçid ehtiyacı Azərbaycanda genişmiqyaslı hüquq islahatlarının başlanmasını tələb edirdi. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin 21 fevral 1996-cı il tarixli sərəncamı ilə Hüquqi İslahat Komissiyası təsis edildi. Həmin sərəncama əsasən, Komissiyanın sədri Ümummilli Lider Heydər Əliyev olmuşdur.

Bu komissiyanın yaradılmasında əsas məqsəd hüquq islahatlarını vahid bir orqanın nəzarəti altında həyata keçirmək və qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılmasını sürətləndirmək idi. Komissiya hüquqi təcrübənin təkmilləşdirilməsi və müasir dövrün tələblərinə uyğun yeni qanunların qəbul edilməsi ilə məşğul olmuşdur.

Komissiya Azərbaycan Respublikası qanunvericiliyinin yenidən işlənməsi, hüquqi boşluqların və kolliziyaların aradan qaldırılması, habelə qanunların beynəlxalq standartlara uyğunlaşdırılması üzərində işləmiş və bu prosesə paralel olaraq məhkəmə-hüquq sistemi, cinayət, mülki və inzibati hüquq sahələrində islahatlar həyata keçirmişdir.

Hüquqi İslahat Komissiyası beynəlxalq hüquq institutları və təşkilatlarla sıx əməkdaşlıq etmiş, bu əməkdaşlıq çərçivəsində ölkədə hüquq islahatları təcrübəsi ilə digər ölkələrin təcrübələri müqayisə olunmuş və beynəlxalq standartlara uyğun hüquqi baza yaradılmışdır.

Komissiyanın fəaliyyət istiqamətləri sırasında insan hüquqlarının müdafiəsi mühüm yer tutmuşdur. Yeni qanunvericilik aktları hazırlanarkən və mövcud qanunlar yenidən işlənərkən insan hüquq və azadlıqlarına xüsusi diqqət yetirilmiş, Hüquqi İslahat Komissiyası ölkədə hüquqi təminatların daha da gücləndirilməsi üçün əhəmiyyətli iş görmüşdür.

Komissiya Azərbaycanın məhkəmə sisteminin daha səmərəli işləməsi üçün təkliflər də hazırlamışdır. Bu təkliflər məhkəmə sisteminin şəffaflığını artırmaq, hakimlərin müstəqilliyini təmin etmək və məhkəmə icraatlarını sürətləndirmək kimi məsələləri əhatə etmişdir.

Beləliklə, 1996-cı il 21 fevral tarixli Sərəncamla yaradılmış Hüquqi İslahat Komissiyasına bilavasitə rəhbərliyi öz üzərinə götürən Ulu Öndər Heydər Əliyev islahatların qısa müddətdə və sistemli şəkildə həyata keçirilməsini təmin etmişdi. Bu dövrdə yeni, mütərəqqi qanunlar qəbul olunmuş, o cümlədən "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunlar və digər mühüm hüquqi aktlar qəbul edilmişdir. Həmçinin, əvvəlki qanunlardan prinsipial olaraq əsaslı şəkildə fərqlənən Mülki və Mülki-Prosessual, Cinayət və Cinayət-Prosessual, Cəzaların İcrası və digər məcəllələr təsdiqlənmişdi. Bu qanunvericilik aktları beynəlxalq səviyyəli mütəxəssislər tərəfindən ekspertizadan keçirilərək yüksək səviyyəli aktlar kimi qiymətləndirilmişdir.

Ümummilli Lider Heydər Əliyev islahatların davamlı və mütəşəkkil şəkildə aparılmasını təmin etməklə, Azərbaycanı müasir hüquqi dövlətə çevirmə yolunda əhəmiyyətli irəliləyişlərə nail olmuşdur. Belə ki, Ulu Öndərin hüquq islahatları sahəsində gördüyü işlər Azərbaycan dövlətinin hüquqi bazasının formalaşmasına böyük töhfə vermişdir. Bu baxımdan, Hüquqi İslahat Komissiyası kimi ayrıca bir orqan artıq öz fəaliyyətini dayandırmış olsa da, onun həyata keçirdiyi islahatların nəticələri və yaradılan qanunvericilik bazası hüquq sistemində hələ də öz əksini tapmaqdadır.

Ümummilli Lider Heydər Əliyevin hüquqi dövlət quruculuğu sahəsindəki irsi və hüquq islahatlarının ayrılmaz hissəsi kimi 18 iyun 1998-ci il tarixli sərəncamla təsdiq etdiyi "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nı qeyd etmək olar. Bu proqram ölkədə insan hüquqlarının təmin edilməsi və müdafiəsi istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi üçün ilk əhatəli dövlət səviyyəli sənəd kimi dəyərləndirilə bilər.

Heydər Əliyev bu proqramın hazırlanmasına və təsdiqinə xüsusi əhəmiyyət verirdi, çünki  müasir, beynəlxalq standartlara uyğun bir

hüquq sisteminin təməlində insan hüquq və azadlıqlarının durmalı olduğunu qəbul edirdi. 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası insan hüquq və azadlıqlarının təmin edilməsi üçün geniş imkanlar yaratsa da, Ulu Öndər insan hüquqları sahəsində konkret tədbirlər planının hazırlanmasını  da əhəmiyyətli hesab edirdi. Bu istiqamətdə Azərbaycan xalqının mənafeyinə uyğun və beynəlxalq tələblərə cavab verən genişmiqyaslı islahatların gerçəkləşdirilməsi zəruri idi.

Heydər Əliyev tərəfindən insan hüquqlarının ali dəyər kimi nəzərdən keçirilməsi və bu sahədə beynəlxalq səviyyədə tanınan standartların əldə edilməsi ilk növbədə Azərbaycanın insan hüquqları sahəsində beynəlxalq müqavilələrə qoşulmasını və həmin müqavilələrdə öz əksini tapmış hüquqların təmin olunması üçün müvafiq qanunvericilik və təşkilati tədbirlərin həyata keçirilməsini tələb edirdi. Ulu Öndər ölkənin demokratik inkişaf yolunu dövlət quruculuğu ilə şərtləndirdiyinə görə, onun fəaliyyətinin əsas istiqamətlərindən biri də insan hüquq və azadlıqlarının tanınması, onların təmini üçün ölkə daxilində müvafiq tədbirlərin həyata keçirilməsinin reallaşdırılması idi: “Hər bir şəxsin həyatında və cəmiyyətdə insan hüquqlarının reallığa çevrilməsi amalı ilə yaşayan Azərbaycan dövləti insan hüquqları sahəsində iyirmiyədək beynəlxalq konvensiya və sazişlərə qoşulmuşdur.

Yəqin sizə məlumdur ki, bu ilin fevral ayında imzaladığım “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqmda” fərmanla ölüm cəzasının tam ləğv edilməsinə dair öhdəlikləri nəzərdə tutan “Mülki və siyasi hüquqlar üzrə Beynəlxalq Paktın İkinci Fakültətiv Protokolu”na və insan hüquqları sahəsində mövcud olan digər beynəlxalq sazişlərə qoşulması barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə tapşırıq vermişəm.

Biz insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla, o cümlədən qeyri-hökumət təşkilatları ilə əməkdaşlığı böyük məmnuniyyətlə qəbul edirik. Avropa Şurası, ATƏT-in Demokratik İnstitutlar və İnsan Hüquqları Bürosu, Beynəlxalq Amnistiya, İnsan Hüquqlarını Müşahidə edən Helsinki Təş-

kilatı və digər beynəlxalq təşkilatlarla əməkdaşlığımızı inkişaf etdirmək üçün bütün imkanlardan istifadə edəcəyik.

Məsuliyyətlə deyə bilərəm ki, bu gün ölkəmizdə insan hüquqlarının müdafiəsi sahəsində aparılan işlər, qazanılan dəyərlər beynəlxalq norma və prinsiplərdən irəli gəlir və Azərbaycan Respublikası məhz bu prinsiplər vasitəsilə insan ləyaqətini bundan sonra da təmin etmək əzmindədir".[5]

Ümummilli Lider insan hüquqlarının müdafiəsinə dair dövlət proqramını təsdiqləməklə, Azərbaycan cəmiyyətində hüquqi və demokratik islahatları daha da dərinləşdirmiş və bu istiqamətdə möhkəm hüquqi baza formalaşdırmışdı. Onun məqsədi Azərbaycanın müstəqillik illərində beynəlxalq hüquq normalarına inteqrasiyasını sürətləndirmək və vətəndaşların hüquqlarının daha güclü şəkildə qorunmasını təmin etmək idi.

Adı çəkilən proqram Azərbaycan Respublikasında insan hüquqlarının qorunması sahəsində hüquqi təminatların gücləndirilməsi məqsədilə hazırlanmış ilk rəsmi dövlət sənədi olaraq, Azərbaycanın beynəlxalq öhdəliklərini və Konstitusiyada təsbit olunmuş insan hüquqları prinsiplərini praktikada tətbiq etməyə yönəldilmişdi.

Proqramın əsas məqsədi insan hüquqlarının müdafiəsi sahəsində dövlət siyasətini formalaşdırmaq və bu hüquqların təminatını sistemli şəkildə həyata keçirmək idi. Proqramda həmçinin, Azərbaycan Respublikasının beynəlxalq insan hüquqları standartlarına uyğunlaşması üçün beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulurdu. Xüsusilə, BMT, Avropa Şurası və ATƏT kimi təşkilatlarla əməkdaşlıq ön plana çəkilirdi.

5 iyul 1999-cu il tarixində Birləşmiş Millətlər Təşkilatının Baş katibi Kofi Annana müraciətində Heydər Əliyev insan hüquq və azadlıqlarının təmin olunması sahəsində Azərbaycan Respublikasında görülən işlər barədə məlumat verərək deyirdi: "Azərbaycan Respublikası

[5] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On altıncı kitab, s. 266

mütərəqqi bəşəriyyətlə birlikdə ümumdünya bəyannaməsinin müddəalarının həyata keçirilməsinə yönəldilmiş tədbirlərdə fəal iştirak edir.

Dövlət müstəqilliyini əldə etmiş Azərbaycan Respublikası demokratik prinsiplərə, insan hüquqlarına və əsas azadlıqlarına hörmət və riayət edilməsinə sadiq olduğunu bəyan etmişdir.

Ümumdünya bəyannaməsinin məqsəd və vəzifələrini yerinə yetirən Azərbaycan Respublikası 125 beynəlxalq konvensiyalara, o cümlədən insan hüquqlarının müdafiəsi sahəsində çoxtərəfli müqavilələrə - "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt"a, "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt"a, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyaya, "İşgəncələrə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəzalara qarşı" Konvensiyaya, "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyaya və "Uşaq hüquqları haqqında" Konvensiyaya qoşulmuşdur.

İnsan hüquqları sahəsində beynəlxalq sazişlərdə və Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş yaşamaq hüququna təminat verilməsi məqsədilə Şərqdə ilk dəfə olaraq 1998-ci il fevralın 10-da Azərbaycan Respublikasında ölüm cəzasının ləğv edilməsi haqqında qanun qəbul edilmişdir. 1998-ci il dekabrın 11-də isə ölkəmiz "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt"ın ölüm cəzasının ləğv edilməsinə yönəldilmiş ikinci fakültətiv protokoluna qoşulmuşdur".[6]

"İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" Azərbaycanda hüquq islahatlarının daha da dərinləşdirilməsinə və insan hüquqları sahəsində beynəlxalq öhdəliklərin yerinə yetirilməsinə imkan yaratmışdı. Bu proqram çərçivəsində bir sıra hüquqi aktlar qəbul edilmiş və insan hüquqlarının müdafiəsi üçün yeni institutlar yaradılmışdı. Bunların arasında Azərbaycanın insan hüquqları üzrə milli təsisatının – Ombudsman institutunun yaradılması xüsusi əhəmiyyət daşıyırdı. Proqramın hüquqi əhəmiyyəti həm də onun insan

---

[6] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İyirminci kitab, s. 430

hüquqları sahəsində qanunvericilik bazasının gücləndirilməsinə öz təsirini göstərməsində idi. Belə ki, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və digər hüquqi normativ aktlar proqramın həyata keçirilməsi nəticəsində qəbul edilmişdir.

Ombudsman institutunun yaradılması 2001-ci il 28 dekabr tarixində qəbul edilən "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Qanunla hüquqi qüvvəyə minmiş və bu qanun dövlətin insan hüquqlarının müdafiəsi sahəsində gördüyü islahatların birbaşa nəticəsi olaraq formalaşdırılmış, ölkədə insan hüquqlarının müdafiəsinin effektivliyini artırmaq məqsədilə hüquqi mexanizmləri genişləndirmişdir.

"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanun da Azərbaycanın hüquq sistemində mühüm əhəmiyyət kəsb edən qanunlardan biridir. Bu qanunun qəbulu və onun "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" ilə əlaqələndirilməsi ölkədə insan hüquqları sahəsində görülən hüquq islahatlarının bir hissəsi olaraq dəyərləndirilir.

Proqramın əsas məqsədlərindən biri vətəndaşların hüquqlarının daha güclü qorunması üçün hüquqi institutların və mexanizmlərin təkmilləşdirilməsi idi. Bu kontekstdə vəkillik fəaliyyəti xüsusi əhəmiyyət kəsb edirdi, çünki vəkillər vətəndaşların hüquqlarını məhkəmələrdə və digər hüquq-mühafizə orqanlarında müdafiə edən əsas şəxslərdir.

"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanun vətəndaşların məhkəmələrdə peşəkar hüquqi müdafiə almaq hüququnu gücləndirərək, Proqramın vətəndaşların hüquqi yardıma çıxışını təmin etmək məqsədinin reallaşdırılmasına yönəlmişdir.

Qanun vəkillərin peşə etikası və məsuliyyəti ilə bağlı tələbləri müəyyənləşdirərək vəkillərin peşəkar fəaliyyətində yüksək standartlara riayət etməsini təmin edir və onların vətəndaşların hüquqlarını səmərəli şəkildə qorumaq məsuliyyətini artırır.

Vəkillik fəaliyyəti ali hüquq təhsilli, hüquqşünas ixtisası üzrə üç ildən az olmayaraq iş stajı olan və ya elmi və pedaqoji təhsil müəs-

sisələrində hüquq sahəsində üç ildən az olmayan müddətdə fəaliyyət göstərən, İxtisas Komissiyasında peşə yararlılığının müəyyən edilməsi məqsədilə yazılı testdən və şifahi müsahibədən ibarət ixtisas imtahanını müvəffəqiyyətlə vermiş və icbari təlimi müvəffəqiyyətlə bitirmiş şəxslər tərəfindən həyata keçirilə bilər. Bu, vətəndaşların hüquqlarının müdafiəsi zamanı yüksək keyfiyyətli hüquqi xidmət göstərilməsini təmin edir və Dövlət Proqramının maarifləndirmə və hüquqi biliklərin artırılması məqsədinə cavab verir.

Beləliklə, bu Qanunun qəbul edilməsi Dövlət Proqramında nəzərdə tutulan insan hüquqlarının müdafiəsi mexanizmlərinin həyata keçirilməsi üçün mühüm addım olmuşdur. Qanun vətəndaşların hüquqlarını müdafiə etmək üçün müstəqil və peşəkar vəkillik fəaliyyətini təşkil edir, hüquqi yardıma çıxışı təmin edir, insan hüquqlarının müdafiəsi üçün beynəlxalq standartlara uyğun mexanizmləri formalaşdırır.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən və bu gün Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilən bu islahatlar Azərbaycanın hüquq sisteminin daha da gücləndirilməsinə və vətəndaşların hüquq və azadlıqlarının etibarlı şəkildə qorunmasına yönəlmişdir.

# 2. Heydər Əliyevin ayrı-ayrı cinayətlərlə mübarizə barədə fikirləri. Həmin cinayətlərlə mübarizənin hüquqi əsasları

## 2.1. Korrupsiya cinayətləri

### 2.1.1. Heydər Əliyev: "Mənəviyyat insana xas olan xüsusiyyətlərin hamısından yüksəkdir"

Hər bir şəxsdə, xüsusən hüquq-mühafizə orqanları əməkdaşlarında mənəvi keyfiyyətlərin yüksək olmasını arzulayan Heydər Əliyev, polis orqanları əməkdaşları ilə hər bir görüşündə bu amili xüsusi vurğulayırdı. 20 sentyabr 1993-cü ildə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyində keçirilmiş müşavirədəki çıxışında Ulu Öndər polis orqanlarının fəaliyyətini təhlil edərkən mənəvi təmizliklə bağlı məsələləri bir daha qeyd edərək deyirdi: "Polis orqanlarının fəaliyyəti bir tərəfdən polis işçilərinin, Daxili İşlər Nazirliyi işçilərinin biliyindən, bacarığından, peşə səviyyəsindən asılıdırsa, digər tərəfdən bu orqanlarda möhkəm, dəmir nizam-intizamdan asılıdır. Bu nizam-intizam nə qədər möhkəm olsa, nə qədər sağlam olsa, nə qədər qanunlara istinad etsə, eyni zamanda nə qədər ədalətli olsa, sizin işiniz də bir o qədər səmərəli olacaqdır. Bunlarla yanaşı, polis orqanları işçilərinin hər biri yüksək mənəviyyat nümunəsi olmalıdır.

...Təəssüf ki, indi mövcud olan hal on il, iyirmi il bundan qabaq da olub, amma son dövrlərdə bu, çox ifrat səviyyəyə gəlib çatıb: polis orqanları işçilərinin öz vəzifələrindən şəxsi məqsədlər üçün, şəxsi mənafelər üçün istifadə etməsi halları geniş yayılıbdır.

...Rüşvətxorluq, vəzifədən sui-istifadə etmək, insanlara qanunsuz təzyiq göstərmək, zor işlətmək və yaxud başqa hallar polis orqanlarının iş praktikasından, yəni əməli fəaliyyətindən tamamilə kənar olunmalıdır. Siz bu hallarla mübarizə aparmalısınız" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 143-144).

Heydər Əliyevin dövlət başçısı kimi yüksək keyfiyyətlərindən biri də obyektiv reallıqlara söykənməklə fikirlərini ifadə etməsi idi. O, həmişə hər hansı bir məsələdən, hər hansı bir qurumdan söhbət salırdısa, bu sahədə olan müsbət, mütərəqqi hallarla yanaşı, inkişafa mane olan mənfi halları da qeyd edir, nöqsanların aradan qaldırılması üçün tövsiyələrini verirdi. 21 sentyabr 1993-cü il tarixində Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdəki çıxışında Heydər Əliyev ali məktəblərin işində mütərəqqi cəhətlərlə yanaşı, korrupsiya hallarının olmasını da qeyd edərək deyirdi: "Azərbaycanda savadsız adam tapmaq çətindir. Ətrafdakı Şərq ölkələrinə baxın, orada nə qədər savadsız adam var. Azərbaycanda ali təhsil səviyyəsi çox yüksəyə qalxmışdır... Düzdür, ali məktəblərin işində çoxlu nöqsan var, xüsusən rüşvətxorluq və sair kimi çirkin hallar var. Bu, həqiqətdir. Ancaq bütün bunlarla yanaşı, ali məktəblərimizin yaranması və inkişaf etməsi bu gün üçün nə qədər böyük nailiyyətdir!" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 158).

17 noyabr 1993-cü il tarixində Azərbaycanın siyasi partiyalarının və ictimai hərəkatlarının rəhbərləri ilə görüşdə Heydər Əliyev cəbhədəki uğursuzluqların səbəbini müdafiə qüvvələrinin vaxtında möhkəmləndirilməməsi, ölkədə daxili sabitliyin olmaması, müstəqillik qazanıldıqdan sonra hakimiyyət dairələrinin zəifliyi nəticəsində vaxtdan səmərəli istifadə edilməməsi ilə yanaşı, rüşvətxorluqla da əlaqələndirir, bu cür hallara son qoyulmasını tələb edirdi: "Eyni zamanda, şübhəsiz, biz müdafiə qüvvələrimizi möhkəmləndirməliyik. Burada qeyd olundu, məğlubiyyətlərimizin səbəbləri çoxdur. Ancaq bunlardan biri də daxili sabitliyin olmaması, hakimiyyət dairələrinin zəifliyi, müstəqillik qazandığımız vaxtdan ötən dövrdən səmərəli istifadə edilməməsi ilə yanaşı, Azərbaycanın özünü müdafiə edəcək ordu yarada bilməməsidir. Burada mafioz qruplar, rüşvətxorluq haqqında danışdılar, – bunlar hamısı düzdür. Lakin mafioz qruplar ən çox bizim ordu sisteminə daxil olmuşdur. Cəbhədə qan töküldüyü halda, burada ayrı-ayrı adamlar pul-para mənimsəmişlər. Adamlar həlak olduğu, ev-

eşiklərini itirdiyi, didərgin düşdüyü halda bəziləri bu fürsətdən istifadə edərək qanunsuz yollarla özlərinə həddindən artıq var-dövlət yığmışlar. Bizim dərdimiz, bəlamız budur. Ona görə də ordumuz yaradılmamışdır.

... Bütün bu səbəblərə görə ordunun indiyədək yaradılmaması, onun sıralarına çox mənfi ünsürlərin sirayət etməsi, ordu daxilində ayrı-ayrı mafioz qrupların fəaliyyət göstərməsi, ondan öz şəxsi məqsədləri üçün istifadə etməsi... bütün bunlar məğlubiyyətlərimizin ən başlıca səbəbidir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 252-253).

Heydər Əliyev, həmçinin, rüşvətxorluğa qarşı həmişə amansız olmasından, onunla daim mübarizə aparmasından, mənəviyyatla yaşamağın üstünlüklərindən bəhs edərək deyirdi: "Burada deyirlər ki, rüşvətxorluq indi ən yüksək zirvəsinə çatıb. Mən buna razı deyiləm. Mən bu respublikaya 14 il rəhbərlik etmişəm və fəaliyyətə başladığım vaxtdan son günədək, hətta 1982-ci ildə buradan gedib Moskvada işlədikdən 1987-ci ilin sonunda istefaya çıxana qədər rüşvətxorluqla mübarizə aparmışam. O dövrdə də rüşvətxorluq var idi və ona qarşı ən ciddi mübarizəni mən aparmışam. O vaxt cəza nə idi? İşdən çıxarırdıq, partiyadan kənar edirdik – o vaxt bu, çox böyük cəza idi. İndi partiya yoxdur və partiyadan çıxıb getmək elə bir şey deyil. Bəli, bu tədbirləri mən görmüşəm. Həbs cəzasına məhkum edilənlər də oldu. Amma o vaxt rüşvətxorluq üstündə tutulan adamların hamısı sonralar «durğunluq dövrünün qurbanları» adı ilə ən yüksək vəzifələrə qaldırıldı. Bizim həyatımızın gerçəkliyi budurmu? Budurmu ötən iyirmi illik tariximiz? Mən bu tarixin iştirakçısıyam. Mən rüşvətxorluğa qarşı amansız olmuşam. Rüşvət alan adam da, verən adam da cinayət məsuliyyəti daşıyır. O, rüşvəti nə üçün verir? Çünki rüşvət verməyə öyrənib. Mən o vaxt işləyəndə deyirdilər ki, bəzi adamlar rüşvət verməsə, özünü rüşvət alana yaxın hesab etmir. Əgər rüşvət verirsə, demək, o adamla bağlı olur.

... Mən tamamilə razıyam ki, indi yox, dünən də, on il, iyirmi il bundan qabaq da bizim mənəviyyatımızı pozan rüşvətxorluq olub və

ilbəil inkişaf edibdir. Nizam-intizam pozulduğuna görə, hüquq-mühafizə orqanlarının özündə rüşvətxorluq geniş yayıldığına görə bu, get-gedə artıb və ona qarşı mübarizə aparmaq bizim borcumuzdur. Bununla hamı, həm də hərə öz sahəsində mübarizə aparmalıdır. Əgər siyasi partiyaların bu barədə konsepsiyaları varsa, konkret fikri varsa, yaxud konkret bir yerdə rüşvətxorluq haqqında məlumatı varsa, biz onlardan istifadə etməyə hazırıq" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 255-256).

Ölkədə korrupsiya hallarının mövcudluğunu inkar etməyən Heydər Əliyev bu hallara qarşı real mübarizə aparılması üçün təkrar-təkrar müzakirələr keçirir, hüquq-mühafizə orqanlarının fəaliyyətinin səmərəliliyini dəyərləndirməyə çalışır, işin elə təşkilini tələb edirdi ki, sonda iqtisadiyyatın inkişafına təkan verən nəticələrin əldə edilməsi mümkün olsun. 19 noyabr 1993-cü il tarixində Prezident sarayında bank-maliyyə, tədiyə sistemlərinin və idxal-ixrac əməliyyatlarının vəziyyətinə və onu yaxşılaşdırmaq sahəsində vəzifələrə həsr olunmuş ümumrespublika müşavirəsində Heydər Əliyev həmin sahələrdə nizam-intizamın gücləndirilməsi, rüşvətxorluğun aradan qaldırılması üçün fikirlərini ifadə edərək deyirdi: "Gömrük siyasəti iqtisadiyyatımızın yüksəlməsini təmin edən əsas amillərdən biridir. İndiyədək biz bundan lazımınca istifadə etməmişik. Gömrük idarələrində qanun pozuntuları var, öz vəzifələrindən sui-istifadə edirlər, gömrük işçilərinin rüşvətxorluqla məşğul olması barədə çoxlu siqnal alınır. Rüşvət almamış mal buraxmırlar. Ona görə də biz gərək bir tərəfdən gömrük siyasətimizi tənzimləyək, digər tərəfdən elə edək ki, gömrük qanunları günün tələblərinə uyğun olsun, əməkdaşlar arasında geniş iş aparılsın, onlar rüşvətxorluqdan çəkindirilsin.

...Əgər biz vergi haqqında qanun qəbul edərkən onun təlimatında vergi verməyən təşkilatların bağlanması, ciddi iqtisadi sanksiyalar tətbiq olunması kimi müəyyən cəza tədbirləri nəzərdə tutsaq, beləlsəri haqqında cinayət işi qaldırmağa və bu işə prokurorluğun qarışmasına heç bir ehtiyac qalmaz. Vergini verməyən təşkilatların fəaliyyəti dayan-

dırılsa, iqtisadi yolla onları vergi verməyə məcbur etsək, prokurorluğun müəyyən tədbir görməsinə də lüzum olmayacaqdır. Əslində, prokurorluq iki-üç ay belələrini get-gələ salacaq, sonra işi məhkəməyə verəcək və iş burada da xitam olunacaq. Bunun heç bir xeyri olmayacaq" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 262-263).

27 dekabr 1993-cü il tarixində Azərbaycanın milli qəhrəmanları və Vətənimizin azadlığı uğrunda şəhid olanların ailə üzvləri ilə görüşdə Heydər Əliyev vətəndaşlıq borcundan söhbət açaraq rüşvət vermək və başqa vasitələrlə ordu sıralarından yayınma hallarını Vətənə xəyanət kimi dəyərləndirirdi: "Əsrlər boyu Azərbaycanı məhz belə insanlar, belə oğullar qoruyub saxlayıb, yaşadıb və bu günə gətirib çıxarıblar. Məhz belə insanlar Azərbaycanı bu bəladan qurtaracaq, Vətənimizin yüksəlişini təmin edəcək, Azərbaycanı xoşbəxt gələcəyə aparacaqlar. Əminəm ki, bu gözəl nümunələr bütün Azərbaycan vətəndaşları üçün örnək olacaqdır. Gənclər üçün örnək olmalıdır ki, hər bir gənc Azərbaycan vətəndaşı öz borcunu yerinə yetirməyə hazır olsun və onu layiqincə yerinə yetirsin. Valideynlər üçün örnək olmalıdır ki, onlar bilsinlər – övladlarını cürbəcür yollarla, təəssüflər olsun, bəzən də rüşvət verməklə, başqa vasitələrlə ordu sıralarına çağırışdan saldırmaqla, yaxud da uzaqlaşdırmaqla onlar özlərinə, öz mənəviyyatına, Vətənə, xalqa xəyanət edirlər" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 304).

Bütün fəaliyyəti dövründə nizam-intizam, qayda-qanun tərəfdarı olan Heydər Əliyev 30 mart 1994-cü il tarixində Prezident sarayında pambıqçılıqda mövcud vəziyyət və səpin kampaniyasına hazırlıqla əlaqədar problemlərin həlli yollarına həsr olunmuş müşavirədə yeni iqtisadi sistemə keçidlə bağlı məsələləri müzakirəyə çıxarır, bazar iqtisadiyyatının insanlara təşəbbüskarlıq göstərmək imkanı verməsini, hər bir kəsin var-dövlətə malik olmasına təminat yaratmasını müsbət dəyərləndirir, lakin bununla yanaşı, var-dövlətin oğurluq, əyrilik, fırıldaq, başqasının, dövlətin, xalqın malını oğurlamaq yolu ilə deyil, qanun çərçivəsində, doğru-düzgün yolla əldə edilməli olduğunu bir

daha bəyan edirdi: “Nizam-intizamdan, qayda-qanundan danışarkən son illərdə respublikamızda xüsusilə geniş yayılmış halın – dövlət, xalq malını dağıtmaq meyillərinin, rüşvətxorluğun qarşısını almaq lazımdır. Rüşvətxorluqdan danışanlar çoxdur. Ancaq bəzən onların özləri də rüşvət almaqla məşğul olurlar. Bu, cəmiyyətimiz üçün, yeni yaranan müstəqil Azərbaycan dövləti üçün çox böyük bəladır. Bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat şübhəsiz ki, insanlara təşəbbüskarlıq göstərmək imkanı verir, hər bir kəsin var-dövlətə malik olmasına təminat yaradır. ...Mən yenə də deyirəm: Biz sərbəst iqtisadiyyat yolu ilə gedərkən onun nəticələrini bilirik və bu da təbiidir. Ancaq gərək heç kəsə imkan yaranmasın ki, o, rüşvətxorluq, əliəyrilik, fırıldaq, dövlətin, xalqın malını oğurlamaq, mənimsəmək yolu ilə özünə sərvət toplasın. Bunların qarşısı alınmalıdır” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 494).

Cinayətkarlıqla mübarizəni dövlətin vacib funksiyalarından biri kimi dəyərləndirən Heydər Əliyev vaxtaşırı bu məsələni gündəmə çıxarırdı. 29 aprel 1994-cü il tarixində Prezident sarayında Daxili İşlər Nazirliyinin rəhbər işçilərinin geniş müşavirəsində cinayətlərin, xüsusən rüşvətxorluğun aradan qaldırılması üçün hüquq-mühafizə orqanlarının hamısının birlikdə, bərabər, ahəngdar fəaliyyət göstərməsini tələb edirdi: “Cinayətkarlıq həddindən çox artıb. Cinayətkarlıqla mübarizə zəif gedir. İnsanların hüquqları tapdalanır. Bizim polis orqanları insanların hüquqlarının qorunmasına çox vaxt təminat verə bilmirlər. Respublikamızda nizam-intizam aşağı səviyyədədir. Müəssisələrdə, təşkilatlarda, respublikamızın cürbəcür özəklərində cinayətkarlıq, rüşvətxorluq, bir çox mənfi hallar geniş yayılmışdır. Bunların aradan götürülməsi, belə hallara qarşı mübarizə aparılması üçün hüquq-mühafizə orqanları hamısı birlikdə, bərabər, ahəngdar fəaliyyət göstərməlidirlər. Bu orqanlar arasında da DİN-in xüsusi yeri var. Təəssüf ki, mən hüquq-mühafizə orqanlarının nə mütəşəkkil fəaliyyətini, – belə bir mütəşəkkillik yoxdur –, nə də DİN-in günün tələblərinə uyğun olan fəaliyyətini görə bilirəm».

11 avqust 1994-cü il tarixində Prezident sarayında respublika iqtisadiyyatının vəziyyətinə həsr olunmuş geniş müşavirədə Heydər Əliyev gömrük sahəsində vəzifədən sui-istifadə və rüşvətxorluq hallarının olmasını qeyd edərək, bununla ciddi mübarizənin zəruriliyini vurğulamaqla yanaşı, həm hüquq-mühafizə orqanlarının, həm yerli hakimiyyət orqanlarının, həm də həyatın müxtəlif sahələrində çalışan vəzifəli şəxslərin cinayətkarlıqla mübarizə aparmalarının zəruriliyini, cinayətkarlığın – banditizmin, cürbəcür digər təhlükəli cinayətlərin qarşısının alınmasını, hüquq-mühafizə orqanlarının öz işlərini ciddi şəkildə qurmalarını tələb edirdi: "Eyni zamanda inzibati orqanlarımız, hüquq-mühafizə orqanlarımız öz işlərini yaxşılaşdırmalıdır. Gömrük Komitəsinin sədri burada çıxış edərkən rüşvətxorluqdan da danışdı. İqtisadiyyatımızın bu kökə düşməsinin səbəblərindən biri də rüşvətxorluğun geniş yayılmasıdır. Həm dövlət orqanlarında, həm inzibati orqanlarda, həm də iqtisadiyyatla məşğul olan orqanlarda cürbəcür yollarla oğurluq, vəzifədən sui-istifadə və rüşvətxorluq halları bütün həyatımıza çox böyük zərbələr vurur. Bu hallara qarşı ciddi mübarizə aparmaq lazımdır.

... Cinayətkarlığın – banditizmin, reketlərin, cürbəcür digər təhlükəli cinayətlərin qarşısı alınmalıdır. Hüquq-mühafizə orqanları öz işlərini ciddi şəkildə qurmalıdırlar. Hüquq-mühafizə orqanlarının işi bu gün bizi qane edə bilməz. Ona görə də onlardan tələb olunur ki, birinci növbədə cinayətkarlıqla mübarizəni gücləndirsinlər, eyni zamanda bu orqanlarda şəxsi heyətin mənəvi cəhəti ilə çox ciddi məşğul olsunlar. Gömrük Komitəsi haqqında dediyim sözlər, təəssüf ki, hüquq-mühafizə orqanlarımızın hamısına aiddir. Vəzifəsindən sui-istifadə edənlər, ayrı-ayrı hallarda rüşvətxorluq edənlər var, onları aşkara çıxarmaq, ifşa etmək lazımdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab, s. 121-122).

Heydər Əliyev hesab edirdi ki, cinayətkarlıq, rüşvətxorluq, korrupsiya ictimaiyyəti, adamları narahat edən, onlarda narazılıq doğuran əsas problemdir. Belə hallar ölkədə görülmüş mütərəqqi

işlərə ləkə salır, cəmiyyətdə etimadsızlıq yaradır və aparılan işlərin dəyərinə mənfi təsir göstərirdi. Xüsusən, torpaqların azad olunması uğrunda vuruşmuş şəxslərə göstərilən biganəlik, onlardan müxtəlif bəhanələrlə rüşvət tələb olunması hallarına qarşı xüsusi dözümsüzlük nümayiş etdirən Heydər Əliyev 18 avqust 1994-cü il tarixində Prezident sarayında respublikanın kənd təsərrüfatında 1994-cü ilin birinci yarısının yekunlarına və islahatların keçirilməsi vəziyyətinə həsr olunmuş müşavirədə deyirdi: "Müharibədə döyüşçülərimizin bir hissəsi yaralanmış, əlil olmuşdur. Həm də bəziləri fiziki cəhətdən çox ağır vəziyyətdədir. Ermənistanla gedən müharibə Azərbaycan üçün Vətən müharibəsidir. Bu müharibədə yaralanan, əlil olan adamlara cəmiyyətimiz, şübhəsiz ki, daim qayğı ilə yanaşmalıdır. Lakin təəssüf ki, çox yerlərdə bu adamlara nəinki qayğı göstərilmir, hətta bəzən onlara mənfi münasibət bəsləyirlər. Yaralananların, əlillərin problemləri çoxdur. Lakin eşidəndə ki, onlara kömək edilmir, qayğı göstərilmir və hətta bu adamlardan da rüşvət almağa çalışırlar, – insan dəhşətə gəlir..." (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab, s.137-140).

9 yanvar 1995-ci il tarixində Dövlət Gömrük Komitəsinin 1994-cü ildəki fəaliyyətinin yekunlarına həsr olunmuş müşavirədə Heydər Əliyev yenidən rüşvətxorluq məsələlərini gündəmə gətirərək deyirdi: "Onlar mənə deyirlər ki, sizdə gömrük işləri, sərhəddə olan xidmətlər – təkcə gömrük deyil, başqa xidmətlər də var, o cümlədən bu sözlər sərhədçilərə, polis orqanlarına da aiddir – elə vəziyyətdədir ki, bir dəfə gəlib-gedəndən sonra ikinci dəfə gəlməyə həvəsimiz olmur: bizi incidirlər, rüşvətxorluq, soyğunçuluq və başqa bu kimi hallar çox geniş yayılıbdır. ...biz bunları həm Azərbaycan vətəndaşlarından, həm də xarici ölkələrin vətəndaşlarından, iş adamlarından, Azərbaycanda iş görmək istəyənlərdən və respublikamız üçün ürəyiyanan adamlardan eşidirik. Bax, bunların hamısını nəzərə alaraq, Dövlət Gömrük Komitəsinin hesabatını dinləmək üçün bu gün bu müşavirəni çağırmışam və məsələnin səmərəli müzakirə olun-

ması üçün rəhbər vəzifəli şəxsləri buraya dəvət etmişəm" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab, s. 109).

Müşavirədə Heydər Əliyev müzakirələri ümumiləşdirərək deyirdi: "…müzakirədən çıxarılan əsas nəticə budur ki, biz Azərbaycanda gömrük orqanlarının işini kökündən dəyişdirməliyik, sağlam əsaslar üzərində qurmalıyıq. Həqiqi gömrük orqanları qurulmalıdır. Bu, bizim bugünkü dövrümüz və müstəqil Azərbaycanın gələcəyi üçün ən zəruri vəzifələrdən biridir. Elə bir gömrük orqanı yaratmalıyıq ki, o, xarici iqtisadi əlaqələrimizdə öz yerini tutsun, iqtisadiyyatımızın inkişafına xidmət etsin, xarici əlaqələrdə, bütün başqa əlaqələrdə müstəqil Azərbaycanın nüfuzunu təmin etsin, bizə biabırçılıq, ləkə gətirməsin. Amma hələ ki, iqtisadi zərər, oğurluq, rüşvətxorluq, korrupsiya bir tərəfdən, eyni zamanda gömrük orqanlarının belə vəziyyətdə olması siyasi baxımdan Azərbaycan Respublikasını ləkələyir. Xaricdən gəlmiş hər bir vətəndaş gömrük orqanından narazı gedirsə, o həm də dövlətimizdən, xalqımızdan narazı olur. Amma bu, təkcə gömrük orqanlarına aid deyildir. Burada deyildi və onsuz da məlumdur, bütün başqa orqanlara da aiddir. Hamı - polis, prokurorluq orqanları, sərhədçilər, sərhəd məntəqələrində dayanan digər adamlar da özləri üçün nəticə çıxarmalıdırlar. Yenə də qeyd edirəm, dediklərim hamıya, bütün bu orqanlara aiddir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab, s. 111-112).

14 aprel 1995-ci il tarixində respublikada aqrar islahatların gedişi və kənd təsərrüfatında vəziyyətə həsr olunmuş müşavirədə Heydər Əliyev xarici investorlardan müxtəlif vəzifəli şəxslər tərəfindən rüşvət tələb olunmasını keçid dövründə iqtisadiyyata vurulan ən böyük zərbə kimi dəyərləndirərək deyirdi: "İqtisadiyyat Nazirliyi haqqında danışmaq istəyirəm. Mənə çox deyirlər ki, investisiya haqqında təkliflərlə İqtisadiyyat Nazirliyinə gəlirlər, lakin ya onları qəbul etmirlər, ya da qəbul edərkən qarşılarına elə şərtlər qoyurlar ki, onlar bu şərtlərlə razılaşa bilmirlər. Çox hallarda da rüşvət tələb edirlər.

... Bunların hamısı respublikamıza investisiya gəlməsinin qarşısını alan şeylərdir. Bu məsələlər bəlkə də kənd təsərrüfatı mövzusundan kənardır, ancaq kənarda da deyil. Siz özünüz də bunlarla rastlaşırsınız, rastlaşacaqsınız. Ona görə də bunları qeyd etməklə bir də demək istəyirəm ki, respublikada, ümumiyyətlə ictimaiyyətdə, cəmiyyətdə olan vəziyyətə, camaatın əhval-ruhiyyəsinə ən çox mənfi təsir göstərən rüşvətxorluqdur. Təəssüf ki, rüşvətxorluq bizim dövlət orqanlarında, iqtisadiyyat orqanlarında, hüquq-mühafizə orqanlarında, bütün sahələrdə geniş yayılmışdır.

... Bu bizi içimizdən yeyir, dağıdır. Cəmiyyətdə əxlaqı pozur, insanların mənəviyyatını pozur. Bunların hamısı da həm iqtisadi islahatların aparılmasına, həm ümumi işimizin getməsinə maneçilik törədir, həm də cəmiyyətimizdə zərərli ünsürlərin baş qaldırmasına şərait yaradır. Ona görə də rüşvətxorluqla mübarizə, belə halların qarşısının alınması, bu sahədə ciddi tədbirlərin görülməsi bizim əsas vəzifələrimizdəndir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab, s. 349-350).

Vəzifəsindən sui-istifadə etməyi, rüşvətxorluğu hər şeydən üstün tutub ümumi işə zərər vurmağı dövlət idarəçiliyində yolverilməz hesab edən Heydər Əliyev 3 may 1995-ci il tarixində Respublika Nazirlər Kabinetinin geniş iclasında bu cür halların qarşısının alınması barədə ciddi xəbərdarlıq etdi: "Belə çox çirkin hallar Nazirlər Kabinetinin rəhbərliyində də, onun Aparatının işində də olubdur və bəziləri bu gün də davam edir. Bizə belə siqnallar gəlib çatır. Bunlara son qoymaq lazımdır. Vəzifəsindən sui-istifadə etmək, rüşvətxorluq, müxtəlif iqtisadi əlaqələrdə - öz aralarında, yaxud xarici şirkətlərlə əlaqələrdə şəxsi mənafeləri hər şeydən üstün tutub işlərə zərər vurmaq kimi hallar mənəviyyatımıza, həyatımıza zidd olan hallardır və bunların hamısının qarşısı alınmalıdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab, s. 401).

16 dekabr 1995-ci il tarixində Azərbaycan Kinematoqrafçılar İttifaqının yeni seçilmiş İdarə Heyətinin üzvləri ilə görüşdə SSRİ

dövrünü xatırladaraq, rüşvətxorluğu ifşa edən "İstintaq" filminin ekranlara buraxılması ilə bağlı maneələrin dəf olunması üçün görülən işlərdən söhbət açan Ulu Öndər deyirdi: “...biz 1969-cu ildən etibarən 70-ci illərdə korrupsiya ilə, rüşvətxorluqla, cürbəcür mənfi hallarla mübarizəni Azərbaycanda başladıq... O vaxtlar Sovetlər İttifaqında cəmiyyətimizin bu mənfi cəhəti ilə mübarizə məsələsini biz təşkil etdik və bunun da nəticəsi olaraq məsələn, "İstintaq" filmi yarandı. Filmin nə cür çətinliklərlə yarandığını bilirsiniz, ona mane olanlar vardı. Mən filmin yaranmasına nəinki kömək, həm də himayədarlıq etdim... Bilirsiniz, o film ilə biz çox iş gördük” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Dördüncü kitab, s.188-189).

1 iyun 1996-cı il tarixində “Oqonyok” jurnalının Azərbaycana həsr olunmuş xüsusi nömrəsinin təntənəli təqdimat mərasimində Heydər Əliyev həmişə dövrün mənfi hallarının - korrupsiyanın, rüşvətxorluğun kökünü kəsməyin zəruriliyini qeyd edərək deyirdi: “Yeri gəlmişkən, deyim ki, "Oqonyok"un nömrələrində dərc edilən məqalələrimdən, müsahibələrimdən danışarkən (bunları qaldırıb baxmaq olar) bildirmək istəyirəm ki, öz yazdıqlarımın və ya müxbirlərlə söhbətlərimin hamısını o dövrün mənfi hallarına, bu halların, korrupsiyanın, rüşvətxorluğun qəyyumçuluğun və əslində, həmin quruluşun dağılmasına gətirib çıxaran bir çox digər mənfi halların kökünü kəsməyin zəruriliyinə həsr etmişəm. Mən bu barədə açıq danışır və açıq yazırdım. Ona görə bu gün də o zaman yazdıqlarım barədə, o cümlədən "Oqonyok" jurnalının səhifələrində yazdıqlarım haqqında təmiz vicdanla danışıram” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Dördüncü kitab, s. 375).

28 iyun 1996-cı il tarixində görkəmli dövlət xadimi, general-leytenant Arif Heydərovun 70 illiyinə həsr olunmuş yubiley gecəsində mərhum generalın rüşvətxorlarla və xalqın əmlakını dağıdanlarla mübarizədə silahdaşı olmasını xatırlayaraq deyirdi: “…o vaxt, 1969-cu ilin iyulundan sonra mən xalqımızı, respublikamızı çox narahat edən bir çox hallarla rastlaşdım və onlara qarşı mübarizə aparmağa başladım. Xüsusən, vəzifəsindən sui-istifadə edən şəxslərlə. rüşvətxorlar-

la, xalqın əmlakını dağıdanlarla, vəzifəsindən istifadə edib insanların hüquqlarını pozanlarla, iqtisadiyyatımıza zərər vuranlarla, mənəviyyatımıza ləkə gətirənlərlə, cürbəcür neqativ hallarla mübarizəyə başladım.... O zaman bu işləri aparmaq, ayrı-ayrı sahələrə rəhbərlik etmək üçün mənim tələblərimə uyğun insanlar lazım idi. Bunlardan birincisi, mən Arif Heydərovu seçdim. 1969-cu ilin iyulunda Azərbaycana rəhbər seçiləndən sonra həmin ilin sonunda mənim ilk addımlarımdan biri Daxili İşlər Nazirliyində yaranmış ağır vəziyyəti aradan götürməkdən ibarət oldu" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Altıncı kitab, s. 491).

18-19 iyul 1996-cı il tarixlərində Azərbaycan Respublikası Nazirlər Kabinetinin respublikada sosial-iqtisadi sahənin inkişafına həsr olunmuş geniş iclasında Heydər Əliyev Gömrük Komitəsində, Xarici İqtisadi Əlaqələr Nazirliyində mövcud olan qeyri-sağlam münasibətlərin ölkənin imicinə mənfi təsirlərindən söhbət açaraq deyirdi: "Mən Gömrük Komitəsindən, Xarici İqtisadi Əlaqələr Nazirliyindən, polis orqanlarından, sərhəd qoşunları orqanlarından, bütün keçid məntəqələrimizdə olan təşkilatlardan tələb edirəm: birincisi, bu məntəqələrə və bu işlərə olan qeyri-sağlam münasibəti aradan qaldırmaq lazımdır. Bu qeyri-sağlam münasibət, bu məntəqələrə vəzifədən sui-istifadə etmək, rüşvətxorluq, oğurluq etmək istəyən adamların gəlib çıxması nəyə gətirib çıxarıb?! Onlar iqtisadiyyatımıza çox zərbə vurur və tək iqtisadiyyatımıza yox, ümumiyyətlə, bizim siyasi imicimizə zərbə vurur. Biz bununla razılaşa bilmərik. Bu təşkilatlar öz işlərini ciddi surətdə yenidən qurmalı, nöqsanları aradan qaldırmalıdırlar və ilin ikinci yarısında vergilərin xeyli artması imkanları var, bu imkanlardan istifadə etmək lazımdır..." (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Yeddinci kitab, s. 145).

Heydər Əliyev iclasda daha sonra vəzifədən sui-istifadə hallarını, rüşvətxorluğu, korrupsiyanı cəmiyyətin ən böyük bəlası, milli mənəviyyata zidd olan hal kimi dəyərləndirərək vəzifəli şəxsləri rüşvətxorluq hallarına münasibətdə heç kəsə müstəsna yer verilməyəcəyi, hamının qanun qarşısında cavab verməli olacağı, heç

kəsin xüsusi bir statusa malik olmayacağı barədə xəbərdar edirdi: "Azərbaycan xalqının ən mühüm məsələlərini müzakirə və həll ediriksə, demək, biz anlamalıyıq ki, xalqın qarşısında bizim nə qədər borcumuz var. Mən hesab edirəm ki, ömrümün sonuna qədər bu borcdan çıxa bilməyəcəyəm. Amma bəziləri hesab edirlər ki, bilirsiniz, hələ xalq ona borcludur, o, xalqa borclu deyil..." (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Yeddinci kitab, s. 154-157).

Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulur ki, hər kəs qanunla nəzərdə tutulmuş qaydada öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər. Ulu Öndər hesab edirdi ki, dövlət sahibkarlıq sahəsində fəaliyyət göstərən insanlara yardım göstərməli, bazar iqtisadiyyatına keçidlə bağlı sahibkarlıq üçün münbit şərait yaratmalıdır. Sahibkarlığın inkişafı dövlətin iqtisadi inkişafının zəruri tərkib hissəsini təşkil edir.

16 avqust 1996-cı il tarixində Azərbaycanda fəaliyyət göstərən sahibkarlarla görüşdə Heydər Əliyev dövlət orqanlarından tələb edirdi ki, qanuni yolla sahibkarlıq etməkdə sahibkarlara maneçilik törədilməsin, onlara əngəllər yaradılmasın, qanuni tələblər yerinə yetirilərkən onlar rüşvət verməyə sövq edilməsin, onlardan rüşvət alınmasın, onlarla birlikdə qanunu pozmasınlar: "... Mən bu gün dövlət orqanlarından tələb edirəm ki, sahibkarlara maneçilik törətməsinlər, əngəllər yaratmasınlar, mane olmasınlar, qanuni tələbləri yerinə yetirərkən onları rüşvət verməyə sövq etməsinlər, rüşvət almasınlar, onlarla birlikdə qanunu pozmasınlar. Qanun nə cür pozulur? Qanunu pozan təkcə iş adamı deyil ki, qanunu pozan eyni zamanda o qanunun keşiyində durandır. Onlar əlaqəyə girəndə qanun pozulur. Əgər onlar əlaqəyə girməsələr, qanun pozulmaz, sahibkar da düz yolla gedər. Ona görə də mən sahibkarlara bu tövsiyəni verərkən, eyni zamanda dövlət orqanlarından tələb edirəm və qəti tələb edirəm ki, sahibkar-

lığın inkişaf etdirilməsi üçün indiyə qədər yaradılan və mövcud olan əngəllər aradan götürülsün, sahibkarlara onların normal fəaliyyət, qanuni fəaliyyət göstərməsi üçün şərait yaradılsın, kömək edilsin. Onlar hansı qanunları bilmirlərsə, o qanunları öyrətsinlər, başa salsınlar. Bu sahədə, mən hesab edirəm ki, hüquqi təhsil çox vacibdir. İndi bu, bütün cəmiyyət üçün və o cümlədən sahibkarlar üçün lazımdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Yeddinci kitab, s. 231).

23 oktyabr 1996-cı il tarixində MDB və Baltika ölkələrinin "FİLMFEST-96" festivallar festivalının açılış mərasimindən sonra festival iştirakçıları ilə görüşdə Heydər Əliyev sovet dövründə rüşvətxorluqla mübarizədə filmlərdən istifadənin nə kimi maneələrin dəf edilməsi zəruriliyini meydana çıxardığını xatırlayaraq deyirdi: "Bilirsinizmi, əvvəllər biz mənfi təzahürlərdən danışarkən bəziləri təsdiq edirdilər ki, onlar bizdə var, başqaları deyirdilər ki, yoxdur. Məsələn, mən öz siyasi çıxışlarımda rüşvətxorluğu, bütün digər mənfi təzahürləri ifşa edəndə çoxları mənə əyri-əyri baxır və məndən soruşurdular ki, nə üçün bunu deyirəm. Onlar hesab edirdilər ki, sosializm cəmiyyətində belə şeylər ola bilməz. Mən isə nəinki deyir, həm də bu hallara qarşı mübarizə aparırdım. Əvvəllər həyatımızın eybəcər halları adlandırılan belə təzahürləri ifşa edən filmlər meydana gəldikdə bu, hay-küy doğurdu. Xatirimdədir, mən hələ 1969-cu ildə respublikaya başçılıq etməyə başlamazdan əvvəl bizim gənc kinematoqrafçılarımız - Rüstəm İbrahimbəyov və Eldar Quliyev "Bir cənub şəhərində" adlı film çəkmişdilər. Lakin bu filmi Azərbaycanda da qadağan etdilər, Moskvada da. Özü də bunu çox yüksək instansiyalar etmişdilər: Azərbaycanda – respublika rəhbərliyi, Moskvada isə ölkə rəhbərliyi səviyyəsində, o cümlədən o vaxtkı daxili işlər naziri Şelokov. Demə, o, filmdə milis nəfərinin rüşvət aldığı kadrları görübmüş. O, belə hesab edirdi ki, bu, milisi nüfuzdan salır, əslində isə orada milis nəfərinə bir manat rüşvət verildiyini göstərmişdilər. Filmi də bax, buna görə qadağan etmişdilər. Mən işə qarışdım, kinostudiyaya gedib filmə baxdım və dedim ki, gözəl filmdir və onu ekrana buraxmaq

lazımdır. Film bütün Sovet İttifaqında göstərildi və böyük nüfuz qazandı" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Yeddinci kitab, s. 446).

Dövlət idarəçiliyində böyük təcrübəyə malik olan Heydər Əliyev dövlət orqanları ilə vətəndaşların münasibətlərində düzlük, təmizlik, dürüstlük, paklıq yaratmaq üçün səy göstərirdi. Ulu Öndər reallıqda baş verən hadisələrin insanda ikrah, həyəcan hissi, narahatlıq doğurduğunu, həqiqəti heç vaxt gizlətməyin, həqiqətin üstünü basdırmağın mümkün olmadığını 27 noyabr 1996-cı il tarixində Azərbaycan Respublikası Nazirlər Kabinetinin iclasındakı nitqində qeyd edərək əsas vəzifənin mənfi halları aradan qaldırmaqdan ibarət olduğunu nəzərə çatdırırdı: "Bunlar artıq bütün Azərbaycanda hamıya məlumdur. Bunlarla yanaşı, Nazirlər Kabineti aparatının işi haqqında da xoşa gəlməyən çox söhbətlər gedir. Burada bəziləri təmənnasız məsələ həll etmirlər, bəzi məsələləri həll etmək üçün kiməsə rüşvət vermək, kiməsə nəsə etmək lazımdır. Bu cür çirkin şeylər haqqında məlumatlar nəinki bizə, həm də ictimaiyyətə gəlib çatanda, əlbəttə ki, Nazirlər Kabinetinin rəhbərliyinin, aparatının nə hörməti ola bilər, nə də ki, burada iş lazımi səviyyədə gedə bilər.

Mən bu nöqsanların üzərində geniş dayanmaq istəmirəm. Bilirsiniz, bunların haqqında danışmaq özü də insanda ikrah, həyəcan hissi, narahatlıq doğurur. Ancaq biz reallığı unutmamalıyıq. Bu, həqiqətdir. Həqiqəti heç vaxt gizlətmək, həqiqətin üstünü basdırmaq olmaz. Ona görə də vəzifə ondan ibarətdir ki, belə halları aradan qaldırmaq, Nazirlər Kabinetinin işində düzlük, təmizlik, dürüstlük, paklıq yaratmaq lazımdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab, s. 79).

Azərbaycanın müstəqilliyini bərpa etməsini ən böyük dəyər kimi qiymətləndirən Heydər Əliyev dövlətin belə bir mərhələsində insanların, vətəndaşların yüksək mənəvi dəyərlə yaşamasını, həyatlarını qanunun tələblərinə riayət etməklə qurub, xalqa, vətənə, dövlətə fayda vermələrini ümumi rifaha nail olmalarını arzulayırdı. Belə bir mərhələdə vəzifədən sui-istifadə, oğurluq, rüşvətxorluq kimi halların ölkənin inkişafına maneələr yaratdığını, cəmiyyəti zəhərlədiyini

vurğulayaraq 16 dekabr 1996-cı il tarixində Azərbaycan Respublikasının Sərhəd Qoşunlarının yaradılmasının beş illiyinə həsr olunmuş təntənəli yığıncaqdakı nitqində Heydər Əliyev deyirdi: "Bizim hər bir vətəndaşımızdan yüksək mənəviyyat tələb olunur. Biz dərk etməliyik, anlamalıyıq ki, xoşbəxt bir mərhələyə gəlib çatmışıq, milli azadlığa nail olmuşuq, müstəqil dövlətimiz var, azad, müstəqil ölkədə yaşayırıq. Bunu qiymətləndirmək, qorumaq, möhkəmləndirmək, gücləndirmək lazımdır. Bunun üçün əsas şərtlərdən biri insanlarda yüksək mənəvi keyfiyyətləri tərbiyə etmək, inkişaf etdirmək, insanlarımızda, cəmiyyətimizdə yüksək mənəviyyatı təmin etməkdir. Təəssüf ki, bu sahədə bizim həyatımızda böyük nöqsanlar, çatışmazlıqlar, bizi narahat edən hallar var. Rüşvətxorluq, dövlətin, xalqın, millətin malını dağıtmaq, qarət etmək, vəzifədən sui-istifadə etmək, korrupsiya, cəmiyyətimizi zəhərləyən cürbəcür belə hallar mövcuddur. Təəssüflər olsun ki, bunlar Silahlı Qüvvələrimizə də sirayət edibdir. Sərhəd dəstələrində də belə cinayətkar, mənəviyyatsız adamlar var. Onlar tutduğu vəzifədən, yerdən, durduğu sərhəd nöqtəsindən şəxsi mənafeyi üçün istifadə edərək dövlətin, xalqın mənafeyinə zərbələr vururlar. Bunlarla kəskin mübarizə aparmaq lazımdır. Sərhəd dəstələrində bu hallarla ən ciddi mübarizə aparılmalıdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab, s. 196).

19 iyul 1997-ci il tarixində Azərbaycanda 1997-ci ilin birinci yarısında sosial-iqtisadi inkişafın yekunları, aqrar islahatı və özəlləşdirmənin gedişi, təbii fəlakətin nəticələrinin aradan qaldırılması məsələlərinə həsr olunmuş müşavirədə Heydər Əliyev iqtisadi islahatların həyata keçirilməsində, özəlləşdirmə proqramının, torpaq islahatının, bütün başqa islahatların həyata keçirilməsində nöqsan və çatışmazlıqlardan söhbət açaraq deyirdi: "Təəssüf ki, – bunu da etiraf etmək lazımdır, – respublikamızda hələ ki, iş adamlarına maneçilik törədən qüvvələr var, sahibkarlığa maneçilik törədənlər var – bizim bəzi nəzarət orqanları və xüsusən hüquq-mühafizə orqanları. Bunların da hamısı təkcə iş adamlarına görə yox, ümumiyyətlə, bü-

tün başqa sahələrdə respublikamızda rüşvətxorluğun, korrupsiyanın hələ də mövcud olduğunu bir daha göstərir. Mən görürəm biz bu gün daha çox müsbət məsələlər, müsbət nəticələr haqqında danışırıq. Bu əsaslıdır, təbiidir, bizim buna haqqımız var. Ancaq biz heç vaxt unutmamalıyıq ki, hələ nöqsanlarımız çoxdur... ... Mövcud olan nöqsanları aradan qaldırmaq lazımdır. Onlar isə çoxdur. Bu baxımdan, yenə də ümumiyyətlə, iqtisadiyyatda, bütün həyatımızda insanlara mane olan rüşvətxorluq, vəzifədən sui-istifadə etmək, korrupsiya, – bu hallar respublikamızda mövcuddur və heç kəs elə hesab etməsin ki, bunlar aradan qaldırılıbdır, – bunlara qarşı qanunlar vasitəsilə mübarizə, bizim dövlət prinsipləri vasitəsilə mübarizə aparılmalıdır. İnzibati orqanlar da mübarizə aparmalıdır. Ancaq dərd burasındadır ki, inzibati orqanların özünün içərisində korrupsiya, rüşvətxorluq çoxdur" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab, s. 400).

Hüquq-mühafizə orqanlarını müstəqil Azərbaycan dövlətinin əsas sütunları hesab edən Heydər Əliyev bütün sütunların sağlam olmasını, bu sütunların içərisində qanunu pozan, vəzifəsindən sui-istifadə edən, rüşvətxorluq edən, insanların hüquqlarını pozanların olmamasını tələb edir, əməlləri sağlam mənəviyyata, məsləkə zidd olan ünsürlərin hüquq-mühafizə orqanlarından kənarlaşdırılmasını əsas vəzifələrdən biri hesab edirdi. 28 mart 1998-ci il tarixində Azərbaycan Milli Təhlükəsizlik Nazirliyi əməkdaşlarının bir qrupu ilə görüşündə Heydər Əliyev deyirdi: "Hüquq-mühafizə orqanları əməkdaşlarının içərisində vəzifəsindən sui-istifadə etmək halları cürbəcür formalarda özünü büruzə verir. Onlardan biri də rüşvətxorluqdur. Rüşvətxorluq cəmiyyətdə olan xəstəlikdir və hüquq-mühafizə orqanlarında bu xəstəlik mövcuddur. Bu, hüquq-mühafizə orqanlarında yeni bir hadisə deyildir. Hüquq-mühafizə orqanlarının tarixini götürsəniz, lap 50-60 il, 10-15 il bundan əvvəl də bu təşkilatlarda, onların əməkdaşlarının içində rüşvətxorluq edən insanlar olubdur, təəssüflər olsun ki, bu gün də vardır.

... Biz müstəqil dövlətimizi qurub-yaradırıq. Bizim müstəqil dövlətimiz ümumiyyətlə, sağlam olmalıdır və onun hər bir təşkilatı, hər bir orqanı sağlam olmalıdır.

Hüquq-mühafizə orqanları müstəqil Azərbaycan dövlətinin əsas sütunlarındandır. Əgər bütün sütunlar sağlam olmasa, bu sütunların içərisində qanunu pozan, vəzifəsindən sui-istifadə edən, rüşvətxorluq edən, insanların hüquqlarını pozanlar olduğu halda, ümumiyyətlə, bu sütunlar sağlam olmaz. Ona görə də bu məsələ ilə çox ciddi məşğul olmaq lazımdır.

... Şəxsən mən ona görə də bu fikirləri söyləyirəm və tələb edirəm ki, hüquq-mühafizə orqanlarında bütün bu mənfi hallarla mübarizə gücləndirilsin, hüquq-mühafizə orqanlarının tərkibi təmizlənsin və bizim mənəviyyatımıza, əxlaqımıza, məsləkimizə zidd olan belə ünsürlər hüquq-mühafizə orqanlarından kənarlaşdırılsın. Bu sizin əsas vəzifələrinizdən biridir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On beşinci kitab, s. 119-120).

Cinayətkarlıqla mübarizəni dövlətin əsas funksiyalarından biri kimi dəyərləndirən Heydər Əliyev korrupsiya ilə, rüşvətxorluqla mübarizəyə xüsusi önəm verir, hüquq-mühafizə orqanları əməkdaşları arasında bu cür halların olmasını dözülməz hal hesab edirdi. 2 iyul 1998-ci ildə Azərbaycan polisinin 80 illik yubileyinə və Polis Gününə həsr olunmuş təntənəli yığıncaqdakı nitqində Heydər Əliyev deyirdi: "Cinayətkarlıqla mübarizədə korrupsiya ilə, rüşvətxorluqla mübarizə xüsusi yer tutmalıdır. Bu, təkcə hüquq-mühafizə orqanlarının işi deyil, bütün dövlət orqanlarının, hökumətin işidir, ümumxalq işidir. Ancaq hüquq-mühafizə orqanlarının bunun üçün xüsusi imkanları var. Ona görə də korrupsiya ilə, rüşvətxorluqla mübarizə sahəsində hüquq-mühafizə orqanlarından daha da çox səmərəli iş tələb olunur. Ancaq təəssüflər olsun ki, hüquq-mühafizə orqanlarının əməkdaşları içərisində də korrupsiya ilə, rüşvətxorluqla məşğul olanlar var və bəzən az deyildir ..." (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On altıncı kitab, s. 179-180).

29 iyul 1998-ci il tarixində Ukraynanın kmedia subyektləri nümayəndələri ilə görüşdə Heydər Əliyev "Ukraina Molodaya" qə-

zetinin müxbiri Dana Romanetsin “Hörmətli cənab prezident, Siz Azərbaycan KP MK-nın Birinci katibi seçildikdən sonra ən əvvəl korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə aparmağa başladınız. Xahiş edirəm deyəsiniz, indiki dövrdə bu halların kökünü kəsməyə müvəffəq olmusunuzmu?” sualını cavablandıran Heydər Əliyev deyirdi: “Həqiqətən,1969-cu ildə mən MK-nın Birinci katibi seçildikdə, - bilirsiniz ki, bundan əvvəl burada milli təhlükəsizlik naziri olmuşdum və bir çox illər ərzində dövlət təhlükəsizliyi orqanlarında işləmişdim, - bu sahədə öz işimdən çox şey bilirdim ki, korrupsiya, rüşvətxorluq inkişaf edir. Bu məni narahat edirdi. Mən o vaxtlar, həmin işdə buna qarşı imkan daxilində mübarizə aparmağa çalışırdım. Amma o vaxtlar böyük hakimiyyətə malik deyildim. Mən MK-nın Birinci katibi seçildikdə, yəni, respublikada bütün hakimiyyət artıq mənə tabe edildikdə mən hətta iqtisadi, digər məsələləri bir tərəfə atdım və ən əvvəl korrupsiyaya, rüşvətxorluğa, vəzifəli şəxslərin öz xidməti mövqeyindən tamahkarlıq məqsədləri ilə istifadə etməsinə və başqa mənfi hallara qarşı mübarizə məsələsi ilə məşğul oldum. Deməliyəm ki, böyük bir işə başlamışdım.

...Bu xəstəlik keçib getməmişdir. O, keçid dövründə daha da geniş yayılmışdır. İndi bizdə, Azərbaycanda demək olar, hamı korrupsiyadan danışır. Yeri gəlmişkən, korrupsiyadan ən çox o adamlar danışır ki, özləri onunla məşğul olurlar. İqtidarı tənqid edən müxalifət adamlarının başlıca dəlili dövlət orqanlarında korrupsiyanın olmasıdır. Var. Mən bunu heç vaxt inkar etməmişəm və inkar etmirəm. Yeri gəlmişkən, işlədiyim qısa dövr ərzində mən çoxlu nazirləri, digər vəzifəli şəxsləri, müxtəlif şəhər və rayonların icra hakimiyyəti başçılarını buna görə işdən çıxarmış, cəzalandırmışam. Lakin mənim bu barədə danışmağa ona görə mənəvi haqqım var ki, bu bəla ilə mübarizə aparıram. Amma Azərbaycanda, bəlkə də korrupsiyanın müəllifi olan, bu işlə məşğul olmuş və indi də məşğul olan şəxslər isə iqtidarı korrupsiyanın olmasında günahlandırırlar...

...Beləliklə, sizin sualınıza cavab verirəm ki, ömrüm boyu bununla mübarizə aparmışam və indi də həmin mövqelərdə dayanıram. O illərdə çox şey etmək mümkün olmuşdu. Xalqın o vaxtlarda da olan böyük dəstəyi və bu gün də qalmaqda olan etimadı bir çox cəhətdən bununla bağlıdır. Bununla belə, biz bu bəlanı aradan qaldıra bilməmişik. İndi Azərbaycanda korrupsiya mənim işlədiyim 70-ci illərdəkindən çoxdur. Əlbəttə, o vaxt mübarizə aparmaq, ola bilsin, asan idi. Çünki onda başqa hakimiyyət idi, indi isə mübarizə aparmaq çətindir. Lakin biz mübarizə aparırıq və aparacağıq" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On yeddinci kitab, s. 59-60).

6 oktyabr 1998-ci il tarixində Azərbaycan Milli Bankının yeni inzibati binasının açılış mərasimində Heydər Əliyev yenidən sahibkarlıqla bağlı mövqeyini ifadə edərək dövlət orqanları nümayəndələrinə səslənərək deyirdi: "Mən bu gün burada Azərbaycanın hüquq-mühafizə orqanlarına deyirəm, bunu bir neçə dəfə də demişəm, amma indi sizin yanınızda deyirəm: Özəl sektorun inkişafına mane olmayın, cürbəcür lazımsız yoxlamaları aradan götürün, insanlara sərbəstlik verin. Qoy insanlar sərbəst yaşasınlar, sərbəst inkişaf etsinlər. Azərbaycanda sahibkarlıq inkişaf edəndən sonra hər şey öz yerini tutacaqdır. Mən bu sözləri ona görə deyirəm ki, mənə çox siqnallar gəlir ki, Azərbaycanda hüquq-mühafizə orqanları sahibkarlara bəzən mane olurlar, onları incidirlər, bəziləri onlardan rüşvət alırlar və rüşvət aldıqlarına görə bir şey etmirlər. Beləliklə, həm xaricdən gələn şirkət nümayəndələri, həm də Azərbaycanın daxilində olanlar bu cür çətinliklərlə rastlaşaraq öz fəaliyyətlərini lazımi səviyyədə apara bilmirlər. Mən bunu bütün Azərbaycana bəyan edirəm. Mən belə halların hamısını pisləyirəm. Belə hallar kim tərəfindən edilirsə, Azərbaycanın bugünkü dövlət siyasətinin əleyhinə olan hallardır, bizim siyasətimizə zidd olan hallardır. Mən tələb edirəm ki, belə hallar aradan götürülsün, Azərbaycanda sahibkarlığın inkişafı üçün bütün imkanlar yaradılsın" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On yeddinci kitab, s. 450-451).

Hüquq-mühafizə orqanlarının fəaliyyətində nöqsanların aradan qaldırılması, xüsusən korrupsiya hallarının qarşısının alınması dövlət başçısını daim narahat edən məsələlərdən olmaqla mütəmadi olaraq onun tərəfindən gündəmə gətirilir və bu cür hallara qarşı mübarizə aparılması tələb olunurdu. 6 noyabr 1998-ci il tarixində Azərbaycan Respublikası Nazirlər Kabinetinin ölkənin iqtisadi və sosial inkişafının yekunlarına həsr olunmuş geniş iclasında Heydər Əliyev deyirdi: "Yoxlamalar haqqında deyərkən, mən ümumiyyətlə, hüquq-mühafizə orqanlarının işində də bir çox tədbirlərin görülməsini bu gün tələb edirəm. Azərbaycanın hüquq-mühafizə orqanları ötən beş ildə yaxşı işləyiblər. Azərbaycanın dövlətçiliyinin qorunmasında, Azərbaycanda cinayətkarlığın qarşısının alınmasında da, cinayətkarlarla mübarizədə yaxşı işləyiblər və yaxşı nəticələr də əldə ediblər... Mən bu barədə onlardan razı olduğumu bildirirəm. Amma eyni zamanda hüquq-mühafizə orqanlarının işində çox nöqsanlar da var, çatışmayan cəhətlər də var. Ayrı-ayrı hüquq-mühafizə orqanları işçilərinin vəzifəsindən sui-istifadə etməsi, rüşvətxorluq etməsi və başqa hallar da var. Müxtəlif yoxlamalar aparılır. Təkcə xarici investorları və ya özəl sektoru deyil, elə hər adamı yoxlayırlar..." (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On səkkizinci kitab, s. 187-188).

İqtisadi sahədə böhrandan çıxış, ölkə iqtisadiyyatının yüksəldilməsi, bazar iqtisadiyyatına keçid daimi olaraq ölkədə sahibkarlıqla bağlı problemlərin nəzarətdə saxlanılmasını tələb edirdi. Münbit şərait yaratmadan isə sahibkarlığın inkişafında səmərəliliyə nail olmaq mümkün deyildi. Ona görə də Heydər Əliyev zaman-zaman sahibkarlıqla məşğul olanlarla görüşür, onların problemlərini öyrənir və bu sahənin inkişafı üçün yollar arayırdı. 1998-ci ilin dekabr ayında 1999-cu ilin Dövlət büdcəsi layihəsinin müzakirəsinə həsr olunmuş Respublika müşavirəsində Heydər Əliyev sahibkarların qanun çərçivəsində fəaliyyət göstərməsini təmin etmək üçün bütün dövlət, hökumət orqanlarından mənfi hallara son qoyulmasını, sahibkarlığın, özəl sektorun inkişaf etdirilməsi üçün bütün imkanların yaradılması-

nı tələb edirdi: “Azərbaycanda sahibkarlığa münasibət və diqqət bundan sonra da artmalıdır. Sahibkarlara normal işləmək üçün imkanlar yaradılmalıdır. Həm Azərbaycanın milli sahibkarlarına, həm xarici investorlara, həm də respublikamıza gəlmiş xarici investorlarla Azərbaycan sahibkarlarının müştərək işlərinə imkanlar yaratmaq, kömək etmək lazımdır. Onların qanun çərçivəsində fəaliyyət göstərməsini təmin etmək lazımdır. Ancaq təəssüflər olsun ki, biz indiyə qədər mütəmadi olaraq çox şikayətlər alırıq. Şikayətlərin də əsas məzmunu ondan ibarətdir ki, Azərbaycanda sahibkarlığın inkişafına maneçilik törədən qüvvələr vardır.

Birincisi, ayrı-ayrı sahibkarlar, xarici şirkətlər, investorlar burada öz işlərini qurmaq üçün müxtəlif dövlət, hökumət orqanlarında icazə, yaxud da lisenziya almaq, başqa işlər görmək üçün bir çox çətinliklərlə rastlaşırlar. Bizə gələn şikayətlərin əksəriyyətində deyilir ki, bu çətinliklərin də çoxu hökumət orqanlarındakı ayrı-ayrı şəxslərin şəxsi marağı ilə bağlıdır. Yəni rüşvət, əlavə pul tələb edirlər, bu olmasa, razılıq vermirlər. Bunlar hamısı bizim ümumi iqtisadiyyatımıza, apardığımız siyasətə zərbə vurur, Azərbaycan prezidentinin siyasətinə zərbə vurur.

İkinci qrup şikayətlər ondan ibarətdir ki, prokurorluq, polis və ümumiyyətlə, hüquq-mühafizə orqanları ayrı-ayrı şirkətlərin, özəl sektora mənsub olan sahibkarların, xarici investorların işlərinə müdaxilə edirlər. Bu müdaxilənin də əksəriyyəti şəxsi maddi maraqla əlaqədardır. Bunların hamısı bizi narahat edir. Ona görə də mən bu gün bütün dövlət, hökumət orqanlarından tələb edirəm ki, bu mənfi hallara son qoyulsun, sahibkarlığın, özəl sektorun inkişaf etdirilməsi üçün bütün imkanlar yaradılsın” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On səkkizinci kitab, s.430-431).

Respublikada özəl sektor mədəniyyətinin tam formalaşmaması, özəl sektorda da qeyri- qanuni yollarla gəlir əldə etmək, dövlətə zərər vuraraq özünə xeyir götürmək, vergidən gizlənmək və başqa halların mövcud olmasına baxmayaraq, Heydər Əliyev bu sahənin inkişafı naminə hüquq-mühafizə orqanlarına ayrı-ayrı şirkətlərin, sahibkarların işinə müdaxilə etməyi, əsası olmayan müxtəlif yoxlamaların

aparılmasını qadağan etməyi lazımlı bildi: "Mən hüquq-mühafizə orqanlarına ayrı-ayrı şirkətlərin, sahibkarların işinə müdaxilə etməyi qadağan edirəm, əsası olmayan müxtəlif yoxlamaların aparılmasını qadağan edirəm. Tələb edirəm ki, bütün bunlara riayət olunsun. Eyni zamanda, özəl sektora məxsus olan bütün vətəndaşlara da, xarici investorlara da bildirirəm ki, hamı qanun çərçivəsində işləməli, qanunu pozmamalıdır. Onu da etiraf etmək lazımdır ki, respublikamızda özəl sektor mədəniyyəti hələ tam formalaşmadığına görə özəl sektorda da qeyri-qanuni yollarla gəlir əldə etmək, dövlətə zərər vuraraq özünə xeyir götürmək, elə bu verginin özündən gizlənmək və başqa hallar mövcuddur. Bunu da inkar etmək olmaz.

Bizə şikayət edən sahibkarlar, yaxud da xarici investorlar bilməlidirlər ki, əgər biz dövlət, hökumət orqanlarından qanunun həyata keçirilməsini və sahibkarlığın inkişafına mane olmamasını tələb ediriksə, sahibkarlardan, xarici investorlardan da tələb edirik ki, onlar Azərbaycan Respublikasının qanun-qaydalarına riayət etsinlər.

Şübhəsiz ki, bu işlər hər iki tərəfdən - hökumət orqanları və özəl sektor tərəfindən düzgün aparılmalıdır. Özəl sektor öz işini bilməlidir. Amma mən hökumət orqanlarından tələb edirəm ki, sahibkarlığın inkişafına mane olunmasın" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On səkkizinci kitab, s. 430-431).

Müşavirənin yekununda Heydər Əliyev belə qərara gəldi ki, "korrupsiya ilə, rüşvətxorluqla mübarizəni gücləndirmək üçün əlavə tədbirlər görməli, müvafiq proqram hazırlanmalı və əməli surətdə həyata keçirilməlidir. Korrupsiya Azərbaycana çox zərər vurduğuna görə onunla mübarizə dövlət orqanlarının fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil etməlidir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On səkkizinci kitab,. s. 443-444).

Heydər Əliyev tərəfindən 7 yanvar 1999-cu il tarixində imzalanmış "Dövlət nəzarət sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında" 6 nömrəli Fərmanda yoxlama və nəzarət funksiyalarını həyata keçirən

dövlət orqanlarının fəaliyyətində yol verilən nöqsanlar şərh edilir, vəziyyətin normallaşdırılması üçün müvafiq göstərişlər verilirdi: “Yoxlama və nəzarət funksiyalarını həyata keçirən dövlət orqanlarının fəaliyyəti ilə əlaqədar daxil olan çoxsaylı şikayət və müraciətlər nəzərə alınaraq “İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 17 iyun tarixli 463 nömrəli Fərmanında bu orqanlar tərəfindən yol verilən sui-istifadə hallarının qarşısının alınması, vətəndaşların və hüquqi şəxslərin qanuni hüquq və mənafelərinin təmin olunması üçün bir sıra tədbirlər nəzərdə tutulmuşdur. Bu Fərmanın icrası nəticəsində iqtisadi sahədə bir-birini təkrarlayan, paralel və lüzumsuz yoxlamaların sayı azalmış, bazar iqtisadiyyatının inkişafına mənfi təsir göstərən bir sıra halların qarşısı alınmış, vətəndaşların və hüquqi şəxslərin qanuni mənafelərinin qorunması məqsədilə müəyyən tədbirlər həyata keçirilmişdir.

Lakin ölkənin iqtisadiyyatı keçid dövründə olduğu bir zamanda dövlət orqanları tərəfindən yoxlama və nəzarət funksiyalarının həyata keçirilmə mexanizminin müasir tələblərə uyğun təkmilləşdirilməsi prosesi başa çatmadığına görə yuxarıda qeyd olunan Fərmanın icrası hələ də tam təmin olunmamışdır. Bu da onu göstərir ki, istehsal, xidmət, maliyyə-kredit sahəsində əsassız yoxlamaların qadağan edilməsinə baxmayaraq, ölkədə sahibkarlığın inkişafı üçün hüquqi bazanın yaradılması və müvafiq bazar infrastrukturlarının təşəkkül tapması ilə yanaşı, yerli və xarici iş adamlarının fəaliyyətinə bəzi dövlət orqanları tərəfindən əsassız müdaxilə hallarına son qoyulmamışdır.

Ayrı-ayrı dövlət orqanları tərəfindən iqtisadi sahəyə əsassız müdaxilələr narahatlıq doğurur. Həmin dövlət orqanlarının bəzi işçiləri öz qanunsuz hərəkətləri ilə dövlətin nüfuzuna xələl gətirir və bir çox hallarda öz hüquqlarından şəxsi mənafeləri üçün istifadə edirlər.

Hüquq-mühafizə orqanları yerli və xarici iş adamlarının istehsal, xidmət və maliyyə-kredit fəaliyyətində apardıqları yoxlamaları bəzi hallarda uzun-uzadı təhqiqat və istintaq hərəkətləri pərdəsi altında

həyata keçirir və sahibkarlığın müxtəlif sahələrinə lüzumsuz müdaxilə edirlər. Yoxlama və təftiş funksiyalarını həyata keçirən müvafiq mərkəzi icra hakimiyyəti orqanları əsassız yoxlamalar aparmaqda davam edir, sahibkarların fəaliyyətinə zərurət olmadan müdaxilə edərək onlar üçün müxtəlif süni maneələr törədir, eyni zamanda qanun pozuntuları faktlarının hamısını və tam aşkar etmirlər. Daxil olan məlumatlara əsasən yoxlamalar zamanı həmin orqanların işçiləri ayrı-ayrı hallarda vəzifədən sui-istifadə etmə və rüşvətxorluq hallarına yol verirlər...” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On doqquzuncu kitab. s. 9-11).

26 iyun 1999-cu il tarixində Heydər Əliyev Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Ağ Ciyər Xəstəlikləri İnstitutu binasının açılış mərasimində səhiyyədə olan nöqsanlardan da söz açaraq qeyd edirdi ki: “... səhiyyənin işində çox nöqsanlar da var, çox çatışmazlıqlar vardır. Bunu da anlayın. Səhiyyənin bugünkü vəziyyəti təkcə bu keçid dövrünün xüsusiyyətləri ilə bağlı deyildir. Bu, eyni zamanda ayrı-ayrı səhiyyə ocaqlarına rəhbərlik edən insanların işlərində buraxdıqları səhvlər, yaxud da vəzifəsindən sui-istifadə etməsi, yaxud da, təəssüflər olsun ki, dövlət əmlakını mənimsəməsi, rüşvətxorluqla məşğul olması nəticəsində olur. Deməк, vəzifə nədən ibarətdir? Bir tərəfdən islahatları həyata keçirmək, ikinci tərəfdən isə səhiyyədə olan nöqsanları aradan götürmək. Nöqsanlar var, çoxdur. Bu gün mən sizin üzünüzə dik baxaraq deyirəm və heç kəs də düşünməsin ki, hər şey nöqsansızdır. Mən bunu nazirə də deyirəm, xəstəxana müdirinə də deyirəm, poliklinika müdirinə də deyirəm. Nöqsanlar çoxdur. Elə şeylər var ki, onları mövcud imkanlar vasitəsilə daha da yaxşı həll etmək olar. Amma həll edə bilmirlər, həll etmirlər. Nə üçün? Səhlənkarlıq edirlər. Nə üçün? Vəzifələrindən sui-istifadə edirlər. Nə üçün? Başqa-başqa pis yollara gedirlər. Mən arzu edərdim ki, səhiyyə bizim üçün əziz, qiymətli bir sahə olduğuna görə, səhiyyədə hər şey təmiz olsun, hər şey pak olsun” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İyirminci kitab, s. 380).

31 avqust 1999-cu il tarixində Heydər Əliyev Azərbaycanın təhsil işçiləri və həmin il ali məktəblərə daxil olmuş tələbələrlə görüşdə ali təhsil sahəsində mövcud olan nöqsanlardan bəhs edərək deyirdi: “Mən bu işlərlə şəxsən 70-ci, 80-ci illərdə, demək olar ki, həddindən çox məşğul olurdum ki, ali məktəblərə qəbulda ədalət təmin edilsin, ali məktəblərə qəbulda rüşvətxorluğun qarşısı alınsın, ali məktəblərə qəbulda tanışbazlığın, dostbazlığın, qohumbazlığın qarşısı alınsın, ali məktəblərə qəbulda rəhbər işçilərin uşaqlarına xüsusi imtiyazlar yaranmasın. Bax, bu işlərlə biz o illər məşğul olmuşuq, mübarizə aparmışıq, müəyyən nailiyyətlər, müsbət nəticələr əldə etmişik. Ancaq təəssüf ki, bu nöqsanları o dövrlərdə aradan qaldıra bilməmişik. Bu bizim təhsil sahəsində bu gün də ən vacib məsələlərimizdən biridir.

1992-ci ildən ali məktəblərə qəbul üçün Dövlət Tələbə Qəbulu Komissiyası yaranıbdır. Bu, yaxşı bir qərardır və test üsulu tətbiq olunur. İndi bizim ictimaiyyətin fikrinə görə, məndə olan məlumat belədir ki, ictimaiyyət bu test üsulunu keçmiş üsullara nisbətən daha mütərəqqi üsul kimi qəbul edir. Sizin də burada verdiyiniz məlumatlara mən inanıram ki, doğrudan da, bu yol ilə ali məktəblərə daha da keyfiyyətli qəbul təşkil olunur. Ancaq hesab edirəm ki, burada nöqsanlar da çoxdur.

...Ədalət hər yerdə lazımdır. Amma məktəbdə ədalət hamısından çox lazımdır, ali məktəbdə ədalət hamısından çox lazımdır. Siz müəllimsiniz, siz psixoloqsunuz, siz bu işləri bizdən yaxşı bilirsiniz: uşağın, gəncin şəxsiyyətinin bir formalaşma prosesi var. O proses də uşaqlıq dövründə, orta məktəbdə, ali məktəbdə keçir. Ondan sonra şübhəsiz, insan daha da təkmilləşir iş dövründə, yaxud başqa, yeni təhsil dövründə. Ancaq əsas o insan kimi formalaşma, şüurlu formalaşma prosesi məktəbdə gedir, ali məktəbdə, universitetdə gedir. Əgər orada gənc, uşaq ədalətsizliklə rastlaşırsa, onda belə təsəvvür yaranır ki, elə bu dünya ədalətsiz dünyadır. Buna yol vermək olmaz. Doğrudur, belə ədalətsizliklərlə mübarizə aparmaq da asan deyildir. Çünki təəssüf ki, hər bir insan, hər bir subyekt özünəməxsus bir xarakter daşıyır. Hər bir insanı, o cümlədən müəllimi, hər bir professoru

tam ədalətli etmək də asan bir məsələ deyildir. Ancaq bunlar bizim qarşımızda duran vəzifələrdir, müqəddəs vəzifələrdir. Ən əsası ona görə ki, biz keçmişlərdən fərqli olaraq indi müstəqil Azərbaycanın gələcəyini formalaşdırırıq, müstəqil Azərbaycanın gələcək fəaliyyətini formalaşdırırıq, müstəqil Azərbaycanın vətəndaşlarını formalaşdırırıq və məktəbdə, universitetdə formalaşan gənc, Azərbaycanın gələcək fəal vətəndaşı gərək birincisi, mənəviyyatca saf olsun. Ona görə də gərək mənəvi saflıq ali məktəblərdə, orta məktəblərdə hökm sürsün. Gərək o, vətənpərvərlik hissi ilə yaşasın, vətənpərvərlik hissi ilə tərbiyə olunsun. Ona görə də gərək onun müəllimləri, tərbiyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər. Onlar gərək Azərbaycan dövlətinə, millətinə, Azərbaycanın gələcəyinə sadiq vətəndaşlar olsunlar. Bu da hamısı məktəblərdə, universitetlərdə formalaşmalıdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İyirmi birinci kitab, s. 256-259).

31 dekabr 1999-cu il tarixində Azərbaycan xalqına Yeni il münasibətilə olan təbrikində Heydər Əliyev əldə edilmiş uğurlardan söhbət açmaqla yanaşı, nöqsanları da qeyd edərək dövlət məmurlarının, yüksək vəzifəli şəxslərin vəzifələrindən sui-istifadə etməsinin, qanun pozuntularına yol verməsinin, korrupsiya, rüşvətxorluğun dövlət işinin uğurla aparılmasına böyük əngəllər yaratmasının, sərbəst iqtisadiyyatın inkişaf etdirilməsinə maneçilik törətməsini qeyd edərək deyirdi: "Biz 2000-ci ildə nöqsanların, qüsurların aradan götürülməsi ilə gərək ciddi məşğul olaq. Təəssüf ki, bu nöqsanların içərisində dövlət məmurlarının, yüksək vəzifəli şəxslərin vəzifələrindən sui-istifadə etməsi, qanun pozuntularına yol verməsi bizim hamımıza böyük zərər gətirir.

Cəmiyyətdə, ölkədə apardığımız mübarizəyə baxmayaraq, korrupsiya, rüşvətxorluq hələ mövcuddur. Bu, həm dövlət işinin uğurla aparılmasına böyük əngəllər yaradır, həm Azərbaycanın sərbəst iqtisadiyyatının inkişaf etdirilməsinə maneçilik törədir, həm də insanlara, vətəndaşlara əziyyət verir, onların hüquqlarına toxunur. Ona görə də həm dövlət, hökumət tərəfindən, həm də vətəndaşlar tərəfindən

qanun-qaydalara riayət etmək, nöqsanların aradan götürülməsi uğrunda ciddi mübarizə aparmaq, korrupsiyanın aradan qaldırılması üçün yeni ciddi tədbirlər görmək həm dövlətin, hökumətin, həm də cəmiyyətin əsas vəzifələrindən biridir. Ümid edirəm ki, biz bu vəzifənin həyata keçirilməsində də irəliləməyə nail olacağıq" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İyirmi dördüncü kitab, s. 144).

19 iyun 2000-ci il tarixdə Azərbaycan Tibb Universitetinin 70 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində Heydər Əliyev bir çox məsələlərlə yanaşı mənəviyyat və rüşvətxorluqla bağlı fikirlərini ifadə edərək deyirdi: "Ölkəmizdə insanlara sərbəstlik verilibdir. Eyni zamanda, Azərbaycanda oğrulara, əyrilərə, rüşvətxorlara, öz xalqına, millətinə xəyanət edənlərə yer yoxdur. Bunun üçün siz də, biz də – hamımız birlikdə əl-ələ verib bu mənfi hallara qarşı ciddi mübarizə aparmalıyıq, cəmiyyətimizi tamamilə təmizləməliyik, mənəviyyatımızı daha da pak etməliyik. Bütün rüşvətxorlara, oğrulara, insanların hüquqlarını pozanlara, xalq əmlakını dağıdanlara – hamısına, hamısına qarşı amansız mübarizə aparmalıyıq. Bilin ki, Azərbaycan Prezidenti Heydər Əliyevin siyasətinin əsas istiqamətlərindən biri budur və bu siyasəti həyata keçirməkdə də mən sizə arxalanıram, sizə ümid bəsləyirəm və sizinlə birlikdə irəli gedirəm.

.... Elə Tibb İnstitutunun bu 70 illik tarixində hər şey gözəl deyil. Yenə də tarixə qayıtmaq istəyirəm. Məsələn, 1930-cu, 1940-cı, 1960-cı, 1970-ci illərdə Tibb İnstitutu, onun müəllimləri çox yüksək hörmətə malik idi. Ancaq təəssüflər olsun ki, sonra, 1980-ci illərdə və 1990-cı illərin əvvəllərində bu institutda xoşagəlməyən çoxlu çirkin işlər də olmuşdur. Bu bayram günündə mən bunları demək istəmirdim. Amma bunu deməsəm, insanlar özləri üçün nəticə çıxarmazlar. O dövrdə burada rüşvətxorluq çiçəklənmiş və yüksəklərə qalxmışdı. Hətta o vaxt Moskvada yaşayırdım, mənə xəbərlər gəlirdi ki, Azərbaycan Tibb İnstitutunda olan rüşvətxorluq heç yerdə yoxdur. Bu da var, bu da həqiqətdir. Ümumiyyətlə, bizim ali məktəblərdə, institutlarda həm çox gözəl işlər, həm əyintilər, rüşvətxorluq, həm də mənəvi

çatışmazlıqlar olubdur. Bilirsiniz ki, biz bunlarla mübarizə aparırdıq. Xüsusən, 1970-ci illərdə, mən Azərbaycana rəhbərlik etdiyim zaman həyatımın böyük bir hissəsini Azərbaycanda mənəvi dəyərlərin qorunub saxlanmasına, insan mənəviyyatının paklığına, təmizliyinə həsr etmişdim. Çünki mənəviyyat insana xas olan xüsusiyyətlərin hamısından yüksəkdir. Nə qədər böyük alim olursansa ol, nə qədər böyük mütəxəssis olursansa ol, nə qədər böyük dövlət xadimi olursansa ol, əgər mənəviyyatca şikəstsənsə, sənin heç bir qiymətin yoxdur.

...Həkim yüksək mənəviyyata malik olmalıdır. Təsadüfi deyil ki, heç bir sahədə "Hippokrat andı" kimi and yoxdur. Hansı bir mütəxəssis, mühəndis ali təhsilini qurtarandan sonra and içir ki, "Mən yaxşı mühəndis olacağam". Hansı bir aqronom and içir ki, "Mən yaxşı aqronom olacağam". Ancaq həkim and içir. And içir ki, "Mən bu şərəfli peşəmə sədaqətlə xidmət edəcəyəm".

...Mən bunu keçmişdə də demişəm, bu gün də deyirəm. Bu mənim həyatımın kredosudur: mənəviyyat insanı yüksəldir, mənəviyyatsızlıq alçaldır. …yüksək mənəviyyatı təmin etmək ancaq sizdən, hər bir kəsdən asılıdır..." (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İyirmi səkkizinci kitab. s. 207-209).

Rüşvətxorluq və korrupsiyaya qarşı mübarizə üsullarından biri də dövlət idarəçilik sistemində dəyişikliklər, məhkəmə-hüquq sahəsində islahatlarla bağlıdır. Məhkəmə-hüquq sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, məhkəmə sistemində şəffaflığın artırılması, vətəndaşların hüquq və azadlıqlarının təmini üçün imkanların yaradılması, məhkəməyə çatımlılıq, məhkəmə qərarlarının dərc edilməsi, zəruri hallarda vəkil xidmətinin dövlət hesabına göstərilməsi kimi məsələlər son nəticədə ədalətli məhkəmə araşdırması üçün zəmin yaradır. Həmin islahatların aparılması ilə əlaqədar Heydər Əliyev 26 may 2001-ci il tarixində 28 May-Respublika Gününə həsr olunmuş təntənəli mərasimdəki nitqində deyirdi: "Biz indi Azərbaycanda bir çox nazirlikləri, komitələri və s. birləşdiririk. Bu, müəyyən ixtisara gətirib çıxaracaqdır. ...Amma güman edirəm ki, bizim

struktur dəyişiklikləri və dövləti idarəetmənin təkmilləşdirilməsi Azərbaycanın dövlət orqanlarında bürokratizmin, rüşvətxorluğun qarşısını alacaq, korrupsiya ilə mübarizəni gücləndirəcəkdir. Beləliklə, bu sahədə də biz dünya standartlarına yaxınlaşacağıq. Azərbaycanda keçirilən hüquq islahatları çox böyük əhəmiyyət daşıyır. Məhkəmə sistemi, prokurorluq, polis, Daxili İşlər Nazirliyi, bütün başqa hüquq-mühafizə orqanları haqqında müvafiq qanunlar qəbul olunub və bu qanunların hamısı beynəlxalq standartlara uyğundur. Qəbul olunan hər bir belə qanun beynəlxalq təşkilatlar tərəfindən əvvəlcədən ekspertizadan keçirilir, onların fikri öyrənilir və nəhayət, biz bu qanunları qəbul edirik" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz dördüncü kitab, s. 201).

### 2.1.2. Korrupsiya cinayətləri ilə mübarizənin milli-hüquqi əsasları

"Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu 13 yanvar 2004-cü il tarixində qəbul edilmişdir. Həmin Qanun korrupsiya ilə əlaqədar hüquqpozmaların aşkar edilməsi, qarşısının alınması və nəticələrinin aradan qaldırılmasına, sosial ədalətin, insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiə olunmasına, iqtisadiyyatın inkişafı üçün əlverişli şəraitin yaradılmasına, dövlət orqanlarının və yerli özünüidarəetmə orqanlarının, publik hüquqi şəxslərin, vəzifəli şəxslərin fəaliyyətinin qanuniliyinin, şəffaflığının və səmərəliliyinin təmin edilməsinə yönəlmişdir.

Qanun, həmçinin dövlət orqanlarına və yerli özünüidarəetmə orqanlarına, qurumlara əhalinin etimadının möhkəmləndirilməsi, peşəkar kadrların dövlət orqanlarında və yerli özünüidarəetmə orqanlarında, qurumlarda qulluğa girməyə həvəsləndirilməsi, həmin şəxslərin korrupsiya ilə əlaqədar hüquqpozma törətməsini istisna edən şəraitin yaradılması məqsədini daşıyır.

"Korrupsiyaya qarşı mübarizə haqqında" Qanuna əsasən, korrupsiya - vəzifəli şəxslərin öz statusundan, təmsil etdiyi orqanın (qurumun) statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə qanunsuz olaraq maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməsi, habelə fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin qanunsuz olaraq vəzifəli şəxslərə təklif və ya vəd olunması və yaxud verilməsi yolu ilə həmin vəzifəli şəxslərin ələ alınmasıdır. Qanunda göstərildiyi kimi, korrupsiya hüquqpozmalarının subyektləri:

– Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən olunmuş qaydada dövlət orqanlarına seçilmiş və ya təyin edilmiş şəxslər;

– xüsusi səlahiyyət əsasında dövlət orqanlarını təmsil edən şəxslər;

– inzibati vəzifə tutan dövlət qulluqçuları;

– dövlət orqanlarının müvafiq struktur vahidlərində, dövlət idarə, müəssisə və təşkilatlarında, habelə dövlətin nəzarət səhm zərfinə sahib olduğu təsərrüfat subyektlərində təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını həyata keçirən şəxslər;

– Azərbaycan Respublikasının dövlət orqanlarında seçkili vəzifələrə namizədliyi qanunla müəyyən olunmuş qaydada qeydə alınmış şəxslər;

– Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yerli özünüidarəetmə orqanlarına seçilmiş şəxslər;

– yerli özünüidarəetmə orqanlarında təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını həyata keçirən şəxslər;

– qurumların rəhbərləri və işçiləri, o cümlədən qurumlarda xüsusi səlahiyyət üzrə təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını həyata keçirən şəxslər;

– qanunla müəyyən edilmiş hallarda dövlət orqanlarının səlahiyyətlərini yerinə yetirən qeyri-dövlət orqanlarında

təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarmı həyata keçirən şəxslər;

– öz nüfuzundan və ya əlaqələrindən istifadə edərək vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmək müqabilində maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər əldə edən şəxslər;

– vəzifəli şəxsə qanunsuz olaraq maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər təklif edən və ya vəd edən, yaxud verən fiziki və hüquqi şəxslər və ya belə hərəkətlərdə vasitəçilik etmiş şəxslərdir.

Qanuna əsasən, bütün dövlət orqanları, yerli özünüidarəetmə orqanları, qurumlar və vəzifəli şəxslər səlahiyyətləri çərçivəsində korrupsiyaya qarşı mübarizəni həyata keçirirlər. Korrupsiya ilə əlaqədar hüquqpozmaların törədilməsi inzibati və ya cinayət məsuliyyəti yaratdıqda, korrupsiyaya qarşı mübarizəni qanunvericiliklə müəyyən edilmiş qaydada hüquq mühafizə orqanları həyata keçirirlər.

Korrupsiyanın qarşısının alınması sahəsində ixtisaslaşmış orqan funksiyalarını Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası (bundan sonra "Komissiya") həyata keçirir.

Komissiyanın tərkibi icra, qanunvericilik və məhkəmə hakimiyyəti orqanları tərəfindən təyin edilən üzvlərdən ibarətdir. Komissiyanın səlahiyyətləri qanunla təsdiq edilən Əsasnamə ilə müəyyən olunur.

“Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında” Əsasnamə Azərbaycan Respublikasının 2005-ci il 3 may tarixli 906-IIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 4.2-ci maddəsinə uyğun olaraq yaradılmışdır və korrupsiyanın qarşısının alınması sahəsində ixtisaslaşmış orqan funksiyasını həyata keçirir.

Komissiya 15 nəfər üzvdən ibarət tərkibdə təşkil edilir və fəaliyyət göstərir. Komissiya öz fəaliyyətini qanunvericilik, icra və məh-

kəmə hakimiyyətləri ilə qarşılıqlı əlaqədə qurur və korrupsiyaya qarşı mübarizənin vəziyyəti barədə mütəmadi olaraq onları məlumatlandırır.

Korrupsiyaya qarşı mübarizə sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək, bu sahədə dövlət orqanlarının və digər qurumların fəaliyyətini əlaqələndirmək, korrupsiyaya qarşı mübarizənin vəziyyətini və səmərəliliyini təhlil etmək, korrupsiyaya qarşı mübarizə üzrə dövlət proqramlarının icrasına nəzarəti həyata keçirmək Komissiyanın həyata keçirdiyi əsas vəzifələrdəndir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində korrupsiya cinayətləri ilə əlaqədar aşağıdakılar öz ifadəsini tapmışdır:

Cinayət Məcəlləsinin 12-ci maddəsinə əsasən Azərbaycan Respublikasının vətəndaşları və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənarda törətdikləri əmələ (hərəkət və ya hərəkətsizliyə) görə, bu əməl həm Azərbaycan Respublikasının, həm də ərazisində törədildiyi xarici dövlətin qanunvericiliyinə əsasən cinayət sayılırsa və bu cinayətə görə həmin şəxslər xarici dövlətdə məhkum olunmamışlarsa, Azərbaycan Respublikasının Cinayət Məcəlləsi əsasında cinayət məsuliyyətinə cəlb edilirlər.

Azərbaycan Respublikasının vətəndaşları və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənarda törətdikləri korrupsiya cinayəti və qulluq mənafeyi əleyhinə olan digər cinayətə görə xarici dövlətdə məhkum olunmamışlarsa, Cinayət Məcəlləsi əsasında cinayət məsuliyyətinə cəlb edilirlər.[8]

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənarda beynəlxalq təşkilatların vəzifəli şəxsləri, beynəlxalq parlament assambleyalarının üzvləri, beynəlxalq məhkəmələrin vəzifəli şəxsləri və hakimləri olan Azər-

[8] Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər Cinayət Məcəlləsinin otuz üçüncü fəslində öz ifadəsini tapmışdır və 308-314-cü maddələri özündə ehtiva edir.

baycan Respublikası vətəndaşlarının iştirakı ilə korrupsiya cinayəti və qulluq mənafeyi əleyhinə olan digər cinayət törətdikləri halda və həmin cinayətə görə xarici dövlətdə məhkum olunmadıqda, Cinayət Məcəlləsi əsasında cinayət məsuliyyətinə cəlb edilirlər .

Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında" Qanunun 25.11-ci maddəsinə əsasən, dövlət qulluqçusu "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun 5.1-ci maddəsindəki tələblərə əməl etmədikdə və ya 9-cu maddədə göstərilən hüquqpozmaları (inzibati və ya cinayət məsuliyyəti yaratmayan) törətdikdə intizam məsuliyyətinə cəlb edilir.

"Vətəndaşların müraciətləri haqqında" Qanuna uyğun olaraq, korrupsiya hüquqpozmaları ilə bağlı müraciətlərə baxılarkən bu Qanunun xüsusiyyətləri nəzərə alınır. Müraciət daxil olduqda, dövlət orqanının rəhbəri xidməti araşdırma təyin edir və bu araşdırma daxili nəzarət xidməti tərəfindən 20 iş günü müddətində tamamlanmalıdır. Zərurət yarandıqda bu müddət 10 iş günü uzadıla bilər.

Araşdırmanın nəticələrinə əsasən, dövlət orqanının rəhbəri ya məsuliyyət tədbirləri (müraciətin əsaslı olduğu təsdiq edildikdə, eyni zamanda əməldə mülki-hüquqi və ya inzibati məsuliyyəti yaradacaq əlamətlər olduqda Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görülməsi, cinayət əlamətləri olan hüquqpozmalar aşkar edildikdə, müvafiq sənədlərin Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilməsi barədə; müraciətin əsaslı olması təsdiq edildikdə, lakin əməldə mülki-hüquqi, inzibati və ya cinayət məsuliyyəti yaradacaq əlamətlər olmadıqda aidiyyəti şəxslərin intizam məsuliyyətinə cəlb edilməsi barədə) görür, ya da müraciətin əsassız olduğunu təsdiq edərək şikayət üzrə icraata xitam verir. Müraciət edən şəxsə qəbul edilən qərar barədə əsaslandırılmış cavab verilir və şikayət hüququ izah olunur. Digər subyektlər tərəfindən baxılan korrupsiya müraciətlərinə isə 20 iş günü müddətində baxılır.[9]

Azərbaycan Respublikasının Prezidenti 4 aprel 2022-ci il tarixində "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" Sərəncam vermişdir. Həmin Sərəncamla dövlət qurumlarının fəaliyyətində şəffaflığın daha da artırılması, korrupsiyaya şərait yaradan halların qarşısının alınması, dövlət orqanlarının ictimaiyyət qarşısında hesabatlılığının daha da gücləndirilməsi, dövlət qurumları tərəfindən əhaliyə göstərilən xidmətlərin daha da təkmilləşdirilməsi və elektronlaşdırılması, eləcə də korrupsiyaya qarşı mübarizə ilə bağlı görülən tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir.

Fəaliyyət Planı fərqli fəaliyyət istiqamətləri olan müxtəlif qurumların korrupsiyaya qarşı mübarizə səylərini birləşdirməyə xidmət edir, eləcə də korrupsiyaya qarşı mübarizənin bütün dövlət strukturları və vətəndaş cəmiyyəti institutları ilə birgə sistemli və əlaqəli şəkildə gerçəkləşdirilməsinə imkan yaradır. Planda qeyd olunur ki, ümumi inkişafa və təhlükəsizliyə mənfi təsir göstərən korrupsiya qanunun aliliyinə və sosial ədalətə ciddi təhlükə yaradır, iqtisadi və sosial inkişafı ləngidir, əlverişli biznes mühitinin yaranmasına mane olur.

Korrupsiyaya qarşı mübarizənin davamlı olması, korrupsiyanın qarşısının alınması ilə bağlı müasir çağırışlara uyğun effektiv mexanizmlərin tətbiq edilməsi xüsusi əhəmiyyət kəsb edir. Buna görə də həm beynəlxalq, həm də milli səviyyədə korrupsiyaya qarşı mübarizədə yeni təşəbbüslərin irəli sürülməsi zəruridir və bu sahədə icra edilən tədbirlər korrupsiyaya şərait yaradan halların və korrupsiya hüquqpozmalarının səbəblərinin, növlərinin və nəticələrinin qarşısının alınmasına yönəldilməlidir.

Azərbaycanın korrupsiyaya qarşı mübarizə təcrübəsi sistemli, kompleks və innovativ xarakteri ilə seçilir. Bu sahədə gö-

---

[9] Bax: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu (2015)

rülən tədbirlər çərçivəsində korrupsiyaya qarşı mübarizəyə dair milli strategiya və fəaliyyət planları qəbul edilmiş, yeni baxışlar və vəzifələr müəyyən edilmişdir. Hazırda ölkəmizdə sosial dövlətin yeni modeli formalaşmışdır və dövlət siyasətinin əsas məqsədi insanların yüksək sosial rifahına nail olmaqdır.

Fəaliyyət Planında dövlət orqanlarında korrupsiya risklərinin müəyyən edilməsi, təhlili və qarşısının alınması üzrə qaydaların yaradılması, korrupsiya hüquqpozmaları barədə məlumat verən şəxslərin həvəsləndirilməsi və müdafiəsi üçün qanunvericiliyin təkmilləşdirilməsi nəzərdə tutulur. Vəzifəli şəxslərin maliyyə məlumatlarının elektron formada təqdim edilməsi və qanunsuz varlanmaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi, həmçinin xüsusi müsadirə institutunun effektivliyinin artırılması üçün təkliflər hazırlanacaqdır. Müsadirə obyekti olan əmlakın idarə olunması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, maraqlar toqquşmasının qarşısını almaq üçün yeni qanunların qəbul edilməsi də planlaşdırılır.

Dövlət xidmətlərinin göstərilməsi qaydasını tənzimləyən vahid qanunun qəbul edilməsi, dövlət orqanlarının işçilərinin sosial təminatının yaxşılaşdırılması və əməkhaqlarının artırılması tədbirləri də nəzərdə tutulur. "Elektron məhkəmə" sisteminin funksionallığının artırılması və ölkə üzrə tətbiqi, məhkəmə hakimiyyətinin səmərəliliyinin artırılması, eləcə də vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın gücləndirilməsi kimi tədbirlər də planlaşdırılıb. Beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi və onların tövsiyələrinin icrası istiqamətində addımlar atılması nəzərdə tutulmuşdur.[10]

---

[10] Bax: “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (2022)

### 2.1.3. Korrupsiya cinayətləri ilə mübarizənin beynəlxalq-hüquqi əsasları

"Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" Avropa Konvensiyası 1999-cu ildə qəbul edilib və Azərbaycan tərəfindən 2003-cü ildə təsdiq olunub. Konvensiya korrupsiya ilə mübarizə məqsədi ilə dövlət vəzifəli şəxslərin, o cümlədən hakimlər və prokurorların, hüquqi şəxslərin, vəzifə və funksiyalarını icra edərkən korrupsiya hüquqpozmaları ilə bağlı məsuliyyət tədbirlərini tənzimləyir.

Konvensiya, milli və xarici vəzifəli şəxslərin, beynəlxalq təşkilatların nümayəndələrinin, özəl sektorun iştirakçılarının rüşvətlə ələ alınması, nüfuz alveri, korrupsiyadan əldə olunan gəlirlərin leqallaşdırılması kimi korrupsiya əməllərinin cinayət kimi tövsif edilməsini tələb edir. Dövlətlər bu hüquqpozmaların qarşısını almaq üçün öz qanunvericiliyində və hüquq-mühafizə sistemində dəyişikliklər etməlidir.

Dövlətlər həmçinin Konvensiya çərçivəsində digər ölkələrlə korrupsiya cinayətlərinin araşdırılması, istintaqı və cinayət məsuliyyətinə cəlb edilməsində geniş beynəlxalq əməkdaşlıq etməlidir. Sözügedən Konvensiyaya uyğun olaraq cinayət kimi tövsif edilən əməllər Tərəflər arasında qüvvədə olan ekstradisiya haqqında hər hansı müqaviləyə uyğun surətdə ekstradisiyaya əsas olan cinayətlər sırasına daxil olan cinayətlər hesab edilir.

Konvensiya çərçivəsində qəbul edilən digər sənəd - "Korrupsiya ilə əlaqədar mülki-hüquqi məsuliyyət haqqında" Konvensiya korrupsiya əməllərindən zərər çəkən şəxslərə dəymiş zərərin ödənilməsi üçün hüquqi müdafiə vasitələri təqdim edir. Bu Konvensiyaya uyğun olaraq, dövlətlər korrupsiya nəticəsində dəymiş maddi və qeyri-maddi zərərin tam ödənilməsi üçün hüquqi tədbirlər görməlidir.

Hər iki Konvensiya korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığı, sübutların toplanmasını, xarici məhkəmə qərarlarının tanınması və icrasını təşviq edir. Bu tədbirlər korrup-

siyanın qlobal səviyyədə qarşısının alınmasına və korrupsiya cinayətlərinin səmərəli şəkildə araşdırılmasına yönəlib.

2004-cü il fevralın 27-də imzalanmış Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyası 30 sentyabr 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmişdir.

Avropa Konvensiyası korrupsiyanın cəmiyyətin stabilliyi və təhlükəsizliyi üçün ciddi təhdidlər yaratdığını, demokratik institutları və dəyərləri, etik normaları və ədaləti sarsıtdığını vurğulayır. Preambula, korrupsiyanın digər cinayətkarlıq formaları, xüsusən mütəşəkkil cinayətkarlıq və iqtisadi cinayətkarlıq, o cümlədən pul yuyulması ilə əlaqəli olduğunu qeyd edir. Konvensiya korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizənin ümuməhatəli və çoxşaxəli yanaşma tələb etdiyini, qanunsuz əldə edilmiş var-dövlətin demokratik institutlara və hüquq qaydalarına ciddi zərər vura biləcəyini əsas gətirir.

Konvensiyanın məqsədləri bunlardır:

1. Korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizənin səmərəliliyini artırmaq üçün tədbirlərin təşviqi və gücləndirilməsi;

2. Korrupsiyaya qarşı mübarizə və aktivlərin geri qaytarılması üzrə beynəlxalq əməkdaşlıq və texniki yardımı dəstəkləmək;

3. Dövlət idarəçiliyində vicdanlılıq və məsuliyyətliliyin təşviqi.

Məhkəmə hakimiyyətinin müstəqilliyi qorunaraq, dövlətlər korrupsiya risklərini azaltmaq üçün məhkəmə və prokurorluq orqanlarında tədbirlər görməlidirlər. Konvensiya rüşvətlə ələalma, nüfuz alveri, qanunsuz varlanma və digər korrupsiya əməllərinin milli qanunvericilikdə cinayət kimi təsnif edilməsini tələb edir.

Həmçinin, Konvensiya, yalan ifadə verməyə təhrik və ya hüquq-mühafizə orqanlarına müdaxilə kimi əməllərin cinayət kimi təsnif edilməsini tələb edir. İştirakçı dövlətlər, korrupsiyaya dair məlumat verən şəxslərə cəzanın yüngülləşdirilməsi və ya cinayət təqibindən immunitet verilməsi məsələlərini də nəzərdən keçirməlidir.

Cinayət-hüquqi əməkdaşlıq məsələlərində, qarşılıqlı hüquqi yardım, ekstradisiya və birgə istintaq kimi tədbirlər də nəzərdə tutulur. Korrupsiya ilə əlaqədar işlərdə dövlətlər arasında geniş əməkdaşlıq təşviq edilir .[11]

## 2.2. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər

### 2.2.1. Heydər Əliyev: "Narkotiklərlə mübarizə sağlam həyat, saf mənəviyyat üçün zəruri amildir".

Narkotik vasitələr insan orqanizminə daxil olduqda fiziki və ya ruhi rahatlıq, həzz hissi yaradan, müxtəlif, hətta mənfi amillərin yaratdığı xoşagəlməz hissləri azaldan maddələrdir. Xüsusi ədəbiyyatda narkotik vasitələr həm tibbi, həm sosial, həm də hüquqi baxımdan nəzərdən keçirilir.

Tibbi nöqteyi-nəzərdən narkotiklər insanın mərkəzi sinir sisteminə zərərli təsir göstərir, onlara aludəçilik, əqli və fiziki asılılıq, narkomaniya xəstəliyi yaradır.

Sosial tərəfdən narkotik vasitələr, narkotik tərkibli dərmanların qeyri-tibbi istifadəsi əhali və ya onun ayrı-ayrı sosial qrupları arasında narkotik asılılığı artıra, onları sağalmaz xəstəliyə düçar edə bilər.

Narkotik vasitələrin dövriyyəsi dövlətin qanunvericiliyi ilə qadağan olunursa, onlardan qanunsuz istifadə cinayət-hüquqi və ya digər hüquqi komponenti yaradır, həmin hallarla mübarizəni şərtləndirir.

İnsanın mərkəzi sinir sisteminə təsir etmək qabiliyyətinə malik olan narkotik vasitələr, psixotrop və digər güclü təsirli maddələr psixoloji və ya fiziki asılılığa səbəb olur. Psixoloji asılılıq qadağan olunmuş maddələrin və narkotiklərin müntəzəm qəbuluna ehtiyac və istək formalaşdırır.

---

[11] Bax: "Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (2005)

Narkotik vasitələrin, psixotrop və güclü təsir göstərən maddələrin qeyri-qanuni dövriyyəsi probleminin tibbi aspekti həm də nəzarət olunan üç növ maddədən birinin insan orqanizminə spesifik təsirində (az və ya çox dərəcədə) özünü göstərir: stimullaşdırıcı, sakitləşdirici və ya halüsinogen. Beləliklə, həmin maddələrin istehlakı dağıdıcı asılılığın inkişafına səbəb ola bilir.

Azərbaycanda narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinin fərqləndirici xüsusiyyəti ölkənin coğrafi mövqeyinə görə narkotik vasitələrin daşınması üçün yolun üzərində yerləşməsi, çoxsaylı tibbi preparatların istehsalı və qaçaqmalçılığın intensivləşməsi hesabına onların çeşidinin daim genişlənməsidir. Əvvəllər qeyri-qanuni dövriyyədə ümumiyyətlə rast gəlinməyən, "dizayner" narkotik kimi tanınan narkotik vasitələrin payı durmadan artır. İndi müəyyən edilmişdir ki, bu "yeniliklər" fizioloji təsirinə görə ilkin maddənin struktur formulunun dəyişdirilməsi nəticəsində alınan birləşmələrə oxşardır.

Hazırda Azərbaycan ərazisində narkotik vasitələrin, psixotrop və güclü təsir göstərən maddələrin, habelə onların prekursorlarının qanuni və qeyri-qanuni dövriyyəsi ilə bağlı bütün hərəkətlər müxtəlif hüquqi aktlarla ciddi şəkildə tənzimlənir.

Nəzarət olunan maddələrin növlərinin və formalarının müxtəlifliyi, eləcə də əksər istehsalçılarının öz məhsullarını maskalamaq və gizlətməyə yönəlmiş hərəkətləri narkotik alverçilərinin qanunsuz fəaliyyəti ilə bağlı cinayətlərin açılması və təhqiqatının texniki və məhkəmə-tibbi dəstəyin spesifik aspektlərini müəyyən edir. Narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə fəaliyyətini həyata keçirən hüquq-mühafizə orqanlarının əməkdaşları hazırda nəzarət edilən maddələrin kimyəvi və fiziki xassələrini əhatə edən, onlara lazım olan elmi və xüsusi məlumatların olmaması ilə mürəkkəbləşmiş vəziyyətlə üzləşə bilirlər.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi yüksək ictimai təhlükəlilik dərəcəsinə malikdir. Narkotik vasitələrin yayılması təhlükəsi təkcə onların yayılması ilə bitmir. Bu yayılmadan irəli gələn neqativ nəticələr miqyasına və təh-

lükəliliyinə görə həyəcan doğurur. Belə ki, narkotik vasitələrin yayılması əhali arasında ciddi xəstəliklərin artmasına, insan psixikasının məhv olmasına, gələcək nəsillərə zərərli təsirinə və milli təhlükəsizliyə təhdid təşkil etməsinə görə ciddi narahatlıq yaradır.

Bundan əlavə, narkotik vasitələrin yayılması bir sıra digər cinayətlərin, o cümlədən terrorizmin maliyyələşdirilməsində önəmli amil kimi çıxış edir. Ona görə də narkotik vasitələrin qanunsuz dövriyyəsi sahəsində cinayətlərin artması Azərbaycanın inkişaf potensialına da təhlükə kimi qəbul edilməlidir.

Heydər Əliyev narkotik vasitələrin qanunsuz dövriyyəsinin zərərli nəticələrini həmişə diqqətə çatdırır, onlara qarşı mübarizənin təşkilinə önəm verir, xüsusən gənc nəslin narkotik vasitələrdən istifadəsinə qarşı mübarizə aparılmasını tələb edirdi.

Ulu Öndər narkotiklərlə bağlı problemlərin ayrı-ayrı cəhətlərinə toxunaraq qeyd edirdi: "Birinci növbədə hər bir ölkədə narkomaniyanın qarşısının alınması üçün çox ciddi təşkilati, profilaktik tədbirlər görülməli, lazımi iş aparılmalı, səhiyyə, təbliğat orqanları narkomaniyanın insan üçün, bəşəriyyət, cəmiyyət üçün nə qədər təhlükəli, faciəli olduğunu hərtərəfli açıb göstərməli və insanları bu xəstəliyə qurşanmaqdan çəkindirməlidirlər".

İkincisi, Heydər Əliyev narkomaniyaya bir xəstəlik kimi baxırdı: "Narkomaniya xəstəliyi artır. Bu problemə diqqətin güclənməsinə, görülən tədbirlərə baxmayaraq, bu xəstəlik geniş yayılır. Dünyada statistikanın göstəricilərinə görə bu belədir. O cümlədən Azərbaycanda da son illər bu xəstəliyin artmasının, yayılmasının şahidiyik".

Üçüncüsü, Heydər Əliyev hesab edirdi ki, narkomaniya ilə mübarizədə aşkarlıq təmin olunmalıdır: "Keçmiş zamanlarda bizim ölkələrdə, o cümlədən Azərbaycanda bu xəstəliyin hansı səviyyədə, nə qədər olması müəyyən dərəcədə gizli saxlanırdı. Ancaq indi biz bu cür münasibətlərdən imtina etmişik və hesab edirik ki, hər bir mənfi hal, təhlükəli xəstəlik haqqında həqiqəti olduğu kimi bilmək və onu ictimaiyyətə olduğu kimi çatdırmaq lazımdır".

Dördüncüsü, Heydər Əliyev narkotiklərin yayılmasının qarşısının alınması üçün mübarizənin gücləndirilməsini zəruri hesab edirdi: "Bu cür münasibətlə, bu yolla narkomaniya kimi təhlükəli xəstəliyin qarşısını almaq tədbirlərini səmərəli həyata keçirmək olar. Ona görə biz ölkəmizin bütün orqanlarını problemə bu cür yanaşmaqla narkomaniyaya qarşı mübarizəyə səfərbər etmişik, ümummilli proqram tərtib etmişik".

Beşincisi, Heydər Əliyev narkomaniya ilə mübarizəni təkcə dövlət orqanlarının deyil, həm də ictimaiyyətin vəzifəsi kimi müəyyən edir, mübarizənin beynəlxalq səviyyədə gücləndirilməsini arzulayırdı: "Onun həyata keçirilməsi üçün lazımi dövlət orqanlarına, ictimai təşkilatlara göstərişlər verilmiş, onların üzərinə vəzifələr qoyulmuşdur. Bu gün Azərbaycanın bütün dövlət orqanlarını, ictimaiyyətini narkomaniya xəstəliyinə qarşı ciddi mübarizə aparmağa bir daha dəvət edirəm. Güman edirəm ki, bu problemin həlli, narkomaniya ilə mübarizə sahəsində, narkomaniya xəstəliyinin yayılmasına qarşı tədbirlərin gücləndirilməsi sizin bugünkü sessiyanın işində də özünəlayiq yer tutacaq və qəbul edəcəyiniz sənədlərdə öz əksini tapacaqdır".

Altıncısı, Heydər Əliyev narkotiklərin sürətlə yayılmasının səbəbini onların müxtəlif ölkələrdə gizli, qeyri-qanuni istehsal edilib digər ölkələrə daşınması ilə əlaqələndirirdi: "Narkomaniya xəstəliyinin yayılması səbəbləri aydındır. Narkotik maddələrin gizli, qeyri-qanuni istehsal olunması, onların qanunsuz dövriyyəsi, satılması, istehsal edilən ölkələrdən başqa ölkələrə gizli surətdə, qeyri-qanuni yollarla daşınması kimi hallar narkotik maddələrin, narkomaniya xəstəliyinin yayılmasına səbəb olan əsas amillərdir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab, s. 408-415).

Heydər Əliyev hesab edirdi ki, "Hər bir ölkədə narkotik maddələrin istehsalı, onların qeyri-qanuni istifadəsi ilə ciddi mübarizə aparılmalıdır. Məlumdur ki, narkotik maddələrin müəyyən miqdarda istehsalı yalnız və yalnız tibb, müalicə məqsədləri ilə bağlıdır. Bu hallardan əlavə, başqa məqsədlər üçün narkotik maddələrin istehsalı tamamilə qadağan olunmalı, qarşısı ciddi alınmalı və qeyri-qanuni istehsalla

məşğul olan şəxslər, qruplar, təşkilatlar ciddi məsuliyyətə cəlb edilməlidirlər. Biz respublikamızda məsələni belə qoymuşuq. Mən məsələnin belə kəskin qoyulmasını bu gün beynəlxalq toplantı qarşısında bir daha bəyan edirəm və Azərbaycan Respublikasının bütün təşkilatlarından həmin vəzifələrin yerinə yetirilməsini tələb edirəm" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab, s. 409-410).

Heydər Əliyev qloballaşma istiqamətinin meydana çıxdığı, dünyanın getdikcə bir-birinə yaxınlaşdığı bir zamanda milli-mənəvi dəyərlərin qorunması, onlara sadiqliyin saxlanılması üçün hər kəsdən sayıqlıq göstərməyi tələb edir, narkomaniyanın yayılmasının qarşısının alınması üçün bunu vacib hesab edirdi: "Bizim xalqımız, millətimiz öz tarixi adət-ənənələrinə görə, öz mentalitetinə görə, başqa xalqlara nisbətən belə mənfi hallara o qədər meyilli olmayıbdır. Ancaq indi dünya getdikcə bir-birinə yaxınlaşdığı bir zamanda, qloballaşma istiqamətinin meydana çıxdığı bir zamanda və bəzi ölkələrdə mövcud olan əxlaq pozğunluqlarına, narkomaniyaya və başqa bu cür hallara azadlıq verildiyi, hətta bəzi hallarda onların qanuniləşdirildiyi bir vaxtda biz nə qədər diqqətli olmalıyıq, nə qədər sayıq olmalıyıq. Millətimizi keçmişdən indiyə qədər olduğundan da çox qorumalıyıq" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz üçüncü kitab, s. 257).

### 2.2.2. Heydər Əliyev sağlam mənəviyyatlı gənclərin yetişməsi üçün narkotiklərlə mübarizənin zəruriliyi haqqında

Heydər Əliyev gənclərə Azərbaycan xalqının gələcəyi kimi baxır, gənclərin sağlam mənəviyyata malik olmasına böyük dəyər verirdi. O, ölkənin elmi-texniki tərəqqi səviyyəsində inkişaf etməsi üçün gənclərin yüksək təhsilə, elmə nail olmasını vacib saymaqla yanaşı, gənclərin həm milli ənənələr əsasında, həm də bəşəri mənəvi dəyərlər əsasında əxlaq, mənəviyyat məsələlərinə çox diqqət yetirmələrini arzulayırdı. O, ölkədə gənclər arasında cinayətkarlığın artmasını, əxlaq pozğunlu-

ğunun olmasını, sərxoşluğa, narkomaniyaya meylin çoxalmasını ürək ağrısı ilə qarşılayaraq hesab edirdi ki, spirtli içkilərə, narkotik maddələrə aludəlik gənclərin fiziki sağlamlığına mənfi təsir göstərir, onların mənəviyyatını korlayır, cəmiyyətin sağlamlığını zəhərləyir (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. s.172).

Ulu Öndər hesab edirdi ki, görülən tədbirlər gənclərin arasında mənfi halların, o cümlədən cinayətkarlığın, narkomaniyanın yayılmasının qarşısını almağa kömək edər. O, 22 sentyabr 1993-cü il tarixində Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə həmin mənfi halların təhlükəliliyini dünya təcrübəsi ilə əsaslandıraraq deyirdi: "Dünya təcrübəsi, tarix əsrlər boyu göstərmişdir ki, mənəvi və fiziki sağlamlıq xalqın ümumi sağlamlığı, ümumi saflığı, millətin bu günü və gələcəyidir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s.172).

Heydər Əliyev hər bir gənci ayrıca fərd kimi deyil, Azərbaycanın gələcəyi kimi görür, sağlam mənəviyyatla böyüməyi onların vəzifəsi kimi müəyyən edirdi: " ...Gənclərimizin borcudur ki, Azərbaycan daim müstəqil dövlət olsun, Azərbaycan xalqı bir millət kimi dünyada öz yerini tuta bilsin, gələcəyə daha da uğurla gedə bilsin, dünya millətləri, xalqları arasında aşağı səviyyədə durmasın, ümumdünya səviyyəsində olsun. Bundan ötrü biz genofond haqqında düşünməliyik. Genofond isə gənclərin həm mənəvi, həm də fiziki sağlamlığıdır. Mənəvi və fiziki sağlamlıq bir-biri ilə qarşılıqlı əlaqədədir. Çünki mənəviyyat pozulanda gənclərin fiziki sağlamlığını da pozur. Əgər gənclər sərxoşluğa qurşanırlarsa, şübhəsiz ki, bu, onların əxlaqsız hərəkət etmələrinə şərait yaradır, mənəviyyat pozulur. Eyni zamanda bu, gənclərin sağlamlığını pozur. Yaxşı bilirsiniz ki, sərxoşluğa qurşanmış gənclərdən gələcəkdə sağlam övlad törəyə bilməz, onlar bizim nəslimizin davamçısı ola bilməz. Narkomaniyaya qurşanmış gənclər əgər ondan müvəqqəti zövq alırlarsa belə, düşünməlidirlər ki, onlar öz nəsillərini zəhərləyir, itirirlər. Bütün bunlar cəmiyyətimizdə ümumi kriminogen vəziyyəti pisləşdirir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s.173).

Heydər Əliyev xalqın sağlamlığının qorunması, gənclərin narkotik vasitələrdən istifadə etməsi meyillərinin qarşısının alınması zəruriliyini sonralar da dəfələrlə xatırlayır, narkotik vasitələrin ölkəmizə daxil olmasının qarşısının alınmasını bu sahədə müsbət nəticələrin əldə edilməsi üçün vacib hesab edirdi. O, Azərbaycan Respublikası Sərhəd Qoşunlarının 82-ci ildönümünə həsr olunmuş təntənəli yığıncaqda deyirdi: "Birincisi, biz xalqımızın sağlamlığını qorumalıyıq, ikincisi də, xüsusən gənclərin bu narkotik maddələrdən istifadə etməsi meyillərinin qarşısını almalıyıq. Təəssüf ki, bu meyillər var və axır zamanlar artıbdır. İkinci tərəfdən, beynəlxalq terrorizmlə mübarizə məqsədilə narkotik maddələrin müxtəlif vasitələrlə Azərbaycana keçirilməsi və Azərbaycandan başqa ölkələrə keçirilməsinin qarşısı alınmalıdır. Ona görə də bizim sərhəd qoşunlarının qarşısında, milli təhlükəsizlik orqanlarının qarşısında, hüquq-mühafizə orqanlarının qarşısında bu sahədə böyük vəzifələr var" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz beşinci kitab, s. 377-378).

Heydər Əliyev media subyektlərinin də narkomaniyanın yayılmasının qarşısının alınmasında roluna toxunaraq qeyd edirdi: "Hesab edirəm ki, bizim informasiya orqanlarımız – televiziya, radio, qəzetlər, digər mətbuat orqanları da təbliğat işini genişləndirməlidir. Yenə deyirəm, gəncləri bu təhlükəli meyillərdən qorumaq, ümumiyyətlə, bu meyillərin qarşısını almaq, bunları ölkəmizdən tamamilə yox etmək lazımdır. Xalqımız dövri-qədimdən bu mənfi meyillərdən uzaq olmuşdur. Keçmişdən bizim millətimizdə spirtli içkilər istifadə olunmayıbdır. Bu bizim dini, milli ənənələrimizə uyğun deyil. ...Narkotik maddələrdən istifadə olunması tarixi keçmişimizə, xalqımıza xas olan bir xüsusiyyət deyildir. Yəni bunlar son dövrdə xalqımızın, cəmiyyətimizin içərisində başqa ölkələrdən, yerlərdən gəlib daxil olmuş xəstəliklərdir. Bunların qarşısı alınmalıdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab, s. 393).

## 2.2.3. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə milli səviyyədə mübarizənin təşkili

Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə sağlam cəmiyyətin formalaşması baxımından əsas vəzifələrdən biri hesab olunmalıdır. Azərbaycanda sabitliyin təmin edilməsi, insanların sağlamlığının, rifahının, maddi-həyat şəraitinin yaxşılaşdırılması və milli-mənəvi dəyərlərinin qorunması məqsədilə narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə dövlətin ardıcıl surətdə həyata keçirdiyi tədbirlərdəndir. Bu sahədə qanunvericilik bazası yaradılmış, hüquqi, tibbi islahatlar həyata keçirilmiş, Azərbaycan dövləti narkotiklərin qanunsuz dövriyyəsinin qarşısını almağa yönəlmiş beynəlxalq konvensiyalara qoşulmuşdur.

Narkomaniyaya qarşı mübarizənin gücləndirilməsi məqsədilə Heydər Əliyevin "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" 26 avqust 1996-cı il tarixli 485 nömrəli Fərmanı ilə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmışdır. Komissiyanın əsas vəzifəsi narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin etmək, bu sahədə dövlət orqanlarının və ictimai birliklərin fəaliyyətini əlaqələndirməkdən ibarətdir.

Həyata keçirilən hüquq islahatları çərçivəsində narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə önəmli yer tutur. Heydər Əliyev tərəfindən imzalanmış "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi haqqında" 9 avqust 1994-cü il tarixli Fərmanla cinayətkarlığa qarşı mübarizə tədbirləri daha da gücləndirilmiş, hüquq-mühafizə orqanlarının bu istiqamətdə uzunmüddətli dövr üçün fəaliyyət proqramı müəyyənləşdirilmişdir. 2000-ci ilin sentyabr ayından qüvvəyə minmiş yeni Cinayət Məcəlləsində narkotik vasitələrin qanunsuz dövriyyəsini cinayət kimi müəyyən edən xüsusi fəsil öz yerini tapmışdır.[12]

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının, habelə narkotik vasitələrə və psixotrop maddələrə aid olmayan güclü təsir edən və zəhərli maddələrin qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında" 14 iyun 2024-cü il tarixli qərarında narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq bəşəriyyəti düşündürən, cəmiyyətin ciddi bəlasına çevrilən, insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə böyük zərbə vuran ən ağrılı problemlərdən biri kimi dəyərləndirilmiş və cinayət əməllərinin tövsifi ilə bağlı bir sıra məqamlara aydınlıq gətirmişdir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234.2-ci maddəsinin dispozisiyasına görə narkotik vasitələri və ya psixotrop maddələri təkcə satma deyil, həm də bu maddələri satış məqsədilə qanunsuz olaraq əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə həmin maddə ilə cinayət məsuliyyətini yaratdığı üçün bu hərəkətlərin narkotik vasitələri (psixotrop maddələri) məhz satmaq məqsədilə törədilməsinin müəyyən olunması bu qəbildən olan işlərin düzgün həlli üçün mühüm əhəmiyyət kəsb edir.

Təqsirkarın narkotik vasitələri (psixotrop maddələri) satmaq niyyətində olması müəyyən edilərkən başqa sübutlarla və narkotik vasitələrin miqdarı ilə yanaşı, istehlakçı ilə əvvəlcədən razılıq əldə edilməsi, narkotik vasitənin (psixotrop maddənin) çəkilib xırda bağlamalara bükülməsi, onların hazırlanması üçün avadanlığın olması və işin digər halları nəzərə alınmalıdır.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 237-ci maddəsində işlədilən narkotik xassəli, yəni tərkibində narkotik maddələr olan bitkilərin qanunsuz kultivasiyası cinayətinin predmeti əkilməsi, yetişdirilməsi və toplanılması qadağan edilən narkotik xassəli bitkilər, onların hissələri, çətənə, xaşxaş növləri, tərkibində narkotik maddələr olan digər bitkilərdir.

---

[12] Azərbaycan Respublikası CM-in 26-cı fəslinin 234-240-cı maddələri narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətləri nəzərdə tutur.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 238-ci maddəsində təsbit edilmiş cinayətlərin obyektiv cəhətini tiryəkxanaların təşkil edilməsində, saxlanılmasında habelə tiryəkxanaların təşkil edilməsi və saxlanılması üçün binaların verilməsində ifadə olunan qəsdən törədilən hərəkətlər təşkil edir.

"Tiryəkxana" dedikdə narkotik vasitələrin və ya psixotrop maddələrin mütəmadi istehlakı üçün nəzərdə tutulmuş yaşayış (məsələn, mənzil, fərdi ev, bağ evi və s.) və yaxud qeyri-yaşayış sahəsi (anbar, qaraj, zirzəmi və s.) başa düşülür.

Tiryəkxananın təşkili və saxlanılması məqsədilə binanın verilməsi də konstruktiv təyinatından asılı olmayaraq istənilən tikilinin və yaxud onun bir hissəsinin həmin məqsədlər üçün başqa şəxsin (tiryəkxananı təşkil edənin, saxlayanın) istifadəsinə verilməsini ehtiva edir.

Tiryəkxana üçün yaşayış və qeyri-yaşayış sahələrinin əldə edilməsi, icarəyə, əvəzsiz olaraq istifadəyə və ya sahibliyə götürülməsi, təmir olunması, yenidən qurulması, xüsusi avadanlıqlarla təchiz edilməsi və sair bu kimi hərəkətlər tiryəkxananın təşkil edilməsi kimi təfsir olunmalıdır.

Tiryəkxananı saxlama dedikdə isə artıq şəxsin özü və yaxud başqası tərəfindən təşkil olunmuş tiryəkxananın fəaliyyətinin davam etdirilməsinə yönələn hərəkətlər, məsələn, tiryəkxananın yerləşdiyi yaşayış və yaxud qeyri-yaşayış sahələrinin istismarı ilə bağlı maliyyə xərclərinin çəkilməsi, onların mühafizəsinin təşkil edilməsi, tiryəkxanadan istifadəni nizamlamaq üçün tədbirlərin görülməsi başa düşülməlidir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.2-ci maddəsinin şərh edilməsinə dair" 6 yanvar 2021-ci il tarixli qərarı ilə Cinayət Məcəlləsinin 206-cı və 234-cü maddələrinin, Gömrük Məcəlləsinin 214.1.2-ci maddəsinin, İnzibati Xətalar Məcəlləsinin 206-cı maddəsinin müddəalarına aydınlıq gətirilmişdir.

“Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında” 28 iyun 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanunu narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə əlaqədar yaranan ictimai münasibətləri tənzimləyir, bu sahədə dövlət orqanlarının, fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrini müəyyən edir. Qanunun 19-cu maddəsi narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar mübarizə tədbirlərini nəzərdə tutur. Bu tədbirlər narkotik vasitələrin qanunsuz dövriyyəsi sahəsində hüquq pozuntularının profilaktikasına yönəlmiş fəaliyyətə üstünlük verilməsini, həmin vasitələrin qanunsuz idxalının, ixracının, tranzit nəql edilməsinin və istehsalının qarşısının alınmasını, cinayət faktları aşkar edildikdə bununla əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini, tərkibində narkotik maddələr olan bitkilərin qanunsuz əkinlərinin aşkar və məhv edilməsini, narkomanlığın profilaktikasını, narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsi və onların reabilitasiyasını, narkomanlığın yayılmasına təkan verən səbəblərin aradan qaldırılması üçün zəruri olan tədbirlərin həyata keçirilməsini, görülən tədbirlər və onların nəticəsi barədə məlumatların dərc edilməsi üçün media subyektlərinə verilməsini, narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə mübarizə sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsinə dair tədbirlərin həyata keçirilməsini əhatə edir.

Qanunun 22.1-ci maddəsinə əsasən, narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar inzibati məsuliyyət Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda yaranır.

## 2.2.4. Heydər Əliyev narkotiklərlə mübarizədə beynəlxalq əməkdaşlığın zəruriliyi haqqında

Dövlətlər arasında əməkdaşlıq prinsipi dövlətlərin BMT Nizamnaməsi əsasında qarşılıqlı əlaqələrini nəzərdə tutur. BMT Nizamnaməsində dövlətlər üçün müəyyən hüquqların nəzərdə tutulması ilə yanaşı, onların üzərinə müəyyən öhdəliklər də qoyulmuşdur. BMT Nizamnaməsinin 1-ci maddəsinin 3-cü bəndinə əsasən, dövlətlərin üzərinə "iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həllində beynəlxalq əməkdaşlığın həyata keçirilməsi", Nizamnamənin 1-ci maddəsinin 1-ci bəndinə görə isə "beynəlxalq sülh və təhlükəsizliyin qorunması və bu məqsədlə səmərəli kollektiv tədbirlər" həyata keçirilməsi vəzifəsi qoyulmuşdur.

Heydər Əliyev beynəlxalq cinayətlərə, o cümlədən terrorizm, mütəşəkkil cinayətkarlıq, soyqırımı, insanlıq əleyhinə cinayətlər, müharibə cinayətlərinə qarşı mübarizədə beynəlxalq əməkdaşlığı həmişə dəstəkləmiş, beynəlxalq sülh və təhlükəsizliyin qorunması üçün kollektiv tədbirlərin görülməsinə çağırışlar etmişdir.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının 1972-ci il tarixli protokolu ilə edilmiş düzəlişlərlə "Narkotik vasitələr haqqında" 1961-ci il tarixli Vahid Konvensiyasına, Birləşmiş Millətlər Təşkilatının 21 fevral 1971-ci ildə qəbul edilmiş "Psixotrop maddələr haqqında" Konvensiyasına və "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" 1988-ci il tarixli Konvensiyasına qoşulmuşdur.

Azərbaycan Respublikası qeyd olunan beynəlxalq aktları ratifikasiya etməklə, üzərinə öz ərazisi hüdudlarında mülahizəsinə uyğun olaraq "Narkotik vasitələr haqqında" Vahid Konvensiyanın narkotik vasitələrə

[13] "Narkotik vasitələr haqqında" Vahid Konvensiyanın 2-ci maddəsinin 5-ci bəndinin "a" yarımbəndi

dair I Siyahısında göstərilən istənilən narkotik vasitəyə münasibətdə vacib hesab etdiyi xüsusi nəzarət tədbirini görmək öhdəliyi götürmüşdür.[13]

"Psixotrop maddələr haqqında" Konvensiya psixotrop maddələrə nəzarətin həcmini, onlardan tibbi məqsədlər üçün istifadə qaydasını, narkotik vasitələrin ixracını və idxalını qadağan edən və məhdudlaşdıran tədbirləri, qanunsuz fəaliyyətlə mübarizə tədbirlərinin ümumi istiqamətini, psixotrop maddələrin qanunsuz dövriyyəsində təqsirli şəxslərin cəzalandırılması ilə bağlı məsələlərdə dövlətlərin əməkdaşlığını nəzərdə tutur.

Konvensiyaya uyğun olaraq BMT-nin Narkotiklərə Nəzarət üzrə Beynəlxalq Şurası yaradılıb. Komitə əldə etdiyi məlumatları, hər hansı şərh və tövsiyələri özündə əks etdirən illik hesabatlar hazırlayır. Hesabatlar sazişin tərəflərinə ötürülür və daha sonra BMT-nin Baş katibi tərəfindən dərc olunur.

"Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Konvensiyaya müvafiq olaraq, Tərəflər istənilən narkotik vasitənin və ya psixotrop maddənin şəxsi istehlak məqsədilə saxlanmasının, əldə edilməsinin, yaxud becərilməsinin, qəsdən törədildiyi halda, öz qanunvericiliyinə müvafiq olaraq hüquqpozma kimi qiymətləndirilməsi üçün tələb oluna biləcək tədbirləri görür; Tərəflər bu maddədə nəzərdə tutulmuş istənilən hüquqpozmalar barəsində hüquq mühafizə tədbirlərinin maksimal effektivliyinə nail olmaq məqsədilə və belə hüquqpozmaların törədilməsinə mane olmağın zəruriliyini nəzərə almaqla, həmin hüquqpozmalara görə şəxslərin cinayət təqibinə aid istənilən diskresion hüquq səlahiyyətlərinin öz milli qanunvericiliklərinə müvafiq olaraq istifadəsini təmin etməyə çalışırlar (3-cü maddənin 2 və 6-cı bəndləri).

BMT-nin 1987-ci il Konvensiyasına tərəfdar çıxmış ölkələrin "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Bəyannaməsinə əsasən 26 iyun "Narkomaniya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü" kimi qeyd olunur.

17 fevral 1997-ci il tarixində BMT-nin Yaxın və Orta Şərqdə narkotik vasitələrin qanunsuz dövriyyəsinə nəzarət və bununla bağ-

lı problemlər üzrə yardımçı komissiyanın 32-ci sessiyasında Heydər Əliyev narkomaniya və narkotik maddələrin qeyri-qanuni dövriyyəsi haqqında danışarkən, qeyd etmişdir: "Şübhəsiz ki, yalnız Yaxın və Orta Şərqdə olan ölkələr barədə yox, dediyim kimi, bunu bütün dünya üçün ümumbəşəri problem kimi başa düşmək lazımdır və biz bunu belə hesab edirik. Çünki Yaxın və Orta Şərqdən cürbəcür vasitələrlə daşınan narkotik maddələrin çox hissəsi başqa ölkələrə, Avropa ölkələrinə də gətirilir. Həmin ölkələrdə də bu mübarizəni gücləndirmək və bizim bölgənin ölkələri ilə Avropa ölkələri arasında bu barədə müştərək işlərin aparılması üçün tədbirlər görmək lazımdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab, s. 408-415).

Ümummilli Lider sessiyada həmçinin, Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının narkotiklərə nəzarət proqramı çərçivəsində üzərinə düşən öhdəlikləri layiqincə yerinə yetirəcəyini əminliklə bildirdi: "Birləşmiş Millətlər Təşkilatının narkotiklərə nəzarət haqqında proqramı və BMT-nin bu sahədə apardığı iş, onun xüsusi orqanlarının fəaliyyəti təqdirəlayiqdir. Mən Azərbaycanın adından bir daha bildirmək istəyirəm ki, narkotik maddələrin qeyri-qanuni dövriyyəsi, qanunsuz istifadə olunması, narkobiznes bu gün üçün də, gələcək üçün də həqiqətən bəşəriyyətə təhlükə doğuran amillərdən biridir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Birləşmiş Millətlər Təşkilatı özünün bu proqramının bundan sonra da geniş miqyasda həyata keçirilməsi üçün lazımi tədbirlər görəcək və öz səylərini göstərəcəkdir.

Azərbaycan Respublikası bu proqramın həyata keçirilməsi sahəsində öz üzərinə düşən vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək və bəşəriyyətin bu böyük təhlükədən – narkomaniya xəstəliyindən və narkobiznes kimi təhlükəli bir haldan xilas edilməsi üçün öz səylərini göstərəcəkdir.

…Biz dünyada ümumbəşəri problemlərin vaxtında həll olunmasının tərəfdarıyıq, o cümlədən dünyada bütün insanlar üçün böyük təhlükə olan narkomaniya ilə və narkobizneslə mübarizədə bundan

sonra da ön sıralarda gedəcəyik” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab, s. 411-412).

10 iyun 2000-ci il tarixində BMT Baş katibinin müavini, bu təşkilatın Vyana şöbəsinin baş direktoru Pino Arlaççi ilə görüşdə narkomanlığa qarşı mübarizənin daha da gücləndirilməsi məsələləri müzakirə edilərkən Heydər Əliyev bildirdi ki, “dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarından biri olan Birləşmiş Millətlər Təşkilatı ilə əlaqələrin daha da möhkəmləndirilməsinə Azərbaycan böyük diqqət yetirir. Narkomanlığa və narkobiznesə qarşı respublikamızda daim ciddi mübarizə aparılır” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İyirmi səkkizinci kitab, s. 104).

27 noyabr 2000-ci il tarixində Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin direktoru general-polkovnik Nikolay Patruşev başda olmaqla bu idarənin nümayəndə heyəti ilə görüşdə Heydər Əliyev iki dövlət arasında mövqelərin eyni olmasını uğurlu əməkdaşlıq və uğurlu qarşılıqlı fəaliyyət üçün başlıca şərt kimi qiymətləndirərək qeyd etdi ki, “beynəlxalq terrorizimlə mübarizə, separatizmlə mübarizə, narkotiklərin daşınması ilə mübarizə və bir çox digər hallar indi kifayət qədər böyük miqyas almışdır və çox ciddi və qətiyyətli tədbirlər görülməsini tələb edir. Bu baxımdan, Azərbaycan çox qəti mövqe tutur. Təkcə ona görə yox ki, biz bundan bu və ya digər dərəcədə əzab-əziyyət çəkirik. Ən əvvəl ona görə ki, biz dünyada həqiqətən sülh olmasını, qayda-qanun olmasını, son vaxtlar dünyanın bəzi regionlarında, o cümlədən də bizim regionumuzda çox geniş yayılmış cinayət təzahürlərinin qarşısının alınmasını istəyirik” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz birinci kitab, s. 123-124).

2 avqust 2001-ci il tarixində Heydər Əliyev MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə çıxış edərək digər məsələlərlə yanaşı, …MDB-nin üzvü olan ölkələr arasında qarşılıqlı maraq doğuran əməkdaşlığın genişləndirilməsi, MDB məkanında təhlükəsizlik, strateji sabitlik, beynəlxalq terrorizmə, etnik separatizmə, narkotik vasitələrin dövriyyəsinə qarşı birgə mü-

barizə məsələlərinə də öz münasibətini bildirmişdir (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz beşinci kitab, s. 300).

Ulu Öndər 3 avqust 2001-ci il tarixində Soçi şəhərindən Bakıya qayıdarkən Binə hava limanında jurnalistlərə verdiyi müsahibəsində Soçidə narkotik maddələrin gizli istehsal olunması və yayılması ilə bağlı keçirilən müzakirələrdən bəhs edərək deyirdi: "Narkobiznesin beynəlxalq terrorizm ilə bağlılığı və beynəlxalq terrorizmin narkobiznesdən istifadə edərək öz terrorçuluq hərəkətlərini həyata keçirməsi barədə geniş fikir mübadiləmiz oldu, …hamının eyni fikri oldu ki, bu, indiki zamanda bütün bəşəriyyət üçün, o cümlədən bizim dövlətlər üçün çox təhlükəli bir meyildir və bu, getdikcə də genişlənir. … qəti mövqeyimizi bildirdik ki, bunların qarşısını almalıyıq" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz beşinci kitab, s. 314-315).

23 oktyabr 2001-ci il tarixində Rusiyanin daxili işlər naziri Boris Qrızlovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş zamanı Heydər Əliyev bildirdi ki, "Hüquq-mühafizə orqanlarının xətti ilə əməkdaşlıq isə xüsusi əhəmiyyətə malikdir. Xüsusən də beynəlxalq terrorizm, narkotik maddələr alveri kimi cinayətlər və digər təhlükəli cinayətlər geniş yayıldıqda birgə fəaliyyətin və sıx əməkdaşlığın müstəsna əhəmiyyəti var" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz altıncı kitab, s. 380).

MDB üzvü olan ölkələrin Daxili İşlər Nazirləri Şurasının Bakıda keçirilən 23-cü iclasının iştirakçıları ilə 6 sentyabr 2002-ci il tarixli görüşdə Heydər Əliyev beynəlxalq terrorizmlə, mütəşəkkil cinayətkarlıqla, narkotiklərin yayılması ilə … mübarizədə səylərin birləşdirilməsini çox mühüm məsələ kimi dəyərləndirirdi (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Qırx birinci kitab, s. 12).

### 2.2.5. Heydər Əliyev narkotiklərlə mübarizədə dövlət orqanlarının vəzifəsi haqqında

20 sentyabr 1993-cü il tarixində Daxili İşlər Nazirliyində keçirilən müşavirədəki çıxışında Heydər Əliyev Daxili İşlər Nazirliyini Azərbaycan Respublikasının dövlət atributlarından biri kimi dəyərləndirərək göstərirdi ki, "hər bir müstəqil dövlət bir neçə böyük sütun üstündə fəaliyyət göstərə bilir. Hər bir dövlət üçün, o cümlədən müstəqil Azərbaycan dövləti üçün bu sütunlardan biri Daxili İşlər Nazirliyi, polis orqanlarıdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 139).

Azərbaycan Respublikası daxili işlər orqanlarının şəxsi heyətinə 1 iyul 1998-ci il tarixli müraciətində Ulu Öndər yazırdı: "Azərbaycan müstəqillik qazandıqdan sonra daxili işlər orqanlarının şəxsi heyətinin üzərinə daha böyük məsuliyyət düşmüşdür. Azərbaycan polisi bir tərəfdən milli müdafiə funksiyalarını yerinə yetirərək ərazi bütövlüyümüz uğrunda erməni qəsbkarlarına və separatizmə qarşı ağır döyüşlərdə iştirak etmiş, bu yolda yüzlərlə qurban vermişdir. Digər tərəfdən isə dövlətçiliyimiz əleyhinə yönəldilmiş cinayətkar qəsdlərin və başqa qeyri-konstitusion əməllərin, vətəndaş qarşıdurmasının, kütləvi və mütəşəkkil cinayətkarlıq təzahürlərinin, cəzasızlıq mühitinin aradan qaldırılmasında önəmli xidmətlər göstərmişdir. Əlamətdar haldır ki, daxili işlər orqanlarının şəxsi heyəti bütün bu proseslərdə Azərbaycan xalqının, Azərbaycan dövlətinin maraqlarını, özlərinin vətəndaşlıq borclarını və xidmətin mənafeyini hər şeydən üstün tutmuşdur" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On altıncı kitab, s. 167-168).

Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə işi, əsasən, Azərbaycan Respublikasının "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" 28 iyun 2005-ci il tarixli Qanunu, Azərbaycan Respublikası Prezidentinin "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" 26 avqust 1996-cı il tarixli Fərmanı, Nazirlər Kabinetinin aidiyyəti qərarları və DİN-in əmr və göstərişləri ilə tənzimlənir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 aprel 2000-ci il tarixli, 71 nömrəli qərarı ilə Daxili İşlər Nazirliyində narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsində iştirak edən, o cümlədən narkomanlıq xəstəliyinə düçar olan şəxslərə dair Ümummilli Məlumat Bankının təşkili, həmin məlumat bankına məlumatların göndərilməsi və oradan məlumatların alınması qaydası müəyyənləşdirilmişdir.

28 noyabr 1998-ci il tarixində Azərbaycan Respublikası prokurorluq orqanlarının 80 illiyinə həsr olunmuş təntənəli yığıncaqdakı nitqində Heydər Əliyev cinayətkarlıqla mübarizədə prokurorluq orqanlarının roluna yüksək qiymət verərək qeyd edirdi ki: "Prokurorluq orqanı hüquq-mühafizə orqanlarının içərisində xüsusi yer tutur. Prokurorluq istintaqın əsas hissəsini aparır. İstintaq isə cinayəti açmaq üçün və qanun əsasında cinayətkarın cinayətkar olduğunu sübut etmək üçün, yaxud da ki, edilmiş cinayətin məzmununu aşkar etmək üçün əsas vasitədir. Ötən beş il müddətində Azərbaycanda istintaq işlərinin çoxu bu cinayətlərlə əlaqədar aparılıbdır və bu gün məmnuniyyətlə demək olar ki, bunların nəticəsində cinayətlər açılıb, edilən cinayətlərin məzmunu aşkar olunub, ictimaiyyətə göstərilib və aparılan istintaq işləri nəticəsində çıxarılan məhkəmə hökmləri cinayətkarların cinayət etdiklərini sübut edib və beləliklə də cəmiyyətimiz, vətəndaşlarımız belə cinayətkarlardan xilas olublar. Bunlar hamısı çox əhəmiyyətli işlərdir və mən bu işlərdə prokurorluğun xidmətlərini yüksək qiymətləndirirəm" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On səkkizinci kitab, s. 285).

18 avqust 2001-ci il tarixində Azərbaycan Respublikası Sərhəd Qoşunlarının 82-ci ildönümünə həsr olunmuş təntənəli yığıncaqda Heydər Əliyev beynəlxalq cinayətkarlıq, o cümlədən narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınmasında dövlət orqanlarının birgə fəaliyyətini vacib amil kimi irəli sürərək deyirdi: "...beynəlxalq terrorizmlə mübarizə məqsədi ilə narkotik maddələrin müxtəlif vasitələrlə Azərbaycana keçirilməsi və Azərbaycandan başqa ölkələrə keçirilməsinin qarşısı alınmalıdır. Ona görə də bizim sərhəd qoşunlarının qarşısında, milli təhlükəsizlik orqanlarının qarşısında,

hüquq-mühafizə orqanlarının qarşısında bu sahədə böyük vəzifələr var" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz beşinci kitab, s. 377-379).

30 yanvar 1997-ci il tarixində Heydər Əliyev Azərbaycan Respublikası Gömrük Komitəsinin yaranmasının 5-ci ildönümünə və Gömrük Əməkdaşlarının Peşə Bayramı Gününə həsr edilmiş təntənəli yığıncaqda qaçaqmalçılıq cinayətini ölkənin müstəqilliyinə iqtisadi cəhətdən zərbə vuran bir hadisə kimi dəyərləndirərək qaçaqmalçılıq yolu ilə narkotik maddələrin keçirilməsinin həm iqtisadi, həm də digər mənfi cəhətlərini qeyd etdi və narkotik maddələrin qaçaqmalçılığı ilə mübarizəni gömrük təşkilatının qarşısında duran vəzifə, onun üzərinə düşən məsuliyyət kimi müəyyən etdi: "... Şübhəsiz ki, bizim Sərhəd Qoşunları ilə birlikdə, başqa hüquq-mühafizə orqanları ilə birlikdə. Ancaq bütün malların keçirilməsinə birbaşa nəzarət edən orqan, bütün başqa orqanlardan fərqli olaraq, gömrük orqanlarıdır, gömrük xidmətidir. Ona görə bunu birinci növbədə biz sizdən tələb edirik. Qeyri-qanuni, yəni qaçaqmalçılıq yolu ilə baş vermiş hər bir hadisə birinci növbədə Azərbaycanın iqtisadiyyatına zərbə vurur. Qaçaqmalçılıq yolu ilə o dediyim cinayət üçün istifadə olunan silahlar, narkotiklər və başqa ləvazimatlar isə təkcə iqtisadi zərbə deyil, Azərbaycanın daxilində cinayətkarlığı artırmaq, narkomaniya xəstəliyini artırmaq, narkotik maddələrin gizli surətdə, cinayətkarcasına satılmasına şərait yaratmaqdır..." (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab, s. 355).

Qeyd edilməlidir ki, malların və digər əşyaların Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi qaydaları Azərbaycan Respublikasının Gömrük Məcəlləsi və sahəvi normativ hüquqi aktlarla tənzimlənir. Gömrük Məcəlləsi Azərbaycan Respublikasında gömrük işinin hüquqi, iqtisadi və təşkilati əsaslarını, o cümlədən Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən, bu ərazidən aparılan, tranzitlə keçirilən mallara və nəqliyyat vasitələrinə tətbiq edilən ümumi qaydaları və prosedurları, gömrük işi sahəsində şəxslərin hüquqlarını və vəzifələrini müəyyənləşdirir.

Gömrük orqanlarının vəzifələri Məcəllənin 8-ci maddəsində göstərilmişdir. Onların arasında gömrük işi sahəsində cinayətlərə, həmçinin gömrük qaydaları əleyhinə inzibati xətalara və digər hüquqpozmalara qarşı mübarizə aparmaq, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, silahların və başqa malların gömrük sərhədindən qanunsuz keçirilməsinin qarşısını almaq vəzifəsini göstərmək olar.

Öz növbəsində Məcəllənin 214.1.2-ci maddəsində milli təhlükəsizliyin, ictimai asayişin, insanların mənəviyyatının, həyat və sağlamlığının, mülkiyyət hüququnun, o cümlədən əqli mülkiyyət hüquqları obyektlərinin, heyvanlar və bitkilər aləminin, ətraf mühitin, xalqların bədii, tarixi və arxeoloji sərvətlərinin qorunması baxımından və Azərbaycan Respublikasının başqa maraqları nəzərə alınaraq, qanunvericiliyə və beynəlxalq müqavilələrə uyğun olaraq gömrük ərazisinə gətirilməsi və ya bu ərazidən aparılması qadağan edilən malların sırasında gömrük ərazisinə idxalı və ya bu ərazidən ixracı qanunvericiliklə qadağan edilmiş narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları göstərilmişdir.

Beləliklə, şəxs tərəfindən malların və ya digər əşyaların gömrük sərhədindən keçirilməsi əməlləri o halda qaçaqmalçılıq cinayəti kimi tövsif edilir ki, cinayət əməlini törətmiş şəxs Cinayət Məcəlləsinin 206.1-ci maddəsinin dispozisiyasındakı cinayətin obyektiv cəhətini təşkil edən və Gömrük Məcəlləsində nəzərdə tutulmuş qaydalara zidd olan hərəkətlərdən hər hansı birini və ya bir neçəsini törətmiş olsun.[14]

"Qaçaqmalçılıq işləri üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2016-cı il 2 iyun tarixli Qərarında qeyd edilmişdir ki, qaçaqmalçılıq cinayətinin obyektini hər hansı malların və digər əşyaların dövriyyəsi yox, Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi qaydaları ilə tənzimlənən dövlətin normal xarici iqtisadi fəaliyyəti sahəsində yaranan ictimai münasibətlər təşkil edir.

---

[14] Ətraflı bax: Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, 206-cı maddə

31 avqust 1994-cü il tarixində Bakı şəhərinin təhsil işçiləri ilə görüşdə Heydər Əliyev keçid dövründə cinayətkarlığın artmasından narahatlığını bildirərək onların qarşısının alınmasında hüquq-mühafizə orqanları ilə yanaşı, digər dövlət orqanlarının, təhsil müəssisələrinin məşğul olmasını, gənclərin tərbiyəsində milli, dini adət və ənənələrdən istifadə olunmasının zəruriliyini nəzərə çatdırdı: "Respublikanın belə ağır dövründə cinayətkarlıq artmışdır. Bu, həm Azərbaycanın düşdüyü vəziyyətlə bağlıdır, həm də keçmiş Sovet İttifaqının başqa respublikalarında cinayətkarlığın artması Azərbaycana da öz təsirini göstərmişdir. Ona görə də cinayətkarlıqla mübarizə bizim əsas vəzifələrimizdəndir... Cinayət edənlərin əksəriyyəti gənclərdir. Ona görə də məktəblərdə gəncləri həm də cinayətkarlıqdan uzaq olmaq ruhunda tərbiyə etmək lazımdır... Müəllimlər, təhsil ocaqları bu sahədə fəaliyyətlərini gücləndirməlidirlər" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab, s.180).

### 2.2.6. Heydər Əliyev narkotiklərlə mübarizədə idmanın, təhsilin, gənclər təşkilatlarının və milli-mənəvi dəyərlərin rolu haqqında

Heydər Əliyev narkotik vasitələrdən qanunsuz istifadə ilə mübarizədə profilaktik tədbirlərin, xüsusən, idman, bədən tərbiyəsi, elmi və kütləvi tədbirlərin roluna da xüsusi əhəmiyyət verir və həmişə ölkə gənclərinin onların gələcəyinə işıq salacaq işlərlə məşğul olmasını arzulayır, bunun üçün müvafiq şəraitin yaradılmasını alqışlayırdı. 21 oktyabr 2000-ci il tarixində Azərbaycan Milli Olimpiya Komitəsinin İdman-Sağlamlıq Kompleksinin istifadəyə verilməsinə həsr olunmuş təntənəli açılış mərasimində Heydər Əliyev deyirdi: "İdmanın, bədən tərbiyəsinin kütləvi olması xalqımızı dünyada mövcud olan bir çox bəlalardan da xilas edəcəkdir. Bu bəlaları bilirsiniz – spirtli içkilərdən istifadə edilməsi, narkotiklərin qəbul olunması, yaxud da başqa mənfi

həyat tərzi keçirən gənclər, insanlar. Təəssüflər olsun ki, dünyada bu mənfi proses çox inkişaf edibdir və bir çox ölkələrə sirayət edir.

...Mən bu gün deyə bilərəm ki, Azərbaycan dövləti bu vəzifələri ardıcıl surətdə həyata keçirir və keçirəcəkdir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuzuncu kitab, s. 247-248).

14 avqust 1996-cı il tarixində XXVI Yay Olimpiadasında (Atlanta, ABŞ) iştirak etmiş Azərbaycan milli olimpiya komandasının üzvləri ilə görüşdə Ulu Öndər bədən tərbiyəsi və idmanın gənclər arasında narkotik maddələrdən istifadə hallarının qarşısının alınmasında əhəmiyyətini qeyd edərək deyirdi:

"Gənclərimizi, bütün əhalimizi bədən tərbiyəsinə, idmana cəlb etməliyik. İnsanlar bədən tərbiyəsi ilə, idmanla nə qədər çox məşğul olsalar, onlar adamların sağlamlığına, həyatına zərər gətirən adətlərdən kənar olarlar, uzaq olarlar, – məsələn, alkoqollu içkilərdən istifadə edilməsi, gənclər arasında narkotik maddələrdən istifadə halları müşahidə olunur, – yaxud insan üçün zərərli olan başqa adətlərdən, xüsusiyyətlərdən kənar olarlar, belə şeylərə heç vaxt alışmazlar. Biz çalışmalıyıq ki, insanlara zərər gətirən bu adətlər, xüsusiyyətlər xalqımıza sirayət etməsin" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Yeddinci kitab, s.204).

12 sentyabr 2002-ci il tarixində Gəncə Olimpiya İdman Kompleksinin açılış mərasimindəki nitqində Heydər Əliyev narkotik maddələrin istifadə olunması ilə mübarizənin vacibliyini qeyd etməklə yanaşı, gənclərin özlərini fiziki cəhətdən möhkəmləndirməsini, bədən tərbiyəsi ilə, idmanla məşğul olmasını narkotik maddələrin istifadə edilməsindən uzaqlaşmanın ən birinci vasitəsi və birinci şərti kimi dəyərləndirdi: "... İndi dünyanın, demək olar ki, əksər dövlətlərinin narkotik maddələrin istehsalı, yayılması, onların satışı ilə mübarizə aparmasına baxmayaraq, təəssüflər olsun ki, narkotik maddələr yayılır. Təəssüflər olsun ki, insanlar, xüsusən gənclər bunun təsiri altına düşürlər. Biz Azərbaycanda bu barədə böyük proqram tərtib etmişik. Lazımi işlər görülür. Amma bu işlərin sırasında, yenə də de-

yirəm, yalnız və yalnız gənclərin özlərini fiziki cəhətdən möhkəmləndirməsi, bədən tərbiyəsi ilə, idmanla məşğul olması narkotik maddələrin istifadə edilməsindən uzaqlaşmanın ən birinci vasitəsidir və birinci şərtidir. Bunlara görə də biz çalışırıq ki, gənclərimiz üçün, onların sağlamlığını təmin etmək üçün müxtəlif idman kompleksləri yaransın. Bədən tərbiyəsi ilə kütləvi məşğul olmaq üçün imkanlar yaransın. Azərbaycan Milli Olimpiya Komitəsinin bu sahədə gördüyü işlər çox yüksək qiymətə layiqdir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Qırx birinci kitab, s. 103).

27 mart 2001-ci il tarixində Azərbaycan Milli Olimpiya Komitəsinin yeni inzibati binasının istifadəyə verilməsinə həsr olunmuş təntənəli mərasimdə Heydər Əliyev insanlar, xüsusən gənclər arasında müxtəlif narkotik maddələrə meyil göstərilməsini, spirtli içkilərin istifadəsinin geniş yayılmasını, müxtəlif əxlaq pozğunluqlarının yayılmasını hər bir insana, hər bir cəmiyyətə, hər bir millətə böyük zərbə vuran amil kimi dəyərləndirərək, Azərbaycan xalqının, millətin öz sağlamlığı haqqında daim düşünməsini tövsiyə etdi: "Mən bunu bir daha və bir daha qeyd etmək istəyirəm ki, son onilliklərdə dünyada, demək olar ki, bütün ölkələrdə, təəssüflər olsun, müxtəlif mənfi vərdişlərin, insanların sağlamlığına, təkcə fiziki yox, əqli sağlamlığına böyük zərbələr vuran vərdişlərin və adətə çevrilmiş halların geniş yayıldığı bir vaxtda gərək hər ölkə, hər dövlət, hər xalq öz insanlarının bütün bu mənfi yollara düşməsinin qarşısını alsın. Bu, birincisi, dünyada narkomaniyanın yeni yayılmasıdır. İnsanlar arasında, xüsusən gənclər arasında müxtəlif narkotik maddələrə meyil göstərilməsi, spirtli içkilərin istifadəsinin geniş yayılması, müxtəlif əxlaq pozğunluqlarının yayılması – bunlar hamısı hər bir insana, hər bir cəmiyyətə, hər bir millətə böyük zərbə vuran amillərdir. Ona görə də məhz indiki zamanda, yəni XXI əsrin əvvəlində, təəssüflə bir də deyirəm ki, bu mənfi meyillərin get-gedə genişləndiyi və dünya ictimaiyyətinin, dünya təşkilatının bundan böyük narahatçılıq keçirdiyi, bunların qarşısını almaq üçün tədbirlər

gördüyü – ancaq əfsuslar olsun ki, təsirli tədbirlər görülə bilmir – belə bir vaxtda biz gərək öz xalqımızın, öz millətimizin sağlamlığı haqqında daim düşünək” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz üçüncü kitab, s. 257).

### 2.2.7. Heydər Əliyev Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərindən narkotiklərin qanunsuz dövriyyəsi üçün istifadəsi haqqında

Ulu Öndər Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərindən narkotik vasitələrin istehsalı, həmin ərazilərdən narkotik vasitələrin daşınması üçün nəzarətsiz ərazi kimi istifadə etməsini beynəlxalq hüquq normalarının pozulması kimi qiymətləndirir, bu pozuntuların dünya birliyinə çatdırılmasında İlham Əliyevin xidmətlərini yüksək dəyərləndirirdi.

27 aprel 2001-ci il tarixində Türkiyədən işgüzar səfərdən Bakıya qayıdarkən Binə beynəlxalq hava limanında jurnalistin “Cənab Prezident, Dağlıq Qarabağda ermənilərin narkotik bitkilər becərməsi ilə bağlı İlham Əliyev Avropa Şurasının sessiyasında ciddi faktlarla çıxış etmişdir. Biz bu ciddi məsələdən necə bəhrələnə bilərik?” sualını cavablandırarkən Heydər Əliyev qeyd etdi ki, “...Dağlıq Qarabağ ərazisində və Ermənistan tərəfindən işğal olunmuş digər torpaqlarımızda qaçaqmalçılıq, narkotiklərin daşınması haqqında... ilk dəfə olaraq Azərbaycanın nümayəndə heyəti, onun başçısı İlham Əliyev Avropa Şurasının Parlament Assambleyasında deyibdir. Bu da böyük əks-səda yaradıbdır. Hesab edirəm ki, bu bizim çox uğurlu addımımızdır” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz üçüncü kitab, s. 413).

1 fevral 2002-ci il tarixində Heydər Əliyev Dünya İqtisadi Forumunun “Mərkəzi Asiyada sabitlik” mövzusuna həsr olunmuş iclasında çıxış edərək bildirdi ki, “... Azərbaycanın Dağlıq Qarabağ bölgəsini götürək. Bu ərazidə münaqişə məhz separatçılıq niyyətlərinə görə başlanmış, sonra Ermənistanla Azərbaycan arasında mühari-

bəyə çevrilmiş və nəticədə Azərbaycan ərazisinin təxminən 16 min kvadratkilometr hissəsi nəzarətsiz sahəyə çevrilmişdir, daha dəqiq desək, qanunsuz silahlı qüvvələrin nəzarətində qalmışdır...

Odur ki, beynəlxalq terrorizmlə mübarizə apararkən terrorizmin mənşəyini, müxtəlif formalarını və növlərini nəzərə almaq lazımdır. Hərbi münaqişələrin aradan qaldırılması beynəlxalq terrorizmin meydana gəlməsinin mümkünlüyünü məhdudlaşdırmaq üçün çox ciddi və mühüm tədbirdir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz yeddinci kitab, s. 355).

15 may 2002-ci il tarixində Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin Bakı şəhərində keçirilən iclasının iştirakçılarına 15 may 2002-ci il tarixli müraciətində Heydər Əliyev yazırdı: "Müasir inkişaf dövrü cinayətkarlığın qloballaşması ilə səciyyələnir. Belə ki, dünyada geniş vüsət almış inteqrasiya prosesləri transmilli mütəşəkkil cinayətkarlığın – terrorçuluq, korrupsiya, insan və silah alveri, narkobiznes, çirkli pulların yuyulması və digər bu kimi təhlükəli cinayətlərin yayılması ilə müşayiət olunur.

…Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalı nəticəsində ölkəmizin Dağlıq Qarabağ bölgəsində yaradılmış rejim buna əyani sübutdur. İşğalçı rejimlər beynəlxalq hüququn prinsip və normalarını, demokratik dəyərləri və insan hüquqlarını kobudcasına pozaraq, yalnız öz əhalisi üçün deyil, həm də digər ölkələrin əhalisi üçün real təhlükə yaratmaqdadırlar. Nə qədər ki, belə hallar aradan qaldırılmayıb, heç bir dövlət özünü rahat hiss edə bilməz (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz səkkizinci kitab, s. 283).

10 oktyabr 2002-ci il tarixində "Demokratik cəmiyyətdə dinin və əqidənin rolu: terrorizmə və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması" mövzusunda beynəlxalq konfransdakı nitqində işğal olunmuş və nəzarətdən çıxmış ərazilərin mövcud olmasının terrorçu və cinayətkar qrupların fəaliyyəti üçün münbit zəmin yaratmasını, Azərbaycanın işğal olunmuş ərazilərində silah və narkotik tranziti, çirkin pulların yuyulması ilə məşğul olan müxtəlif bey-

nəlxalq terrorçu təşkilatların üzvlərinin sığınacaq tapmasını, buna qarşı mübarizənin zəruriliyini qeyd edən Ulu Öndər deyirdi: "Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağda və onun ətrafında terrorçu birləşmələr bu gün də fəaliyyət göstərir. İşğal olunmuş və nəzarətdən çıxmış ərazilərin mövcud olması terrorçu və cinayətkar qrupların fəaliyyəti üçün münbit zəmin yaradır. Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin 2001-ci il üçün məruzəsində qeyd olunduğu kimi, bu gün də Azərbaycanın işğal olunmuş ərazisində silah və narkotik tranziti, çirkin pulların yuyulması ilə məşğul olan müxtəlif beynəlxalq terrorçu təşkilatların üzvləri sığınacaq tapırlar. Buna son qoymaq bizim borcumuzdur" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Qırx birinci kitab, s. 417).

Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan tərəfinin narkotik vasitələrin qanunsuz dövriyyəsi üçün istifadə etməsi ilə bağlı İlham Əliyev tərəfindən Avropa Şurasında qaldırılmış məsələ öz bəhrəsini verməyə başlamışdı.

15 aprel 2003-cü il tarixində Avropa Şurası Parlament Assambleyasının Siyasi Məsələlər Komitəsinin Ermənistan-Azərbaycan münaqişəsi üzrə məruzəçisi Terri Devisin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə Heydər Əliyev beynəlxalq təşkilatların münaqişə və onunla bağlı problemlərə biganəliyinə işarə edərək deyirdi: "Qəribə vəziyyətdir – bizim işğal olunmuş torpaqlara heç bir beynəlxalq təşkilatın nümayəndələri girmək istəmirlər. ATƏT-in monitorinq qrupu var. Onun başçısı Kaspşik, təbiidir, o ərazilərdə olur, oraya gedir. Mən iki dəfə ATƏT-in həmsədrlərindən çox xahiş elədim ki, heç olmasa, orada bir rayona gedin, görün orada nə var, nə yox. Getdilər, gəldilər mənə dedilər ki, hər şey dağıdılıbdır. Bizim İranla sərhədimizin 130 kilometri ermənilərin əlinə keçibdir. Bizdə məlumatlar var ki, oradan narkotiklər keçirirlər, silah alveri edirlər və bir çox başqa cinayətlər edirlər. Bu ərazi tamamilə nəzarətsizdir.

İndi Avropa Şurası tərəfindən sizə belə bir tapşırıq verilib ki, bu məsələni öyrənəsiniz və öz fikirlərinizi deyəsiniz. Zənnimcə, bu, birinci haldır ki, bu məsələ ilə xüsusi maraqlanıblar, o da Avropa Şu-

rasıdır. Mən ümidvaram ki, siz bu məsələnin həlli ilə məşğul olacaqsınız və biz sizə çox böyük ümidlər bəsləyirik" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Qırx dördüncü kitab, s. 245-246).

## 2.2.8. Heydər Əliyevin narkotik maddələrin istehsalı, onların qeyri-qanuni istifadəsi ilə ciddi mübarizənin davam etdirilməsinin zəruriliyi barədə ideyaları və onların davam etdirilməsi

5 iyul 2000-ci il tarixində BMT Baş katibinin müavini, Nümayəndəliyin Baş direktoru Pino Arlakki ilə görüşdə ölkədə narkotiklərin yayılmasından narahatlığını bildirən Heydər Əliyev deyirdi: "Biz nəinki narkotiklərin daşınması üçün tranzit ölkə kimi bununla mübarizə aparırıq, eyni zamanda istəyirik ki, ölkəmizdə vətəndaşlarımız arasında narkotik vasitələrdən istifadə yayılmasın" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İyirmi doqquzuncu kitab, s. 56-57).

Heydər Əliyev tərəfindən təsdiq edilmiş "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 26 avqust 1996-cı il tarixli, 485 nömrəli Fərmanı narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizənin həyata keçirilməsi sahəsində əməli işlərin görülməsi üçün böyük imkanlar açdı. Həmin Fərmanda narkotiklərin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində dövlətin strateji kursunun əsasları müəyyən edildi. Respublikada narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıqla mübarizə sahəsində bir sıra təşkilati-hüquqi, əməli-praktiki tədbirlər həyata keçirilərək, narkotiklərlə mübarizə üzrə beynəlxalq təşəbbüslərdə iştirak daha intensiv xarakter aldı.

Daha sonra Azərbaycan Respublikası Prezidentinin 15 iyul 2000-ci il tarixli, 371 nömrəli Fərmanı ilə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə sahəsində geniş tədbirləri özündə

ehtiva edən "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram" təsdiq edildi və uğurla həyata keçirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində ideyaları davam və inkişaf etdirərək: 28 iyun 2007-ci il tarixli, 2271 nömrəli Sərəncamla "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram (2007–2012-ci illər üçün)"nı; 24 iyun 2013-cü il tarixli, 2966 nömrəli Sərəncamla "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013–2018-ci illər üçün Dövlət Proqramı"nı və nəhayət, 22 iyul 2019-cu il tarixli Sərəncamla "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı"nı təsdiq etmişdir. Hazırda sonuncu Proqram uğurla yerinə yetirilməkdədir.

Dövlət siyasətinin əsasını təşkil edən insan, vətəndaş amili daim dövlət başçısı İlham Əliyevin diqqət mərkəzindədir. Əhalinin sağlamlığının yüksək səviyyədə qorunması prioritet məsələlərdəndir. Azərbaycanın gələcəyi kimi dəyərləndirilən gənclərimizə diqqət və qayğı isə daha mühüm vəzifə kimi qeyd edilir. Gənclər arasında idmanın, mədəni-kütləvi tədbirlərin genişləndirilməsində, idmana marağın artırılması naminə inşa olunan idman komplekslərinin tikilməsində də əsas məqsədlərdən biri sağlamlığın təmin edilməsi ilə yanaşı, insanların bu cür ağır fəsadlar törədən vərdişlərdən uzaqlaşdırılmasına nail olmaqdır. Azərbaycan gəncliyinin bu gününə və gələcəyinə xidmət edən dövlət proqramlarının müddəalarında bu kimi tələblər öz əksini tapıb.

2021-ci və 2022-ci illərdə ölkə üzrə məhkəmələrdə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar baxılan işlərin statistik məlumatları aşağıdakı kimi olmuşdur:


Narkotik Cinayətlərinin Növlərinin Paylanması (2022)
Faiz (%)
60
50
40
30
20
10
0
Şəxsi istifadə üçün əldə etmə və saxlama
Satış məqsədilə əldə etmə və saxlama
Narkotik tərkibli bitkiləri yetişdirmə
Güclü təsir edən/zəhərli maddələrin dövriyyəsi
Digər cinayətlər


Cinayət Törətmiş Şəxslərin Demoqrafik bölgüsü (2022)
Uşaqlar (14-17)
0.1%
Qadınlar 1.5%
Gənclər (25-29 yaş)
9.9%
Heç yerdə işləməyənlər və oxumayanlar
41.6%
Yetkinlər (30+ yaş)




Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramında narkomanlığa, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə cəmiyyətin, dövlətin və qeyri-hökumət təşkilatlarının səylərinin birləşdirilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, kompleks mübarizənin zəruriliyi öz əksini tapmışdır.

Narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq probleminin aşağıdakı sahələrə böyük ziyan vurduğu göstərilmişdir:

— narkotik istifadəçisinin şəxsiyyətinin deqradasiyası;
— müxtəlif cinayətlər törədilməsi;
— cəmiyyətin maddi-texniki və intellektual potensialının aşağı düşməsi;
— genefondun pisləşməsi;
— bir çox mənfi hallara gətirib çıxarması.

Həmçinin, qeyd olunur ki, cinayətkarlığın artmasına səbəb olan narkotiklərin qanunsuz dövriyyəsi terrorizmin maliyyə mənbəyi olmaqla beynəlxalq təhlükəsizliyə ən ciddi təhdidlərdən biridir.

Dövlət Proqramının məqsədi aşağıdakı kimi müəyyən edilmişdir:

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı"nın (bundan sonra – Dövlət Proqramı) məqsədi;

— respublikada narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi;

— antinarkotik təbliğatı;

— ictimai maarifləndirmə işinin əhatəsinin genişləndirilməsi;

— müasir informasiya texnologiyalarının imkanlarından istifadə olunmaqla, narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması;

— narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində müasir texnologiyaların və yeni üsulların tətbiqi;

— bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi;

— beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi;

— beynəlxalq təcrübədən istifadə etməklə ixtisaslaşmış seminarların keçirilməsi və

— digər genişmiqyaslı məsələlərdən ibarətdir".

Dövlət Proqramında sənədin əhatə etdiyi dövrdə həyata keçirilməli olan tədbirlər planı işlənib hazırlanmışdır.

"Biz burada hansısa şəxsi mənafeyimizi dövlətçilik mənafeyindən üstün tutsaq, yaxud dövlətçilik mənafeyini, mənəviyyatı şəxsi tamahımıza, mənafeyimizə qurban versək, böyük xətalar edə bilərik. Bunlara yol vermək olmaz" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On beşinci kitab, s. 17).

Həyatın bütün sahələrində olduğu kimi, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində də Azərbaycan Ulu Öndər Heydər Əliyevin yolu ilə irəliləyir. Bu yol Azərbaycan üçün uğurlu in-

kişaf, sağlam gələcək, saf mənəviyyat, zəfər yoludur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında qazanılmış uğurlar bizi üzərimizə düşən vəzifələri Azərbaycanın uğurlarına, inkişafına layiq səviyyədə yerinə yetirməyə səsləyir. Heydər Əliyev ideyalarını reallığa çevirməkdə hər birimiz öz töhfəmizi verməli, dövlətimizin inamlı gələcəyini təmin etməkdə səfərbər olmalıyıq. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə Heydər Əliyevin "sağlam həyat, saf mənəviyyat" uğrunda mübarizəsinin tərkib hissəsidir. Bu mübarizədə də Azərbaycan xalqının zəfər qazanacağına inanırıq.

## 2.3. Soyqırımı cinayəti

### 2.3.1. Heydər Əliyev azərbaycanlılara qarşı soyqırımı həqiqətləri haqqında

Müasir demokratik Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin xalqımızın qarşısında xidmətlərinin bir istiqamətini də xalqın tarixinin onun yaddaşında qorunması üçün tarixi hadisələrə, Azərbaycan xalqına qarşı törədilmiş cinayətlərə siyasi-hüquqi qiymətin verilməsi və bunların dövlətin ali orqanlarının sənədlərində ifadəsini tapmasını təmin etməsi təşkil edir. Xalqın həqiqi tarixinin gələcək nəsillərə çatdırılması, milli adət-ənənələrin qorunub saxlanılması, milli-mənəvi dəyərlərə sadiqlik nümayiş etdirilməsi Heydər Əliyevi həmişə düşündürmüşdür. Ulu Öndər tarixi imkan yarandığı vaxtlarda Azərbaycan xalqının milli özünəməxsusluğunu qoruyub saxlamasına, xalqın tarixinin olduğu kimi yazılmasına, tarixi həqiqətlərin obyektiv və qərəzsiz şəkildə sənədləşdirilməklə xalqa çatdırılmasına çalışmışdır.

Tarixin müxtəlif mərhələlərində zaman-zaman və təkrar-təkrar Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı hadisələri xalqın tarixi yaddaşında yaşamını davam etdirsə də, tarixi sənədlərdə uzun

illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış, xalqın tarixinin açılmamış səhifələri kimi qalmışdır.

Xalqın tarixinə, onun bütövlüyünə, dövlətinin varlığına sarsıdıcı təsirlərə malik olan hadisələrin doğurduğu acı nəticələrin tam aradan qaldırılması mümkün deyildir. Lakin bu hadisələr və onların doğurduğu nəticələrin unudulması, onların yaddaşlardan silinməsi, onlara siyasi və hüquqi qiymətin verilməməsi yeni neqativ nəticələrə səbəb ola bilər. Heydər Əliyev təcrübəli siyasi xadim kimi bu məsələləri bilir və ona görə də xalqın həyatına təsiri olmuş hadisələrə siyasi qiymətin verilməsini vacib hesab edirdi. Siyasi və hüquqi qiymət verilməsini tələb edən bu cür hadisələrdən bir qismini də azərbaycanlıların soyqırımı ilə bağlı hadisələr təşkil edirdi.

Heydər Əliyevin azərbaycanlılara qarşı soyqırımına münasibəti 26 mart 1998-ci il tarixində imzaladığı "Azərbaycanlıların soyqırımı" Fərmanda özünün hərtərəfli ifadəsini tapdı. Fərmanda azərbaycanlılara qarşı soyqırımı tarixi ardıcıllıqla işıqlandırılır, onun hər mərhələsinə aydınlıq gətirilir, Azərbaycan xalqı üçün doğurduğu acı nəticələr əks olunurdu.

Azərbaycan xalqı üçün ən dəhşətli və uzun illərdən bəri sağalmayan, əzablı yara kimi özünü təzahür etdirən hadisə onun iki dövlət arasında bölünməsi olmuşdur. Fərmanda qeyd olunur ki, "1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında «Erməni vilayəti» adlandırılan inzibati bölgünün yaradılma-

sına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. «Böyük Ermənistan» ideyalarının təbliğ olunmasına başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına «bəraət qazandırmaq məqsədilə» erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş genişmiqyaslı proqramlar reallaşdırıldı. Azərbaycan və ümumən, Qafqaz tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi.

«Böyük Ermənistan» yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə-yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər".

Tarixin hər bir keşməkeşli məqamlarından istifadə edən məkrli düşmənlər Birinci dünya müharibəsindən, Rusiyada baş vermiş hadisələrdən dərhal istifadə edərək niyyətlərini həyata keçirməkdə davam etdilər: "Birinci dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci ilin fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı.

Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli

memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir".

Bolşeviklərin hakimiyyəti dövründə də zaman-zaman Azərbaycan torpaqlarının zəbt olunması, xalqın nümayəndələrinin dədə-baba torpaqlarından köçürülməsi davam etmişdir. Fərmanda həmin məsələlərə aydınlıq gətirilərək göstərilir ki:

"Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədi ilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənirdi. «Yazıq, məzlum erməni xalqı»nın surətini yaradaraq əsrin əvvəllərində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırım törədənlər soyqırım qurbanları kimi qələmə verilirdi.

Əsrin əvvəllərində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş verir.

Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılır. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır.

Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırım siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırılırdı. Ermənilərin Sovet rejimindən bəhrələnərək həyata keçirdikləri və 80-ci illərin ortalarında daha da güclənən anti-Azərbaycan təbliğatına Azərbaycan Respublikasının rəhbərliyi vaxtında lazımi qiymət vermədi”.

Heydər Əliyevin Azərbaycanın milli təhlükəsizlik orqanlarına rəhbərlik etdiyi dövrdən başlayaraq, onun SSRİ-nin rəhbər orqanlarında fəaliyyətinin dayandırıldığı vaxta kimi ermənilərin məkrli siyasətlərinin reallaşmasının qarşısı alındı. Lakin Mixail Qorbaçovun SSRİ rəhbərliyinə gəlməsi və ermənilərə havadarlığını açıq nümayiş etdirməsi azərbaycanlılara qarşı soyqırımın yeni dalğasına rəvac verdi. Fərmanda həmin məsələlərlə bağlı qeyd olunur: “1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ konfliktinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına da respublikada düzgün siyasi qiymət verilmədi. Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil

edilməsi haqqında ermənilərin qeyri-konstitusion qərarını və Moskvanın əslində bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsi ilə Azərbaycanın tabeliyindən çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. Respublikada keçirilən mitinqlər zamanı torpaqlarımızın işğalı siyasəti qətiyyətlə pislənsə də, Azərbaycan rəhbərliyi öz passiv mövqeyindən əl çəkmədi. Məhz elə bunun nəticəsi olaraq, 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədi ilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qoyuldu".

1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş vermiş Xocalı soyqırımı miqyasına və ağırlıq dərəcəsinə görə azərbaycanlılara qarşı soyqırımın ən dəhşətlilərindən biridir. Erməni millətçilərinin keçmiş sovet ordusunun 366-cı alayının şəxsi heyəti ilə birlikdə Azərbaycan xalqına qarşı törətdiyi növbəti kütləvi qırğın zamanı 613 nəfərin, o cümlədən 106 qadın, 63 uşaq, 70 qocanın həyatına son qoyuldu. 1275 dinc sakin əsir götürüldü, onlardan 150 nəfərin taleyi hələ də məlum deyil. 475 nəfər şikəst oldu. 8 ailə bütünlüklə məhv edildi. Fərmanda həmin hadisəyə münasibət aşağıdakı kimi əksini tapmışdı.

"1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə-yeksan edilməsi ilə qurtardı.

Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı avantürist hərəkətin nəticəsi olaraq bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir. Ərazimizin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid olmuş, xəsarət almışdır".

Azərbaycanlıların soyqırımı hadisələrinə siyasi qiymət verilməsinin zəruriliyi Fərmanda aşağıdakı kimi əsaslandırılırdı: "Azərbaycanın XIX—XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti

ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə — 1918-ci ilin mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir".

Fərmanda Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini qeyd etmək məqsədilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edildi və azərbaycanlıların soyqırımı ilə bağlı hadisələrə həsr olunmuş xüsusi sessiyanın keçirilməsi məsələsinə baxılmasının Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunması qərara alındı.

## 2.3.2. Heydər Əliyev Xocalı soyqırımı haqqında

Heydər Əliyev Xocalı soyqırımını Azərbaycan xalqının tarixində ən faciəli hadisələrdən biri kimi qiymətləndirmiş, zaman-zaman özünün xalqa müraciətlərində, Xocalı sakinləri ilə görüşlərində, beynəlxalq təşkilatlardakı çıxışlarında, müxtəlif ölkələrin dövlət başçıları ilə görüş və söhbətlərində Xocalı soyqırımını xatırlatmış, həmin cinayəti törətmiş şəxslərin cəzalandırılmasının zəruriliyini qeyd etmişdir.

1 mart 1994-cü il tarixində "Xocalı soyqırımı qurbanlarının ailələrinə" müraciətində Heydər Əliyev Xocalı soyqırımını dünyada misli görünməmiş dəhşətli bir vəhşilik kimi qiymətləndirərək yazırdı: "26 fevral 1992-ci ildə Xocalı şəhərində dünya misli görünməyən dəhşətli bir vəhşiliyin şahidi oldu. Erməni hərbi quldurları aylarla tam mühasirədə saxlanan Xocalı şəhərini yerlə-yeksan etdilər. Köməksiz mülki əhali azğın bir amansızlıqla qətlə yetirildi. Südəmər körpələrə, əlsiz-ayaqsız qocalara, qadınlara, uşaqlara belə

aman verilmədi. Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində tayı-bərabəri olmayan bir vəhşilik aktıdır. Bu soyqırımı eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 442).

25 fevral 1995-ci il tarixində “Xocalı soyqırımının üçüncü ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciət”ində Ulu Öndər törədilən bu soyqırımını erməni qəsbkarlarının müstəqil Azərbaycan dövlətinə qarşı yeritdiyi məqsədyönlü təcavüz planının ən amansız həlqəsi hesab edərək bu hadisəni bütün insanlığa qarşı törədilmiş cinayət kimi dəyərləndirirdi:

“...Törədilən bu soyqırımı erməni qəsbkarlarının müstəqil Azərbaycan dövlətinə qarşı yeritdiyi məqsədyönlü təcavüz planının ən amansız həlqəsi, misli görünməmiş vəhşilik aktı, təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı törədilmiş cinayət kimi XX əsrin tarixinə daxil olmuşdur” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab, s. 214).

24 fevral 1996-cı il müraciətində “Xocalı soyqırımının dördüncü ildönümü ilə əlaqədar müraciətdə Heydər Əliyev bildirirdi ki: “Xocalının yüzlərlə dinc, köməksiz sakini – qocalar, qadınlar, körpələr erməni təcavüzü nəticəsində qəddarcasına qətlə yetirildilər. Xalqımıza qarşı yeridilmiş bu məqsədyönlü soyqırımı siyasəti insanlıq və bəşəriyyət tarixində ağır bir cinayət kimi qalacaqdır” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Beşinci kitab, s.355-356).

Xocalı soyqırımının dördüncü ildönümü ilə əlaqədar Xocalı sakinlərinin bir qrupu ilə 24 fevral 1996-cı il tarixində keçirilən görüşdə Heydər Əliyev Xocalı soyqırımının gələcək nəsillər tərəfindən unudulmamasını tövsiyə edərək cinayətkarların cəzalandırılacağına ümidlərini bildirirdi: “…Xocalı soyqırımı adi cinayət deyil. Xocalı soyqırımı gələcək nəsillərimizin xatirindən yüz il bundan sonra da çıxmamalıdır. Hər bir gələcək nəsil gərək bilsin ki, bizim millətimizə qarşı belə vəhşilik edilibdir. Əgər bu belədirsə və güman edirəm ki, siz bununla razısınız, demək, bu vəhşilər də məhkum olunmalıdır… məh-

kəmə onların cəzasını verəcəkdir. Dünya həmişə belə qalmayacaqdır” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Beşinci kitab, s. 364).

25 fevral 1997-ci il tarixində “Xocalı soyqırımının beşinci ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciət”ində Ümummilli Lider Xocalı soyqırımını bütün bəşəriyyətə qarşı yönəlmiş tarixi cinayət hesab edərək deyirdi: “Yüzlərlə günahsız insan kütləvi şəkildə məhv edildi, qocalar, qadınlar, uşaqlar, hətta südəmər körpələr ən dəhşətli üsul və vasitələrlə qətlə yetirildilər, girov götürülərək insanlığa sığmayan həqarət və təhqirlərlə üzləşməli oldular. Yeddi minlik əhalisi olan bütöv bir şəhər yerlə-yeksan edildi.

...Xocalı soyqırımı erməni faşizminin iç üzünü bir daha açıb göstərməklə, təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş tarixi cinayətdir və beynəlxalq hüquqa uyğun olaraq sivilizasiyalı dünya tərəfindən məhkum olunmalıdır” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab, s.461-462).

26 mart 1998-ci il tarixli “Azərbaycanlıların soyqırımı haqqında” Fərmanda Heydər Əliyev Xocalı soyqırımını qanlı faciə, minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə-yeksan edilməsi ilə nəticələnən faciə kimi dəyərləndirirdi: “1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə-yeksan edilməsi ilə qurtardı.

23 fevral 1998-ci il tarixində “Xocalı soyqırımının altıncı ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciət”də Heydər Əliyev Xocalı müsibətinin də beynəlxalq aləmdə öz qiymətini alacağının və günahkarların gec-tez öz layiqli cəzalarına çatacağının labüd olmasını bildirərək yazırdı: “Erməni silahlı qüvvələri uzun sürən mühasirədən sonra 26 fevral 1992-ci ildə xaricdəki havadarlarının hərbi yardımı ilə Xocalı şəhərini yerlə-yeksan etdi. Köməksiz mülki əhali amansızlıqla qətlə yetirildi. Hətta südəmər körpələrə, əlsiz-ayaqsız qocalara, qadınlara, uşaqlara belə aman verilmədi. Yüzlərlə adam

əsir götürülərək dəhşətli işgəncələrə və görünməmiş təhqirlərə məruz qaldı. Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə tayı-bərabəri olmayan vəhşilik aktı, insanlığa qarşı tarixi bir cinayətdir.

...Nahaq qan yerdə qalmır. Xocalı müsibətinin də beynəlxalq aləmdə öz qiymətini alacağı və günahkarların gec-tez öz layiqli cəzalarına çatacağı labüddür" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On dördüncü kitab, s.320).

26 fevral 1999-cu il tarixində Xocalının erməni işğalçılarından müdafiəsində iştirak etmiş şəhid olmuş milli qəhrəmanların, döyüşçülərin valideynlərinə, ailə üzvlərinə və fərqlənənlərə "Qızıl Ulduz" medallarını, "Azərbaycan Bayrağı" ordenlərini təqdimetmə mərasimində Heydər Əliyev deyirdi: "Yeddi il bundan öncə o müdhiş fevral gecəsi Ermənistan silahlı qüvvələri Sovet İttifaqı ordusunun 366-cı alayının köməyi və iştirakı ilə Azərbaycanın gözəl bir diyarı olan Xocalının sakinlərinə qarşı dəhşətli soyqırımı etmişlər. Böyük, misli görünməmiş vəhşiliklə həyata keçirilən bu soyqırımı XX əsrin ən dəhşətli faciələrindən biridir. Dinc, silahsız xocalılılara bir gecənin içində böyük zərbələr vurulmuşdur. Soyqırımı nəticəsində yüzlərlə xocalılı qadın, kişi, yaşlı, gənc, körpə, uşaq həlak olmuşdur. Yüzlərlə xocalılı yaralanmış, xəsarət almış, şikəst olmuşdur. Yüzlərlə insan əsir düşmüşdür.

Bu faciə Azərbaycan xalqına qarşı Ermənistan-Azərbaycan müharibəsi dövründə vurulmuş ən ağır zərbədir. Xocalılılar bu faciəni mərdliklə, qəhrəmanlıqla qarşılamışlar. Öz evini, şəhərini, ailəsini qəhrəmancasına müdafiə edənlər həlak olmuşlar, şəhid olmuşlar. Vəhşi ermənilər tərəfindən açılan atəşlər nəticəsində Xocalı ərazisi qana bulaşmışdır.

…Hər dəfə xocalılılarla görüşərkən mən qürur hissi keçirirəm. Bu qədər faciəli günlər keçirmiş, o dəhşətli, müdhiş gecəni yaşamış, ən əziz adamlarını gözlərinin qabağında itirmiş insanlar məğrurdurlar, mərddirlər. Hər biri vətən qayğısı, vətən, torpaq eşqi ilə yaşayır. Bu, xalqımızın nə qədər yüksək mənəviyyata malik olduğunu göstərir. Xocalılıların bu yüksək mənəvi keyfiyyətləri bütün Azərbaycan

xalqının mənəvi keyfiyyətlərini əks etdirir. Amma xocalılılar hamı üçün örnəkdir, nümunədir - qəhrəmanlıq, mərdlik, mətanətlilik nümunəsidir, eyni zamanda vətənpərvərlik nümunəsidir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On doqquzuncu kitab, s. 207-210).

30 mart 1999-cu il tarixində "31 Mart – Azərbaycanlıların Soyqırımı Günü münasibətilə Azərbaycan xalqına müraciət"də Heydər Əliyev soyqırımı faciələrinin Azərbaycan xalqına gətirdiyi müsibətləri xatırlayaraq yazırdı: "Erməni millətçilərinin əsrin əvvəllərində çar Rusiyasının imperiya siyasətindən, 40-50-ci illərdə sovet rejimindən bəhrələnərək həyata keçirdikləri soyqırımı siyasəti 80-ci illərin ortalarından başlayaraq yenidənqurma pərdəsi altında daha da güclənmiş və Azərbaycan xalqına yeni-yeni faciələr gətirmişdir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On doqquzuncu kitab, s. 385-387).

25 fevral 2000-ci il tarixində "Xocalı soyqırımının səkkizinci ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciət"də Heydər Əliyev Xocalı həqiqətlərinin bütün məşəqqətlərinin dünya ictimaiyyətinə hərtərəfli çatdırılmasının zəruriliyinə toxunaraq yazırdı: "Xocalıda misli görünməmiş qəddarlıqla, vəhşiliklə törədilmiş dinc əhalinin qırğınının dünyanın hər hansı guşəsində baş verməsinin qarşısını almaq üçün Xocalı həqiqətləri, ümumiyyətlə, Azərbaycan xalqının ədalətsizcəsinə cəlb olunduğu Ermənistan–Azərbaycan müharibəsinin bütün məşəqqətləri dünya ictimaiyyətinə hərtərəfli çatdırılmalı, onların qəti, birmənalı mövqelərini bildirmələri üçün ciddi və məqsədyönlü iş aparılmalıdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İyirmi beşinci kitab, s. 177-179).

24 fevral 2001-ci il tarixində Xocalı soyqırımının ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciət"də Heydər Əliyev Xocalı soyqırımını təkcə Xocalı əhalisinə deyil, bütövlükdə insanlığa qarşı misli görünməmiş cinayət hesab edərək yazırdı: "1992-ci il fevralın 26-da ən müasir silahlar və texnika ilə təchiz olunmuş Ermənistan hərbi birləşmələri keçmiş sovet ordusunun 366-cı alayının bilavasitə iştirakı ilə Azərbaycanın Xocalı şəhərini yerlə-yeksan etdilər, yüzlərlə günahsız mülki əhaliyə–qadınlara, qocalara, uşaqlara amansızcasına divan tutdu-

lar. Xüsusi qəddarlığı ilə seçilən bu təcavüz aktı təkcə Xocalı əhalisinə deyil, bütövlükdə insanlığa qarşı misli görünməmiş cinayət idi. Əsrin əvvəllərindən başlayaraq təcavüzkar erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı dəfələrlə soyqırımı aksiyaları törədilmişdir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz ikinci kitab, s. 398-399).

Heydər Əliyev 25 fevral 2002-ci il tarixində "Xocalı soyqırımının onuncu ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciət"ində yazırdı: "Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir. Bir sıra dövlətlərin hakim dairələri tərəfindən himayə olunan bu mənfur siyasət çar Rusiyası və Sovet hakimiyyəti dövründə ardıcıl davam etdirilmiş, SSRİ-nin süqutundan sonra xalqımızın doğma torpaqlarından qovulması, qaçqın və köçkünə çevrilməsi kütləvi qırğınlarla müşayiət olunmuşdur. Təcavüzkar erməni millətçilərinin və sərsəm «Böyük Ermənistan» ideoloqlarının etnik təmizləmə və soyqırımı siyasətinin nəticələrini bütövlükdə iki milyon azərbaycanlı müxtəlif vaxtlarda öz üzərində hiss etmişdir...

Öz miqyasına və dəhşətlərinə görə dünya tarixində analoqu olmayan Xocalı soyqırımını törətməkdə erməni şovinistləri və ideoloqları uzağagedən məqsəd güdürdülər. Məqsəd Dağlıq Qarabağı və digər Azərbaycan torpaqlarını ələ keçirmək, xalqımızın müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizə əzmini qırmaq idi. Lakin mənfur düşmən öz niyyətlərinə çata bilmədi. Doğrudur, faciə bütün Azərbaycan xalqını sarsıtmış, Xocalı sakinlərinə sağalmaz yaralar, mənəvi zərbələr vurmuşdur. Lakin xocalılılar hətta amansız soyqırım günündə də özlərini əsl qəhrəman kimi aparmış, erməni-sovet hərbi birləşmələrinə qarşı qeyri-bərabər döyüşdə igidliklə vuruşmuş, düşmən qarşısında əyilməmiş, xalqımızın qəhrəmanlıq tarixinə şərəfli səhifələr yazmışlar.

Bu gün Azərbaycan hökuməti və xalqı qarşısında Xocalı soyqırımı və bütövlükdə ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında həqiqətləri olduğu kimi, bütün miqyası və dəhşətləri ilə dünya

dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların əsl soyqırımı aktı kimi tanınmasına nail olmaq vəzifəsi durur. Bu, Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur.

Digər tərəfdən, faciənin əsl beynəlxalq hüquqi-siyasi qiymət alması, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılması bütövlükdə insanlığa qarşı yönəlmiş belə qəddar aktların gələcəkdə təkrarlanmaması üçün mühüm şərtdir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz yeddinci kitab, s. 395-398).

25 fevral 2003-cü il tarixində "Xocalı soyqırımının ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciət"də Heydər Əliyev Xocalı soyqırımının beynəlxalq siyasi-hüquqi qiymət almasına, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılmasına yönəlmiş fəaliyyətin zəruriliyini qeyd edərək yazırdı: "1992-ci il fevralın 26-da qədim Xocalı şəhərinin misli görünməmiş qəddarlıqla məhv edilməsi bu faciələrin ən dəhşətlisi oldu... Öz amansızlığına, vəhşiliyinə, kütləviliyinə və törədilən cinayətlərin ağırlığına görə Xocalı faciəsi insanlığın tarixində qara ləkə kimi qalacaqdır.

1994-cü ildən başlayaraq Azərbaycan hökuməti və parlamenti Xocalı soyqırımı və bütövlükdə erməni şovinist-millətçilərinin azərbaycanlılara qarşı törətdiyi cinayətlər haqqında həqiqətləri olduğu kimi bütün dəhşətləri ilə dünya dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların soyqırımı siyasəti kimi tanınmasına nail olmaq xətti yeridir. Bu, Xocalı şəhidlərinin, Vətən müdafiəçilərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuz olmaqla bərabər, həm də faciənin beynəlxalq hüquqi-siyasi qiymət almasına, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılmasına yönəlmişdir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. (Qırx dördüncü kitab, s. 89-92).

27 mart 2003-cü il tarixində "31 Mart – Azərbaycanlıların Soyqırımı Günü münasibətilə Azərbaycan xalqına müraciət"də Heydər Əliyev yazırdı: "…Dünya əsl soyqırımı haqqında həqiqətləri bilməli, bu gün baş verən hadisələrin kökləri və mahiyyəti açıl-

malı, yanlış stereotiplər dağıdılmalıdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Qırx dördüncü kitab, s. 184).

Xocalı soyqırımı ilə əlaqədar Heydər Əliyevin fikirlərini aşağıdakı kimi ümumiləşdirmək olar:

— Xocalı soyqırımı dünyada misli görünməmiş dəhşətli bir vəhşilikdir;

— Xocalı soyqırımı erməni qəsbkarlarının müstəqil Azərbaycan dövlətinə qarşı yeritdiyi məqsədyönlü təcavüz planının ən amansız həlqəsi, misli görünməmiş vəhşilik aktıdır;

— Xocalı soyqırımı təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı törədilmiş cinayət kimi XX əsrin tarixinə daxil olmuşdur;

— Xocalı soyqırımı - xalqımıza qarşı yeridilmiş bu məqsədyönlü soyqırımı siyasəti insanlıq və bəşəriyyət tarixində ağır bir cinayət kimi qalacaqdır;

— Xocalı soyqırımı erməni faşizminin iç üzünü bir daha açıb göstərdi;

— Xocalı soyqırımı təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş tarixi cinayətdir;

— Xocalı soyqırımı beynəlxalq hüquqa uyğun olaraq sivilizasiyalı dünya tərəfindən mühakimə olunmalıdır;

— Xocalı soyqırımının beynəlxalq aləmdə öz qiymətini alacağı və günahkarların gec-tez öz layiqli cəzalarına çatacağı labüddür;

— Heç şübhə yoxdur ki, Xocalı işğaldan azad olunacaqdır və xocalılılar öz doğma torpaqlarına qayıdacaqlar, həyatlarını yenə də doğma torpaqları üzərində davam etdirəcəklər;

— Xocalı soyqırımını törədənlər ədalət məhkəməsi ilə məhkum olunacaqlar;

— Xocalı soyqırımının yarası qəlbimizdə daim yaşayacaqdır;

— Xocalı həqiqətləri dünya ictimaiyyətinə hərtərəfli çatdırılmalı, onların qəti, birmənalı mövqelərini bildirmələri üçün ciddi və məqsədyönlü iş aparılmalıdır;

— Xocalı soyqırımı öz ağırlığına, miqyasına və nəticələrinə görə bəşəriyyətə qarşı cinayət kimi xarakterizə olunmalıdır;

— Xocalı soyqırımı beynəlxalq hüquqi-siyasi qiymətini almalıdır;

— Xocalı soyqırımının ideoloqları və təşkilatçıları layiqincə cəzalandırılmalıdır;

— Xocalı soyqırımı, onun dərslərini unutmağa bizim haqqımız yoxdur;

— Xocalı soyqırımı xüsusi qəddarlığı ilə seçilən təcavüz aktıdır;

— Xocalı soyqırımı təkcə Xocalı əhalisinə deyil, bütövlükdə insanlığa qarşı misli görünməmiş cinayətdir;

— Xocalı soyqırımı Azərbaycan xalqına böyük siyasi, maddi və mənəvi zərbələr vurmuşdur;

— Xocalı soyqırımını törədənlər, təcavüzkar siyasət yeridənlər nə zamansa tarix və bəşəriyyət qarşısında cavab verməli olacaqlar;

— Xocalı hadisələrini, onların dərslərini unutmağa bizim haqqımız yoxdur;

— Xocalı soyqırımı ilə bağlı tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gələ bilər;

— Xocalı soyqırımını, azərbaycanlılara qarşı zaman-zaman törədilən bu ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrə və onların məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir;

— Xocalı soyqırımının əsl beynəlxalq hüquqi-siyasi qiymət alması, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılması bütövlükdə insanlığa qarşı yönəlmiş belə qəddar aktların gələcəkdə təkrarlanmaması üçün mühüm şərtdir;

— Xocalı soyqırımı yalnız bir xalqın milli faciəsi hesab edilə bilməz;

— Xocalı soyqırımı bütövlükdə insanlığa qarşı cinayət kimi qiymətləndirilməli, bəşəriyyət faşizmin, nasizmin hər cür təzahüründən birdəfəlik xilas edilməlidir;

— Xocalı soyqırımı öz amansızlığına, vəhşiliyinə, kütləviliyinə və törədilən cinayətlərin ağırlığına görə insanlığın tarixində qara ləkə kimi qalacaqdır;

— Xocalı soyqırımı haqqında həqiqətləri dünya bilməli, bu gün baş verən hadisələrin kökləri və mahiyyəti açılmalı, yanlış stereotiplər dağıdılmalıdır.

### 2.3.3. Soyqırımına görə cinayət məsuliyyətinin hüquqi əsasları

“Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında” Konvensiya 9 dekabr 1948-ci ildə BMT-nin Baş Assambleyasının 260 (III)A Qətnaməsi ilə qəbul olunmuş, 12 yanvar 1951-ci ildə qüvvəyə minmişdir.

Konvensiyanın Preambulasında soyqırımın beynəlxalq hüquq normalarını pozan, Birləşmiş Millətlər Təşkilatının məqsəd və ruhuna zidd olan cinayət olduğu və sivil dünyanın onu pislədiyi, tarix boyu soyqırımın bəşəriyyətə böyük itkilər gətirdiyi etiraf edilir, bəşəriyyəti bu fəlakətdən xilas etmək üçün beynəlxalq əməkdaşlığın vacibliyi nəzərə alınaraq iştirakçı dövlətlərin Konvensiyanın müddəaları barədə razılığa gəlməsi tövsiyə edilir.

Konvensiyanın 1-ci maddəsində Razılığa gələn Tərəflərin sülh və yaxud müharibə dövründə törədilməsindən asılı olmayaraq soyqırımın beynəlxalq hüquq normalarını pozan cinayət olmasını təsdiqləməsi, habelə bu cinayətin qarşısını almaq və cəza tədbirlərini həyata keçirmək öhdəliyi götürdükləri öz əksini tapır.

Konvensiyanın 2-ci maddəsində soyqırımının anlayışı verilir və qeyd olunur ki:

Konvensiyaya müvafiq olaraq soyqırımı hər hansı milli, etnik, irqi və ya dini qrupun qismən və ya bütövlükdə məhv edilməsi məqsədilə törədilən aşağıdakı hərəkətlərdən biridir:

a) bu cür qrup üzvlərinin öldürülməsi;

b) bu cür qrup üzvlərinə ağır bədən xəsarətlərinin və ya əqli qabiliyyətinə ciddi zərər yetirilməsi;

c) qəsdən hər hansı bir qrupun tam və ya qismən fiziki məhvini nəzərdə tutan həyat şəraiti yaradılması;

d) bu cür qrup daxilində doğumun qarşısını almağa yönəlmiş tədbirlərin həyata keçirilməsi;

e) bir insan qrupuna mənsub olan uşaqların zorla başqa qrupa verilməsi.

Beləliklə, soyqırımı cinayəti dörd - milli, etnik, irqi və ya dini qrupdan olan insanların qismən və ya tam məhv edilməsi məqsədləri ilə törədilən beş növ hərəkətləri soyqırımı hesab edir.

Konvensiyanın 3-cü maddəsinə əsasən aşağıdakı əməllər cəzalandırılmalı əməllərə aid edilir:

a) soyqırımı;

b) soyqırımı törətmək məqsədilə sövdələşmə;

c) soyqırımı törətməyə birbaşa və açıq təhrik;

d) soyqırımı törətməyə cəhd;

e) soyqırımında iştirakçılıq.

Maddənin məzmununa görə soyqırımı cinayətinin birbaşa icraçıları ilə yanaşı, soyqırımı törətmək məqsədilə sövdələşənlərin, soyqırımı törətməyə birbaşa və açıq təhrik edənlərin, soyqırımı törətməyə cəhd edənlərin, soyqırımında iştirakçıların da cinayət məsuliyyəti daşıması və cəzalandırılmalı olması müəyyən edilir.

Konvensiyanın 4-cü maddəsi müəyyən edir ki, soyqırımı, həmçinin soyqırımı törətmək məqsədilə sövdələşmə, soyqırımı törətməyə birbaşa və açıq təhrik, soyqırıımı törətməyə sui-qəsd, soyqırımında iştirakçılıq kimi əməllərdən hər hansı birini törətmiş şəxs konstitusiya ilə məsul rəhbər, rəsmi və ya fərdi şəxs olmasından asılı olmayaraq cəzalandırılmalıdır.

Həmin maddənin mahiyyəti ondadır ki, şəxsin milli qanunvericiliyə əsasən hər hansı imtiyaza malik olması onu soyqırımı cinayətinə görə cinayət məsuliyyəti və cəzadan azad etmir.

Konvensiyanın 5-ci maddəsi müəyyən edir ki, Konvensiyanın müddəalarının qüvvəyə minməsi üçün Razılığa gəlmiş Tərəflərin hər biri xüsusilə soyqırımı və yaxud 3-cü maddədə sadalanan digər əməllərin törədilməsində təqsirli bilinən şəxslərin cəzalandırılması üçün səmərəli tədbirlər nəzərdə tutan zəruri qanunvericiliyi öz konstitusion proseduruna uyğun olaraq qəbul etmək öhdəliyini götürürlər.

Qeyd edilən maddəyə əsasən, hər bir iştirakçı dövlət özünün qanunvericiliyini Konvensiyanın müddəalarına uyğunlaşdırmalıdır. Burada Ci-

nayət Məcəlləsində soyqırımın  cinayət kimi öz əksini tapması, həmçinin soyqırımı törətmək məqsədilə sövdələşmə, soyqırımı törətməyə birbaşa və açıq təhrik, soyqırımı törətməyə cəhd, soyqırımında iştirakçılıq kimi əməllərdən hər hansı birini törətmiş şəxsin cinayət qaydasında cəzalandırılmalı olmasının qanunvericiliyə daxil edilməsi nəzərdə tutulur .[15]

BMT Baş Məclisinin 26 noyabr 1968-ci il tarixli 2931(XXIII) saylı qətnaməsi ilə qəbul edilmiş "Müddətin müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərə tətbiq edilməməsi haqqında" Konvensiyanın 1-ci maddəsinə əsasən müharibə cinayətləri törədildiyi vaxtdan asılı olmayaraq, onlara cinayət məsuliyyətinə cəlbetmə müddəti tətbiq edilmir.

5 dekabr 2006-cı il tarixli “Beynəlxalq cinayətlərə görə məsuliyyət müəyyən edən qanunun qüvvəsinin geriyə şamil olunması haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda qeyd olunur ki, “Bu Konstitusiya Qanunu Azərbaycan Respublikasında sülh və insanlıq əleyhinə cinayətlərə, soyqırımı və müharibə cinayətlərinə görə məsuliyyət nəzərdə tutan mövcud cinayət qanunvericiliyi normalarının tətbiqini "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın və "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın müvafiq müddəalarına uyğunlaşdırmaq məqsədilə qəbul edilir.

Azərbaycan Respublikası Konstitusiyasının heç bir müddəası hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına əsasən törədildiyi zaman cinayət sayılan əmələ (hərəkət və ya hərəkətsizliyə) görə hər hansı şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinə və cəzalandırılmasına mane olan müddəa kimi şərh edilə və ya başa düşülə bilməz.

Bu Konstitusiya Qanununun 1-ci maddəsində nəzərdə tutulan əməli (hərəkət və ya hərəkətsizliyi) törətmiş şəxslərin cinayət təqibi yalnız həmin əmələ görə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində məsuliyyət müəyyən edildikdən sonra həyata keçirilə bilər”.

---

[15] Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər Cinayət Məcəlləsinin otuz üçüncü fəslində öz ifadəsini tapmışdır və 308-314-cü maddələri özündə ehtiva edir.

Beynəlxalq cinayətlərə məsuliyyətə cəlbetmə müddətinin tətbiq olunmaması ona dəlalət edir ki, Xocalı soyqırımını törətmiş şəxslər cinayət məsuliyyətinə alınmalıdırlar.

Konvensiyanın 6-cı maddəsi  müəyyən edir ki, soyqırımı və yaxud 3-cü maddədə sadalanan digər əməlləri törətmiş şəxslər bu əməlin törədildiyi dövlətin ərazisində səlahiyyətli məhkəmələr tərəfindən və ya Konvensiya iştirakçıları olan dövlətlərin yurisdiksiyasını tanıdığı beynəlxalq məhkəmələr tərəfindən mühakimə olunmalıdırlar.

Həmin maddəyə əsasən, ərazisində soyqırımı cinayəti törədilmiş dövlətin məhkəmələri həmin cinayəti törədən şəxsləri mühakimə etmək hüququna malikdirlər. Eyni zamanda, Konvensiya iştirakçısı olan dövlətlərin yurisdiksiyasını tanıdığı beynəlxalq məhkəmələr də bu cür yurisdiksiyanı həyata keçirmək səlahiyyətinə malikdirlər.

Konvensiyanın 7-ci maddəsinə müvafiq olaraq təqsirlilərin verilməsi (ekstradisiyası) məsələsində soyqırımı və yaxud 3-cü maddədə sadalanan digər əməllər siyasi cinayət sayılmır. Bu kimi hallarda Razılığa gələn Tərəflər təqsirlinin verilməsini öz qanunvericiliyinə və qüvvədə olan müqavilələrə müvafiq olaraq həyata keçirmək öhdəliyi daşıyırlar.

Qeyd etmək lazımdır ki, beynəlxalq hüquqa müvafiq olaraq siyasi əqidəsinə görə təqib olunan şəxslərin verilməsindən (ekstradisiyası) imtina qəbuledilən hesab edilir. Konvensiyanın 7-ci maddəsi soyqırımı törətmiş şəxslərə münasibətdə bu cür imtinaya yol verilməməsini rəsmiləşdirir.

“Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında” Azərbaycan Respublikası Qanununun 3.1.3-cü maddəsinə əsasən, verilməsi haqqında sorğu edilən şəxsə Azərbaycan Respublikasının ərazisində qanunvericiliklə müəyyən edilmiş qaydada siyasi sığınacaq verildikdə şəxsin verilməsindən imtina edilir. Lakin həmin maddəyə qeyd nəzərdə tutur ki, bu Qanunun 3.1.3-cü maddəsinin tətbiqi zamanı Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 9 dekabr 1948-ci il tarixli "Genosid cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında" Konvensiya ilə nəzərdə tutulan insanlıq əleyhinə cinayətlər siyasi xarakterli cinayət sayılmır.

Konvensiyanın 8-ci maddəsinə əsasən, hər bir iştirakçı soyqırımı və yaxud 3-cü maddədə sadalanan digər əməllərin qarşısının alınması və aradan qaldırılması üçün Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə müvafiq olaraq bütün lazımi tədbirlərin görülməsi tələbi ilə Birləşmiş Millətlər Təşkilatının müvafiq orqanına müraciət edə bilər.

Konvensiyanın 9-cu maddəsinə əsasən, Razılığa gələn Tərəflər arasında bu və ya digər ölkənin soyqırımı və yaxud 3-cü maddədə sadalanan digər əməlləri törətməyə görə məsuliyyətinə dair mübahisələr də daxil olmaqla, bu Konvensiyanın şərhi, tətbiqi və yaxud icrası ilə bağlı mübahisələr mübahisə tərəflərindən hər hansı birinin tələbi ilə baxılması üçün Beynəlxalq Məhkəməyə verilir. Həmin Maddədə nəzərdə tutulan beynəlxalq məhkəmə Haaqada yerləşən BMT-nin Beynəlxalq Məhkəməsidir.

1998-ci il iyun ayının 15-dən iyul ayının 17-nə kimi İtaliyanın paytaxtı Roma şəhərində Beynəlxalq Cinayət Məhkəməsinin təsis edilməsi məqsədilə BMT-nin Diplomatik Konfransı keçirildi. Konfransda Beynəlxalq Cinayət Məhkəməsinin Statutu qəbul edildi. Nizamnaməyə əsasən, Beynəlxalq Cinayət Məhkəməsinin yurisdiksiyasına soyqırımı cinayəti, bəşəriyyətə qarşı cinayətlər, müharibə cinayətləri və təcavüz cinayətləri aid edilmişdir. Statutun 6-cı maddəsində soyqırımın anlayışı "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyadakı kimi müəyyən edilmişdir.

### 2.3.4. Xocalıya ədalətin təmin olunacağına ümid etməyə haqqımız var

Soyqırımı cinayətinin tərkibinin yaranması üçün hər hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək niyyətinin olması məcburi əlamət sayılır. Bu, soyqırımı cinayətini digər beynəlxalq cinayətlərdən fərqləndirən əsas əlamətdir. Soyqırımı cinayəti qəsdən törədilən cinayətdir, onun ehtiyatsızlıqla törədilməsi inkar olunur. Xocalı hadisələri zamanı qabaqcadan azərbaycanlılara qarşı törədilən vəhşiliklər-

dən qaçıb canını qurtarmaq istəyən azərbaycanlı mülki əhalinin müxtəlif silahlardan açılan atəşlə öldürülməsi məhz soyqırımı niyyətini sübut edir.

Bu hadisələr zamanı soyqırımı cinayəti tərkibinin yaranması üçün mühüm əlamətlərdən biri də mülki əhalinin məhz azərbaycanlı olduğuna görə öldürülməsində öz ifadəsini tapır. Cinayətin azərbaycanlı milli qrupuna qarşı yönəlməsi danılmazdır. Fərdin şəxsiyyəti deyil, məhz müəyyən qrupa mənsubluğu soyqırımı qurbanlarını təyin etmək üçün həlledici meyardır.

Xocalı hadisələrinin məhz soyqırımı olmasını təsdiq edən sübutların ən əsaslarını tibbi ekspertiza rəyləri təşkil edir. Xocalı hadisələri zamanı həlak olmuş insanların meyitləri müayinə olunarkən onlarda baş dərisinin soyulması, burun və qulaq qığırdaqlarının kəsilməsi, dişlərin sındırılması, qadınlarda döşlərin kəsilməsi, müxtəlif kəsici-deşici alətlərlə yetirilmiş xəsarətlər, üzərindən hərbi texnika keçməsi, bədənin müxtəlif ətraflarında alçaqcasına edilmiş zorakılıq əməliyyatları müşahidə edilmişdir. Məhkəmə-tibbi ekspertizanın müayinəsindən keçən 181 meyitdə (130 kişi, 51 qadın) qəlpədən (20 nəfər), gülləदən (151 nəfər), küt alətdən (10 nəfər) ölümlər aşkarlanıb. 13 meyit azyaşlı uşaq olub. Ölənlərin 40 nəfəri baş nahiyəsindən, 74 nəfəri döş qəfəsindən, 17 nəfəri qarın nahiyəsindən, 11 nəfəri isə ətraf nahiyələrdən xəsarət alıb. Meyitlərin 3 nəfərində ətrafların donması, 33 nəfərdə işgəncə ilə ölüm – qadınlarda döşlərin kəsilməsi, onların cinsiyyət üzvlərinə odlu silahdan atəş açılması, ölənlərin burun və qulaqlarının kəsilməsi, başın dərisinin soyulması, dişlərin, göz almalarının çıxarılması, kişilərin cinsiyyət üzvlərinin kəsilməsi, üzərindən hərbi texnikanın keçilməsi əlamətləri müşahidə olunub.

Soyqırımı cinayətinə görə məsuliyyətin ortaya çıxması üçün müəyyən qrupun məhv edilməsindən ibarət son nəticənin əldə olunması tələb olunmur. Vacib olan belə bir niyyətin mövcud olmasıdır. Xocalı hadisələri zamanı nümayiş etdirilən qəddarlıq, əməlin silahsız azərbaycanlı mülki əhalisinə qarşı törədilməsi, onun xüsusi amansızlığı, meyitlər üzərində edilmiş təhqiramiz hərəkətlər, azyaşlı uşaqların öldürülməsi və ya girov götürülməsi

erməni cəlladlarının niyyətinin məhz Xocalının azərbaycanlı əhalisinin tamamilə məhv edilməsinə yönəldilməsini təsdiq edir.

Azərbaycan Respublikası prokurorluq orqanlarının mətbuatda verdiyi məlumatlardan məlum olur ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı azərbaycanlılara qarşı törədilmiş ağır cinayətlərin istintaqı və onlara hüquqi qiymət verilməsi, həmin cinayətlərin təşkili və törədilməsində iştirak etmiş təqsirkar şəxslərin müəyyənləşdirilib mövcud qanunvericiliyə əsasən cinayət məsuliyyətinə cəlb olunması, habelə beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması faktları ilə bağlı beynəlxalq təşkilatlar qarşısında müvafiq vəsatətlər qaldırılması məqsədilə 2003-cü il dekabrın 18-də Azərbaycan Respublikası Baş prokurorunun, daxili işlər və milli təhlükəsizlik nazirlərinin əmri ilə birgə istintaq-əməliyyat qrupu yaradılmışdır. Qeyd edilən cinayətlərlə bağlı müxtəlif vaxtlarda icraatı dayandırılmış cinayət işləri üzrə icraat təzələnməklə istintaq aparılması həmin qrupa həvalə edilmişdir.

Xocalı soyqırımı epizodu üzrə aparılan istintaq zamanı 7000-ə yaxın istintaq hərəkəti icra edilib, o cümlədən 1771 şahid və 2699 zərərçəkmiş şəxs qismində olmaqla 4470 nəfər dindirilib, 800-dən artıq müxtəlif növ ekspertizalar keçirilib, digər istintaq hərəkətləri icra edilib. Aparılan istintaqla Xocalıya hücum edən hərbi qulluqçuların və digər şəxslərin soyqırımında iştirakı tam sübuta yetirilib və onların Azərbaycan Respublikası Cinayət Məcəlləsinin soyqırımı, işgəncə, əhalini deportasiya etmə, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozmağa və digər cinayətlərə görə məsuliyyət nəzərdə tutan maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmələri barədə müvafiq qərarlar çıxarılıb.

Cinayət işi üzrə keçirilmiş kompleks məhkəmə tikinti-texniki və əmtəəşünaslıq ekspertizasının rəyindən isə belə məlum olur ki, qanunsuz erməni silahlı birləşmələri tərəfindən Xocalı şəhərinin işğal edilməsi ilə əlaqədar dövlət əmlakının və xüsusi mülkiyyətdə olan

əmlakın məhv edilməsi, talan edilməsi ilə bağlı Azərbaycan dövlətinə və vətəndaşlarına 170 milyon ABŞ dollarından artıq ziyan vurulub.[16]

Erməni millətçiləri ilə yanaşı, 366-cı alayın hərbi qulluqçularının da Xocalı soyqırımında iştirakı tam sübuta yetirilmiş, onların Azərbaycan Respublikası Cinayət Məcəlləsinin soyqırımına, işgəncəyə, əhalini deportasiya etməyə, zorlama, cinsi köləlik, məcburi fahişəlik, məcburi sterilizasiya, məcburi hamiləlik, habelə cinsi zorakılıqla əlaqədar başqa hərəkətlər etmə maddələri ilə nəzərdə tutulan cinayəti etməkdə təqsirləndirilən şəxslər kimi cəlb olunmaları barədə qərarlar çıxarılıb. Həmçinin, barələrində məhkəmələr tərəfindən həbs qətimkan tədbiri seçilib və beynəlxalq axtarışlarının həyata keçirilməsi üçün müvafiq sənədlər İnterpolun Azərbaycan Respublikası Milli Bürosuna göndərilib.

Xocalı faciəsinin beynəlxalq miqyasda əsl hüquqi-siyasi qiymət alması, onun təşkilatçılarının cəzalandırılması insanlığa qarşı yönəlmiş belə qəddar aktların təkrarlanmaması üçün mühüm şərtdir. Milli səviyyədə, eləcə də mövcud beynəlxalq hüquq çərçivəsində görülən davamlı tədbirlər cəzasızlığa son qoyulmasına və Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı törədilmiş ağır cinayətlərə görə məsuliyyət daşıyan şəxslərin ədalət məhkəməsinə çıxarılmasına xidmət edəcək.

2020-ci ilin 44 günlük müharibəsi Azərbaycan xalqının, onun qəhrəman oğul və qızlarının, qüdrətli ordusunun və müzəffər Ali Baş Komandanının güc və bacarığını nümayiş etdirdi. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 51-ci maddəsinə müvafiq olaraq Azərbaycan ordusu özünümüdafiə hüququndan istifadə etdi, onun əsgəri düşmənin silahlı hücumuna cavab həmləsinə qalxaraq torpaqlarını düşmən işğalından azad etdi. Qazanılmış Zəfər xalqın inamını, qürurunu özünə qaytardı. Birinci Qarabağ müharibəsi zamanı müharibə cinayətləri törətmiş cinayətkarlardan bir qismi Azərbaycan məhkəmələri tərəfindən mühakimə olunaraq cəzalarını aldılar.

---

[16] “Xocalı faciəsi beynəlxalq hüquqa əsasən soyqırımı cinayətidir”, 26 fevral 2020-ci il, https://genprosecutor.gov.az/az/post/2430

Xocalı ilə bağlı Heydər Əliyevin verdiyi tövsiyələrin reallığa çevriləcəyi gün uzaqda deyil. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə geniş vüsət almış “Xocalıya ədalət” beynəlxalq kampaniyası uğurla davam etdirilir. Azərbaycan Respublikası Milli Məclisinin Xocalı soyqırımının 30 illiyi ilə əlaqədar bəyanatında deyilir: "Xocalı soyqırımının dünya miqyasında tanıdılması sahəsində sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlığı Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilmişdir. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də Amerika Birləşmiş Ştatlarının 22 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləmişlər. Xocalı şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi üçün dövlət tərəfindən bir sıra tədbirlər görülmüşdür. Bakı şəhərində, ölkəmizin digər şəhər və rayonlarında Xocalı qurbanlarına abidələr ucaldılmış, Xocalı faciəsi haqqında məlumatlar orta məktəb proqramlarına daxil edilmişdir".

Görülən uğurlu işlər Xocalı soyqırımını törədənlərin bir gün Azərbaycan ədalət mühakiməsi qarşısında duracağına inamı möhkəmlədir. Ulu Öndər “Dünya belə qalmayacaq. Xocalı soyqırımını törədənlər cəzalarını alacaq”, - demişdi. Bizim buna ümid etməməyə haqqımız yoxdur!

## 2.4. Terrorçuluq cinayəti

### 2.4.1. Heydər Əliyev: “Bəşəriyyəti, insanları, dünyanı terrordan qorumaq lazımdır. Bu, əsas vəzifədir”.

Başqa dövlətin ərazisini işğal etmək məqsədilə terrorçular hazırlayıb həmin ərazilərə göndərmək bir tərəfdən terrorçuluq cinayətinin, digər tərəfdən isə təcavüz cinayətinin tərkibini yaradır. Belə ki, Avropa Şurasının "Terrorçuluğun qarşısının alınması haqqında" Konvensiyasının 7-ci maddəsinə əsasən, “həmin Konvensiyanın məqsədləri üçün "terrorçuluğa hazırlama" dedikdə, terror cinayəti törətmək və ya terror cinayətinin törədilməsinə kömək etmək məqsədilə verilən biliklərin bu məqsəd üçün istifadə olunacağını bilərək partlayıcı maddələrin, odlu silahların və ya digər silahların, yaxud zərərli və ya təhlükəli maddələrin hazırlanması, istifadəsi və ya digər xüsusi metod və ya üsullarla bağlı təlimat vermə başa düşülür”.

Ona görə də Heydər Əliyev BMT-nin Təhlükəsizlik Şurasına və Baş katibinə ünvanladığı müraciətdə Ermənistan dövlətinin beynəlxalq cinayətləri təşkil etməsi məsələsini beynəlxalq təşkilatın əsas orqanlarının nəzərinə çatdırır, digər tərəfdən də Azərbaycanın Dağlıq Qarabağ ərazisində törədilən cinayətlərə görə məhz Ermənistan dövlətinin cavabdehlik daşıdığını, həmin əməllərinə görə cavab verməli olduğunu, təcavüzkar dövlətə qarşı zəruri tədbirlərin görülməsini tələb edirdi.

Həmin hadisələrdən 30 ilə yaxın müddət keçdikdən sonra digər bir beynəlxalq mexanizm - İnsan Hüquqları üzrə Avropa Məhkəməsi Heydər Əliyevin Dağlıq Qarabağda baş verənlərə görə Ermənistan dövlətinin cavabdehlik daşıdığını özünün “Çıraqov və digərləri Ermənistana qarşı” qərarında təsdiq etdi. Heydər Əliyev 26 iyul 1993-cü il tarixli müraciətində yazırdı: “Dağlıq Qarabağı öz ərazisinə birləşdirmək haqqında xəyanətkar qərarlar qəbul edilməsində ifadəsini tapan siyasi təcavüzdən başlayan və sonra emissarlar, terrorçular və silahlar göndərilməsinə keçən Ermənistan bu gün Azərbaycan torpa-

ğında genişmiqyaslı hərbi əməliyyatlar aparır, ATƏM-in və BMT-nin çağırış və qərarlarına, o cümlədən də işğal qüvvələrini Azərbaycandan çıxarmağı birmənalı tələb edən Təhlükəsizlik Şurasının 822 nömrəli qətnaməsinə məhəl qoymur. Erməni tərəfinin vasitəçinin qanuni tələblərinin yerinə yetirilməsindən tamamilə imtina etməsi, üstəlik, qeyri-məqbul şərtlər irəli sürməsi nəticəsində ATƏM-in həmin qətnamənin həyata keçirilməsinə yönəldilmiş səylərinə əngəl törədilmişdir.

...Dağlıq Qarabağda fəaliyyət göstərən erməni silahlı birləşmələrinin Ermənistan Respublikasına tabe olmadıqları barədə erməni tərəfinin dedikləri tamamilə əsassızdır. Bütün ağır silahların, döyüş sursatının, canlı qüvvənin göndərilməsini, habelə hərbi əməliyyatlara bilavasitə rəhbərlik edilməsini Ermənistan Respublikası ilhaq olunmuş Laçın rayonu vasitəsi ilə həyata keçirir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 44-45).

Terror ən amansızlıqla, heç bir mərhəmət hissi olmadan törədilən cinayətdir. Onun əsas məqsədi insanları, qorxutmaq, vahiməyə salmaq, onları haqq yolundan azdırmaq, çəkindirməkdir.

Azərbaycan torpaqlarına qarşı işğalçı müharibənin aparıldığı, xalqın birliyinə həmişəkindən daha çox ehtiyacın olduğu, ölkəni ağır böhrandan çıxarmaq üçün böyük idarəçilik təcrübəsi olan liderə ehtiyac olduğu bir vaxtda təəssüf ki, terrorçuluq əhval-ruhiyyəsi ilə yaşayanlar, terrorçuluq məqsədi daşıyan şəxslər də istisna deyildi. Terrorçuluğu ən alçaq, ən çirkin yol, cinayət kimi dəyərləndirən Heydər Əliyev 17 noyabr 1993-cü il tarixində Azərbaycanın siyasi partiyalarının və ictimai hərəkatlarının rəhbərləri ilə görüşdə terrorçuluq əhval-ruhiyyəsinə son qoymağa çağırış edirdi: "Ona görə də burada, müharibə gedən ölkəmizdə iqtidar-müxalifət söhbəti salmağın əsası yoxdur və olmamalıdır. Əlbəttə, dövlətin, dövlət orqanlarının, görülən işlərin qüsurları tənqid edilməlidir. Qoy bilsinlər ki, səhv buraxmışlar və gələcəkdə buna yol verməsinlər. Ancaq bu o demək deyildir ki, düşmənçilik, xəyanət, terrorçuluq mövqeyində durasan. İndi müxalifətdə olan bu adamların arasında terrorçuluq əhval-ruhiyyəsi

ilə yaşayan, terrorçuluq məqsədi daşıyan şəxslər də var. İstintaqda sübut olunmuşdur ki, Heydər Əliyevi fiziki cəhətdən məhv etmək üçün buraya müəyyən adamlar tutulub gətirilmişdir, müəyyən məqamda onun fiziki cəhətdən məhv edilməsi üçün tədbirlər görülmüşdür. Bu, hansı müxalifətdir? O hansı məzhəbə qulluq edir? Bu terrorçu təşkilatlar Azərbaycanı erməni işğalından, qəsbkarlığındanmı xilas etmək istəyirlər, yoxsa öz şəxsi məqsədlərinə nail olmaq üçün bu yolu tutmuşlar? Terrorçuluq ən alçaq, ən çirkin yoldur. Tarix boyu bütün dövrlərdə bu, belə olmuşdur. Bütün bunlara son qoymaq lazımdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 250-251).

29 sentyabr 1994-cü il tarixində görkəmli dövlət xadimləri – Ali Sovetin sədr müavini Afiyəddin Cəlilov və Azərbaycan Respublikasının Prezidenti yanında Xüsusi İdarənin rəisi Şəmsi Rəhimov vəhşicəsinə qətlə yetirildilər. Heydər Əliyev həmin hadisə ilə bağlı verdiyi bəyanatda hadisəni terror kimi qiymətləndirir və bu cür satqın və xəyanətkar hərəkətlərin qarşısını almaq üçün lazım olan ən qəti tədbirlər görüləcəyini bəyan edirdi: "Şübhəsiz ki, bu terrorçuluq aktları son vaxtlar Azərbaycanın müstəqilliyi əleyhinə yönəldilmiş cinayətlərin yeni bir həlqəsidir. Son vaxtlar bir sıra ağır cinayətlər törətmiş, bu yaxınlarda isə dövlət əleyhinə xəyanətdə ittiham edilən dörd dustağın təcridxanadan qaçırılmasına nail olmuş bu qüvvələr respublikada ictimai-siyasi sabitliyi pozmaq, süni qarşıdurma və vahimə əhval-ruhiyyəsi yaratmaq, son nəticədə ölkəni siyasi və iqtisadi müstəqillik yolundan döndərmək üçün ən çirkin üsullara əl atırlar. Bu, həm də Azərbaycan Respublikasının hərbi təcavüzə qarşı apardığı mübarizəni zəiflətməyə yönəldilmişdir.

Öz suverenliyini qorumaq üçün kifayət qədər gücə və hər cür imkanlara malik olan Azərbaycan dövləti bu cür satqın və xəyanətkar hərəkətlərin qarşısını almaq üçün lazım olan ən qəti tədbirlər görəcəkdir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab, s. 326-327).

Azərbaycanın iki dövlət xadiminin qəddarcasına qətlə yetirilməsini 5 oktyabr 1994-cü il tarixində Ümumrespublika həmrəylik mitinqində Heydər Əliyev təkcə həmin şəxslərin həyatına qarşı deyil,

bütün Azərbaycanın müstəqilliyinə qarşı yönəldilmiş siyasi terror, dəhşətli cinayət, müstəqil Azərbaycana qarşı yönəldilmiş xəyanət hərəkəti hesab edirdi: "Cinayətlərdən ən dəhşətlisi terrordur, xüsusən də siyasi terror. Bəzi qüvvələr mənim də əleyhimə terror hərəkətləri hazırlayır. Bildiyiniz kimi, ötən ilin payızında Bakıda bir terrorçu qrup yaxalandı və bu terrorçular mühakimə edildilər. Çünki onlar mənim həyatıma sui-qəsd törətməyə hazırlaşmışdılar. Məhz həmin anda, yəni cinayət başında yaxalandılar.

...Heç kəs silaha əl atmamalıdır, heç kəs terrorla məşğul olmamalıdır. Bütün silahlı dəstələr tərk-silah edilməlidir. Ona görə də bu gün mən siyasi terror yolu tutan adamlara nifrətimi bildirir və bütün xalqı onları ifşa etməyə çağırıram.

...Bu, bütün terrorçulara xəbərdarlıqdır. Qoy onlar bilsinlər ki, bu dəhşətli cinayətlər ayrı-ayrı şəxslərin həyatına deyil, müstəqil Azərbaycana qarşı yönəldilmiş xəyanətdir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab, s. 366-367).

Heydər Əliyev təkcə milli səviyyədə deyil, beynəlxalq səviyyədə də terrorçuluğu pisləyir, terrorçuluqla birgə mübarizəni dəstəkləyirdi. 2 iyul 1995-ci il tarixində Rumıniya Prezidenti İon İliyesku ilə birgə mətbuat konfransında Ulu Öndər deyirdi: "Azərbaycan hər hansı formada separatçılığın, hər hansı formada terrorçuluğun əleyhinədir və hesab edir ki, dünya birliyi indi Yer kürəsinin bir çox bölgələrində yaranmış bu ağır vəziyyəti aradan qaldırmaq üçün öz səylərini səfərbərliyə almalıdır. Bu məsələlər Buxarestdə dünən və bu gün söhbətlərdə və danışıqlarda mühüm yer tutmuşdur. Mən şadam ki, baxışlarımız tamamilə üst-üstə düşür" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Dördüncü kitab, s. 77).

Cinayətlərin, xüsusən terrorçuluğun ağır nəticələrinin qarşısını almaq yüksək hazırlıq, peşəkarlıq, işə layiqli münasibət, təşkilatçılıq tələb edir. Heydər Əliyev hüquq-mühafizə orqanlarına qarşı tələbkarlıq nümayiş etdirməklə yanaşı, yüksək peşəkarlıqla görülmüş işləri də dəyərləndirir, bu barədə ictimaiyyətə məlumat verməyi lazım bilirdi. 4 avqust 1995-ci ildə respublika hüquq-mühafizə orqanları rəhbərlə-

rinin iştirakı ilə keçirilmiş müşavirədə Heydər Əliyev növbəti terror cəhdinin qarşısının alınmasını uğurlu iş kimi dəyərləndirərək deyirdi: “Ancaq 1994-cü ilin sentyabrın 21-dən başlayan cinayətlər – o vaxt həmin bu cinayətkarların qaçması, sentyabrın sonunda terrorçular tərəfindən Azərbaycanın iki dövlət xadiminin qətlə yetirilməsi və bundan sonra dövlət çevrilişinə cəhd edilməsi ən ağır cinayətlərdir.

…Mən görüşümüzün əvvəlində dedim, indi də deyirəm: iyulun 30-da Sabunçu rayonunun ərazisində körpünü partlatmaq, terror əməliyyatı, terror aktı həyata keçirmək məqsədi ilə orada gizlədilmiş partlayıcı maddələrin tapılması, bundan sonra və ondan öncə aparılan əməliyyat-istintaq tədbirləri respublikada ağır cinayətin qarşısını ala bilmişdir. Bu, böyük əhəmiyyətli işdir. Respublika ictimaiyyəti körpünün altında gizlədilmiş dəmir qutularda olan partlayıcı maddələri televiziya vasitəsilə görmüşdür. Biz hamımız da görmüşük və təsəvvür edə bilirik ki, əgər bu cinayətin qarşısı alınmasaydı və belə bir terror aktı həyata keçirilsəydi, Azərbaycan böyük faciə ilə üzləşə bilərdi.

...Bu fakt bir daha onu göstərir ki, respublikaya xəyanət edən qüvvələr Azərbaycana nə qədər böyük zərbə vurmaq istəyirlər. Dövlət çevrilişi cəhdləri, ayrı-ayrı adamlara qarşı terror niyyətləri baş tutmadı, indi əgər nail olsaydılar, böyük miqyaslı terror aktı həyata keçirməklə Azərbaycanı çox faciəli vəziyyətə sala bilərdilər (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Dördüncü kitab, s. 158).

Heydər Əliyev terrorçuluğun bir ölkə ərazisindən kənara çıxdığını görür, 28 avqust 1995-ci ildə Türkdilli Dövlətlərin Başçılarının 3-cü Zirvə Toplantısında terrorçuluqla mübarizənin səmərəliliyi üçün beynəlxalq səviyyədə həmin cinayətə qarşı birləşməyi təklif edirdi: “Bütün ölkələrin ərazi bütövlüyünü, sərhədlərin toxunulmazlığını qorumaq, dünyanın bir çox regionlarında axır zamanlarda geniş surətdə yayılmış separatizmə və terrorizmə qarşı ciddi mübarizə aparmaq, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının prinsiplərinə riayət etmək, onları fəal surət-

də həyata keçirmək hər birimizin və hamımızın müqəddəs borcudur" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Dördüncü kitab, s. 229).

Heydər Əliyev xalqı, insanları, bəşəriyyəti terrorçuluq kimi bəladan xilas etmək üçün, terrorçuluqla mübarizənin zəruriliyini bəyan etmək üçün beynəlxalq təşkilatların tribunasından səmərəli istifadəyə üstünlük verirdi. 22 oktyabr 1995-ci ildə BMT-nin 50 illik yubileyi ilə əlaqədar BMT Baş Məclisinin xüsusi təntənəli iclasındakı çıxışında Heydər Əliyev deyirdi: "Ancaq dünya hələ də tam təhlükəsiz, mükəmməl və ideal vəziyyətdə deyildir. Elə problemlər var ki, bunlar köklü şəkildə həll olunmalıdır. Dövlətlər arasındakı münasibətlərdə beynəlxalq hüquq normalarının pozulması, beynəlxalq terrorizm, kütləvi qırğın silahlarının yayılması, aclıq və səfalətin aradan qaldırılması, ekoloji fəlakətlərin qarşısının alınması məhz belə problemlərdir. Dünyanın bir çox regionlarında qanlı müharibələrə, milyonlarla insanların saysız-hesabsız əzab-əziyyətlərinə səbəb olan təcavüzkar millətçilik və separatizm halları sülh üçün böyük təhlükədir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Dördüncü kitab, s. 394).

Heydər Əliyevin terrorçuluğa qarşı barışmaz mübarizəsi yalnız öz ölkəsinin sərhədləri ilə məhdudlaşmırdı. O hər hansı dövlətin ərazisində törədilmiş terrorçuluq cinayətini pisləyir, terrorçuluğa qarşı birgə mübarizəni zəruri hesab edirdi. 4 mart 1996-cı il tarixində İsraildə yaşayan keçmiş Azərbaycan Vətəndaşları Assosiasiyasının təşəbbüsü ilə hazırlanmış və çapdan çıxmış "Heydər Əliyev: siyasi portretin cizgiləri" kitabının təqdimat mərasimindəki nitqində deyirdi: "Bununla əlaqədar mən Azərbaycan ilə İsrail arasında olan münasibətlərə böyük əhəmiyyət verirəm. İsrailin tarixi, xalqın tarixi yaxşı məlumdur, bu ölkədə baş vermiş və indi də baş verən proseslər də məlumdur. Budur, dünən İsraildə daha bir faciə olubdur. Bomba partlayışı nəticəsində 20-dən çox adam həlak olub, bir çoxları yaralanıblar. Terrorçular əməllərini davam etdirirlər. Fürsətdən istifadə edərək demək istəyirəm ki, biz terrorçuluğun bütün təzahürlərini pisləyir, onu rədd edirik. Terrorçuluq – vəhşilikdir, ümumbəşəri dəyərlərlə, sivilizasiya və azadlıqla bir araya sığa bilməz.

Biz hər cür separatçılığı pisləyirik. Səkkiz ildir ki, Azərbaycan separatçılıqdan, terrorçuluqdan əzab çəkir. Ona görə də bu iyrənc təzahürlərin faciəli nəticələrini xalqımızın taleyində hiss etdiyimizə görə, biz daim separatçılığın və terrorçuluğun əleyhinə olmuşuq və bu gün də əleyhinə olacağıq. Mən hər yerdə, o cümlədən İsraildə baş verən terrorçuluq hərəkətini qətiyyətlə pisləyirəm...” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Beşinci kitab, s. 391).

Heydər Əliyev terrorizmi beynəlxalq cinayət kimi daim lənətləyir, dövlətlərarası münasibətlərdə terrorizmin əleyhinə çıxır, bütün mübahisələrin, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınmasını arzulayırdı. 9 aprel 1996-cı il tarixində Pakistan İslam Respublikasının Prezidenti Fərrux Əhməd Xan Leqarinin şərəfinə verdiyi rəsmi ziyafətdə Ümummilli Lider terrorizmə münasibətini bildirərək deyirdi: “Bilirsiniz ki, son illər dünyanın müxtəlif qitələrində, regionlarında ölkələr, xalqlar, millətlər arasında şiddətli hərbi münaqişələr gedir. Son illər Qafqaz regionu da hərbi münaqişələr içərisindədir. Azərbaycan bütün hərbi münaqişələrin əleyhinədir. Azərbaycan silah gücü ilə, zor ilə bir dövlətin o biri dövlətin torpağını ələ keçirməsinin əleyhinədir. Azərbaycan separatizmin, terrorizmin əleyhinədir. Biz bütün münaqişələrin sülh yolu ilə həll olunmasının tərəfdarıyıq. Məhz buna görə də biz Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinə çalışırıq və bunun üçün konstruktiv addımlar atırıq, çox səylər göstəririk. ATƏT-in Minsk qrupu çərçivəsində, böyük dövlətlərin – ABŞ-ın, Rusiyanın, Türkiyənin və başqa dövlətlərin vasitəçiliyi ilə sülh danışıqları aparırıq. İşğal olunmuş torpaqlarımızın sülh yolu ilə azad edilməsinə nail olmağa çalışırıq. Qafqazda və xüsusən Ermənistan ilə Azərbaycan arasında olan münaqişəyə sülh yolu ilə son qoymaq istəyirik” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Altıncı kitab, s. 96-97).

24 aprel 1996-cı il tarixində Norveçin Baş naziri Qru Harlem Brundtlandın Azərbaycan Prezidentinin şərəfinə verdiyi ziyafətdə də Heydər Əliyev terrorizmə eyni münasibətini ifadə edərək deyirdi: “Biz ölkəmizdə sülh olmasını istəyirik. Biz regionumuzda sülh olma-

sını istəyirik. Biz dünyada sülh olmasını istəyirik. Biz separatizmin, terrorizmin əleyhinəyik və bundan sonra da bu mövqedən çıxış edəcəyik" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Altıncı kitab, s. 169).

Ermənistanın işğalçılıq, təcavüz və terrorçuluq siyasətinin bütün xırdalıqları ilə tanış olan Heydər Əliyev hər bir imkandan istifadə edib Qafqazda sülh və əmin-amanlığın bərqərar olması üçün çalışırdı. Azərbaycan Respublikası, Ermənistan Respublikası, Gürcüstan Respublikası və Rusiya Federasiyası dövlət başçılarının görüşündə qəbul edilmiş "Qafqazda əmin-amanlıq, sülh, iqtisadi və mədəni əməkdaşlıq uğrunda Bəyannamə" Heydər Əliyevin sülh təşəbbüsləri və bu sahədəki gərgin fəaliyyətinin nəticəsi idi. Bəyannamədə deyilirdi: "Biz milliyyətindən asılı olmayaraq qaçqınların və məcburi köçkünlərin problemlərini ümumi kədərimiz sayırıq və onların tezliklə könüllü olaraq və təhlükəsiz surətdə öz doğma ocaqlarına qayıtmaları üçün şərait yaratmaqdan ötrü hər cür səy göstərəcəyik...

...Biz terrorçuluğun bütün formalarını və təzahürlərini pisləyir və onun kökünü kəsmək üçün səylərimizi birləşdirmək əzmindəyik. Silahların və narkotiklərin qanunsuz dövriyyəsinə son qoymaq lazımdır. Qafqaz və Rusiya xalqlarını ənənəvi olaraq birləşdirən yaxşı nə varsa bunların hamısını birlikdə qoruyub saxlamaq və artırmaq niyyətində olduğumuzu bildiririk. Qarşılıqlı etimad və açıqlıq, insan hüquqlarına və əsas azadlıqlara hörmət, mübahisələrin dinc vasitələrlə həlli və daxili işlərə qarışmamaq, üzərimizə götürülmüş öhdəliklərə vicdanla əməl etmək və qarşılıqlı surətdə faydalı tərəfdaşlıq bizim münasibətlərimizin əsasını təşkil etməlidir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Altıncı kitab, s. 403-404).

Heydər Əliyev dövlətlərarası münasibətlərdə beynəlxalq hüquq normaları, ərazi bütövlüyü prinsipi, ölkələr arasında beynəlxalq aləmdə tanınmış sərhədlərin və suverenliyin pozulmazlığını əlbir səylərlə, qətiyyətlə müdafiə etməyi, bu normalara və prinsiplərə ciddi əməl etməyi dəstəkləyərək 21 oktyabr 1996-cı il tarixində Türkdilli Dövlət Başçılarının IV Forumunda deyirdi: "Separatçılıq, davakar millətçilik

və beynəlxalq terrorizm təzahürləri, mövcud dövlət sərhədlərinin dəyişdirilməsi niyyəti ilə zor işlətmək cəhdləri beynəlxalq sabitlik üçün bilavasitə və real təhlükədir və bu təhlükə bizim regionda da mövcuddur. Ona görə də beynəlxalq hüquq normalarını, ərazi bütövlüyü prinsiplərini, ölkələrimizin beynəlxalq aləmdə tanınmış sərhədlərinin və suverenliyinin pozulmazlığını əlbir səylərlə qətiyyətlə müdafiə etməli, bu normalara və prinsiplərə ciddi əməl olunmasına çalışmalıyıq" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Yeddinci kitab, s. 434).

Digər dövlətlərin dövlət başçıları ilə, diplomatik nümayəndələrlə görüşlərdə, terrorizmlə mübarizədə eyni mövqedən çıxış etmək barədə razılıq əldə edilməsi Heydər Əliyevin xarici siyasətinin mühüm tərkib hissəsini təşkil edirdi. 23 oktyabr 1996-cı il tarixində Qazaxıstan Respublikasının Müstəqillik Günü münasibətilə Qazaxıstanın Azərbaycandakı səfirinin təşkil etdiyi rəsmi qəbulda Heydər Əliyev deyirdi: "Biz beynəlxalq siyasətin bir çox məsələlərində Qazaxıstanla yekdilik, təcavüzə, separatçılığa, digər ölkə tərəfindən dövlət sərhədimizi pozmaq cəhdlərinə qarşı, təcavüzkar millətçiliyə, terrorizmə qarşı eyni mövqedən çıxış edirik. Belə mənfi hallar bütün dünyada getdikcə daha böyük narahatlığa səbəb olur və Yer kürəsinin müxtəlif bölgələrində gərginlik yaradır. Bundan Qafqaz da, Zaqafqaziya da əzab-əziyyət çəkir. Belə halların baş verməsi təhlükəsi Mərkəzi Asiyada, Qazaxıstanın bilavasitə yaxınlığında da var. Ona görə də həmin prinsiplərə ciddi əməl olunmasının, onların qorunmasının dövlətlərimiz, xalqlarımız üçün başlıca əhəmiyyəti var" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Yeddinci kitab, s. 452).

Heydər Əliyev dövlətlərarası əməkdaşlıq, region ölkələrinin iqtisadi yüksəlişi üçün beynəlxalq terrorizm təzahürlərinin əzm və qətiyyətlə dəf edilməsini vacib hesab edərək 25 oktyabr 1996-cı il tarixində Qara Dəniz Hövzəsi İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə deyirdi: "Bir çox müharibələrin ağır nəticələrini öz üzərində hiss etmiş Qara dəniz hövzəsi regionunun buna xüsusi ehtiyacı vardır. Son vaxtlar genişlənmiş separatçılıq, dava-

kar millətçilik, beynəlxalq terrorizm təzahürlərini biz əzm və qətiyyətlə dəf etməliyik. Biz beynəlxalq hüquqi prinsipləri, yəni hər bir ölkənin ərazi bütövlüyü, suverenliyi prinsiplərini qətiyyətlə müdafiə etməliyik.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının proqramlarının həyata keçirilməsi üçün Qafqazın necə böyük əhəmiyyətə malik olduğu məlumdur. Bununla yanaşı, Qafqaz hərbi münaqişələrdən çox əzab-əziyyət çəkir, Qafqazın bütün ölkələri, bütün xalqları əzab-əziyyət çəkirlər. Ona görə də Qafqazda hərbi münaqişələrə son qoyulması Qara dəniz hövzəsində uğurlu iqtisadi əməkdaşlıq üçün ən mühüm şərtdir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Yeddinci kitab, s. 461).

Terrorizmin hər cür təzahürü beynəlxalq və milli hüquqa əsasən cinayət hesab olunur. Ona görə də Heydər Əliyev ölkə daxilində terrorun hər hansı təzahürünü rədd edir, terror cinayətini törədənlərin cinayət məsuliyyəti barədə xəbərdar edərək 30 oktyabr 1996-cı il tarixində Naxçıvan Respublikası ictimaiyyətinin nümayəndələri ilə görüşündə deyirdi: "Ancaq o şəxslər ki, müxalifətdə olmaqdan savayı düşmənçilik, terrorçuluq hərəkətlərinə əl atırlar, onlar cinayətkardırlar. Bizim cəmiyyətimiz demokratik cəmiyyətdir. Şübhəsiz ki, bu cəmiyyətdə iqtidara müxalif qüvvələrin olması təbii haldır və biz bunu qeyri-təbii hesab etmirik. Azərbaycanda otuzdan çox siyasi partiya qeydə alınıbdır, onların bir çoxu indiki iqtidara müxalifətdədir, qəzetlər çıxarırlar, cürbəcür siyasi fəaliyyət göstərirlər. Qanun çərçivəsində bunların heç birisinə etiraz yoxdur. Ancaq özlərini müxalifət hesab edən adamlar terrora, təxribata əl atırlarsa, dövlət çevrilişinə cəhd göstərmək istəyirlərsə, artıq bunlar müxalifət deyil, cinayətkarlardır. Cinayətkarlara qarşı mübarizəmiz indiyə qədər olduğu kimi, bundan sonra da kəskin olacaqdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Yeddinci kitab, s. 487).

Heydər Əliyev narkomaniyanı, separatizmi, terrorizmi, hərbi münaqişələri dünyanın bir çox bölgələrində ölkələri, insanları, xalqları narahat edən problemlər kimi dəyərləndirərək 17 fevral 1997-ci il tarixində BMT-nin Yaxın və Orta Şərqdə narkotik vasitələrin qanunsuz dövriyyəsinə nəzarət və bununla bağlı problemlər üzrə yardımçı

komissiyasının 32-ci sessiyasında deyirdi: “Son illərdə dünyanın bir çox bölgələrində ölkələri, insanları, xalqları narahat edən problemlər separatizm problemidir, terrorizm problemidir, hərbi münaqişələr problemidir. Biz bütün dünyada, dünyanın hər bir bölgəsində separatizmin əleyhinə olmuşuq və onun əleyhinəyik. Biz beynəlxalq terrorizmi pisləmişik, pisləyirik və daim onun əleyhinə çıxırıq. Biz dövlətlərarası, ölkələrarası, millətlərarası münaqişələrin hamısının sülh yolu ilə həll olunmasının tərəfdarıyıq və belə münaqişələrin gələcəkdə baş verməməsi üçün də lazımi tədbirlər görülməsinin tərəfdarıyıq. Biz dünyada, hər bir bölgədə sülhün, əmin-amanlığın bərqərar olmasını istəyirik və bu sahədə öz səylərimizi göstəririk. Biz dünyada ümumbəşəri problemlərin vaxtında həll olunmasının tərəfdarıyıq, o cümlədən dünyada bütün insanlar üçün böyük təhlükə olan narkomaniya ilə və narkobizneslə mübarizədə bundan sonra da ön sıralarda gedəcəyik” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab, s. 414).

Heydər Əliyev 23 fevral 1997-ci il tarixində görkəmli alim və ictimai xadim Ziya Bünyadovla vidalaşma mərasimində terror yolu ilə görkəmli şəxsiyyətlərin həyatına son qoyulmasını pisləyir və cinayətkarların cəzalarını alacaqlarına əminliyini bildirirdi: “Ziya Bünyadov Azərbaycan xalqını ən gözəl təmsil edən şəxsiyyətlərdən biri və o şəxsiyyətlərin içində ən seçiləni idi. Belə bir adamı, bu qədər həyat yolu keçmiş adamı necə qətlə yetirmək olardı! Bu cinayət tək onu qətlə yetirən adamların cinayəti deyildir, onları bu işə sövq edən, bu cinayətə yönəldən, bu cinayət yoluna salan adamların əməlidir, o qüvvələrin işidir, o terroristlərin işidir.

Biz son illər belə terror hərəkətləri ilə rastlaşmışıq. 1990-cı ildə gözəl bir ziyalını, günahsız bir adamı – Əjdər Xanbabayevi qətlə yetirdilər. 1994-cü ildə Afiyəddin Cəlilovu, Şəmsi Rəhimovu qətlə yetirdilər. Neçə dəfə terror etmək cəhdi olmuşdu. Allaha şükürlər olsun ki, biz bu cəhdlərin qarşısını ala bildik. ...O cəhdləri göstərmiş olan adamlar indi istintaq altındadırlar, yaxud da məhkəmə onların barəsində hökm çıxarmış və onlar cəzalarını çəkirlər” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab, s. 458-459).

Görkəmli alim və ictimai xadim, akademik Ziya Bünyadovun terrorçuluqla qətlə yetirilməsini Heydər Əliyev Azərbaycanın dövlətçiliyinə qarşı, Azərbaycanın müstəqilliyinə qarşı olan terror kimi qiymətləndirir, bu cinayəti törədənlərin ifşa edilib cinayət məsuliyyətinə alınacağını 23 fevral 1997-ci il tarixində akademiklə vida mərasimində əminliklə bildirirdi: " ...Belə bir cinayət, belə bir terror, belə bir qətl xalqımıza qarşı qətldir. Bu, Azərbaycanın dövlətçiliyinə qarşı, Azərbaycanın müstəqilliyinə qarşı olan terrordur. Bu, Azərbaycanın iqtidarına qarşı olan terrordur. Ona görə də bu, bizim üçün ağırdır.

... Bu itki hamı üçün itkidir, bütün xalq üçün itkidir, dövlətimiz üçün itkidir. Bu, şəxsən mənim üçün böyük itkidir.

Görünür ki, Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq, Azərbaycanı müstəqil bir dövlət kimi yaşatmaq, Azərbaycanda həqiqi demokratik, hüquqi dövlət qurmaq, Azərbaycan xalqını bu ağır vəziyyətdən çıxarmaq, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, işğal olunmuş torpaqları azad etmək, yerindən-yurdundan didərgin düşmüş vətəndaşlarımızı öz el-obasına qaytarmaq yolu hələ çətin yoldur, ağır yoldur.

Amma biz bu yol ilə gedirik, gedəcəyik, biz mübarizə aparırıq, aparacağıq və heç kəs iradəmizi sındıra bilməyəcəkdir, heç kəs bizi sarsıda bilməyəcəkdir! Qoy, o terroru təşkil edən qüvvələr bilsinlər ki, bu cinayət açılacaq, cinayətkarlar mühakimə ediləcəklər. Lakin bu cinayətkarlar, bu cinayəti təşkil edənlər, terroru təşkil edən qüvvələr təkcə məhkəmə tərəfindən deyil, bütün xalq tərəfindən bu gün lənətlənirlər, sabah da lənətlənəcəklər. Qatı cinayətkar kimi onlar xalq qarşısında cavab verəcəklər. Mən buna əminəm. Biz buna nail olacağıq!" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab, s. 458-459).

Beynəlxalq səviyyədə terrorizmin vüsət alması öz təsirini Azərbaycanda da göstərirdi. Ona görə də Heydər Əliyev dövlət orqanlarından, xüsusən milli təhlükəsizlik orqanları əməkdaşlarından bu cinayətlərlə qəti və kəskin mübarizə aparılmasını tələb edir, terrorçuluğun nəticələrinin xalq üçün, dövlət üçün necə bəlalara səbəb olacağından onları xəbərdar edərək 5 iyul 1997-ci il tarixində Respublikanın Milli

Təhlükəsizlik Orqanları Əməkdaşlarının Peşə Bayramı Gününün təsis edilməsinə həsr olunmuş təntənəli yığıncaqdakı nitqində deyirdi: "Siz həqiqətən dövləti sarsıtmaq, dövlətin qanunlarını pozmaq işinə mane olmaq istəyən, yaxud cəhd göstərən qüvvələrin işi ilə məşğul olmalı, onların fəaliyyətini öyrənməli və bu barədə məlumatlar verməlisiniz. Terrorçuları meydana çıxarmalısınız. Terrorizm dünyada hər yerdə pislənən bir haldır. Azərbaycanda tarixdə terrorizm olmamışdır.

37-38-ci illərdə Azərbaycanda dövlət terrorizmi olmuşdu, amma Azərbaycanda sovet hakimiyyəti vaxtında ayrı-ayrı şəxslər tərəfindən bir dəfə də terrorizm olmamışdı. Terrorizm, bax, bu son illərdə – 90-cı ildə və sonrakı illərdə baş verdi. Bunlar aradan götürülməlidir. İnsanların həyatına sui-qəsd edən qruplar, dəstələr, nə bilim, reketlər, silahlı dəstələr – bunların qarşısı alınmalıdır. Çünki bunlar həm cəmiyyətə qarşı, həm dövlətə, həm də xalqa qarşı cinayət edirlər. Bunların qarşısı alınmalıdır.

Siyasi partiyalar sərbəstdir, hərə öz fəaliyyətini açıq-aydın aparır və milli təhlükəsizlik orqanları bunların fəaliyyətinə toxunmamalıdır. Ancaq kimsə silah işlətməyə çalışırsa, terror etmək istəyirsə, kimsə silahlı dəstə yaratmaq, silah yolu ilə yenə hakimiyyətə gəlmək istəyirsə, hansı partiyaya mənsubluğundan, kimliyindən asılı olmayaraq o adamlar aşkara çıxarılmalı, onların haqqında qanun çərçivəsində ölçü götürülməlidir.

Ona görə də mən bu gün bu fürsətdən istifadə edərək 1988-ci ildən etibarən silah gücü ilə, terrorizm yolu ilə hakimiyyət əldə etmək cəhdləri etmiş adamlara bir daha xəbərdarlıq edirəm: onların heç birisinə heç bir şey bağışlanmayacaqdır. Siyasi fəaliyyət heç vaxt silahla, güc ilə, zorakılıqla bir araya gələ bilməz. Siyasi fəaliyyət beynəlxalq hüquq normaları, konstitusiyamız çərçivəsində, Azərbaycanın hüquq normaları çərçivəsində aparılmalıdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Onuncu kitab, s. 356-357).

Ölkə, xalq, beynəlxalq birlik üçün təhlükə təşkil edən cinayətlər, o cümlədən terrorizmin dünya miqyasında geniş yayılması bu bəlaya qarşı mübarizənin də beynəlxalq səviyyədə təşkilini, ayrı-ayrı dövlətlərin bir-biri ilə ikitərəfli müqavilələr bağlamalarını və ya çoxtərəfli müqavilələrdə iştirakını şərtləndirməklə əməli və operativ fəaliyyətin

həyata keçirilməsini tələb edirdi. 1 aprel 1997-ci ildə Heydər Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Uilyam Klinton ilə Amerika-Azərbaycan münasibətləri haqqında Birgə Bəyanatı imzalayarkən terrorizmlə mübarizə məsələlərini də müzakirə edərək bəyanata daxil etdilər. Prezidentlər 1997-ci il may ayının 15-də Avropada adi silahlar barədə müqavilənin cinahlar haqqında sazişinin qüvvəyə minməsindən məmnun olduqlarını qeyd edərək, bununla əlaqədar Amerika – Azərbaycan birgə bəyanatının əhəmiyyətini təsdiq etdilər. Onlar həmçinin 23 iyul 1997-ci ildə Vyanada qəbul olunmuş Avropada adi silahlar haqqında müqavilənin əsas elementlərinə dair qərarı alqışlayaraq, razılığa gəldilər ki, adi silahlı qüvvələr haqqında müqavilənin adaptasiyası hər bir iştirakçı ölkənin təhlükəsizliyini möhkəmləndirməlidir (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On birinci kitab, s. 227-228).

11 sentyabr 2001-ci il Amerika Birləşmiş Ştatlarının Nyu-York və Vaşinqton şəhərlərində baş vermiş terror hadisələri ilə bağlı bəyanatında Heydər Əliyev yazırdı: "...Terrorçuluğun qorxunc və acı nəticələrini öz üzərində dəfələrlə hiss edən Azərbaycan xalqı bu gün dost Amerika xalqının iztirab və sarsıntılarını hamıdan yaxşı anlayır və onun sonsuz kədərinə şərik çıxır. Terrorçuluğun bütün təzahür formalarını qətiyyətlə pisləyən Azərbaycan həmişə terrorçuluğa qarşı mübarizə aparmış, bu istiqamətdə dünyanın bütün dövlətləri və qurumları ilə əməkdaşlığa hazır olduğunu nümayiş etdirmişdir. Biz bu gün daha artıq əzmkarlıq və qətiyyətlə belə əməkdaşlığa hazır olduğumuzu bildiririk.

Müasir dövrdə terrorçuluq bütün ölkələri hədəfə çevirə biləcəyi üçün qlobal problemdir. Terrorçuluq təhlükəsinin tamamilə aradan qaldırılması və gələcəkdə heç bir xalqın, heç bir dövlətin belə dəhşətli sınaqlara və sarsıntılara məruz qalmaması üçün beynəlxalq ictimaiyyət, bütün dünya xalqları və dövlətləri səylərini birləşdirməli, terrorçuluğa qarşı barışmaz mübarizə əzmini əməli işdə və sıx əməkdaşlıqda sübuta yetirməlidirlər. Azərbaycan bu istiqamətdə öz üzərinə götürdüyü öhdəlikləri bundan sonra da dönmədən yerinə yetirəcəyini və terrora qarşı mübarizə-

də Dünya Birliyinin səylərini birmənalı şəkildə dəstəkləyəcəyini bəyan edir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz altıncı kitab, s. 59).

Heydər Əliyev 15 sentyabr 2001-ci il tarixində Avropa Şurası Parlament Assambleyasının sədri Lord Rassel Conston ilə görüş zamanı 11 sentyabrda ABŞ-da törədilmiş terror hadisələrini xatırladaraq deyirdi: "Bu terroru hazırlayan və həyata keçirənlər, hesab edirəm, nəinki insanlıqdan kənardır, hətta ən vəhşi heyvanlardan, yaxud ən böyük vəhşilikdən də betərdirlər. Bu bizi çox sarsıtdı. Eyni zamanda bu, ola bilər, bütün dünyanı oyatdı ki, indi beynəlxalq terrorizm ayrı-ayrı ölkələr üçün yox, ayrı-ayrı şəxslər üçün yox, bütün bəşəriyyət üçün nə qədər təhlükəlidir və gələcəkdə nə cür böyük təhlükə ola bilər. Çünki indiyə qədər terrorizm, xüsusən son illərdə genişlənmiş beynəlxalq terrorizm dünya miqyasında müəyyən qədər lokal xarakter daşıyırdı. Ya bir ölkəni əhatə edirdi, ya bir bölgəni əhatə edirdi. Amma bu terror bütün dünyanı lərzəyə gətirdi. Demək olar ki, bu, təkcə Amerikaya qarşı yox, Amerika xalqına qarşı yox, bütün bəşəriyyətə, insanlara qarşı olan bir terrordur. Təbiidir ki, bu həm sülhə, həm mədəniyyətə, həm insaniyyətə, həm demokratiyaya – bütün bu anlayışların hamısına qarşı edilən terrordur.

…Son illər dünyada terrorçuluğun geniş miqyas almasını indiyə qədər bütün ölkələrdə dərk etmirdilər. Bəziləri hesab edirdilər ki, terrorçuluq onlardan uzaq bir ölkədədir. Onların ölkəsində əmin-amanlıqdır. Demək, bu o qədər də təhlükəli deyildir. Ya kütləvi, yaxud da ayrı-ayrı terror hadisələri ilə rastlaşan hər bir ölkə, xalq bu terrorun nə qədər dəhşətli olduğunu bilir. Biz bunu bilirik və ona görə də Amerika Birləşmiş Ştatlarında baş vermiş hadisəni, bəlkə də bir çox başqa ölkələrə, xalqlara nisbətən daha dərindən anlaya bilirik. Bu hadisə bizi hiddətləndirdi.

Mən dərhal Təhlükəsizlik Şurasının iclasını çağırdım, Azərbaycanın terrorizm əleyhinə və beynəlxalq terrorizmlə mübarizədə bütün vasitələrdən istifadə edərək, iştirak etməyə hazır olduğunu bəyan etdim. İndi bu, dünyanı bürümüş bir haldır. Ona görə də terrorçuların axtarılması, onların zərərsizləşdirilməsi və Amerikaya qarşı edilmiş bu böyük terror hadisə-

sinə adekvat cavab verilməsi, əlbəttə ki, böyük tədbirlər tələb edir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz altıncı kitab, s. 88-89).

Terrorçuluq aktları harada və hansı ölkədə törədilməsindən asılı olmayaraq beynəlxalq cinayət kimi bütün ölkələr üçün təhlükə mənbəyi, bəşəriyyət üçün bağışlanılmayan cinayətdir. Ona görə də Heydər Əliyev ABŞ-da törədilən terror hadisələrini biganəliklə deyil, sülhə, əmin-amanlığa təhlükə yaradan cinayət kimi dəyərləndirir və 27 sentyabr 2001-ci il tarixində Küveyt-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Camal Hüseyn Fahat əl-Ömərin başçılıq etdiyi nümayəndə heyəti ilə söhbət zamanı deyirdi: "... Biz hansı formada, hansı şəkildə olursa-olsun, dünyanın hansı ölkəsində olursa-olsun, həmişə terror aktlarını pisləmişik və bu gün də pisləyirik. Ona görə də Amerika Birləşmiş Ştatlarında törədilmiş terror aktlarını bütün bəşəriyyətə, sülhə, bütün dünyaya yönəldilmiş terror aktı kimi qiymətləndiririk, o cümlədən bizim özümüzə qarşı ölkəmizə qarşı edilən terror aktı kimi qiymətləndiririk.

…Son illər onu göstərir ki, terror bütün ölkələr üçün təhlükəlidir. ...Ona görə terrorçuluğa qarşı mübarizə, terrorun qarşısının alınması və terrorçuların yaxalanıb cəzalandırılması bizim hamımızın birgə borcudur" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz altıncı kitab, s. 154-155).

3 oktyabr 2001-ci il tarixində Almaniyanın Azərbaycandakı səfirliyinin Almaniya Federativ Respublikasının milli bayramı - Alman Birliyi Günü münasibətilə təşkil etdiyi rəsmi qəbulda Heydər Əliyev terrorizmə qarşı mübarizədə birliyin zəruriliyini vurğulayaraq deyirdi: "… İndi bütün bəşəriyyəti narahat edən, o cümlədən bizi də narahat edən ən böyük problem, ən böyük təhlükə beynəlxalq terrorizm və onun nəticəsində ayrı-ayrı xalqlara, ayrı-ayrı ölkələrə vurulan zərbələr, gətirilən ziyanlardır.

Biz son illər beynəlxalq terrorizmə qarşı hər cür mübarizə aparılmasının tərəfdarı olmuşuq, bu gün də onun tərəfdarıyıq. Sentyabrın 11-də Amerika Birləşmiş Ştatlarının Nyu-York və Vaşinqton şəhərlərində terrorçular tərəfindən törədilmiş misli görünməmiş terror aktı təkcə Amerikaya qarşı yox, bütün bəşəriyyətə qarşı, sülhə qarşı, demokratiyaya qarşı olan bir hərəkətdir. ....Ona görə də biz Ame-

rika Birləşmiş Ştatlarını bu terror aktının qarşısının alınması üçün, terrorçuların tapılması və cəzalandırılması üçün dəstəkləmişik və dəstəkləyəcəyik. Bu mübarizədə biz Amerika Birləşmiş Ştatları ilə, yaranmış alyansla bir yerdəyik. Bu hadisə bütün dünyaya bir daha nümayiş etdirdi ki, müasir dövrün ən təhlükəli hadisəsi, ən böyük təhlükəsi terrorizmdir, beynəlxalq terrorizmdir və heç bir ölkə, heç bir xalq düşünməsin ki, o, bu cür cinayətlərdən kənarda qala bilər.

Ona görə terrorizmin, beynəlxalq terrorizmin kökünün kəsilməsi üçün bütün ölkələr mübarizə aparmalıdır və kökü tam kəsilməyənə qədər terrorizmə qarşı bu mübarizə davam etməlidir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz altıncı kitab, s. 238).

29 aprel 2002-ci il tarixində Trabzon Zirvə Görüşünün açılış mərasimində Ulu Öndər terrorizmlə mübarizənin hədəfinin düzgün müəyyən edilməsinin zəruriliyini qeyd etməklə yanaşı, bu istiqamətdə Azərbaycanın fəal iştirakını məmnunluqla xatırlatdı: "Beynəlxalq terrorizmlə mübarizənin hədəfi yalnız ayrı-ayrı terror təşkilatları və qrupları deyil, bütünlükdə bu dəhşətli bəlanı doğuran səbəblər və mənbələr olmalıdır. Məmnunluq hissi ilə qeyd etməliyəm ki, Azərbaycan Respublikası beynəlxalq terrorizm, mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni ticarəti, çirkli pulların yuyulması, silah qaçaqmalçılığı və insan alveri ilə mübarizə sahəsində qəbul edilmiş bütün əsas beynəlxalq sənədlərin iştirakçısıdır. Eyni zamanda, bu cinayətkar əməllərlə mübarizəni həyata keçirən beynəlxalq universal və regional təşkilatlar da Azərbaycan Respublikası ilə fəal əməkdaşlıq edirlər. Nəticə etibarilə, bizim birgə səylərimiz BMT, ATƏT, Avropa İttifaqı, Avropa Şurası və NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramı kimi beynəlxalq təsisatlar çərçivəsində daha səmərəli nəticələrin əldə olunmasını təmin edir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz səkkizinci kitab, s. 191-192).

10 oktyabr 2002-ci il tarixində "Demokratik cəmiyyətdə dinin və əqidənin rolu: terrorizmə və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması" mövzusunda beynəlxalq konfransdakı nitqində Heydər

Əliyev din və terrorizm, terrorizmin tarixi, terrorizmlə mübarizənin zəruriliyi və Azərbaycanda terrorizmlə mübarizənin hüquqi əsaslarının möhkəmləndirilməsi kimi məsələlərə diqqəti çəkərək deyirdi: “11 sentyabr hadisələri dünyanın siyasi mühitində və geostrateji proseslərdə əsaslı dəyişikliklər edərək hər bir ölkə üçün böyük təhlükə olan terrorizmin dəhşətli simasını bizə bir daha nümayiş etdirdi. Tarixdə terrorizmin güclənməsi ilə bağlı bir çox dövrlər olub, hətta bəzi hallarda terrorizm dövlət səviyyəsinə qaldırılaraq bütöv xalqların varlığına düşmən kəsilib. 11 sentyabr hadisələri isə bəşər tarixinə misli görünməmiş bir faciə kimi əbədi daxil olacaq. Bu dəhşətli terror aktının qurbanlarının xatirəsini bu gün bir daha yad etməyi özümə borc bilirəm.

Qloballaşan dünyada hamımız bir-birimizə daha yaxın olmuşuq. Xalqlararası, mədəniyyətlərarası, dinlərarası dialoqun bu gün dərin məna kəsb etməsi də məhz bununla bağlıdır. Bu dialoqu inkişaf etdirərək, bu dialoqa dəstək verərək biz müəyyən mənada terrorizmin formalaşmasına xidmət edən bütün qaynaqları araşdırıb onu kökündən məhv etməyə can atmalıyıq.

Bu gün terrorizm bir çox hallarda din pərdəsi altında, dini libasda özünü büruzə verir. Bu bizi onun əsl mahiyyətindən yayındırmamalıdır. Vaxtilə terrorizm Böyük fransız inqilabının bəşəriyyətə bəxş etdiyi gözəl şüarlar altında öz həqiqi niyyətlərini ört-basdır etmək istəyirdi. «Qırmızı terror»u gerçəkləşdirən komissarlar kommunist ideologiyası bayrağı altında bunu həyata keçirirdilər.

Bu gün isə terrorçu qüvvələr qərəzli siyasi məqsədlərə nail olmaq naminə bəzi hallarda hamımız üçün müqəddəs olan ümumbəşəri dəyərlərə müraciət edərək bu və ya digər qrupun mənafeyini müdafiə etmək üçün terrora haqq qazandırmağa çalışırlar.

...Terrorizmə «yox» deyən bəşəriyyət bütün səylərini səfərbər edərək onun mənəvi, iqtisadi, siyasi köklərini məhv etməyə can atmalıdır. ...Bizim son illər ərzində beynəlxalq konvensiyalara qoşulmağımız və mühüm hüquqi sənədlər qəbul etməyimiz göstərir ki, ölkəmizdə terrorizmlə mübarizə üçün artıq müvafiq

qanunvericilik bazası tam formalaşdırılıb. Azərbaycanın Cinayət Məcəlləsində bir sıra dəyişikliklər edilib, o cümlədən terrorizmi maliyyələşdirdiyinə görə məsuliyyət haqqında xüsusi maddə əlavə edilib. 2002-ci ilin may ayında mən xüsusi bir sərəncamla terrorizmə qarşı mübarizəyə yönəlmiş və BMT-ninTəhükəsizlik Şurasının müvafiq qərarlarına uyğun olan tədbirlər planını təsdiq etmişəm.

Əlbəttə, Azərbaycan hökumətinin terrorizmlə və ekstremizmlə bağlı əməli fəaliyyəti yuxarıda qeyd etdiyim konkret faktlarla məhdudlaşmır. Ölkədə sərhəd rejiminin gücləndirilməsi, qeyri-qanuni miqrasiya kanallarının aşkar edilib qarşısının alınması, terror fəaliyyətinin maliyyələşdirilməsinə yönəldilməsi ehtimal olunan maliyyə vəsaitinin, müxtəlif iqtisadi mənbələrin aşkar edilməsi və digər istiqamətlərdə bir çox işlər görülmüşdür.

Azərbaycan xalqının və ümumən bizim bölgəmizin həyatında böyük əhəmiyyət kəsb edən bir sıra layihələrin, o cümlədən Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum neft və qaz kəmərlərinin təhlükəsizliyinin təminatı terrorizmə qarşı apardığımız mübarizəmizin ayrılmaz bir tərkib hissəsidir.

Beynəlxalq terrorizmlə mübarizəyə yönəlmiş bir sıra layihələrdə Azərbaycan fəal iştirak edir və mən ATƏT-in üzvü olan ölkələrin nümayəndələrini bu konfrans vasitəsilə bir daha əmin etmək istərdim ki, terrorizmin bütün formalarına qarşı mübarizədə Azərbaycan dövləti sizin etibarlı müttəfiqinizdir. Biz hesab edirik ki, terrorizm bəşəriyyətə qarşı yönəldilmiş qəddar əməllərin və niyyətlərin gerçəkləşməsinə xidmət etdiyi üçün onunla aparılan mübarizə də ardıcıl, mütəşəkkil və amansız olmalıdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Qırx birinci kitab, s. 413-415).

## 2.4.2. Azərbaycan ərazisində törədilən bəzi terror aktları

21 oktyabr 2001-ci il tarixində Türkiyənin xarici işlər naziri İsmayıl Cəmin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə Heydər Əliyev son dövrlərdə Azərbaycanda törədilmiş terror aktlarına diqqəti çəkərək deyirdi: “Təəssüflər olsun ki, son illərdə, yəni son 40–50 ili götürsək, terror ayrı-ayrı ölkələrə artıq çox böyük ziyan verir və bu ölkələrdə sabitliyi pozur. Ümumiyyətlə, dövlətçiliyə çox böyük təhlükələr yaradır.

…Azərbaycanda bir çox terror hadisələri baş veribdir. Azərbaycanda metropoliteni iki dəfə partlatmışdırlar. Sonradan biz onu araşdırdıq, bunu edənlər Ermənistanda hazırlanıb göndərilmiş qüvvələr idi. Burada dəmir yol vaqonlarını partlatdılar, insanları qətlə yetirdilər. Avtobusları partlatdılar, başqa bir çox belə şeylər etdilər. Avropa Şurasının son toplantısında Azərbaycanın nümayəndə heyəti 32 fakt gətiribdir ki, son zamanlar Ermənistan terrorçuları Azərbaycana qarşı nə qədər terror aktları ediblər. Ona görə də biz terrorun nə olduğunu bilirik” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz altıncı kitab, s. 366-367).

Ermənistanın xüsusi xidmət orqanları tərəfindən Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf 7 rayonunun işğalı zamanı dinc əhalini hədəf alan bir sıra terror aktları təşkil edilmişdir. Bu aktlar nəticəsində yüzlərlə günahsız insan həlak olmuş və çoxlu sayda insan yaralanmışdır. Terror aktları mülki əhalinin yaşadığı ərazilərdə həyata keçirilmiş və bu aktların məqsədi kütləvi vahimə yaratmaq və çoxlu sayda insanın ölümünə nail olmaq idi.

1989-cu ilin sentyabrından başlayaraq, müxtəlif vaxtlarda və məkanlarda Azərbaycanın dinc sakinlərini hədəf alan bir neçə terror aktı həyata keçirilmişdir. Bu aktlar arasında Tbilisi-Bakı sərnişin avtobusunun partladılması, Xankəndi yaxınlığında körpünün partladılması və Yevlax-Laçın yolunda sərnişin avtobusuna hücum kimi hadisələr olmuşdur. Həmçinin, 1990-cı ildə Ağdərə rayonunda və 1991-ci ildə Ağdam yaxınlığında həyata keçirilmiş hücumlar nəticəsində çoxlu sayda insan həyatını itirmişdir.

1991-ci il ərzində Ermənistanın təşkil etdiyi terror aktları xüsusilə diqqət çəkir. Bu dövrdə Xocalı aeroportunun rəisinin qətlə yetirilməsi, Moskva-Bakı qatarının partladılması və Qaradağlı kəndində dinc sakinlərin öldürülməsi kimi hadisələr baş vermişdir. Bu aktların bir çoxu Ermənistanın xüsusi xidmət orqanlarının birbaşa təşkilatçılığı ilə həyata keçirilmişdir və nəticədə yüzlərlə günahsız insan həlak olmuşdur.

Bu aktlar Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən araşdırılmış, bir çox terrorçular həbs edilmiş və məhkəmə qarşısına çıxarılaraq müxtəlif cəzalara məhkum olunmuşdur. Bu hadisələr Azərbaycanın Dağlıq Qarabağ münaqişəsi zamanı qarşılaşdığı ciddi təhlükələrdən bir neçəsini təşkil edir.[17]

25 sentyabr 2001-ci il tarixində Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin başçısı İlham Əliyev çıxışında qeyd etmişdir: “Hazırda qondarma “Dağlıq Qarabağ Respublikası”nın ərazisi və eləcə də Azərbaycanın işğal olunmuş digər rayonları tam nəzarətsiz ərazilərdir. Qanunsuzluq hökm sürən bu ərazilərdə erməni rəsmiləri təkcə Ermənistandan deyil, digər ölkələrdən gələn terrorçuların hazırlanması üçün düşərgələr yaradırlar. Dağlıq Qarabağın ərazisi narkotik maddələrin daşınması üçün istifadə olunur və narkotiklərin istehsalından, daşınmasından əldə edilən külli miqdarda pul terrorçu məqsədlər üçün xərclənir…

Dünyada terrorçuluğun bütün formalarına qarşı genişmiqyaslı antiterror kampaniyasına başlamağın və terrorçuluq ilə savaşda çox ciddi addımlar atmağın vaxtı gəlib çatmışdır”.

---

[17] Beynəlxalq terrorizm və onun Azərbaycana mənfi təsiri. Metodik vəsait. Bakı, 2009, s. 11-16

### 2.4.3. Terrorçuluqla mübarizənin milli hüquqi əsasları

18 iyun 1999-cu il tarixində Azərbaycan Respublikasında terrorçuluğa qarşı mübarizənin hüquqi və təşkilati əsaslarını müəyyən etmək, terrorçuluq əleyhinə mübarizəni həyata keçirən dövlət orqanlarının fəaliyyətini əlaqələndirmək, habelə həmin orqanların və vətəndaşların hüquqlarını və vəzifələrini təsbit etmək məqsədilə "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi (Həmin vaxt Qanun "Terrorizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanunu adlanırdı).

Həmin qanuna müvafiq olaraq terrorçuluq - ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər yetirilməsi, əhəmiyyətli əmlak ziyanı vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər (terror aktı) törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmə; terrorçu - hər hansı formada, birbaşa və ya dolayısı ilə qəsdən terror fəaliyyətinin həyata keçirilməsində təşkilatçı, təhrikçi, köməkçi və ya icraçı qismində iştirak edən və ya bu cür aktları hazırlayan və ya onların törədilməsinə cəhd edən, habelə əvvəlcədən əlbir olan bir qrup şəxsin, mütəşəkkil dəstənin və ya cinayətkar birliyin terror fəaliyyətini həyata keçirməsinə bilə-bilə yardım göstərən fiziki şəxs kimi müəyyən edilmişdir.

Terrorçuluğun qarşısının alınması, törədilmiş terror cinayətlərinin aşkar edilməsi, onu törədənlərin cəzalandırılması dövlətin terrorçuluğa qarşı mübarizəsini şərtləndirir. Terrorçuluğa qarşı mübarizə terror fəaliyyətinin aşkar edilməsi, qarşısının alınması, habelə terror nəticəsində dəyə biləcək zərərin minimuma endirilməsi ilə bağlı fəaliyyət kimi nəzərdən keçirilir.

Terror fəaliyyəti isə terror aktlarını təşkil etmə, planlaşdırma, hazırlama və həyata keçirmə, fiziki və hüquqi şəxslər üzərində zorakılıq etmə, terror məqsədilə maddi obyektləri məhv etmə və ya zədələmə, ter-

ror aktlarının həyata keçirilməsi məqsədilə qanunsuz silahlı birləşmələr, cinayətkar qruplar yaratma, habelə belə aktlarda iştirak etmə, şəxsləri terrorçuluğa cəlb etmə, silahlandırma, onlara təlim keçmə və onlardan istifadə etmə, biləkdən terror təşkilatlarını və ya terror qruplarını maliyyələşdirmə və ya onlara digər yardımlar etmə ilə bağlı olan fəaliyyətdir.

Terrorçuluq bir ölkə daxilində deyil, beynəlxalq səviyyədə də geniş yayıldığına və terrorçuluq fəaliyyəti bir çox dövlətlərin ərazisini əhatə etdiyinə görə terrorçuluq barədə həm də beynəlxalq terrorçuluq formasında söhbət açılır. Beynəlxalq terror fəaliyyəti terrorçular və ya terror təşkilatları tərəfindən bir neçə dövlətin ərazisində həyata keçirilən və ya bir neçə dövlətin maraqlarına zərər vura bilən, şəxs tərəfindən onun mənsub olduğu dövlətin və ya başqa bir dövlətin ərazisində hər hansı bir dövlətin vətəndaşına qarşı edilən, terrorçu və terrorçuluğa məruz qalan şəxslər eyni və ya müxtəlif dövlətlərin vətəndaşları olduqları halda, həmin dövlətlərin ərazisindən kənarda törədilən cinayətlə bağlı olan fəaliyyətdir.

Terrorçuluğun  təşkili və həyata keçirilməsi maliyyə vəsaitlərinin cəlb edilməsi və terrorçuluq məqsədilə istifadə olunmasını şərtləndirir. Kifayət qədər maliyyə vəsaiti olmadan terrorçuluğun təşkili və geniş yayılması, həmçinin onun mənfi nəticələrinin ağır olması mümkün deyildir. Terrorçuluğun maliyyələşdirilməsi dedikdə, əldə olunma mənbəyindən asılı olmayaraq, pul vəsaitlərinin və ya digər əmlakın tamamilə və yaxud qismən, bilavasitə və ya dolayısı ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 102, 214, 214-2, 214-3, 215, 219, 219-1, 219-2, 226, 227, 227-1, 270-1, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin şəxs və ya qrup (dəstə, təşkilat) tərəfindən hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin, yaxud terrorçunun və ya terrorçu qrupun (dəstənin, təşkilatın) maliyyələşdirilməsi üçün istifadə olunacağını bilərək pul vəsaitlərinin və ya digər əmlakın qəsdən toplanılması və ya verilməsi başa düşülür.

Azərbaycan Respublikasında terrorçuluğa qarşı mübarizə insan hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin təhlükəsizliyinin təmin edilməsi, terrorçuluğun aşkar edilməsi, qarşısının alınması və

terrorçuluq nəticəsində gözlənilən zərərin minimuma endirilməsi, terrorçuluğun yaranması və həyata keçirilməsi səbəbinin və şəraitinin habelə terrorçuluğun maliyyələşdirilməsi və digər yardımlar edilməsi hallarının aşkar və ləğv edilməsi məqsədləri ilə həyata keçirilir.

Azərbaycan Respublikasında terrorçuluğa qarşı mübarizə aşağıdakı prinsiplərə əsaslanır:

1) qanunçuluğun təmin edilməsi;

2) terror fəaliyyətinin həyata keçirilməsinə görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş cəzanın labüdlüyü;

3) terrorçuluğa qarşı mübarizə zamanı açıq və gizli metodların əlaqələndirilməsi;

4) hüquqi, siyasi, sosial-iqtisadi və təşkilati-profilaktik tədbirlərin kompleks istifadəsi;

5) terror fəaliyyəti nəticəsində təhlükəyə məruz qalmış şəxslərin hüquqlarının müdafiəsinin üstünlüyü;

6) terrorçuluq əleyhinə aparılan əməliyyatlara cəlb olunmuş qüvvələrin idarə edilməsində təkbaşçılıq;

7) terrorçuluq əleyhinə aparılan əməliyyatların həyata keçirilməsində iştirak edən şəxsi heyətin, o cümlədən bu məqsədlə istifadə edilən texniki üsulların və taktikanın elan edilməsində minimal aşkarlıq.

Terror fəaliyyətində iştirak edən şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

İnsan hüquqları və azadlıqları, dövlət təhlükəsizliyinin və beynəlxalq təhlükəsizliyin təmin olunması maraqlarını rəhbər tutaraq, terror əməlləri törədən və ya bu cür əməllərin törədilməsində iştirakçı olan şəxslər bu əməllərin planlaşdırılması və ya həyata keçirilməsi yerindən asılı olmayaraq Azərbaycan Respublikasının qanunvericiliyinə, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrə əsasən cinayət məsuliyyətinə cəlb edilir və cəzalandırılır və ya cinayət məsuliyyətinə cəlb edilməsi, yaxud təyin edilmiş cəzanın icrası üçün xarici dövlətə geri verilə bilərlər.

Azərbaycan Respublikası tərəfdar çıxdığı dövlətlərarası müqavilələrə əsasən, terrorçuluğa qarşı mübarizə sahəsində xarici dövlətlərlə, onların hüquq-mühafizə orqanları ilə, habelə terrorçuluğa qarşı mübarizə aparan beynəlxalq təşkilatlarla əməkdaşlıq edir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində terrorçuluq fəaliyyəti ilə əlaqədar bir sıra əməllər cinayət kimi nəzərdə tutulmuşdur.[18]

### 2.4.4. Terrorçuluqla mübarizənin beynəlxalq-hüquqi əsasları

Terrorçuluqla beynəlxalq mübarizənin təşkili ilk növbədə dövlətlər arasında bu sahədə münasibətləri tənzimləyən ikitərəfli və çoxtərəfli müqavilələrin bağlanmasını tələb edir. Eyni zamanda, dövlətlər müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində qəbul olunmuş beynəlxalq müqavilələrə qoşulmaqla da terrorçuluqla beynəlxalq mübarizə üçün hüquqi əsas yarada bilirlər. Beynəlxalq təşkilatlar çərçivəsində qəbul olunmuş bəyannamələr müqavilə olmadığı, yəni dövlətlərin onlara qoşulmasını və üzərlərinə öhdəliklərin götürülməsini tələb etmədiyinə görə həmin sənədlərdə nəzərdə tutulanların icrası da məcburi xarakter daşımır. Lakin bu cür "yumşaq hüquq" mənbələrində onları qəbul edən təşkilatların öz üzvlərinə tövsiyələri ifadəsini tapmış olur. Həmin kontekstdə BMT Baş Məclisi 1994-cü il dekabrın 9-da qəbul edilmiş "Beynəlxalq terrorizmin qarşısının alınması tədbirləri haqqında Bəyannamə"ni 49/60 saylı qətnaməsi ilə təsdiq etmişdir. Bəyannamə beynəlxalq terrorizmin bütün forma və təzahürlərinin, həmçinin dövlətlərin və günahsız insanların həyatlarına təhlükə yaradan və ya onların ölümü ilə nəticələnən, beynəlxalq münasibətləri və dövlətlərin təhlükəsizliyini təhlükə altına alan bütün formalarının dünyada geniş yayılmasından, dünya-

[18] Bax: Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, 214-216, 277, 316-cı maddələr

nın əksər regionlarında əsasən ekstremizm və zorakılıq motivlərinə əsaslanan terror aktlarının sayının artmasından yaranan narahatlıqla bağlı narkotik maddələr dövriyyəsini, qeyri-qanuni silah ticarətini, çirkli pulların yuyulmasını, nüvə-potensial məhvedici materialların qaçaqmalçılığını özündə birləşdirən və terrorizmlə əlaqədar olan cinayətlərə qarşı dövlətlər arasında daha sıx əlaqələndirmənin və əməkdaşlığın yaradılması məqsədilə qəbul edilmişdir.

Bəyannamədə terrorizmlə mübarizə, onun bütün forma və təzahürlərinin ləğv edilməsi haqqında dövlətlərarası və regional müqavilələrin bağlanması və qəbul edilməsi təşviq olunur, terrorizmin qarşısının alınması və ləğv edilməsinin hərtərəfli hüquqi çərçivələrinin təmin edilməsi məqsədilə terrorizmin bütün forma və təzahürləri ilə mübarizə sahəsində mövcud beynəlxalq hüquqi sənədlərin ümumiləşdirilərək vahid sistemə salınmasının zəruriliyi qeyd olunur. Bəyannamədə həmçinin tövsiyə olunur ki, Birləşmiş Millətlər Təşkilatına üzv olan dövlətlər harada və kim tərəfindən törədilməsindən asılı olmayaraq bütün cinayətkar aktları, həmçinin terrorizmin metodlarını və təcrübəsini, o cümlədən dövlətlər və xalqlar arasındakı dostluq münasibətlərini, dövlətlərin ərazi bütövlüyünü və təhlükəsizliyini təhlükə altına alan hər hansı aktları qeyd-şərtsiz pisləməlidir.

Hesab olunur ki, terror aktları, metodları və təcrübəsi Birləşmiş Millətlər Təşkilatının məqsəd və məramlarının kobud surətdə pozulması ilə yanaşı, beynəlxalq sülhə və təhlükəsizliyə, dövlətlər arasındakı dostluq əlaqələrinə təhlükə yaradan, beynəlxalq əməkdaşlığa maneələr törədən, insan hüquqlarını, əsas azadlıqları və cəmiyyətin demokratik əsaslarını sarsıdan başlıca amildir. Siyasi məqsədlərlə geniş ictimaiyyətdə, bir qrup şəxslər və ya ayrı-ayrı konkret şəxslər arasında terror şəraitinin yaradılmasına yönəldilmiş cinayət aktlarına heç bir şəraitdə siyasi, fəlsəfi, ideoloji, irqi, etnik, dini və digər xarakterli düşüncələrdən asılı olmayaraq bəraət qazandırıla bilməz.

Dövlətlərə tövsiyə olunur ki, onlar Birləşmiş Millətlər Təşkilatının məqsəd və məramlarını, həmçinin beynəlxalq hüququn müvafiq

normalarını rəhbər tutaraq digər dövlətlərin ərazilərində terror aktlarının təşkil edilməsindən, onlara təhrikçilikdən, köməklikdən və ya təşkil edilməsində iştirakdan çəkinməlidirlər, eyni zamanda öz ərazisində bu cür aktların törədilməsinə yönəldilmiş fəaliyyətə imkan yaratmaqdan və tətbiq etməkdən imtina etməli, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi ilə müəyyən edilmiş vəzifələrini yerinə yetirməli və beynəlxalq hüququn digər müddəalarına uyğun olaraq onlara terrorizmlə mübarizədə beynəlxalq hüququn müvafiq müddəalarından və insan hüquqları üzrə beynəlxalq standartlardan, beynəlxalq terrorizmin tezliklə və həmişəlik ləğv edilməsi naminə effektiv və qətiyyətli tədbirlərdən istifadə etməlidirlər. Qeyd olunanlar tələb edir ki, dövlətlər:

a) terror fəaliyyətinin təşkil və təhrik edilməsindən, onun həyata keçirilməsinə, maliyyələşdirilməsinə köməklik göstərilməsindən, onun həvəsləndirilməsindən çəkinməli, həmçinin onların müvafiq ərazilərinin terror bazaları kimi və digər dövlətlərə və bu dövlətlərin vətəndaşlarına qarşı yönəldilmiş terror aktlarının hazırlanması və təşkil edilməsi üzrə təlim düşərgələrinin yaradılması məqsədilə istifadə edilməsinin qarşısını almaq üçün müvafiq praktik tədbirlər görməli;

b) terror aktı törətmiş şəxslərin özlərinin milli qanunvericiliyinin müvafiq müddəalarına uyğun olaraq həbs edilməsini və məhkəməyə cəlb edilməsini təmin etməli;

c) ikitərəfli, regional və çoxtərəfli əsaslarla xüsusi müqavilələrin bağlanmasına nail olmaq və bu məqsədlə əməkdaşlıq haqqında müqavilələri işləyib hazırlamalı;

d) terrorizmin qarşısının alınması və terrorizmlə mübarizə sahəsində informasiya mübadiləsi üzrə əməkdaşlıq etməli;

e) bu məsələ ilə əlaqədar iştirakçısı olduqları beynəlxalq konvensiyaların həyata keçirilməsi naminə, o cümlədən daxili qanunvericiliyin bu konvensiyalarla uyğunlaşdırılması üçün lazımi tədbirləri operativ görməli;

f) hər hansı bir şəxsə sığınacaq verməzdən əvvəl həmin şəxsin terror fəaliyyəti ilə məşğul olub-olmamalı və sığınacaq verdik-

dən sonra bu şəxsin statusundan yuxarıdakı «a» bəndində göstərilmiş müddəalara zidd şəkildə istifadə edilməməsini təmin etmək məqsədilə müvafiq tədbirlər görməlidirlər.

Terror aktlarının sayının və beynəlxalq xarakterinin, həmçinin nəticələrinin artması ilə effektiv mübarizə aparmaq üçün dövlətlər bu sahədə əməkdaşlığı, ilk öncə terrorizmin aşkar edilməsi və terrorizmlə mübarizəyə aid informasiya mübadiləsinin sistemləşdirilməsi, həmçinin müvafiq beynəlxalq konvensiyaların effektiv həyata keçirilməsi, qarşılıqlı hüquqi yardım və təhvil vermə haqqında ikitərəfli, regional və çoxtərəfli müqavilələrin imzalanması yolu ilə gücləndirməlidirlər.

Beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi, beynəlxalq hüququn mütərəqqi inkişaf etdirilməsi məqsədilə dövlətlər arasında əlaqələndirmə prosesinin gücləndirilməsi və effektivliyinin artırılması yolu ilə səylərin terrorizmin ləğv edilməsinə yönəldilməsi vacib hesab olunur.

Baş Məclisin 1996-cı il 17 dekabr tarixli, 51/210 nömrəli qətnaməsində Baş Məclis  bütün dövlətləri müvafiq daxili tədbirləri görmək vasitəsilə terrorçuların və terror təşkilatlarının maliyyələşdirilməsinə mane olmaq və bunun qarşısını almaq üçün tədbirlər görməyə və xüsusən də münasib olduqda, terror məqsədləri üçün nəzərdə tutulduğu şübhə doğuran vəsaitlərin hərəkətlərinə mane olmaq və onun qarşısını almaqdan ötrü tənzimləmə tədbirlərinin görülməsi məsələsini, bu zaman qanuni kapitalın hərəkət azadlığını qətiyyən pozmadan və belə vəsaitlərin beynəlxalq hərəkəti barədə informasiya mübadiləsini fəallaşdırmağa çağırır.

1999-cu il dekabrın 9-da Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən "Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında" Beynəlxalq Konvensiya qəbul edilmişdir. Azərbaycan Respublikası 1 oktyabr 2001-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə həmin Konvensiyaya qoşulmuşdur.

"Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında" Beynəlxalq Konvensiyada terrorizmin maliyyələşdirilməsinə yol verilməməsi, eləcə də onu törədən şəxslərin təqib edilməsi və cəzalandırılması yolu ilə terrorizmlə mübarizə sahəsində səmərəli tədbirlərin işlənib

hazırlanması və həyata keçirilməsi işində dövlətlər arasında beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinin qəti zəruriliyinə əminlik ifadə edilərək terrorizmin maliyyələşdirilməsi ilə mübarizə sahəsində bir sıra məsələlərdə razılıq və əməkdaşlıq məsələləri öz əksini tapmışdır. Belə ki, Konvensiyanın 2-ci maddəsində qeyd olunur ki, istənilən şəxs, əgər o:

a) əlavədə sadalanan müqavilələrdən birinin tətbiq sahəsinə və əlavədəki tərifə uyğun olaraq cinayət sayılan hər hansı bir əməlin;

b) silahlı münaqişə vəziyyətində hərbi əməliyyatlarda fəal iştirak etməyən hər hansı bir mülki şəxsin və ya istənilən digər şəxsin ölümünə və ya ona ağır bədən xəsarəti yetirilməsinə yönəldilmiş istənilən digər əməlin, - bu cür əməlin məqsədi onun səciyyəsi və ya konteksti ilə bağlı olaraq, əhalini qorxutmaqdan və ya hökuməti, yaxud beynəlxalq təşkilatı hər hansı hərəkəti etməyə, yaxud onu etməkdən çəkinməyə məcbur etməkdən ibarət olduqda, - törədilməsi üçün tam və ya qismən istifadə edilməsi niyyəti ilə, yaxud da istifadə ediləcəyini başa düşdüyü halda istənilən metodlarla, bilavasitə və ya bilvasitə, qeyri-qanuni olaraq və qəsdən vəsait verir və ya bu vəsaitin yığılmasını həyata keçirirsə, bu Konvensiyanın müddəalarına əsasən cinayət törətmiş olur.

İstənilən şəxs, əgər o, bu maddənin 1-ci bəndində göstərilən cinayətlərdən hər hansı birini törətməyə cəhd göstərirsə, həmçinin cinayət etmiş olur.

Hər bir iştirakçı dövlət:

a) 2-ci maddədə göstərilən cinayətlərin özünün daxili hüququna müvafiq olaraq cinayət sayılması üçün;

b) bu cinayətlərə görə onların ağırlıq dərəcəsi nəzərə alınmaqla uyğun cəzaların müəyyən edilməsi üçün zəruri ola bilən tədbirləri görür.

Hər bir iştirakçı dövlət bu Konvensiyanın qüvvəsinin şamil edildiyi cinayət əməllərinə siyasi, fəlsəfi, ideoloji, irqi, etnik, dini və digər analoji səciyyəli hər hansı mülahizəyə görə heç bir halda haqq qazandırılmamasını təmin etməkdən ötrü zəruri ola biləcək tədbirləri, o cümlədən müvafiq hallarda daxili qanunvericilik sahəsində tədbirlər görür.

Cinayət törətmiş və ya törətdiyi ehtimal olunan şəxsin ərazisində olduğu iştirakçı dövlət 7-ci maddənin şamil edildiyi hallarda, əgər həmin şəxsi vermirsə, hər hansı bir istisna edilmədən və cinayətin həmin dövlətin ərazisində törədilib-törədilməməsindən asılı olmayaraq, lüzumsuz ləngimələrə yol vermədən bu dövlətin qanunvericiliyinə uyğun olaraq araşdırma aparılması yolu ilə məhkəmə təqibi məqsədləri üçün işi özünün səlahiyyətli orqanlarına verməyə borcludur. Səlahiyyətli orqanlar bu dövlətin qanunlarına uyğun olaraq, hər hansı ağır cinayət törədilməsi halında olduğu qaydada qərar qəbul edirlər.

Konvensiyada göstərilən cinayətlərdən heç biri iştirakçı dövlətlər arasında cinayətkarın verilməsi və ya qarşılıqlı hüquqi yardım məqsədləri üçün siyasi cinayət və ya siyasi cinayətlə bağlı cinayət, yaxud da siyasi motivlərə görə törədilmiş cinayət hesab edilmir. Bunun nəticəsində belə cinayətlə bağlı cinayətkarın verilməsi və ya qarşılıqlı hüquqi yardım haqqında xahiş yalnız bu əsasla rədd edilə bilməz ki, o, siyasi cinayətə və ya siyasi cinayətlə bağlı cinayətə, yaxud da siyasi motivlərə görə törədilmiş cinayətə aiddir.

Azərbaycan Respublikasının Milli Məclisi Avropa Şurasının "Terrorçuluğun qarşısının alınması haqqında" 2005-ci il mayın 16-da Varşava şəhərində imzalanmış Konvensiyasını 3 fevral 2014-cü il tarixli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq etmişdir.

Konvensiyanın məqsədləri üçün "terror cinayəti" dedikdə, siyahısı Əlavədə verilən müqavilələrdən birinin əhatə və müəyyən etdiyi hər hansı bir cinayət ba düşülür. Əlavədə nəzərdə tutulan müqavilələr aşağıdakılardır:

1. 1970-ci il dekabrın 16-da Haaqada imzalanmış «Hava gəmilərinin qanunsuz ələ keçirilməsinin qarşısının alınması haqqında» Konvensiya.

2. 1971-ci il sentyabrın 23-də Monrealda imzalanmış «Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəldilən qanunsuz hərəkətlərin qarşısının alınması haqqında» Konvensiya.

3. 1973-cü il dekabrın 14-də Nyu-Yorkda qəbul edilmiş «Beynəlxalq müdafiədən istifadə edən şəxslərə, o cümlədən diplomatik agentlərə yönəlmiş cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında» Konvensiya.

4. 1979-cu il dekabrın 17-də Nyu-Yorkda qəbul edilmiş «Adamların girov götürülməsinə qarşı mübarizə haqqında» Beynəlxalq Konvensiya.

5. 1980-ci il martın 3-də Vyanada qəbul edilmiş «Nüvə materialının fiziki mühafizəsi haqqında» Konvensiya.

6. 1988-ci il fevralın 24-də Monrealda imzalanmış «Beynəlxalq mülki aviasiyaya xidmət göstərən aeroportlarda qanunsuz zorakılıq hərəkətlərinin qarşısının alınması haqqında» Protokol.

7. 1988-ci il martın 10-da Romada imzalanmış «Dəniz gəmiçiliyinin təhlükəsizliyinə qarşı yönəldilmiş qanunsuz hərəkətlərin qarşısının alınması haqqında» Konvensiya.

8. 1988-ci il martın 10-da Romada imzalanmış «Kontinental şelfdə yerləşən stasionar platformaların təhlükəsizliyi əleyhinə yönəldilmiş qanunsuz hərəkətlərin qarşısının alınması haqqında» Protokol.

9. 1997-ci il dekabrın 15-də Nyu-Yorkda qəbul edilmiş «Bomba terrorçuluğunun qarşısının alınması haqqında Beynəlxalq Konvensiya.

10. 1999-cu il dekabrın 9-da Nyu-Yorkda qəbul edilmiş «Terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması haqqında» Beynəlxalq Konvensiya.

11. 2005-ci il aprelin 13-də Nyu-Yorkda qəbul edilmiş «Nüvə terrorçuluğu aktlarının qarşısının alınması haqqında» Beynəlxalq Konvensiya.

Konvensiyanın məqsədi Tərəflər arasında tətbiq olunan mövcud çoxtərəfli və ya ikitərəfli müqavilələr və ya sazişlər nəzərə alınmaqla həm milli səviyyədə, həm də beynəlxalq əməkdaşlıq vasitəsilə görüləcək tədbirlərlə terrorçuluğun və onun insan hüquqlarının, xüsusən də yaşamaq hüququnun tam gerçəkləşdirilməsinə mənfi təsirlərinin qarşısının alınmasında Tərəflərin səylərini artırmaqdan ibarətdir.

Konvensiyanın iştirakçısı olan hər bir Tərəf terror cinayətlərinin və bu Konvensiyada nəzərdə tutulan cinayətlərin mövcudluğu, səbəbləri və ağırlığı və onların yaratdığı təhlükə ilə bağlı ictimai maarifləndirməyə yardım etmək üçün səylər göstərməli və ictimaiyyəti özünün səlahiyyətli qurumlarına terror cinayətlərinin və bu Konvensiyada nəzərdə tutulan cinayətlərin qarşısının alınmasına kömək edə biləcək faktiki və spesifik yardım göstərməyə həvəsləndirməlidir.

Tərəflər üzərlərinə belə bir öhdəlik götürmüşlər ki, terror cinayətlərinin törədilməsinin qarşısının alınmasında öz imkanlarını artırmaq məqsədilə təlimlərlə və qabaqlayıcı xarakterli digər birgə səylərlə yanaşı, ən yaxşı təcrübələri bir-biriləri ilə bölüşmək və məlumat mübadiləsi daxil olmaqla müvafiq hallarda və öz imkanlarına uyğun olaraq bir-birilərinə yardım edərək bir-birilərini dəstəkləyəcəklər.

Konvensiyanın məqsədləri üçün "terror cinayətinin törədilməsinə açıq çağırış" dedikdə, terror cinayətlərini birbaşa təbliğ edib-etməməsindən asılı olmayaraq bir və ya daha çox belə cinayətlərin törədilməsi təhlükəsinə səbəb olan, terror cinayətini törətməyə təhrik etmək məqsədilə çağırışı ictimaiyyətə yayma və ya başqa cür çatdırma başa düşülür.

Hər bir Tərəf terror cinayətinin törədilməsinə açıq çağırışın qanunsuz və qəsdən törədildiyi halda, öz daxili qanunvericiliyinə uyğun olaraq cinayət əməli hesab edilməsi üçün zəruri ola bilən tədbirlər görməlidirlər.

Konvensiyanın məqsədləri üçün "terrorçuluğa cəlbetmə" dedikdə, digər şəxsi terror cinayətini törətməyə və ya belə cinayətin törədilməsində iştirak etməyə, yaxud birlik və ya qrup tərəfindən bir və ya daha çox terror cinayətinin törədilməsinə kömək etmək məqsədilə birlik və ya qrupa qoşulmağa təhrik etmə başa düşülür.

"Terrorçuluğa hazırlama" dedikdə, terror cinayəti törətmək və ya terror cinayətinin törədilməsinə kömək etmək məqsədilə verilən biliklərin bu məqsəd üçün istifadə olunacağını bilərək partlayıcı maddələrin, odlu silahların və ya digər silahların, yaxud zərərli və ya təhlükəli maddələrin hazırlanması, istifadəsi və ya digər xüsusi metod və ya üsullarla bağlı təlimat vermə başa düşülür. Konvensi-

yanın hər bir Tərəfi öz ərazisində törədilən terror aktlarının qurbanlarını müdafiə etmək və dəstəkləmək üçün zəruri olan tədbirlər görməli, müvafiq milli mexanizmlər çərçivəsində və daxili qanunvericiliyə əsasən həyata keçirilən bu tədbirlər digərləri ilə yanaşı, terror qurbanları və onların yaxın ailə üzvləri üçün maddi yardım və kompensasiyanı əhatə edə bilər.

Konvensiyada nəzərdə tutulan cinayəti törətmiş və ya törətməsi ehtimal edilən şəxsin onun ərazisində ola biləcəyi barədə məlumat almış müvafiq Tərəf bu məlumatda göstərilən faktların araşdırılması üçün özünün daxili qanunvericiliyinə əsasən zəruri ola bilən tədbirləri görməlidir.

Konvensiyanın tərəfləri Konvensiyada nəzərdə tutulan cinayətlərlə bağlı cinayət istintaqı və ya cinayət mühakimə icraatı və ya ekstradisiya prosedurları üzrə bu prosessual hərəkətlər üçün malik olduqları zəruri sübutların əldə edilməsində yardım da daxil olmaqla, bir-birilərinə maksimal dərəcədə yardım göstərməlidirlər.

Cinayət törətməsi ehtimal olunan şəxsin ərazisində olduğu Tərəf bu Konvensiyaya müvafiq olaraq yurisdiksiyaya malik olduğu hallarda həmin şəxsi ekstradisiya etmədikdə, hər hansı bir istisna edilmədən və cinayətin onun ərazisində törədilib-törədilməməsindən asılı olmayaraq, qanunvericiliyində nəzərdə tutulmuş prosessual qaydada cinayət təqibi həyata keçirmək məqsədilə işi lüzumsuz ləngimələrə yol vermədən özünün səlahiyyətli qurumlarına göndərməlidir. Bu qurumlar qərarı həmin Tərəfin qanunvericiliyində hər hansı digər təhlükəli cinayət üçün nəzərdə tutulmuş qaydada qəbul edəcəklər.

Konvensiyada nəzərdə tutulan cinayətlərdən heç biri ekstradisiya və qarşılıqlı hüquqi yardım məqsədləri üçün siyasi cinayət, siyasi cinayətlə əlaqəli cinayət və ya siyasi motivlərə əsaslanan cinayət hesab edilməyəcəkdir. Buna görə belə cinayətlə əlaqədar olan ekstradisiya və ya qarşılıqlı hüquqi yardım sorğusu onun siyasi cinayət və ya siyasi cinayətlə əlaqəli cinayət və ya siyasi motivlərə əsaslanan cinayətlə bağlı olması əsası ilə rədd edilə bilməz.

## 2.5. Hərbi cinayətlər

### 2.5.1. Heydər Əliyev: "Azərbaycan hər birimizin Vətənidir. Hər kəs, hər bir vətəndaş öz Vətəninin keşiyində durmalıdır"

Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycanın müharibəyə cəlb olunması ağır nəticələr yaratmaqla yanaşı, Vətən torpaqlarının müdafiəsinin təşkilini tələb edirdi. Heydər Əliyev SSRİ dağılandan sonra ölkə rəhbərliyində səriştəsizlik nəticəsində milli ordunun yaradılmaması, ölkənin müdafiə qüdrətinin zəiflədilməsi, mövcud potensialdan lazımi qaydada istifadə olunmaması kimi problemlərin mövcudluğunu görür, onları həll etməyə çalışır, eyni zamanda gənclərdə vətənpərvərlik ruhunu, milli ruhu, döyüş ruhunu qaldırmağa, Vətəni, torpağı müdafiə etməyin hər bir gənc üçün müqəddəs vəzifə olmasını onlara aşılamağa çalışırdı. 22 sentyabr 1993-cü il tarixində Heydər Əliyev Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə Vətənin müdafiəsi ilə bağlı məsələləri şərh edərək deyirdi: "İndi bizim əsas vəzifəmiz gənclərdə vətənpərvərlik ruhunu, milli ruhu, döyüş ruhunu qaldırmaqdır, Vətəni, torpağı müdafiə etmək hər bir gənc üçün müqəddəs vəzifə olmalıdır. Biz xalqımızı, gənclərimizi ədalətsiz müharibəyə dəvət etmirik, başqa ölkələrin torpaqlarına göz dikmirik, Ermənistan torpaqlarından heç nə ələ keçirmək istəmirik. Ancaq eyni zamanda torpaqlarımızın zəbt olunmasına dözməməliyik. Millətini, torpağını sevən hər bir namuslu adam buna razı olmamalıdır. Ona görə də gənclər gərək hərbi xidmətə getsinlər.

...Güman edirəm ki, biz indi sizinlə birlikdə ordunun yaradılması ilə ciddi məşğul olacağıq. Zənnimcə, gənclərimiz nizami ordu yaradılacağına inanaraq, onun doğrudan da, Azərbaycanı qorumaq üçün yaradılacağına inanaraq ordu sıralarında xidmət etməyi özlərinin şərəfli vəzifəsi sayacaqlar" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 176-177).

Vətən milli, dini və dil mənsubiyyətindən asılı olmayaraq, onun ərazisində yaşayanların hamısı üçün eyni dəyərə malikdir. Heydər Əliyev həmişə Azərbaycanı onun ərazisində yaşayan bütün insanların Vətəni kimi dəyərləndirir, milliyyətindən, dilindən, dinindən asılı olmayaraq, bütün insanların eyni hüquqa malik olmasını vurğulayırdı. Ulu Öndər hesab edirdi ki, hər bir Azərbaycan vətəndaşı Azərbaycan torpağını doğma torpaq hesab edərək, onun müdafiəsinə qalxmalıdır, onu qorumaq üçün mübarizə aparmalıdır. 27 dekabr 1993-cü il tarixində Azərbaycanın milli qəhrəmanları və  Vətənimizin azadlığı uğrunda şəhidlərin ailə üzvləri ilə görüşdə Heydər Əliyev Vətəni müdafiə etməyin mənəvi borc olmasından söhbət açaraq deyirdi: “Azərbaycan çoxmillətli respublikadır, çoxmillətli ölkədir. Burada əsrlər boyu bir çox millətlər birgə yaşayıblar, yaşayırlar və bundan sonra da yaşayacaqlar. Bütün millətlərə mənsub olan Azərbaycan vətəndaşlarının hamısı respublikamız üçün doğmadır və Azərbaycan da onlar üçün doğma Vətəndir. Onların hamısı Azərbaycanın bərabər hüquqlu vətəndaşıdır. İftixar hissi ilə qeyd etməliyəm ki, şəhid olanlar, qəhrəmanlıq nümunələri göstərənlər arasında Azərbaycanda yaşayan bütün millətlərin nümayəndələri var. Bu gün burada söz alıb danışanların, elə valideynlərin də çıxışları bunu bir daha nümayiş etdirdi. Bu bizi daha da gücləndirir. Bəli, bu belədir, belə də olmalıdır. Azərbaycan onun ərazisində yaşayan bütün insanların Vətənidir.

Milliyyətindən, dilindən, dinindən asılı olmayaraq, bütün insanlar eyni hüquqa malikdirlər. Odur ki, hər bir Azərbaycan vətəndaşı da Azərbaycan torpağını doğma torpaq hesab edərək, onun müdafiəsinə qalxmalıdır, onu qorumaq üçün mübarizə aparmalıdır...

...Biz heç vəchlə qəbul edə bilmərik ki, Azərbaycan belə ağır vəziyyətdə olduğu halda onun vətəndaşlarının bir qismi buna biganə qalsın, özünü kənara çəksin....

Ötən müddət ərzində çox iş görülüb, ordumuza könüllü olaraq çox adam gəlib. Onların arasında gənclərin sayı xüsusilə çoxdur.

Bəli, ordumuz möhkəmlənmişdir. Məhz buna görə də biz erməni silahlı qüvvələrinin hücumlarının qarşısını ala bilirik və onların hələ iki-üç ay bundan qabaq qurduğu planları puça çıxarmağa müvəffəq olmuşuq. Amma bununla yanaşı, təəssüflə deməliyəm ki, elələri də var ki, ordu sıralarına getməkdən boyun qaçırır, cürbəcür bəhanələr tapır, yaxud ordudan fərarilik edir, öz vətəndaşlıq borcunu yerinə yetirmək istəmirlər. Nə gizlədəsən, beləleri də var və təəssüf ki, az deyildir. Belə düşünürəm ki, onlar bu gün bu salona toplaşanların, bizim qəhrəmanların və onların valideynlərinin sözlərini dərk etməli və bu yoldan çəkinməlidirlər. Əminəm ki, Milli Qəhrəmanlarımızın, şəhidlərimizin həyat nümunəsi indi ordu sıralarında xidmət etməkdən boyun qaçıranlar üçün və onların valideynləri üçün bir tərəfdən örnək olmalı, digər tərəfdən onlar özləri üçün nəticə çıxarmalıdırlar" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 304-305).

Qanuna əsasən hərbi vəzifə - qanunvericiliklə nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikası vətəndaşlarının hərbi qeydiyyatı, çağırışaqədərki hazırlığı, hərbi xidmətə çağırışı, çağırış üzrə və könüllü hərbi xidmət keçməsi, ehtiyatda olması, toplanışlara çağırışı və toplanış keçməsi, səfərbərlik üzrə vəzifələrin yerinə yetirilməsidir. Ona görə Heydər Əliyev gəncləri hərbi vəzifələrini yerinə yetirməyə çağırırdı: "Sizin hamınızı orduya daha çox diqqət və qayğı göstərməyə, fərariliklə, ordunun daxilində təxribatçılıqla mübarizə aparmağa çağırıram.

Biz indi öz taleyimizin sahibiyik. Azərbaycan müstəqil dövlətdir. Bu, tarixi hadisədir. Azərbaycan xalqı öz müstəqilliyini, milli azadlığını qoruyub saxlamalıdır. Bunun üçün də Azərbaycanın güclü ordusu olmalıdır. Bu, həm işğal olunmuş torpaqlarımızı düşməndən təmizləmək, həm də gələcəkdə müstəqil Azərbaycanın etibarlı müdafiəsini təmin etmək üçün gərəkdir. Ona görə də orduya diqqət və qayğı göstərmək hər bir vətəndaşın şərəfli borcu olmalıdır. Mən sizi bu borcu yerinə yetirməyə dəvət edirəm" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 508-509).

Bərdə rayonunda bir sıra şəhər və rayon icra hakimiyyəti başçılarının və əlaqədar təşkilatların rəhbərlərinin iştirakı ilə keçirilən

müşavirədəki çıxışında Ümummilli Lider fərariliklə mübarizənin zəruriliyi, onun yolları və işə görə hər bir vəzifəli şəxsin məsuliyyət daşıması barədə fikirlərini açıqladıqdan sonra işğal olunmuş rayonlardan köçkün düşmüş gənclərin orduya cəlb olunmasına xüsusi diqqət çəkdi. Heydər Əliyev hesab edirdi ki, düşmən təcavüzünün qarşısını almaq, torpaqları layiqincə qorumaq və erməni silahlı qüvvələrini Azərbaycan ərazilərindən çıxarmaq üçün fərariliyin qarşısı alınmalıdır: “Fərariliklə mübarizəyə gəldikdə isə, ola bilər, Müdafiə Nazirliyi məlumatları dəqiq vermir. Hər bir icra başçısının, hərbi komissarın, hər bir polis rəisinin və başqa hüquq-mühafizə orqanları rəhbərlərinin borcu odur ki onların rayonundan hərbi xidmətə çağırılmış gənclər orduda qulluq etsin və fərarilik edənlər hərbi hissəyə qaytarılsın, yaxud cəzalandırılsın. Sizin konkret vəzifəniz bundan ibarətdir. Prezidentin səlahiyyətli nümayəndəsi kimi hər bir rayon icra başçısı öz rayonunun bu mühüm məsələləri üçün cavabdehdir. Elə hesab etməyin ki, ordunu təşkil etmək kiminsə işidir, siz isə kənardan buna kömək göstərməlisiniz. Bu əhval-ruhiyyəni bir kənara atın. Əgər biz düşmən təcavüzünün qarşısını almaq, torpaqlarımızı layiqincə qorumaq və erməni silahlı qüvvələrinin ərazimizin qalan hissəsinə soxulmasına bir daha yol verməmək istəyiriksə, eyni zamanda düşməni geri oturtmaq, işğal olunmuş torpaqlarımızı azad etmək istəyiriksə, bu məsələ ilə ciddi məşğul olmaq lazımdır.

Şübhəsiz ki, fərariliklə mübarizənin cürbəcür yolları var. Biz keçən ilin noyabr-dekabr aylarında da tədbirlər gördük və fərarilik edənlərin çoxu hərbi hissələrə qayıtdı. Bu hal bizdə ümumən böyük razılıq hissi doğurdu. Lakin son vaxtlar fərarilik yenidən artmışdır. Tələb edirsiniz ki, cəza tədbirləri gücləndirilsin. Bu, düzgün tələbdir. Bizim özümüzdə də belə təkliflər var və bunlar həyata keçiriləcəkdir. Ancaq biz bütün imkanlardan, təsir vasitələrindən istifadə etməliyik ki, fərarilik edən olmasın, gənclər başa düşsünlər ki, fərarilik artarsa, bəs orduda kim qalmalıdır, torpaqlarımızı kim qorumalıdır? Necə olur ki, əhalisi bizdən iki dəfə az olan Ermənistan ordu yaratmışdır

və o gəlib bizim torpaqlarımızı işğal etmişdir? Yerevandan, Leninakandan gəlib Füzuli, Ağdam, Tərtər bölgələrində vuruşur, həlak olur, erməni millətçilərinin iddialarını həyata keçirirlər. Biz isə öz torpağımızı qorumaqda acizlik çəkirik... Fərarilik olmamalıdır. ...Rayonlarda nə qədər qaçqın var. Qaçqınlar Komitəsinin sədri çıxışında bu barədə dedi: bir rayonda 20 min, o birisində 30 min, digərində 40 min qaçqın məskunlaşıb. Axı onların arasında gənclər də var. Əgər onlar erməni təcavüzü nəticəsində qaçıb gəlmişlərsə, indi orduya gedərək öz torpaqlarını azad etməlidirlər. Orduya ilk növbədə, işğal olunmuş rayonlardan qaçqın düşmüş gənclər getməlidirlər. Onlar respublikamızın digər vətəndaşlarına nisbətən bu işdə daha fəal olmalıdırlar..." (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 511-513).

Dövlətin əsas funksiyalarından biri də dövlətin müdafiə funksiyasıdır. Müdafiə funksiyası özündə ordunun qurulması və gücləndirilməsi, ordunun yeni və müasir hərbi texnika ilə təchizatı, vətəndaşların vətənpərvərlik ruhunda tərbiyə olunması, ordunun maddi-texniki təminatını yüksək səviyyədə həyata keçirmək üçün iqtisadi imkanların genişləndirilməsi, hərbi qulluqçuların və onların ailələrinin sosial ehtiyaclarının və tələbatlarının yüksək səviyyədə ödənilməsi, ölkədə və orduda hüquq qaydasının təmin edilməsi və s. tədbirləri əhatə edir. Heydər Əliyev keçid dövründəki çətinlikləri nəzərə almaqla dövlətin müdafiə funksiyasını yüksəltmək barədə düşünür və bunun üçün mövcud imkanlardan tam istifadə etməyə çalışırdı. 8 oktyabr 1994-cü il tarixində Azərbaycan Silahlı Qüvvələrinin 3-cü ildönümünə həsr olunmuş təntənəli yığıncaqda dövlətin müdafiə funksiyasının bəzi aspektləri ilə bağlı Heydər Əliyev deyirdi: "Qeyd etdiyim kimi, bunlarla yanaşı, ordumuzda quruculuq işləri getməlidir. Ordumuz güclənməlidir, öz peşəkarlıq səviyyəsini artırmalıdır. Zabitlərimiz əsgərlərlə, yeni səfərbər olmuş gənclərlə həmişə təlim-tərbiyə işləri aparmalıdırlar. Ordumuzu lazım olan vaxt Vətənimizi qorumaq üçün, düşmənə layiqli cavab vermək üçün hazırlamaq lazımdır. Bu bizim Silahlı Qüvvələrin, komandanların, Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin borcudur. Mən bu gün

onlardan bunu tələb edirəm. Mən əminəm ki, ordumuzda quruculuq işi, ordunun təlim-tərbiyə işi lazımi səviyyədə gedəcəkdir. Mən əminəm ki, ordumuza gələn gənclər öz şərəfli vəzifələrini başa düşürlər, anlayırlar və vətəndaşlıq borcunu, şərəfli borcunu layiqincə yerinə yetirəcəklər...” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab, s. 376.377).

Vətəni qorumaq, onun torpaqlarının yağı düşmənin tapdağı altında qalması ilə razılaşmamaq tarixən Azərbaycan xalqına xas olan xüsusiyyət olmasına baxmayaraq, müharibənin gedişində əsgərlərin fərarilik etməsi həm mənəvi, həm də hüquqi cəhətdən yolverilməz idi. Fərarilik kifayət qədər sərt cinayət olmaqla, həm də ağır mənəvi iztirablar yaradırdı. Onun mənəvi yükü fərariliyi edənlərlə yanaşı, onların valideynləri, yaxınları, ümumiyyətlə, götürdükdə azərbaycanlılar üçün mənəvi sıxıntı, ağır nəticələr doğururdu. Heydər Əliyev bu problemin həm də vaxtında ordu quruculuğunda yol verilmiş səhvlərlə bağlı olduğunu bilir, ona görə fərarilik etmiş gənclərə münasibətdə humanistlik nümayiş etdirmək barədə qərar verərək onları əfv edirdi: “Bugünkü görüşümüzdə valideynlərdən 11 nəfər çıxış etdi. Şübhə etmirəm ki, görüşə gəlmiş valideynlərin hər biri burada çıxış etmək istəyir. Eyni zamanda, güman edirəm ki, çıxış edənlər bu salonda olanların hamısının fikrini ifadə etdilər. Ona görə də, əgər etiraz etmirsinizsə, bu çıxışları salonda olanların və bu gün əfv edəcəyim məhbusların hamısının valideynlərinin, ata-analarının, uşaqlarının, qohum- əqrəbalarının müraciəti kimi qəbul edim və çıxışlara son qoyaq. İndi həbsdə olan 608 nəfəri – sizin övladlarınızı, gənclərimizi mən bu gün bax, bu fərmanla əfv edirəm.

Mən sizin qarşınızda bu fərmanı imzalayıram. Bu bayram günü gəncləri əfv edərək mən Azərbaycanın müstəqilliyinin və bu bayramın nə qədər əziz olduğunu bir daha qeyd etmək istəyirəm. Bu bayram günündə əfv olunan hər bir kəs gərək Azərbaycan xalqına, torpağına, dövlətinə və onun müstəqilliyinə bundan sonra sədaqətlə xidmət etsin. Mən buna əminəm. Tam əmin olduğuma görə də bu sənədi imzalayıram.

...Güman edirəm ki, Azərbaycanın Müstəqilliyi Günü imzalanan bu əfv fərmanı ümumiyyətlə, Azərbaycan gəncləri üçün çox böyük örnək

olacaq, eyni zamanda xəbərdarlıq olacaqdır. Yəni qanuna riayət etmək lazımdır. Ancaq günahını anlayan, başa düşən insanlara dövlət, prezident həmişə rəhm edir və rəhm edəcəkdir. İstərdim elə olsun ki, heç kəs qanunu pozmasın. İstərdim elə olsun ki, heç kəs cəzaya düşməsin. Xalqımızı bu ağır vəziyyətdən çıxarmaq, ordumuzu möhkəmləndirmək, müdafiə qüdrətimizi gücləndirmək və müstəqilliyimizi, ərazi bütövlüyümüzü qorumaq üçün həmişə hazır olmaq bizim böyük amalımızdır. Ona görə də bir daha deyirəm, bizim güclü ordumuz olmalıdır, hər bir vətəndaş orduda xidmət etməyi özünün şərəfli borcu hesab etməlidir. Hər bir valideyn də öz oğlunun, övladının orduda xidmət etməsini özünə şərəf bilməlidir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab, s.374-377).

30 oktyabr 1997-ci il tarixində Azərbaycan Yazıçılarının X qurultayındakı nitqində Heydər Əliyev hərbi cinayətlərdən söhbət açaraq deyirdi: "Mən oktyabrın əvvəllərində təklif verdim. Mənim təşəbbüsümlə Milli Məclis oktyabr ayının 17-də «Amnistiya haqqında» böyük bir qərar qəbul etdi. Bu qanun hərbi cinayət etmiş, ordudan fərarilik etmiş və yaxud başqa cinayətlər etmiş gənclər haqqındadır. Bu qərar ilə 7 min adam - onların əksəriyyəti gəncdir - cəzadan azad olunacaqdır. 1700 nəfəri hazırda cəza yerlərindədir. Onlar azad ediləcəkdir. 1300 nəfərin işi məhkəmədədir - onların işləri xətm ediləcək, azad olunacaqlar. 3000 nəfər fərarilik etdiklərinə görə axtarışdadır. 100 nəfəri isə yoxlamadadır. Beləliklə, onlar cəzadan azad ediləcəklər. Buraya gələrkən məlumat aldım ki, artıq 460 nəfər azad olunubdur. Bundan əlavə, 30 min gənc 1991-ci ildən başlayaraq ordunu tərk edibdir. Yəqin indi haralardasa gizlənirlər. Onların haqqında cinayət işi başlanmayıbdır. Ancaq bizim hərbi hissələrdə qeydiyyatda var ki, bu sayda adam ordunu tərk edibdir. İndi araşdırma gedəndə onlar da cəzadan azad olunacaqlar. Beləliklə, 37 min adam həmin əfv qərarı ilə cəzalardan xilas oldu. Onların demək olar ki, əksəriyyəti gənclərdir, əksəriyyəti ordudan fərarilik etmiş adamlardır.

... İndi biz artıq sülh şəraitində yaşayırıq. Bu qədər adamları həbsxanada saxlamaq və yaxud 30 min nəfəri - indi onların yerləri

məlum deyil, orda-burda gizlənirlər - belə bir şəraitdə saxlamaq bizim üçün xeyir deyil, əksinə, zərərlidir. Şübhəsiz ki, mən bu addımı humanistlik nöqteyi-nəzərindən atdım. Bunların hamısı olacaq. Hesab edirəm ki, bu ilin sonunadək, gələn ilin əvvəllərinə qədər bütün məsələlər həll ediləcək və həmin adamlar cəzadan azad olacaqlar. Ancaq lazımdır ki, bundan sonra yenə təkrar olmasın, yeni hərbi cinayətlər olmasın, yenidən ordunu qoyub qaçmasınlar, yenidən səngəri qoyub qaçmasınlar, yenidən silahı götürüb qaçmasınlar. Şübhəsiz ki, bunun qarşısını almaq ordunun borcudur, eyni zamanda sizin də borcunuzdur, bütün cəmiyyətimizin də borcudur" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On üçüncü kitab, s.131-132).

Heydər Əliyev "Cəmşid Naxçıvanski adına hərbi liseyin 30 illik yubileyi haqqında" 19 noyabr 2002-ci il tarixli Sərəncamında ordu quruculuğunun bəzi məsələlərinə toxunaraq yazırdı: "1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra milli nizami ordu yaradılması ən aktual məsələlərdən oldu. Erməni silahlı qüvvələrinin Azərbaycan ərazisinə aramsız hücumları şəraitində bu, təxirəsalınmaz vəzifə idi. Ayrı-ayrı silahlı dəstələrin vahid bir rəhbərliyə tabe edilməməsi, peşəkar hərbçi kadrların çatışmazlığı, orduda nizam-intizamın olmaması, korrupsiya başıpozuqluq, fərarilik hallarının baş verməsi düşmən hücumlarının qarşısını ala bilməyə qadir olan bir ordunun yaradılmasına əngəllər törədirdi.

Qarabağ müharibəsi başlandıqdan sonra keçmiş SSRİ-nin müxtəlif yerlərindən öz vətənpərvərlik borcunu yerinə yetirərək Azərbaycana qayıtmış peşəkar hərbçilərin, o cümlədən vaxtilə Cəmşid Naxçıvanski adına hərbi liseyi bitirənlərin bilik və bacarığından lazımınca istifadə olunmurdu.

1993–1995-ci illərdə ordu quruculuğu sahəsində görülmüş mühüm tədbirlər nəticəsində vəziyyət köklü şəkildə dəyişdi. Ayrı-ayrı siyasi partiyaların, hətta şəxslərin mənafelərinə xidmət edən silahlı birləşmələr ləğv edildi, orduda vahid komandanlıq prinsipi bərqərar edildi, möhkəm hərbi nizam-intizam yaradılması üçün

ciddi tədbirlər görüldü. Silahlı Qüvvələrin peşəkar hərbçi kadrlarla təmin olunması yolunda da mühüm işlər həyata keçirildi” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Qırx ikinci kitab, s. 363-364).

### 2.5.2. Hərbi cinayətlərlə mübarizənin hüquqi əsasları

Azərbaycan Respublikası Konstitusiyasının IV fəslində nəzərdə tutulan vətəndaşların əsas vəzifələrindən biri də Vətəni müdafiə etmək borcudur. Vətəndaşlar qanunla müəyyən edilmiş qaydada hərbi xidmət keçməlidirlər (Konstitusiyanın 76-cı maddəsi).

Hərbi qulluqçular Azərbaycan Respublikasının qanunlarında və hərbi nizamnamələrdə müəyyən olunmuş hərbi intizama ciddi riayət etməlidirlər. Hərbi intizamın əsas məqsədi hərbi tapşırığı yerinə yetirənlərin razılaşdırılmış vahid fəaliyyətinin təşkil olunub həyata keçirilməsini təmin etməkdən ibarətdir. Hərbi intizam hər bir hərbi qulluqçunun hərbi borcunu və öz Vətəni - Azərbaycan Respublikasının müdafiəsi üçün şəxsi məsuliyyət daşımasını şüurlu surətdə dərk etməsinə əsaslanır.

Hərbi xidmət keçmənin qaydaları «Hərbi xidmət haqqında» Azərbaycan Respublikasının Qanunu, «Hərbi xidmət keçmə haqqında» Əsasnamə, «Hərbi qulluqçuların statusu haqqında» Azərbaycan Respublikasının Qanunu, hərbi nizamnamələrlə müəyyən olunur. Hərbi xidmət keçmə qaydalarına dönmədən və mütəmadi əməl edilməsi hərbi intizamın mahiyyətini təşkil edir. Möhkəm hərbi intizam Azərbaycan Respublikası Silahlı Qüvvələrinin keyfiyyətli döyüş hazırlığının təmin edilməsinin zəruri şərtlərindən biridir.

Qanunverici tərəfindən hərbi xidmət əleyhinə olan cinayət xarakterli əməllərin müəyyən edilib cəzalandırılmasının şərtləndirilməsi ilk növbədə hərbi intizamın bərqərar olmasına və möhkəmləndirilməsinə xidmət edir.

25 dekabr 1991-ci il tarixində qəbul edilmiş “Hərbi qulluqçuların statusu haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq hərbi qulluqçu statusuna Azərbaycan Respublikası-

nın Silahlı Qüvvələrində, Azərbaycan Respublikasının Sərhəd Qoşunlarında və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə həqiqi hərbi xidmətdə olan Azərbaycan Respublikasının vətəndaşları və başqa dövlətlərin vətəndaşları, habelə toplanışlarda olan hərbi vəzifəlilər malikdirlər.

Azərbaycan Respublikasının vətəndaşları qanunvericilikdə nəzərdə tutulmuş qaydalara uyğun olaraq Silahlı Qüvvələrə çağırıldıqda, könüllü şəkildə xidmətə daxil olduqda və ya hərbi təhsil müəssisələrinə qəbul edildikdə hərbi qulluqçu statusu əldə edirlər. Bu status xidmətdən buraxıldıqda, hərbi siyahılardan çıxarıldıqda və ya toplanışlar başa çatdıqda itirilir. Hərbi qulluqçuların hüquq və vəzifələri onların faktiki olaraq hərbi xidmət başında olub-olmamasından asılı olaraq dəyişir.

Hərbi qulluqçular döyüş, təlim, gündəlik və qarnizon növbələri və digər hərbi tapşırıqları yerinə yetirərkən hakimiyyət nümayəndəsi sayılırlar və bu vəzifələri icra edərkən vətəndaşlar üzərində səlahiyyət əldə edirlər. Onlar həmçinin Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini qorumaq, hərbi and içmək və qanunlara əməl etmək kimi öhdəlikləri yerinə yetirməyə borcludurlar. Hərbi qulluqçuların vəzifələri, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələri və normativ aktlarla müəyyən edilir.

Hərbi qulluqçular hərbi rütbəsindən və ya xidmət vəziyyətindən asılı olmayaraq, qanun qarşısında bərabər məsuliyyət daşıyırlar. Onlar inzibati xətalar, qeyri-hərbi cinayətlər və hərbi cinayətlər törətdikdə müvafiq qanunvericiliyə əsasən məsuliyyətə cəlb olunurlar. Hərbi qulluqçuların cinayət mühakiməsi icraatı Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi ilə tənzimlənir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarına (dövlət orqanlarının strukturuna daxil olan qurumlara) həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi sahəsində hərbi vəzifənin və hərbi xidmətkeçmənin hüquqi tənzimlənməsi qaydaları 23 dekabr 2011-ci ildə qəbul edilmiş "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

Qanuna əsasən hərbi vəzifə - qanunvericiliklə nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikası vətəndaşlarının hərbi qeydiyyatı, çağırışaqədərki hazırlığı, hərbi xidmətə çağırışı, çağırış üzrə və könüllü hərbi xidmətkeçməsi, ehtiyatda olması, toplanışlara çağırışı və toplanış keçməsi, səfərbərlik üzrə vəzifələrin yerinə yetirilməsidir.

Hərbi xidmət isə dövlət qulluğunun xüsusi növü olmaqla Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda) qanunvericiliklə nəzərdə tutulmuş qaydada və müddətlərdə Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin həyata keçirdikləri xidməti fəaliyyətdir.

Hərbi qulluqçular – həqiqi hərbi xidmətdə olan şəxslərdir. Həqiqi hərbi xidmətə çağırılmış və ya könüllü daxil olmuş şəxs hərbi qeydiyyatdan çıxarılaraq xidmət etdiyi müvafiq icra hakimiyyəti orqanında xüsusi qeydiyyata alınır.

Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsinin I hissəsinə uyğun olaraq Vətəni müdafiə hər bir vətəndaşın borcudur.

Azərbaycan Respublikasının 18 yaşına çatmış və sağlamlıq vəziyyətinə görə hərbi xidmətə yararlı hər bir kişi cinsli vətəndaşı Azərbaycan Respublikasının Silahlı Qüvvələrində bu Qanunla müəyyən edilmiş qaydada müddətli həqiqi hərbi xidmət keçməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsinin II hissəsinə uyğun olaraq vətəndaşların əqidəsi həqiqi hərbi xidmət keçməyə ziddirsə, qanunla müəyyən edilmiş hallarda həqiqi hərbi xidmətin alternativ xidmətlə əvəz olunmasına yol verilir.

Siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən hərbi uçot ixtisası olan 19 yaşından 40 yaşınadək Azərbaycan Respublikasının qadın vətəndaşları özlərinin razılığı ilə hərbi qeydiyyata götürülür və bağlaşma əsasında Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi xidmətə qəbul edilirlər.

Hərbi xidmət həqiqi hərbi xidmətdən və ehtiyatda xidmətdən ibarətdir. Hərbi xidmətin üstünlüyü hərbi qulluqçulara və onların ailə üzvlərinə dövlət qayğısının göstərilməsi, bu şəxslərə layiqli həyat şəraitinin yaradılması məqsədilə müvafiq hüquqi aktların qəbul edilməsi və bununla bağlı zəruri tədbirlərin görülməsi, eləcə də təşkilatların üzərinə qanunvericiliklə müəyyən edilmiş öhdəliklərin qoyulmasından ibarətdir.

Hərbi xidmət əleyhinə olan cinayətlərə görə məsuliyyət CM-in 35-ci fəslində nəzərdə tutulmaqla CM-in 327-ci maddəsində göstərilir ki, çağırış və ya müqavilə üzrə Azərbaycan Respublikası Silahlı Qüvvələrində, digər qoşun və hərbi birləşmələrdə hərbi xidmət keçən hərbi qulluqçuların, qanunla müəyyən edilmiş qaydada hərbi qulluqçu statusuna malik olan başqa şəxslərin, habelə təlim və ya yoxlama toplanışlarına cəlb edilmiş hərbi vəzifəlilərin hərbi qulluğun müəyyən edilmiş qaydaları əleyhinə yönələn və bu fəsildə nəzərdə tutulmuş cinayətləri hərbi xidmət əleyhinə olan cinayətlər hesab olunur. Bu maddədə göstərilməmiş şəxslərin hərbi xidmət əleyhinə olan cinayətlərdə iştirakı bu fəslin müvafiq maddələri üzrə məsuliyyətə səbəb olur.[19]

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 1 noyabr 2001-ci il tarixli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında" qərarı və 20 fevral 2023-cü il tarixli "Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında" 2001-ci il 1 noyabr tarixli 1 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarında dəyişikliklər edilməsi haqqında" qərarı ilə hərbi xidmət əleyhinə cinayətlərin bir sıra məqamlarına aydınlıq gətirilmişdir.

"Hərbi vəzifə və hərbi xidmət haqqında" 23 dekabr 2011-ci il tarixli Azərbaycan Respublikası Qanununun 12.4-cü maddəsinə əsasən, vətəndaşların müddətli həqiqi hərbi xidmətə çağırılması haqqında müvafiq icra hakimiyyəti orqanının aktı qüvvəyə mindikdən sonra müd-

---

[19] Bax: Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, 328-353-cü maddələr

dətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməyən çağırışçılar yaşayış yeri və ya olduğu yer üzrə hərbi qeydiyyatda olduğu, hərbi qeydiyyatda olmayan çağırışçılar isə yaşayış yeri üzrə müvafiq icra hakimiyyəti orqanına gəlməlidirlər.

Hərbi xidmətdən yayınmaq üçün növbəti hərbi çağırışdan və ya səfərbərlik üzrə çağırışdan boyun qaçırma (CM-in 321-ci maddəsi) cinayətlərinin tərkibi o zaman yaranır ki, həmin cinayətlərin subyektləri müddətli həqiqi hərbi xidmətlərini hansı hərbi hissədə keçmələri barədə məlumatı internet və ya qısa mesaj (SMS) vasitəsilə almalarına və yaxud başqa üsullarla əvvəlcədən Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələri tərəfindən xəbərdarlıq edilmələrinə  baxmayaraq üzrlü səbəblər olmadan göstərilmiş müddətdə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrinə gəlməməklə çağırışdan boyun qaçırmış olsunlar.

Azərbaycan Respublikası CM-in 321-ci maddəsində nəzərdə tutulmuş növbəti hərbi çağırışdan boyun qaçırma cinayətinin subyekti hərbi xidmətə çağırışın müəyyən edilmiş tələblərinə cavab verən müddətli hərbi xidmətə və ya zabitlərin həqiqi hərbi xidmətinə çağırılan və ya səfərbərlik üzrə çağırılan Azərbaycan Respublikası vətəndaşlarıdır. Müddətli hərbi xidmətə - Azərbaycan Respublikasının 18 yaşına çatmış sağlamlıq vəziyyətinə görə hərbi xidmətə yararlı olan, çağırışa möhlət hüququ olmayan və ya çağırışdan azad edilməmiş kişi cinsli vətəndaşları, zabitlərin həqiqi hərbi xidmətinə - müddətli həqiqi hərbi xidmət keçməmiş, yaşı 35-dən çox olmayan, sağlamlıq vəziyyətinə görə hərbi xidmətə yararlı olan çağırışa möhlət hüququ olmayan və ya çağırışdan azad edilməmiş ehtiyatda olan zabitlər çağırılırlar.

Vətəndaşlığı olmayan şəxslər və xarici ölkə vətəndaşları Azərbaycan Respublikası CM-in 321-ci maddəsində nəzərdə tutulmuş cinayətin subyekti ola bilməzlər. Xarici dövlətin vətəndaşlığını qəbul etmiş, lakin Azərbaycan Respublikasının vətəndaşlığına xi-

tam verilməmiş çağırışçılar ümumi əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırılırlar. Azərbaycan Respublikası vətəndaşının xaricdə yaşaması onun Azərbaycan Respublikası CM-in 321-ci maddəsində nəzərdə tutulmuş cinayətin subyekti olmasını istisna etmir.

Qeydiyyatdan keçmək üçün vətəndaşların müəyyən olunmuş müddətdə üzrlü səbəblər olmadan Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrinə gəlməmələri hərbi xidmətdən boyun qaçırma kimi qiymətləndirilə bilməz. Belə ki, hərbi xidmətdən boyun qaçırmaya görə məsuliyyət yalnız Azərbaycan Respublikası Prezidentinin şəxslərin hərbi xidmətə çağırılması haqqında sərəncamında göstərilən müddətdə üzrlü səbəb olmadan müvafiq icra hakimiyyəti orqanına gəlmədiyi halda yaranır.

Azərbaycan Respublikası Prezidentinin şəxslərin hərbi xidmətə çağırılması haqqında sərəncamı ilə müəyyən edilmiş müddətdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrinə gəlməməyin üzrlü səbəbləri çağırışçının xəstəliyi (tibb müəssisəsinin xəstəlik barədə tibbi arayışı əsasında) və ya fövqəladə və ya digər qarşısı alına bilinməyən hallardır (bu zaman şəxsən gəlməsinin mümkün olmaması çağırışçının yaşayış yeri üzrə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilməlidir).

"Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" 10 iyun 2005-ci il tarixli Azərbaycan Respublikası Qanununun 1.0.2-ci maddəsinə əsasən, səfərbərlik – Azərbaycan Respublikası iqtisadiyyatının, icra hakimiyyəti orqanlarının, yerli özünüidarəetmə orqanlarının və təşkilatların müharibə dövrünün iş rejiminə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, qanunvericiliklə nəzərdə tutulmuş digər silahlı birləşmələrin və xüsusi birləşmələrin müharibə dövrü üçün müəyyən edilmiş təşkilati-ştat strukturuna keçirilməsinə dair tədbirlər kompleksidir.

Azərbaycan Respublikasında ümumi və ya qismən səfərbərlik Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə elan olunur.

“Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında” Azərbaycan Respublikası Qanununun 14.2-ci maddəsinə əsasən, ehtiyatda olan və səfərbərlik üzrə hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan vətəndaşlar səfərbərlik elan edildikdə səfərbərlik üzrə hərbi xidmətə çağırılırlar.

Həqiqi hərbi xidmətə növbəti çağırışdan və səfərbərlik üzrə çağırışdan boyun qaçırma cinayəti hərbi xidmətə çağırılma haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı qüvvəyə mindikdən sonra şəxs müvafiq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrinə gəlmədiyi halda, qeyd olunan normativ xarakterli aktda göstərilən hərbi xidmətə çağırışın sonuncu günü bitmiş hesab edilir.

Həmin müddətdən sonra hərbi xidmət keçməkdən boyun qaçıranın Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrinə gəlməsi cinayətdən könüllü imtina etmə kimi deyil, cəzanı yüngülləşdirən hal kimi nəzərə alına bilər.

Azərbaycan Respublikası CM-in 333.1-ci maddəsi ilə cinayət məsuliyyəti müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusunun və ya hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinin kursantının hərbi hissəni (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsini) və ya xidmət yerini özbaşına tərk etməsi və ya üzrlü səbəblər olmadan hərbi hissəyə (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisəsinə) və ya xidmət yerinə vaxtında gəlməməsi üç gündən artıq, lakin on gündən çox olmayaraq törədildikdə yaranır.

Fərarilik hərbi qulluqçunun üç aydan artıq müddətə hərbi hissədən Fərarilik hərbi qulluqçunun müddətindən asılı olmayaraq hərbi xidmətdən boyun qaçırmaq məqsədi ilə hərbi hissəni və ya xidmət yerini özbaşına buraxıb getməsi və ya xidmət yerinə qayıtmaması (gəlməməsi) kimi ifadə olunur.

Fərarilik cinayəti o zaman başa çatmış hesab olunur ki, hərbi qulluqçu hərbi xidmətdən boyun qaçırma məqsədilə hərbi hissənin

mövqeyini və ya xidmət yerini özbaşına buraxıb getmiş olsun, xidmət yerinə qayıtmasın.

Nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikası CM-in 321, 333 və 334-cü maddələrində nəzərdə tutulmuş cinayətlər uzanan cinayətlərdir.

Əgər hərbi qulluqçu hərbi xidmətdən boyun qaçırmaq məqsədilə hissəni özbaşına buraxıb getmişsə, lakin əvvəlki niyyətindən imtina edərək hissəyə qayıtmış və ya özünü hakimiyyət orqanına təqdim etmişsə, belə halda təqsirkarın hərəkətində bitmiş fərarilik cinayətinin tərkibi yaranır. Onun hissəyə gəlməsi və ya özünü hakimiyyət orqanına təqdim etməsi isə bu halda könüllü imtina kimi dəyərləndirilir.

Hərbi hissəni (xidmət yerini) özbaşına tərk edən və ya fərarilik edən hərbi qulluqçuların xidməti istifadəsi üçün verilmiş silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların, habelə nəqliyyat vasitələrinin və ya sair hərbi əmlakın saxlanması qaydalarını pozmaları nəticəsində həmin əmlakı itirmələri mühüm zərər vurduqda müvafiq olaraq Azərbaycan Respublikası CM-in 333 və ya 334, həmçinin 347-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin tərkibini yaradır.

"20. Hərbi qulluqçu hərbi xidmətdən boyun qaçırmaq məqsədilə, yaxud belə məqsədi olmadan hərbi hissəni (xidmət yerini) tərk edərkən, xidməti istifadə üçün ona verilmiş nəqliyyat vasitəsini və ya digər hərbi əmlakı öz mülkiyyətinə və ya başqa şəxsin mülkiyyətinə keçirmək məqsədilə özü ilə apararsa, onun hərəkəti hərbi hissəni (xidmət yerini) tərk etmə və ya fərarilik, eləcə də özgə əmlakını mənimsəmə kimi tövsif olunmalıdır".

# 3. Heydər Əliyev cəza və onun humanistləşdirilməsi haqqında

## 3.1. Cinayət hüququnda cəza və onun məqsədi

Azərbaycan Respublikası Konstitusiyasının 80-ci maddəsinə əsasən, Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur. Bu baxımdan cinayət qanunvericiliyi ilə qorunan ictimai münasibətlərin pozulmasına görə, neqativ davranışın nəticəsi kimi nəzərdə tutulan məsuliyyət, məhrumiyyət və məhdudiyyətlərin ağırlığı özünü daha qabarıq şəkildə büruzə verir.

Ölkəmizdə həbs, tutulma və ya azadlıqdan məhrum etmə qaydalarını, habelə bu qaydalara uyğun azadlıq hüququnun məhdudlaşdırılmasına müvəkkil edilmiş şəxslərin dairəsini qüvvədə olan qanunvericilik aktları (Cinayət-Prosessual Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi, "Prokurorluq haqqında", "Polis haqqında" Qanunlar və s.) müəyyənləşdirir.

Odur ki, hər hansı şəxsin tutulması, həbsə alınması və ya azadlıqdan məhrum edilməsi Konstitusiyada nəzərdə tutulmuş hallardan kənar və qüvvədə olan qanun normalarında müəyyənləşdirilmiş qaydaların ziddinə baş verərsə, bu hər hansı şəxsin azadlıq hüququnun pozulması kimi qiymətləndirilməlidir. Lakin CM-in 79.1-ci maddəsində on dörd yaşınadək uşaqları olan məhkum edilmiş qadınların cəzasının çəkilməsinin təxirə salınmasının nəzərdə tutulmaması özü-özlüyündə Konstitusiyanın 28-ci maddəsinin I hissəsində təsbit edilmiş hər kəsin azadlıq hüququnun pozulması kimi deyil, cinayət törətmiş şəxsin məsuliyyətindən irəli gələn və qanun əsasında cinayətkara qarşı tətbiq olunan müvəqqəti məhdudlaşdırma kimi qəbul edilməlidir.

Belə məhdudlaşdırma cinayətin törədilməsi ilə yaranmış münaqişələrin tənzimlənməsi üçün dövlət tərəfindən görülən tədbirlərin əsas şərti kimi çıxış edən mütənasiblik prinsipinə əməl olunmasını

təmin etməlidir. Cinayət qanunvericiliyində bu mütənasiblik qanunçuluq, ədalət, qanun qarşısında bərabərlik, təqsirlilik, təqsirə görə məsuliyyət, cəzanın qaçılmazlığı və humanizm prinsipləri, seçilmiş cəza növünün zəruriliyi və məqsədəuyğunluğu, habelə hüquq məhdudiyyətinin zamana görə kifayətliliyi əsasında müəyyən olunur.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müddəaları müəyyən siyasi-hüquqi münasibətlərin, hüquq normalarının, ideyaların, baxışların sistemi kimi səciyyələndirilən və dövlət tərəfindən yürüdülən cinayət-cəza siyasəti ilə bağlıdır. Bu siyasətin əsas məzmunu məqsəd və vəzifələrin işlənib hazırlanmasından, ictimai təhlükəsizliyin və cinayətkarlığın aradan qaldırılması və ya sosial baxımdan qəbul oluna biləcək səviyyədə saxlanmasının təmin edilməsi üçün zəruri vasitə və üsulların seçilməsindən ibarətdir. Cinayət-cəza siyasəti kompleks xarakter daşıyır və digərləri ilə yanaşı, ilk növbədə cinayətkarlıqla mübarizənin aparılması üzrə cinayət-hüquqi, cinayət-prosessual, cəza-icra normalarının müəyyənləşdirilməsini nəzərdə tutur.

Cinayət-cəza siyasəti və Cinayət Məcəlləsinin müddəaları bir-birilə sıx əlaqədir. Həmin Məcəllə Konstitusiyaya, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarına və prinsiplərinə əsaslanaraq nəinki cinayətin anlayışını, növlərini, subyektlərini, cinayətlərin tərkiblərini, həmçinin cəzanın anlayışını, məqsədini, növlərini və tətbiqi şərtlərini, o cümlədən cəzanın çəkilməsinin təxirə salınması ilə bağlı məsələləri müəyyənləşdirir.

Cəza təyin edilərkən CM-in qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirə görə məsuliyyət, ədalət və humanizm prinsipləri mütləq nəzərə alınmalıdır.

Bu prinsiplərə görə əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılması və həmin əmələ görə cəza və digər cinayət-hüquqi xarakterli tədbirlər yalnız bu Məcəllə ilə müəyyən edilir. Yalnız törətdiyi ictimai təhlükəli əmələ (hərəkət və ya hərəkətsizliyə) və onun nəticələrinə görə təqsiri müəyyən olunmuş şəxs cinayət məsuliyyətinə cəlb edilə və cəzalandırıla bilər. Cinayət törətmiş şəxs

haqqında tətbiq edilən cəza və ya digər cinayət-hüquqi xarakterli tədbirlər ədalətli olmalıdır, yəni cinayətin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, onun törədilməsi hallarına və cinayət törətməkdə təqsirli bilinən şəxsin şəxsiyyətinə uyğun olmalıdır.

CM-də əks olunmuş prinsiplər, demokratik dövlətin təbiətini və mahiyyətini əks etdirən və cinayət hüququnda insan və vətəndaş hüquq və azadlıqlarının təminatını nəzərdə tutan bir sıra Konstitusiya prinsiplərindən irəli gəlir.

Azərbaycan Respublikası CM-in 41.1-ci maddəsinə müvafiq olaraq cəza məhkəmə hökmü ilə təyin edilən cinayət-hüquqi xarakterli tədbirdir. Cəza cinayət törətməkdə təqsirli hesab edilən şəxsə tətbiq olunur və həmin şəxs barəsində bu Məcəllə ilə müəyyən edilən məhrumiyyətlər yaradılmasından və ya onun hüquq və azadlıqlarının məhdudlaşdırılmasından ibarətdir. Bu anlayışdan cəzanın əsas əlamətləri kimi aşağıdakılar müəyyən edilir:

1. Cəza cinayət-hüquqi xarakterli tədbirdir;
2. Cəza məhkəmə hökmü ilə təyin edilir;
3. Cəza cinayət törətməkdə təqsirli hesab edilən şəxsə tətbiq olunur;
4. Cəzanın təyinatı cinayəti törətmiş şəxs üçün məhrumiyyətlər yaradılması və ya onun hüquq və azadlıqlarının məhdudlaşdırılmasından ibarətdir;
5. Cinayəti törətmiş şəxs üçün məhrumiyyətlərin yaradılması və ya onun hüquq və azadlıqlarının məhdudlaşdırılması Cinayət Məcəlləsində müəyyən edilən olmalıdır.

Cəzanın cinayət-hüquqi xarakterli tədbir olması öz ifadəsini onda tapır ki, cinayətə görə tətbiq olunan cəza başqa hüquq sahələrində tətbiq olunan tənbehlərdən özünün sərtliyi ilə seçilir və cinayət qanunvericiliyində cinayət kimi müəyyən edilmiş əməllərin təqsirli olaraq törədilməsinə görə tətbiq edilir.

Onu da qeyd etmək lazımdır ki, dövlətin ali hakimiyyət orqanı – qanunverici orqan cinayət sayılan əməllərin dairəsini müəyyən etməklə həmin əməllərin törədilməsinə görə cəzanı da müəyyən edir.

Bununla, dövlət cəza tətbiq etmək hədəsi altında cəmiyyət üzvlərinin davranışını müəyyən hüdudlarda tənzimləməyə çalışır. Hüquqi müəyyənlik prinsipi tələb edir ki, cinayət qanunvericiliyi aydın və nəticələri qabaqcadan görünən olmalıdır. Şəxs hər hansı qanunazidd əməli törədəcəyi təqdirdə nə kimi məhrumiyyətlərə məruz qala biləcəyini qabaqcadan öyrənmək imkanına malik olmalıdır.

Cəza fərdi xarakter daşıdığına görə yalnız Cinayət Məcəlləsində nəzərdə tutulmuş hər hansı əməli təqsirli olaraq törətmiş şəxsə münasibətdə tətbiq edilə bilər.

Cəzanın məhkəmə hökmü ilə təyin edilməsi onu ehtiva edir ki, cinayət əməlinə görə cəzanı yalnız buna səlahiyyətli olan xüsusi orqan – məhkəmə təyin edə bilər. Bundan əlavə, cəza məhkəmə tərəfindən təyin olunmaqla yanaşı, həm də dövlət adından elan edilir.

Cəzanın cinayət törətməkdə təqsirli hesab edilən şəxsə tətbiq olunması onu bildirir ki, əməl törədildiyi vaxt Cinayət Məcəlləsində cinayət kimi nəzərdə tutulmayıbsa, bu cür əməllərə görə cinayət xarakterli cəza tətbiq edilə bilməz. Burada digər şərt isə ondan ibarətdir ki, cinayət əməlini törətmiş şəxs onu törətməkdə təqsirli olmalıdır. Cinayət Məcəlləsinin 24-cü maddəsinə əsasən, əməli yalnız qəsdən və ya ehtiyatsızlıqdan törətmiş şəxs cinayət törətməkdə təqsirli sayılır. Beləliklə, təqsir qanunda nəzərdə tutulan və məhkəmələrin dövlət adından pislədiyi, şəxsin törətdiyi cinayətin təhlükəli əmələ və ya onun nəticəsinə qəsd və ehtiyatsızlıq formasında psixi münasibətidir. Təqsir özünü cinayətdə obyektiv olaraq ifadə edir, lakin onunla eyniləşmir, cinayətkarın şəxsiyyətinin "xarakterinin xüsusiyyəti" kimi obyektiv olaraq yaşayır. Bu da konkret cəzanın nə üçün törədilən əmələ görə təqsirkara ancaq məhrumiyyətlə bağlı təzyiq göstərmək məqsədilə deyil, həm də onu islah edib yenidən tərbiyələndirmək məqsədilə tətbiq edildiyini anlamağa imkan verir.

Cəzanın təyinatının cinayəti törətmiş şəxs üçün məhrumiyyətlər yaradılmasından və ya bu şəxsin hüquq və azadlıqlarının məh-

dudlaşdırılmasından ibarət olması onun qanunazidd əmələ görə qisas xarakterindən irəli gəlir.

Cəza - törədilən cinayətə görə tənbeh olmaqla həmişə qisas, əvəzin ödənilməsi kimi qəbul edilmiş, bir növ zərərçəkmişin məruz qaldığı əzaba görə əvəzinin ödənilməsi xarakteri daşımışdır.

Cinayətə görə qisas almaq və yaxud əvəzin ödənilməsi qədim dövrlərdə əsas və ədalətli cəza olaraq qəbul edilirdi. Talion qanunlarına və Xammurapi məcəlləsinə xas tərzdə "gözə göz, dişə-diş" prinsipi, Drakon qanunlarına uyğun ədalətli cəza sayılırdı. Belə yanaşma həmin dövr üçün cəzanın mütləq nəzəriyyəsinə görə ədalətin təzahürü idi.

Şəxsin törətdiyi pisliklərə görə cavab vermək cəzanın məqsədi, münasib cəzanı çəkərək ona dözmək isə cinayətkarın vəzifəsi kimi nəzərdən keçirilir.

Cinayəti törətmiş şəxs üçün məhrumiyyətlərin yaradılmasının və ya onun hüquq və azadlıqlarının məhdudlaşdırılmasının Cinayət Məcəlləsində müəyyən edilənlərlə uyğun olmasının mahiyyəti ondan ibarətdir ki, hər bir cinayət əməlinə görə qanunverici cəzanın hədlərini müəyyən edir.

Tənbeh cəzanın mahiyyətini ifadə edir. Tənbeh bu və ya başqa cəza növü üçün xarakterik olan məhrumiyyətdir, kəmiyyət və keyfiyyət müəyyənliyinə malikdir. Hər bir cəza növünün keyfiyyət tərəfi onun məhrumiyyətinin xarakteri ilə müəyyən edilir. Məsələn, azadlıqdan məhrumetmə - məhkumu cəmiyyətdən təcrid etməklə, islah-əmək müəssisələrində məcburi qaydada məskun etmədə; cərimə-hökmlə müəyyən edilən məbləğdə pulun dövlət nəfinə keçirilməsində və s. ifadə olunur. Konkret cəza növünün müəyyən etdiyi tənbehin kəmiyyət tərəfi məhrumiyyətin qanunla yol verilən hədlərində ifadə olunur.

Konkret cinayətə görə qanunda müəyyən edilən həddən yüksək cəzanın tətbiq olunması yolverilməzdir. Cəzanın yüngülləşdirilməsinin əsasları isə Cinayət Məcəlləsində nəzərdə tutulmuşdur; hər bir əməlin xarakteri, onu törədənin şəxsiyyəti, cinayəti törədəndən sonrakı hərəkətləri nəzərə alınmaqla şəxsə qanunda nəzərdə tutulandan daha yüngül cəzanın tətbiq olunması mümkündür.

Cinayət sosial hadisə olduğuna görə cəza da imperativ şəkildə sosial ədalətin bərpası naminə tətbiq olunmalı və həddində tətbiq olunmaqla sosial ədaləti bərpa etməlidir.

Məhkəmə cinayət törətməkdə təqsirli bilinən şəxsə CM-in Ümumi hissəsinin müddəaları nəzərə alınmaqla, Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hədlərdə ədalətli cəza təyin etməlidir. Eyni zamanda, məhkəmə tərəfindən cəza təyin edilərkən, cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, təqsirləndirilən şəxsin şəxsiyyəti, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar, habelə təyin edilmiş cəzanın təqsirləndirilən şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsiri nəzərə alınmalıdır. Ədalətli cəza təyin edilməsi ilk öncə cəzanın məqsədinə, yəni sosial ədalətin bərpasına, məhkumun islah edilməsinə və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısının alınmasına nail olmaq sahəsində mühüm vasitədir.

Cinayətkarın şəxsiyyəti nəzərə alınmaqla əməlin dərəcəsinə uyğun olaraq cəzanın vaxtında tətbiq olunması onun məqsədlərinə nail olunması üçün vacib məsələdir.

Əzabsız, iztirabsız cəza yoxdur. Cəzanın məhrumiyyətə düçar etmək xüsusiyyətlərindən istifadə etməklə onun məqsədlərinə nail olunur. Cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədilə tətbiq edilir.

Sosial ədalətin bərpası - cinayət nəticəsində pozulan şəxsi, ictimai və dövlət mənafeyinin bərpasını nəzərdə tutur. Ədalət prinsipinə müvafiq olaraq cinayət törətmiş şəxs haqqında tətbiq edilən cəza və ya digər cinayət-hüquqi xarakterli tədbirlər ədalətli olmalıdır, yəni cinayətin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, onun törədilməsi hallarına və cinayət törətməkdə təqsirli bilinən şəxsin şəxsiyyətinə uyğun olmalıdır. Heç kəs eyni bir cinayətə görə iki dəfə cinayət məsuliyyətinə cəlb oluna bilməz. Sosial ədalətin bərpa olunması həm də cinayət nəticəsində pozulan, ziyan çəkən sosial mənafelərin bərpa olunmasını

ehtiva edir. Cəzanın sosial ədalətin bərpa olunması məqsədi bir tərəfdən zərərçəkən barəsində ədalətin bərqərar olması, digər tərəfdən isə cinayət törədən şəxsə ədalətli cəza təyin edilməsi kimi də dəyərləndirilə bilər.

Ədalətlilik prinsipi təkcə cəzanın cinayətin ağırlığına uyğun olmasına görə deyil, həm də cəzanın cinayəti törədənin şəxsiyyətinin təhlükəliliyinə, cəzanı yüngülləşdirən və ağırlaşdıran hallara uyğun olmasını tələb edir.

Cəzanın cinayətin ağırlığına uyğun olması tələbi təkcə cəzanın fərdiləşdirilməsi ilə və cəzanın təyin edilməsi ilə başa çatmır. Bu həm də cinayətlərə görə qurulan sanksiyalara qarşı qoyulan tələbdir. Yəni cinayətə görə nəzərdə tutulan sanksiya cinayətin ağırlığına adekvat olmalıdır.

Məhkumu islah etmək, onun tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq cəzanın xüsusi xəbərdaredici məqsədi sayılır. Məhkumu islah etmək onu yeni cinayətlər törətməkdən çəkindirə bilən zərərli sosial-psixoloji meyillərdən, kriminogen xüsusiyyətlərdən azad etməyi nəzərdə tutur. Yenidən tərbiyə məhkumun şəxsiyyətinin daha dərindən əsaslı dəyişdirilməsinə nail olmağı, onda cəmiyyət tərəfindən bəyənilən və cəmiyyət üçün faydalı olan yeni baxışların və prinsiplərin püxtələşməsini müəyyən edir.

Xüsusi xəbərdarlıq – məhkuma cəzanın elə təsirini nəzərdə tutur ki, bunun da nəticəsində məhkum yenidən cinayət törətmir. Beləliklə, cəza törədilən cinayətdən sonra tətbiq edilsə də, onun qarşısına perspektivli məqsəd qoyulur: öncə məhkum edilən şəxsin residiv cinayətinin qarşısını almaq, cəzanın məzmununun realizəsi yolu ilə buna nail olmaq.

Cəzanın ümumi xəbərdarlıq məqsədi törədilən cinayətə görə cəzanın təyini faktının qeyri-sabit şəxslərə təsiri ilə onları cinayətdən çəkindirməsində ifadəsini tapır. Tətbiq edilən cəzanın cəmiyyət üzvlərinə göstərdiyi çəkindirici təsirin səmərəliliyi cəmiyyət üzvlərinin cəza təyin edilən əməl, məsuliyyətin reallığı və labüdlüyü haqqında təsəvvürlərindən asılıdır. Cəzanın ümumxəbərdaredici məqsədinə nail olmaq üçün cinayət qanununun tətbiqi ilə bağlı ədalət mühakiməsinin həyata keçirilməsinə, ittihamedici hökmün çıxarılmasına mühüm əhəmiyyət verilir. Məhkəmə proseslərinin aşkarlığı, onlar barədə media subyekt-

lərində məlumatların verilməsi, cəzanın icrasının faktiki təmini vətəndaşların cinayətə görə tətbiq edilən cəzanın reallığını dərk etməsinə kömək edir. Xüsusi xəbərdarlığa cəzanın faktiki təsiri ilə nail olunur. Ümumi xəbərdarlıq isə ancaq potensial formada məcburiyyət elementini nəzərdə tutur və bununla da davranışa təsir göstərir.

Cəza təyini fəaliyyətində cəzanın xüsusi və ümumi xəbərdaredici məqsədi vəhdətdə nəzərə alınır. Yeni törədilən cinayətə görə təyin edilən cəza cəzanın həm xüsusi, həm də ümumi xəbərdaredici məqsədlərinə nail olunmasının göstəricisi sayılır.

Cəzanın məqsədi və cəzanı tətbiq etməklə cəmiyyətdə elə bir təəssürat yaradılmalıdır ki, cinayətkarın təkrar cinayət törətmək istəyi buxovlansın, cəza cəmiyyətdə rahatlığı təmin edə biləcək həddə olsun, bir sözlə cəza ona görədir ki, digəri (qurban) qisas almaqdan vaz keçsin,  cinayətkarın əməlini təkrarlamasın, başqaları cəzanın vahiməsindən dərs götürsün və s.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Məhkəmələr tərəfindən cinayət cəzalarının təyin edilməsi təcrübəsi haqqında" 25 iyun 2003-cü il tarixli qərarında törədilmiş cinayətə görə cəza təyin edilməsinin bir sıra məqamları ilə bağlı faydalı tövsiyələr öz əksini tapmışdır.

Belə ki, hər bir konkret halda təqsirləndirilən şəxslərə cəzaların təyin edilməsinə fərdi yanaşılmalı, cinayət qanununun vəzifələri və cəzanın məqsədlərinə nail olunması üçün zəmin yaradılmalıdır.

Şəxsin təqsirli bilindiyi maddənin sanksiyası azadlıqdan məhrumetmə ilə yanaşı, yüngül cəza növləri də nəzərdə tutursa, hökm çıxarılarkən azadlıqdan məhrumetmə cəzası təyin edildikdə bu qərar hökmdə əsaslandırılmalıdır.

Təqsirli şəxsə islah işləri və ya cərimə cəzası təyin edilərkən onun maddi vəziyyəti, öhdəsində yetkinlik yaşına çatmayanların, əmək qabiliyyəti olmayan digər şəxslərin olması və s. aydınlaşdırılmalıdır. Cərimə növündə cəza təyin edərkən məhkum edilənin əmək haqqının və ya başqa gəlirinin miqdarı hökm çıxarılan vaxt üçün hesablanmalıdır.

Cinayətin yetkinlik yaşına çatmayanlar tərəfindən törədilməsi cəzanı yüngülləşdirən hal hesab edildiyindən yetkinlik yaşına

çatmayanlara cəza təyin edilərkən məhkəmə ilk növbədə təqsirkara azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəza növü təyin edilməsinin mümkünlüyü məsələsini müzakirə etməlidir.

Məhkum edilənin əmək haqqının və ya başqa gəlirinin aşağı olması ona əsas cəza kimi cərimə cəzası əvəzinə sanksiyada nəzərdə tutulan başqa daha ağır cəza növü təyin edilməsi üçün əsas ola bilməz.

Cəzaların tətbiqi məsələsi müzakirə edilərkən cəzanın növü və miqdarının seçilməsinin mühüm əhəmiyyəti vardır. Cəza birinci növbədə təqsirləndirilən şəxsin islah olunmasına xidmət etməlidir. Cəzaların tətbiqi məsələləri müzakirə edilərkən eyni zamanda təqsirli şəxsin ailədə mənfi davranışını təsdiq edən məlumatların olub-olmaması (məsələn, sərxoşluğa qurşanması, ailə üzvlərinə qəddar münasibət göstərməsi, uşaqların tərbiyəsinə mənfi təsir göstərən hərəkətlərə yol verməsi və s.) kimi hallara da diqqət yetirilməlidir.

Bununla yanaşı, məhkəmələr böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş, cəmiyyətdən təcrid edilməsinə ehtiyac olmayan şəxs barəsində işin konkret hallarını, şəxsiyyəti barədə məlumatları nəzərə almaqla, daha yüngül cəza təyin edilməsi məsələsini müzakirə etməlidirlər. Yetkinlik yaşına çatmamış şəxslərə cəza təyin edərkən məhkəmə hər bir konkret halda yeniyetmələrin həyat və məişət şəraitini, yaşlı şəxslərin onların davranışına mənfi təsiri barədə məlumatları, psixi inkişaf səviyyələrini, şəxsiyyətlərinin digər xüsusiyyətlərini nəzərə almalıdır.

Cinayət qanunvericiliyi ilə cəzanı yüngülləşdirən halların sayı məhdudlaşdırılmadığından cəza təyini zamanı həmin maddədə nəzərdə tutulmamış hallar da cəzanı yüngülləşdirici hallar qismində nəzərə alına bilər. Belə halların cəzanı yüngülləşdirici hal kimi qəbul edilməsi hökmdə əsaslandırılmalıdır.

Cinayət törətmiş şəxsin müvafiq orqana gəlməsi və əməlini etiraf etməsi onun iradəsinin azad ifadəsi olduğu halda, sözügedən cəzanı yüngülləşdirən hal barədə məsələnin həlli üçün onun hansı motivlərlə bu cür davranması əhəmiyyət kəsb etmir.

Cinayətin törədilməsindən bilavasitə sonra zərərçəkmiş şəxsə tibbi və ya digər yardımın göstərilməsi o halda qeyd edilən maddədə nəzərdə tutulmuş cəzanı yüngülləşdirən hal kimi qiymətləndirilməlidir.

Cinayətin ictimai təhlükəlilik dərəcəsini əhəmiyyətli dərəcədə azaldan bütün müstəsna hallar qanunda birbaşa nəzərdə tutulmadığından məhkəmə müstəsna hal kimi həm ayrı-ayrı yüngülləşdirici halları, həm də onların məcmusunu tanımağa haqlıdır. Bu zaman məhkəmə bu məsələ barədə qəbul etdiyi qərarı hökmdə əsaslandırmalıdır.

## 3.2. Heydər Əliyevin cəza və onun humanistləşdirilməsi haqqında fikirləri

İnsan hüquqları cəmiyyətin mədəniyyətinin ayrılmaz hissəsi, bəşəriyyətin mənəvi-hüquqi idealının yüksək təzahürüdür. Dövlətin möhtəşəmliyi onun vətəndaşlarının rifahı və təhlükəsizliyindədir. Adamların fəal mövqeyi, sabahkı günə inamı və hər cür qəsdlərdən müdafiəsi olmadan dövlətin tam tərəqqisinə nail olmaq mümkün deyildir.

İnsan hüquqları hüquqi dövlətin humanizm ölçüsüdür. İnsan hüquqlarının real təmini qanunverici və icraedici hakimiyyətin fəaliyyətinin dəyərləndirmə meyarı, cəmiyyətin mənəvi və dövlətin sosial yönümlülüyünün göstəricisi kimi nəzərdən keçirilməlidir.

İnsan hüquqları özündə insanın cəmiyyətdə mövcudluğu faktı ilə şərtlənən, hüquqi cəhətdən rəsmiləşdirilmiş təbii, ayrılmaz və toxunulmaz azadlıqlar kompleksini özündə təmsil edir.

İnsan hüquqları insan üçün ən ali nemət olsa da, bu hüquqları zənginləşdirən, onun dəyərini artıran amil azad yaşamaqdır. Azad yaşamaq insanın heç bir məhdudiyyət və qadağaya məruz qalmamasında özünü təzahür etdirir. Azad insan həyat hadisələrinə, cəmiyyətdə baş verənlərə münasibətdə sərbəst, başqalarından asılı olmayan yanaşmaya, müstəqil düşüncəyə malik olur. Daxili iradəsinə uyğun hərəkət

etmək, özünü köləlikdən, insanı alçaldan asılılıqdan, ehtiyac və məhrumiyyətlərdən, qorxu və imkansızlıqdan, işgəncə və insan ləyaqətini alçaldan rəftardan kənarda hiss etmək azad insana məxsus cəhətlərdir. Ona görə də, azadlıq insanın ən ali arzusu, ən ülvi istəklərindən biridir.

Azərbaycan dövlətinin keçid mərhələsini yaşadığı dövrdə cinayətkarlar fəallaşmışdı ki, bu da insan hüquq və azadlıqlarına biganəlik, özbaşınalıq, hərc-mərcliklə müşayiət olunurdu. Silahlı dəstələr tərəfindən özbaşınalıqla ayrı-ayrı şəxslərin azadlıqdan məhrum edilməsi, onlara cəza verilməsi adi həyat hadisəsinə çevrilmişdi. Heydər Əliyev bu cür özbaşınalıq və cəzanın əleyhinə çıxaraq hamını yaranmış vəziyyətlə mübarizəyə çağırırdı.

Gənclərin himayəçisi kimi tanınan Heydər Əliyev "cəbhədən qaçan hər bir adamın ən ağır cəzaya məhkum" olunmasının tarixi təcrübədə özünü təzahür etdirdiyini bildirsə də, azərbaycanlı gənclərin bu cür hərəkətlərə görə də cəzalandırılmasının tərəfdarı deyildi. Ulu Öndər gənclərin orduda xidmətə öz vəzifələri kimi yanaşmasını, vətəndaşlıq borclarını yerinə yetirmələrini, vətəni, torpağı öz istəkləri ilə müdafiə etmələrini arzulayırdı: "Bilirsiniz ki, İkinci dünya müharibəsi zamanı çox ciddi hərbi rejim var idi. Ordudan, cəbhədən qaçan hər bir adam ən ağır cəzaya məhkum edilirdi. İndi respublikamız da müharibə vəziyyətindədir. Mən gəncləri cəza ilə qorxutmaq istəmirəm, onu demək istəyirəm ki, biz nizami ordu yaradaraq gəncləri ona cəlb etməyə çalışacağıq. Gənclərin isə vəzifəsidir ki, bu orduda xidmət edərək öz vətəndaşlıq borclarını yerinə yetirsinlər. Əgər vətəni, torpağı müdafiə etmək lazım gələrsə, bu işdən geri çəkilməsinlər" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 177).

Heydər Əliyevin demokratik dövlət quruculuğunun bir istiqamətini də iqtisadiyyatın inkişafı, iqtisadi münasibətlərin bərpası, sahibkarlığın vüsət alması üçün imkanların yaradılması təşkil edirdi. Azad sahibkarlıq isə bu fəaliyyətlə məşğul olmaq istəyində olanlar üçün imkanların, qanunvericilikdə müvafiq hüquqi bazanın yaradılmasını, sahibkarlığa yeni qədəm qoymuş şəxslərə dövlət yardımı-

nın göstərilməsini tələb edirdi. Sahibkarlıq subyektləri tərəfindən vergi qanunvericiliyinin tələblərinin pozulması hallarına qarşı sərt cəza tədbirlərinin görülməsini, cinayət təqibinin başlanmasını sahibkarlığın inkişafı üçün maneələrdən biri kimi dəyərləndirən Heydər Əliyev bu sahədə də sahibkarların cəzalandırılmasının deyil, onların üzərlərinə düşən öhdəliklərinin yerinə yetirilməsinə imkan verilməsinin tərəfdarı kimi çıxış edirdi: "... Əslində, prokurorluq iki-üç ay belələrini get-gələ salacaq, sonra işi məhkəməyə verəcək və iş burada da xitam olunacaq. Bunun heç bir xeyri olmayacaq. Bu barədə mən bir neçə aydır ki, düşünürəm. Doğrudur, bu, riskli addım olacaq. Amma hər halda müəyyən eksperimentlərə getməliyik" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 263).

Demokratik dövlət quruculuğunu özünün amalı kimi müəyyən edən Heydər Əliyev ölkədə insan hüquq və azadlıqlarının təmini üçün hüquqi bazanın hazırlanmasına, insanların hüquq və azadlıqlardan beynəlxalq standartlara müvafiq qaydada faydalanmasına böyük əhəmiyyət verirdi. İnsan hüquqları sırasında fikir və söz azadlığını, plüralizmin mühüm yer tutmasını yüksək dəyərləndirən Heydər Əliyev heç kimin təqib edilməli olmamasını, cəzalandırılmamasını qətiyyətlə bəyan edirdi: "Belə bir şəraitdə Azərbaycanda bütün başqa dövrlərdən fərqli olaraq daxili ictimai-siyasi sabitlik, cəmiyyətin bütün təbəqələrinin həmrəyliyi, birliyi əsas şərtdir. Ancaq təəssüf ki, bəzi qruplar, qüvvələr şəxsi siyasi hikkələrini həyata keçirmək, öz niyyətlərinə nail olmaq üçün, vəzifə, hakimiyyət hərisliyi azarına tutulduqlarına görə cürbəcür çirkin əməllərə yol verir və daxili sabitliyi pozmağa çalışırlar. Biz elan etmişik: respublikamız demokratiya yolu ilə gedir. Bütün vətəndaşların azadlığı təmin olunmuşdur. Keçmiş dövrlərdən fərqli olaraq hər kəs öz sözünü, fikrini açıq demək imkanına malikdir. Siyasi dünyagörüşünə, öz şəxsi fikrinə görə heç kim təqib edilmir, cəzalandırılmır. Bir sözlə, respublikada bütün azadlıqlar elan olunmuşdur.

Ancaq bu şəraitdə, demokratiya, siyasi plüralizm şəraitində həmin azadlıqlardan doğru və düzgün istifadə etmək lazımdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, s. 454-455).

Söhbət hər hansı cinayətin baş verməsindən getdikdə, Heydər Əliyevin əsas tələbi cinayəti törədənlərin axtarılıb tapılması və qanun əsasında cəzalandırılmasından ibarət olurdu. Ona görə də Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından həbsdə olan şəxslərin qaçması məsələlərini müzakirə edərkən Heydər Əliyev cəzasızlığa son qoyulmasını, cinayətkarların qısa müddət ərzində tapılmasını və məhkəmə qarşısında cəzalandırılmasını əsas vəzifə kimi müəyyən etdi: "Əsas tədbir ondan ibarətdir ki, cinayətkarlar axtarılıb tapılmalı, cəzalandırılmalıdır. Onları qaçıran cinayətkarlar da, onlarla əlaqəyə girənlər də tapılmalı və cəzalarını almalıdırlar" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab, s. 284).

Başqa sahələrdə olduğu kimi, cinayətkarlıqla mübarizə sahəsində də səmərəliliyin təmin olunması yollarından biri əvvəlki təcrübədən düzgün nəticə çıxarmaqdır. Cinayətkarların cəzasız qalması, onların vaxtında cəzalandırılmaması cəzasızlıq təsəvvürü yaradır ki, bu da yeni cinayətlərin törədilməsini stimullaşdırır. Təcrübə göstərirdi ki, hər bir cinayətin cəzalandırılması ölkədə sabitliyin yaradılması, qanunçuluğa əməl edilməsi, yeni cinayətlərin törədilməsinin qarşısının alınması üçün zəruri amildir: "Şübhəsiz ki, bu hadisələrdən nəticə çıxarmaq lazımdır. Birinci nəticə ondan ibarət olmalıdır ki, cinayətkarların hamısı cəzalanmalıdır. Bu gün burada çox ədalətli sözlər deyildi ki, cəzasızlıq çox vaxt belə hallara gətirib çıxarır. Biz artıq bunu tam dərk etməliyik. Bütün təbəqələrdə hər bir Azərbaycan vətəndaşı, hər bir vəzifəli şəxs gərək bilsin ki, Azərbaycanı bu vəziyyətdən çıxarmaq üçün qayda-qanun möhkəmləndirilməlidir, qanun tətbiq olunmalı, hər bir cinayətkar cəzasını almalıdır. Cəzasız heç bir şey qalmamalıdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab, s. 561).

Cəza təyininin əsas prinsiplərindən biri də cəzanın fərdiləşdirilməsi prinsipidir. Cinayətkarlığa qarşı tətbiq edilən cinayət-hüquqi təsir vasitələrinin səmərəliliyi onların hüquq pozuntusu törətmiş şəxsin fərdi

xüsusiyyətlərinə, törədilmiş cinayətin ictimai təhlükəlilik dərəcəsinə, xarakterinə mütənasib olması, habelə məsuliyyətin və cəzanın fərdiləşdirilməsi ilə sıx bağlıdır. Cəza cinayətin hüquqi nəticəsi olmaqla fərdin təqsirli olaraq törətdiyi ictimai təhlükəli əmələ görə dövlət tərəfindən kəskin mənfi münasibətin göstəricisi kimi çıxış edir. Törədilmiş cinayət əməlinə görə tətbiq edilməli olan cəzanın ədalətliliyi, mütənasibliyi və fərdiləşdirilməsinin mümkünlüyü qanunverici tərəfindən müəyyənləşdirilmiş cəza sistemi daxilindəki cəza növlərinin dairəsi ilə əlaqəlidir. Heydər Əliyev məhz cəzanın fərdiləşdirilməsi prinsipindən çıxış edərək deyirdi: "O adamlar ki, doğrudan da cinayət ediblər, – onlar cəzalanmalıdırlar, cəzasını almalıdırlar. Amma elə adamlar var ki, ola bilər, yolunu azıblar, yanılıblar, yaxud təsadüfən gəlib cinayətkarların təsiri altına düşüblər. Şübhəsiz ki, onlara münasibət başqa cür olmalıdır. ...Birinci növbədə qatı cinayətkarlar cəzalanacaq və cəzalandırılmalıdırlar" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab, s. 325).

Cinayət törətmiş bəzi şəxslər cəzadan yayınmaq üçün istintaq və məhkəmədən qaçıb gizlənmək yolunu tutur. Belə hallarda həmin şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi və ya onlar barədə təyin olunmuş cəzaların icra edilməsi mümkün olmur. Ona görə də cəzasızlıq mühitinin yaranmaması, hər bir cinayət törətmiş şəxsin əməlinə müvafiq olaraq cəzasını çəkməsi üçün onların axtarılıb tapılması, istintaq və məhkəmə orqanlarına təhvil verilməsi mühüm əhəmiyyət kəsb edir. Cinayətkarların axtarılıb tapılması, vaxtında cinayət məsuliyyətinə cəlb edilməsi və cəzalandırılması sahəsində fəaliyyət əsasən Daxili İşlər Nazirliyinin müvafiq qurumları tərəfindən həyata keçirilir. Heydər Əliyev istintaq və məhkəmədən qaçıb gizlənmiş şəxslərin vaxtında aşkarlanmasını Daxili İşlər Nazirliyinin əməkdaşlarının uğuru hesab edir, cinayətkarlıqla mübarizədə göstərdikləri əzmkarlığı yüksək qiymətləndirirdi: "…heç bir cinayətkar cəzasız qalmayacaq, qaçıb canını qurtara bilməyəcəkdir. Belə cinayətkarlar gec-tez yaxalanacaq və haqq-ədalət məhkəməsi qarşısında duracaqlar. Bu mənada mən bu vəziyyəti – cinayətkarların hüquq-mühafizə orqanları

tərəfindən tapılmasını ictimai-siyasi həyatımızda böyük nailiyyət, hadisə kimi qiymətləndirirəm. … Bütün bu əməliyyatı aparıb, bu cinayətkarları yaxalayıb dövlətimizin sərəncamına vermiş adamların hamısına mən bir prezident kimi təşəkkür edirəm" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Dördüncü kitab, s. 156).

Heydər Əliyevin insanpərvərlik hissləri insanların, Azərbaycan vətəndaşlarının cinayət mühakiməsi qaydasında məhkum olunmasının, azadlıqdan məhrum etmə növündə cəza çəkmələrinin əleyhinə olsa da, ölkədə sabitliyin təmin olunması, əmin-amanlıq mühitinin yaranması, insanlar üçün təhlükəsiz yaşayış şəraitinin qurulması cinayət törətmiş hər bir şəxsin aşkara çıxarılmasını və əməlinə müvafiq qaydada cəzalandırılmasını tələb edirdi: "Gəlin görək, iki il bundan qabaq, üç il bundan qabaq, beş il bundan qabaq nə olub, indi necədir. Bilirsinizmi, mən hesab edirəm ki, bu müddətdə bizim ən böyük nailiyyətimiz odur ki, Azərbaycanda geniş yayılmış cəzasızlıq şəraiti aradan götürülmüşdür, insanlar törətdikləri cinayətlərə görə cəza alırlar.

... Ona görə də hesab edirəm ki, Azərbaycanda cinayətkarlığa qarşı mübarizəni bundan sonra gücləndirmək lazımdır, cinayətkarların qarşısını almaq lazımdır; terrorçuları, cinayətkarları, reketlə məşğul olanları, vətəndaşların hüquqlarına toxunanları tapmaq, cəzalandırmaq lazımdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Dördüncü kitab, s. 490).

Heydər Əliyev təkcə cəzanın əvəz xarakterinə deyil, həm də onun xəbərdaredici funksiyasına böyük əhəmiyyət verirdi: "O ki qaldı istintaqa, mən hesab edirəm ki, Baş prokuror daha geniş istintaq aparmalı, Ali Məhkəmə də bu işə ədalətlə yanaşmalı və cinayətkarlar öz cəzalarını almalıdırlar. Onların öz cəzalarını almaları təkcə ona görə deyil ki, cinayətkar gedib on il, on beş il həbsxanada otursun. Hər bir cinayətə görə cəza vermək eyni zamanda başqalarını cinayətdən xilas etməkdir, profilaktikadır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Altıncı kitab, s. 50).

Heydər Əliyev cəzanın tərbiyəvi funksiyasına böyük əhəmiyyət verir, cinayət törətmiş hər kəsin əməlinə görə cəzalandırılmasını düzgün hesab edirdi: "...Cəzanın böyük tərbiyəvi əhəmiyyəti var. Əgər

bir insan öz cinayətinə, xəyanətinə görə cəzalanırsa, bu, minlərlə, on minlərlə insanların belə cinayətlərdən xilas olmasına kömək edir, belə cinayətlərə qoşulmamasını təmin edir. Ona görə də cəza tədbirlərini təkcə ayrı-ayrı adamları cəzalandırmaq kimi qəbul etmək lazım deyil, yəni mahiyyəti bundan ibarət deyil” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Doqquzuncu kitab, s. 113).

Ölkədə cəzasızlıq şəraitinin aradan qaldırılması cinayət törədən şəxsləri aşkar etməkdən və onları əməllərinə müvafiq cəzalandırmaqdan çox asılıdır. Ona görə də Heydər Əliyev özbaşınalıqların qarşısının alınması, hər bir vətəndaşın hüququnun qorunması üçün bu vəzifənin yerinə yetirilməsini düzgün hesab edirdi: “... Cinayətkarlar kimliyindən asılı olmayaraq qanun əsasında cəzalanmalıdırlar. Cəzasızlıq şəraitində keçmişdə... özbaşınalıq yaranır. Dövlət öz dövlətini və hər bir vətəndaşının hüququnu qorumalıdır. Vətəndaşın hüququnun qorunması ondan ibarətdir ki, vətəndaş rahat yatsın, rahat dursun, rahat gəzsin, rahat istirahət eləsin, rahat işləsin. Biz bunu təmin etmişik” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On altıncı kitab, s. 408-409).

### 3.3. Əfvetmə, onun hüquqi əsasları və tətbiqi qaydaları

Cinayət-hüquqi məsuliyyətin həyata keçirilməsinə əhəmiyyətli təsir göstərən hüquqi-psixoloji amillər sistemində təqsirin bağışlanması institutu xüsusi yer tutur. Bu xüsusi mövqe həmin səlahiyyətlərdən istifadənin dövlətin ali hakimiyyət orqanlarının hüquq tətbiqetmə fəaliyyəti ilə şərtlənməsi ilə bağlıdır.

Cinayət törətmiş və məhkəmənin hökmü ilə təqsirli bilinən şəxslərin dövlət tərəfindən bağışlanması cəmiyyətin cinayət törətməkdə təqsirli olan, lakin törətdiyi əməldən peşmançılıq çəkən və qanuna tabe olan vətəndaş statusunu bərpa etməyə çalışan şəxslərlə barışmağa hazır olduğunu göstərən humanizm aktıdır.

Cinayətlərin qarşısının alınması və törədilmiş cinayətlərə görə cəza məsələsi bütün dövrlərdə bəşəriyyəti narahat etmişdir. Cinayət törədən şəxsin qismən və ya tam "bağışlanması"nın sosial rolu ilə bağlı mübahisələr uzun zamandır ki, davam edir. İ.Kant da daxil olmaqla, cinayətkarı cəzalandırma doktrinasının tərəfdarları bu instituta qarşı çıxırdılar. Cinayətkarların bağışlanması zamanı baş verən müxtəlif növ sui-istifadələrə toxunaraq, cinayət hüququ islahatının K.Bekkariya, İ.Bentham kimi tərəfdarları da ona mənfi münasibət bəsləyirdilər. Belə fikirlərin təsiri ilə 1791-1801-ci illərdə Fransada cinayətkarın bağışlanması institutu hətta qanunvericilikdən çıxarıldı.

Əvvəllər əfv amnistiyanı özündə birləşdirən spesifik anlayış kimi qəbul edilirdi. Onları cinayəti törədən şəxsin qismən və ya tam "bağışlanması" cəhəti birləşdirirdi. Sonralar "əfv" anlayışı yalnız cəza çəkməkdən azad edilmə, onun icrası prosesində cəzanın yüngülləşdirilməsi və ya başqa, daha yüngül cəza ilə əvəz edilməsi və konkret şəxslərdən məhkumluğun götürülməsi hallarına şamil edilməyə başladı.

Tarixi təcrübə sübut edir ki, insanın gələcək davranışı, o cümlədən bütün cəmiyyətin qanunvericiliyə və bütövlükdə dövlətin cinayət-hüquq siyasətinə münasibəti cəza institutlarından düzgün istifadə olunmasından çox asılıdır. Cəmiyyət əmin olmalıdır ki, dövlət cinayət hüquq siyasətini tətbiq edərkən, hətta qanunsuz əməl törətmiş və cəza çəkən şəxsi cinayət məsuliyyətindən azad etdiyi halda belə, öz vətəndaşlarının hüquq və mənafelərinin müdafiəsi üçün lazım olan hər şeyi edir.

Qanuna zidd əməl törətmiş şəxslərin cəzasının yüngülləşdirilməsinin mahiyyəti, cinayət törətmiş müəyyən kateqoriyadan olan şəxslərin və ya ayrı-ayrı şəxslərin cinayət məsuliyyətindən və ya cəzadan tam və ya qismən azad edilməsindən ibarətdir.

Əfvetmə "bağışlamaq, təqsirini bağışlamaq, cəzalandırmamaq, mərhəmət göstərmək, rəhm etmək" mənalarını verir. Əfvin əhəmiyyəti təkcə onun cəzadan azad edilməsi üçün əsas olması ilə məhdudlaşmır. Əfv cinayət cəzasına məhkum edilmiş şəxsin taleyinin yün-

gülləşdirilməsini nəzərdə tutan mürəkkəb bir institutdur. Taleyin bu cür yumşaldılması müxtəlif formalarda ifadə oluna bilər.

Əfvetmə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nizama salınır. Azərbaycan Respublikası Konstitusiyasının 65-ci maddəsinə əsasən, məhkəmənin məhkum etdiyi hər bir şəxsin öz barəsində çıxarılmış hökmə qanunla nəzərdə tutulan qaydada yuxarı məhkəmədə yenidən baxılması, habelə özünün əfv edilməsi və cəzasının yüngülləşdirilməsi haqqında müraciət etmək hüququ vardır.

Qeyd edək ki, məhkəmənin məhkum etdiyi şəxs onun barəsində məhkəmənin çıxardığı hökm və qərardan yuxarı məhkəmələrə müraciət etmək hüququna malik olduğu halda, özünün əfv edilməsi və cəzasının yüngülləşdirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə müraciət etməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 22-ci bəndinə əsasən, əfvetmə Azərbaycan Respublikası Prezidentinin müstəsna səlahiyyətinə aiddir. Konstitusiyanın 3-cü maddəsinin III hissəsinə müvafiq olaraq amnistiya və əfvetmə məsələləri üzrə referendum keçirilə bilməz.

Azərbaycan Respublikası CM-in 82-ci maddəsi müəyyən edir ki, əfvetmə fərdi qaydada müəyyən edilmiş şəxs barəsində Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

Cinayət törətməyə görə məhkum olunmuş şəxs əfvetmə aktı ilə cəzanın qalan hissəsini çəkməkdən azad edilə bilər, yaxud ona təyin olunmuş cəzanın müddəti azaldıla bilər və ya belə şəxsin cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə bilər.

Ömürlük azadlıqdan məhrumetmə cəzası əfv qaydasında iyirmi beş ildən çox olmayan müddətə azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilə bilər.

Əfvetmə aktı ilə cəzasını çəkmiş şəxsin məhkumluğu götürülə bilər.

Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 6-cı maddəsi müəyyən edir ki, cəzaların icrasının və cinayət-hüquqi xarakterli di-

gər tədbirlərin tətbiqinin əsaslarını məhkəmənin qanuni qüvvəyə minmiş hökmü, yaxud qərarları, habelə amnistiya və ya əfvetmə aktları təşkil edir.

Həmin Məcəllənin 10.2-ci maddəsinə əsasən, cəzaların icrası və çəkilməsi zamanı məhkumların əfv edilmək üçün Azərbaycan Respublikasının Prezidentinə bilavasitə və ya qanuni nümayəndələrinin vasitəsilə, habelə yetkinlik yaşına çatmayan və ya fiziki pozuntulardan, yaxud psixi xəstəlikdən əzab çəkən məhkumlar barəsində isə onların müdafiəçilərinin və qanuni nümayəndələrinin vasitəsilə müraciət etmək hüquqları vardır.

Həmin Məcəllənin 105.4-cü maddəsi cəzaçəkmə müəssisəsinin müdiriyyətinin məhkumların razılığı ilə onların əfv edilməsi haqqında vəsatət qaldırma hüququnu nəzərdə tutur. Cəzaçəkmə müəssisəsinin müdiriyyəti həmin hüququndan istifadə etdikdə əfvetməyə təqdim olunan məhkum barəsində müvafiq vəsatət verir (maddə 170.4).

Cəzaların İcrası Məcəlləsi məhkumların cəza çəkməkdən azad edilməsinin əsasları sırasında həmçinin amnistiya və ya əfvetmə aktlarını da nəzərdə tutur (maddə 167).

Əfvetmə, bir qayda olaraq, “Əfvetmə haqqında Əsasnamə”-nin müddəalarına uyğun olaraq həyata keçirilir. "Əfvetmə haqqında Əsasnamə" Azərbaycan Respublikası Prezidentinin 18 iyul 2001-ci il tarixli "Əfvetmə haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Fərmanı ilə Azərbaycan Respublikası Prezidentinin Konstitusiyanın 109-cu maddəsinin 22-ci bəndində göstərilən səlahiyyətlərinin yeni cinayət qanunvericiliyi əsasında həyata keçirilməsini təmin etmək, Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının fəaliyyətini və əfvetmə prosedurunu təkmilləşdirmək məqsədilə təsdiq edilmiş və imzalandığı gündən qüvvəyə minmişdir.

“Əfvetmə haqqında Əsasnamə” əfvetmə haqqında müraciət, əfvetmə barədə müraciətin qəbulu və baxılması üçün hazırlanması, əfvetmə barədə müraciətin baxılması və müvafiq qərarın qəbul edilməsi, əfvetmə barədə qərarın icrası qaydalarını müəyyən edir. Əfvetmə haqqında qərar Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə rəsmiləşdirilir.

Əfvetmə üçün əsas şərt şəxsin mütləq Azərbaycan Respublikasının məhkəmələri tərəfindən məhkum olunması deyil, onun cəzasını Azərbaycan Respublikasında çəkməsidir. Yəni əfvetmə həm Azərbaycan Respublikası məhkəmələri tərəfindən məhkum edilmiş şəxslərə, həm də başqa dövlətlərin məhkəmələri tərəfindən məhkum olunmuş və cəzalarını Azərbaycan Respublikasında çəkən şəxslərə tətbiq edilə bilər. Şəxsin vətəndaşlıq mənsubiyyəti əfvetmənin tətbiqi üçün maneə yaratmır. Əfvetmə həm Azərbaycan Respublikasının vətəndaşlarına, həm başqa dövlətin vətəndaşlarına, yəni əcnəbilərə, həm də vətəndaşlığı olmayan şəxslərə tətbiq edilə bilər.

Göründüyü kimi, şəxs törətdiyi cinayətin növündən asılı olmayaraq islah işləri, azadlığın məhdudlaşdırılması, intizam xarakterli hərbi hissədə saxlama, hərbi xidmət üzrə məhdudlaşdırma cəzasına məhkum olunmuşdursa, əfvetmə barədə müraciət hüququ hökm qanuni qüvvəyə mindikdən sonra yaranır. Eyni zamanda, böyük ictimai təhlükə törətməyən cinayətə görə azadlıqdan məhrumetmə növündə cəzaya məhkum olunmuş şəxsin də əfvetmə barədə müraciət hüququ hökm qanuni qüvvəyə mindikdən sonra yaranır. Beləliklə, böyük ictimai təhlükə törətməyən cinayətə görə məhkum olunmuş şəxs ona təyin olunmuş cəzanın növündən asılı olmayaraq barəsində olan hökm qanuni qüvvəyə mindikdən sonra əfvetmə barədə müraciət hüququ əldə edir.

Az ağır, ağır və xüsusilə ağır cinayətlərə görə azadlıqdan məhrum edilmə cəzasına məhkum olunmuş şəxslərin əfvetmə barədə müraciət hüququnun yaranma müddəti cinayətlərin ağırlığından asılı olaraq təyin edilmiş cəzanın çəkilməsi müddəti nəzərə alınmaqla müəyyən edilmişdir.

Ömürlük azadlıqdan məhrumetmə növündə cəzaya məhkum olunmuş şəxs barədə cəzanın ağırlığı nəzərə alınaraq əfvetmə üçün müraciət müddəti onlara təyin olunmuş cəzanın on il müddətini çəkmələri ilə şərtləndirilmişdir.

Məhkumluğun götürülməsi barədə əfvetmə üçün müraciət müddəti məhkum olunmuş şəxsin cəzasını çəkməsi ilə şərtləndi-

rilmişdir və o, cəzanı çəkdikdən sonra məhkumluğun götürülməsi barədə əfvetmə üçün müraciət edə bilər.

Əfvetmə barədə məsələni, həmçinin Azərbaycan Respublikası Milli Məclisinin deputatı, insan hüquqlarına dair müvəkkil, cəzanı icra edən orqan, beynəlxalq və ya qeyri-hökumət təşkilatı da öz vəsatəti ilə qaldıra bilər. Cinayət törədərkən on dörd yaşından on səkkiz yaşınadək olmuş və Azərbaycan Respublikasının məhkəmələri tərəfindən məhkum olunmuş şəxslərin əfv olunması barədə yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar da vəsatət verə bilər.

Əfv Məsələləri Komissiyasının iclası onun üzvlərinin azı on üç nəfəri iştirak etdiyi halda keçirilir. Əfv Məsələləri Komissiyasının iclasında Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri, Azərbaycan Respublikasının Baş prokuroru və dəvət olunan digər şəxslər iştirak edə bilərlər.

Ömürlük azadlıqdan məhrumetmə növündə cəza çəkən şəxslər barəsində Əfv Məsələləri Komissiyasının qərarları Komissiya üzvlərinin ümumi sayının üçdə iki hissəsi səs verdikdə, digər şəxslər barəsində isə sadə səs çoxluğu ilə qəbul edilir.

Əfvetmə barədə məsələ üzrə Əfv Məsələləri Komissiyası toplanmış sənədləri və rəyləri öyrəndikdən sonra müvafiq qərar qəbul edərkən aşağıdakı halları nəzərə alır:

– törədilmiş cinayətin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaşdıran halları, törədilmiş cinayət nəticəsində vurulmuş maddi zərərin ödənilməsini;

– məhkumun şəxsiyyətini, o cümlədən əvvəlki məhkumluğunu, ailə vəziyyətini, səhhətini, yaşını;

– cəza çəkdiyi müddətdə məhkum olunmuş şəxsin cəzanı icra edən orqana münasibətini, davranışını, əməyi, təhsilə və törətdiyi cinayətə münasibətini.

Əfv Məsələləri Komissiyası insan və vətəndaş hüquq və azadlıqlarına hörmət, qanunçuluq, humanizm və kollegiallıq prinsiplərini rəhbər tutaraq aşağıdakı qərarlardan birini qəbul edir:

– məhkum olunmuş şəxsin əfv edilməyə tövsiyə olunması barədə;

– məhkum olunmuş şəxsin əfv edilməyə tövsiyə olunmaması barədə.

Əfv Məsələləri Komissiyasının iclasında əfvetmə barədə məsələlərə baxıldıqdan sonra Komissiyada baxılmış sənədlər qəti qərar qəbul edilməsi üçün Azərbaycan Respublikası Prezidentinə təqdim olunur. Əfvetmə haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı cəzanı icra edən orqana göndərilir.

Cəzanı icra edən orqan əfvetmə haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamını təxirə salınmadan icra etməli və bu barədə Əfv məsələləri sektoruna yeddi gün müddətində yazılı məlumat verməlidir.

Məhkum olunmuş şəxs əfv edilmədikdə, təkrar müraciətə bir qayda olaraq, bir il keçdikdən sonra baxıla bilər. Göstərilən müddət qurtaranadək Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış əfvetmə barədə təkrar müraciətlər baxılmış əvvəlki müraciətin sənədlərinə əlavə olunur.

Əfvetmə haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı mətbuatda dərc olunur.

Ümumi bir nəticəyə gəlmək olar ki, əfv institutu öz hüquqi mahiyyətinə görə konstitusiya, cinayət, cəza və inzibati hüquq normalarını özündə birləşdirən mürəkkəb sahələrarası hüquqi institutdur.

## 3.4. Heydər Əliyevin cəzanı humanistləşdirmə siyasətində əfvetmənin əhəmiyyəti

Heydər Əliyev qanunu həmişə üstün tutan, qanun qarşısında bərabərliyin təmin olunmasını, vəzifəsindən, statusundan, xidmətlərindən asılı olmayaraq qanunun hamıya münasibətdə eyni cür tətbiq edilməsini tələb edən, heç bir imtiyazlı şəxsin qanunu pozması ilə barışmayan dövlət başçısı kimi qanunun aliliyi prinsipinə həmişə sadiqlik nümayiş etdirmişdir. 3 oktyabr 1994-cü il tarixində respublikada fəaliyyət göstərən siyasi partiyaların rəhbərləri ilə görüş zamanı qanunun aliliyi prinsipinə söykənərək, hamıdan qanunlara riayət etməyi tələb edən Ümummilli Lider deyirdi: “…Bir daha demək istəyirəm

ki, hər bir şəxsin nə qədər böyük xidmətləri olsa da, bu xidmətlər heç vaxt qanunu pozmağa əsas vermir və bəraət qazandırmır. İnsanların nə qədər böyük xidmətləri olsa da, onlar qanuna da bir o qədər itaət etməli, tabe olmalı, qanunu sevməlidirlər. Bu, heç də bizim icad etdiyimiz fikir deyildir. Bunlar əsrlərdən əsrlərə keçən, dövlətçiliyə aid olan prinsiplərdir və biz hamımız onlara sadiq olmalı, hörmət bəsləməliyik (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab, s. 350).

"Qanuna isə hamı tabe olmalıdır. Kimin nə qədər böyük xidməti olsa da, kim nə qədər böyük hünər, cəsarət sahibi olsa da, nə qədər ülvi amalı olsa da, cəmiyyət üçün gərəkli və dəyərli adam olsa da, onların hamısı qanuna tabe olmalıdır. Biz dövlətçiliyimizi qurarkən, onun qeydinə qalarkən gərək bu prinsipi çox möhkəm tutaq. Onu nə qədər möhkəm tutsaq, ona nə qədər əzmlə, qətiyyətlə əməl etsək, müstəqil dövlətimizin qüdrətini bir o qədər tez təmin etmiş, belə bir dövləti qurmuş olarıq" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab. s. 352).

Ədalət mühakiməsinin və cəzanın ədalətliliyi həmişə müzakirə mövzusu olmuşdur və bu müzakirələr bu gün də davam etməkdədir. Yalnız Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin mövcud olduğu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədilməsi cinayət məsuliyyəti yaradır. Cinayət Məcəlləsi qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirə görə məsuliyyət, ədalət və humanizm prinsiplərinə əsaslanır. Əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılması və həmin əmələ görə cəza və digər cinayət-hüquqi xarakterli tədbirlər yalnız Cinayət Məcəlləsi ilə müəyyən edilir. Cinayət qanununun analogiya üzrə tətbiqinə yol verilmir.

Cinayət törətmiş şəxslər qanun qarşısında bərabərdirlər və irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən və digər hallardan asılı olmayaraq cinayət məsuliyyətinə cəlb olunurlar.

Həmin əsaslara görə heç kəs cinayət məsuliyyətinə cəlb edilə və ya cəzalandırıla bilməz, yaxud cəzadan və ya cinayət məsuliyyətindən azad edilə bilməz.

Yalnız törətdiyi ictimai təhlükəli əmələ (hərəkət və ya hərəkətsizliyə) və onun nəticələrinə görə təqsiri müəyyən olunmuş şəxs cinayət məsuliyyətinə cəlb edilə və cəzalandırıla bilər. Şəxs təqsirsiz olaraq vurduğu zərərə görə cinayət məsuliyyətinə cəlb oluna bilməz.

Cinayət törətmiş şəxs haqqında tətbiq edilən cəza və ya digər cinayət-hüquqi xarakterli tədbirlər ədalətli olmalıdır, yəni cinayətin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, onun törədilməsi hallarına və cinayət törətməkdə təqsirli bilinən şəxsin şəxsiyyətinə uyğun olmalıdır. Heç kəs eyni bir cinayətə görə iki dəfə cinayət məsuliyyətinə cəlb oluna bilməz.

Cinayət Məcəlləsi insanların təhlükəsizliyini təmin edir. Cinayət törətmiş şəxsə tətbiq edilən cəza və digər cinayət-hüquqi xarakterli tədbirlər işgəncə və ya digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan xarakter və ya məqsəd daşıya bilməz. Cinayət qanunvericiliyinin qeyd olunan prinsipləri Heydər Əliyevin çıxış və nitqlərində, müxtəlif insanlarla söhbətlərində ifadəsini tapır. Onun cinayət və cəza, cinayətkarın bağışlanması və s. barədə baxışları qanunvericiliyin tələbləri ilə üst üstə düşür, müasir beynəlxalq standartlarla həmişə uyğunluq təşkil edirdi: "Mən heç vaxt insanların mütləq məhkum edilməsinin tərəfdarı deyiləm, ədalətli mühakimə tərəfdarıyam. Bu adamlar cinayət törətmişlər, həbsə alınmışlar. Odur ki, məhkəmə qarşısında cavab verməlidirlər. Əgər məhkəmə onların cinayət törətmədiyini sübuta yetirsəydi, onda biz bununla razılaşardıq. Yaxud da bu şəxslər cinayətkar olduqları halda, az cəzaya məhkum edilmələri barədə qərar qəbul edərdik. Ola da bilərdi ki, məhkəmə onlara ən ağır cəza kəssəydi və onlar bir prezident kimi mənə müraciət etsəydilər, mən bu cinayətkarları bağışlayar, yaxud cəzalarını azaldardım. Amma bütün bunlar yalnız qanun çərçivəsində ola bilərdi" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab, s. 352-353).

17 mart 1995-ci il tarixində Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunub saxlanılması məsələlərinə həsr olunmuş müşavirədəki çıxışında bir daha bununla bağlı müraciət edərək deyirdi: “Ancaq təəssüflər olsun ki, bu, istənilən nəticəni vermədi. Müraciətimlə yanaşı, mən bəzi başqa tədbirlər də gördüm, bəzi vasitələrlə XTPD-nin adamlarına çatdırdım ki, əgər onlar bu əməllərindən əl çəksələr – bunu öz müraciətimdə də dedim, – onlar əfv olunacaqlar, mən hətta onlara bundan da artıq bəzi vədlər verdim ki, işlə təmin olunacaqlar, onlara qayğı göstəriləcək. Lakin bütün bunları anlamadılar, başa düşmədilər.

Bilirsiniz ki, mən dünən bir fərman verdim. Bu fərmanın da məqsədi ondan ibarətdir ki, XTPD-də olan adamları bir də başa sala bilim ki, onlar cinayətlərindən əl çəksələr sakit yaşayacaqlar və hətta cinayət etdiklərinə görə məsuliyyətə alınmayacaqlar. Mənim bu fərmanım dünən axşam televiziya ilə oxundu.

Həmin XTPD-nin içərisində sağlam ruhlu adamlar çoxdur. Oradan mənə belə təkliflər, xahişlər gəlmişdir ki, "bizim əksəriyyətimiz buradan çıxmaq istəyirik. Sizin çağırışınızı qəbul edirik, müraciətinizə səs veririk. Ancaq burada yaranmış mənəvi-psixoloji mühit – bir tərəfdən bizə olan təzyiq, zorakılıq, ikinci tərəfdən özümüzdə olan qorxu bizə imkan vermir. Ona görə də sizin bu müraciətinizi və əfv haqqında bəyanatınızı bir hüquqi sənədlə də ifadə etsəniz, biz bu addımları ata bilərik". Bu müraciətləri nəzərə alaraq mən dünən belə bir fərman verdim” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab, s. 282- 283).

27 may 1995-ci il tarixində Respublika Günü münasibətilə keçirilən təntənəli yığıncaqda Heydər Əliyev cinayətkarların əvvəl-axır ədalət mühakiməsində cəzalarını alacaqlarını bildirir, 16 martda verilmiş əfv Fərmanının təsiri altına düşənləri düşmənçilik yolundan əl çəkib Fərmandan faydalanmağa çağırırdı: “Günahkarlar, xəyanətkarlar, cinayətkarlar ədalət məhkəməsində öz cəzalarını alacaqlar. Orada-burada qaçıb gizlənənlər, bizə hədə-qorxu gələnlər, yenidən haradasa aranı qarışdırmaq istəyənlər, – onların bəziləri terrorçuluq yolu ilə gedir, – dövlət terroru etmək yoluna düşən adamlar anlasınlar, dərk etsinlər,

bilsinlər: onların getdiyi yol çox yanlış, xəyanətkar yoldur, bu yoldan çəkinsinlər. Mən martın 16-da əfv fərmanı vermişdim və elan etmişdim ki, kim bu cinayətkar əməllərindən əl çəkərsə, onları əfv edirəm. Bunu bu gün də deyirəm: bu hərəkətlərdən əl çəksinlər. Ermənistanın təcavüzünün Azərbaycan xalqının, respublikamızın başına gətirdiyi bəlalar bəsdir. Bu, bizim üçün nəinki bu gün, sabah bəladır, gələcək nəsillərimiz üçün də böyük bəladır. Müharibə o qədər dağıntıya, insan tələfatına səbəb olmuş, ailələr o qədər şəhid vermişdir ki, bunların yarası hələ bundan sonra on illər də sızıldayacaq, qaysaqlanmayacaqdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab, s. 466- 467).

Əfvetmə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 22-ci bəndi əsasında Azərbaycan Respublikası Prezidentinin müstəsna səlahiyyəti olmaqla, fərdi qaydada müəyyən edilən şəxslər barədə tətbiq olunur. Əfv üçün əsasları qanunverici müəyyən etməmiş, bu halların müəyyən edilməsi və əfv haqqında müraciətin təmin olunması və ya olunmaması bilavasitə ölkə başçısının mülahizəsindən asılıdır. Heydər Əliyev əfvetmə səlahiyyətlərindən müxtəlif hallarla bağlı, müxtəlif yanaşmaları sərgiləməklə istifadə etmiş və həmişə də bu addımın xalqın, vətənin, dövlətin, onun hər bir vətəndaşının gələcək həyatının layiqli, xalqına dövlətinə fayda gətirən istiqamətdə inkişafını nəzərə almışdır. Zəhmətkeş, sadə insanların, qaçqınların qayğısına qalmaq, onların vəziyyətini yaxşılaşdırmaq Heydər Əliyevi daim düşündürən məsələlərdən olmuşdur. O həmin kateqoriyadan olan insanların dövlət başçısına əfv barədə müraciətlərinə də heç vaxt biganə yanaşmamış, müraciətin hər bir xırdalığı onun tərəfindən nəzərə alınmış və sonda humanist qərar qəbul olunmuşdur.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Xüsusi ittiham qaydasında şikayətlərə dair işlərə baxılması üzrə məhkəmə təcrübəsi haqqında" 21 fevral 2014-cü il tarixli qərarında həmin xarakterli işlərə baxılarkən məhkəmələr tərəfindən nəzərə alınmalı olan hallar şərh edilmiş, müvafiq tövsiyələr verilmişdir.

Hər hansı şəxs tərəfindən yayılmış məlumatlarda fikrin və ya faktın əks etdirilməsi fərqləndirilməli və bu hala əhəmiyyət verilməlidir. Faktların mövcudluğu nümayiş oluna bilsə də, fikirlərin həqiqiliyi sübut oluna bilən deyildir. Fikirlərin həqiqiliyini sübut etmək tələbinə riayət etmək mümkün deyil və bu tələb Konvensiyanın 10-cu maddəsi ilə təmin edilmiş hüququn əsas hissəsi olan fikir azadlığını pozur.

Yayılmış məlumatların təhqir və ya tənqid xarakterli olmasına, onların xüsusi ittihamçının şəxsi və ya ictimai həyatına, siyasi fəaliyyətinə müdaxilə olub-olmamasına diqqət yetirilməlidir. Nəzərə alınmalıdır ki, Avropa Məhkəməsinin presedent hüququna görə, ifadə azadlığının həyata keçirilməsi özündə məsuliyyət və öhdəlikləri ehtiva edir, Konvensiyanın 10-cu maddəsi ilə jurnalistlərə verilən təminat isə onunla şərtlənir ki, onlar jurnalist etikasına müvafiq olaraq düzgün və etibarlı məlumatı təqdim etmək məqsədilə vicdanla fəaliyyət göstərsinlər.

Yerlərdə seçilmiş nümayəndələr və ya vəzifəli şəxslər tərəfindən törədilməsi güman olunan cinayətlər barədə ictimaiyyəti xəbərdar etmək vəzifəsi mətbuata aid olsa da, müəyyən şəxslərin adlarını və vəzifələrini qeyd etməklə, onları birbaşa ittihametmə jurnalistlərin öz iddiaları üçün kifayət qədər faktiki əsaslar təqdim etmək öhdəliyini müəyyən edir.

Təhqir və böhtanla bağlı işlər üzrə təqsirləndirilən şəxslər barəsində cəza tədbiri seçərkən törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsini, təqsirləndirilən şəxslərin şəxsiyyətlərini səciyyələndirən, cəzanı yüngülləşdirən və ağırlaşdıran halları, ifadə azadlığının demokratik cəmiyyətin təməl sütunlarından biri olmasını və bununla bağlı Avropa Məhkəməsinin presedent hüququnu nəzərə almaq lazımdır.

Avropa Məhkəməsi vurğulamışdır ki, Konvensiyanın 10-cu maddəsi ilə təmin edilmiş ifadə azadlığına müdaxilənin mütənasibliyi müəyyən edilərkən təyin edilən cəzanın xarakteri və ağırlığı nəzərə alınmalı amillərdir. Baxmayaraq ki, Avropa Konvensiyasına tərəfdar çıxmış dövlətlər tərəfindən şəxslərin nüfuzunun qanuna münasib yolla müdafiəsini təmin etmək üçün ifadə azadlığının həyata keçirilməsinin nizamlanmasına yol verilir və hətta Konvensiyanın 8-ci maddəsinə əsasən bu

sahədə olan pozitiv öhdəliklərə görə onlar bunu etməyə məcburdurlar. Bu, media subyektlərini açıq-aşkar və ya şübhə edilən hüquqpozmalar barədə ictimaiyyəti dərhal məlumatlandırmaq rolunun həyata keçirilməsindən son dərəcədə çəkindirən tərzdə edilməməlidir.

Avropa Məhkəməsi qeyd etmişdir ki, cəza təyin edilməsi prinsip etibarilə məhkəmələrin səlahiyyətinə aid məsələ olmasına baxmayaraq, mətbuatla bağlı cinayətə görə azadlıqdan məhrumetmə cəzasının təyin edilməsi müstəsna hallarda Konvensiyanın 10-cu maddəsi ilə təmin edilən jurnalistlərin ifadə azadlığına uyğun ola bilər.

Heydər Əliyev mətbuatın demokratik cəmiyyətdə oynadığı rolu yüksək qiymətləndirir, ölkədə söz, fikir azadlığının təmin olunmasını demokratik dövlət quruculuğu üçün vacib hesab edir, jurnalistlərə üzərlərinə düşən vəzifələri qərəzli deyil, vicdan və ədalətlə yerinə yetirməyi tövsiyə edirdi. Ulu Öndər tərəfindən vaxtaşırı cinayət törətmiş jurnalistlərin əfv olunması da onun söz və fikir azadlığına verdiyi dəyər ilə sıx bağlı idi.

3 iyul 1996-cı il tarixində Almaniya Federativ Respublikasına rəsmi səfərə həsr olunmuş Bonn şəhərində keçirilən mətbuat konfransında jurnalistin sualını cavablandıraraq Heydər Əliyev deyirdi: "... Azərbaycanda həqiqətən demokratik hüquqi dövlət qurulur, insan hüquqları qorunur. Keçən ilin noyabrında qəbul olunmuş ilk demokratik konstitusiyanın maddələrinin üçdə biri insan haqlarının qorunmasına həsr edilibdir. Mən sizin sualınıza ümumi sözlərlə yox, faktlarla cavab verdim. Amma, eyni zamanda, mənə bu sualı verdiyinizə görə təşəkkür edirəm. Çünki bu mənə imkan yaratdı ki, Azərbaycanda gedən demokratik proseslər haqqında burada olan jurnalistlərə ətraflı məlumat verim" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Yedinci kitab, s. 59-60).

Heydər Əliyev cəmiyyətdə ictimai sabitliyə nail olunması, cəmiyyət üzvlərinin əmin-amanlıq, sülh və barışda yaşaması üçün bir tərəfdən cinayətkarlıqla mübarizənin gücləndirilməsini, digər tərəfdən isə cəza siyasətinin humanistləşdirilməsini zəruri hesab edirdi:

“Azərbaycanda daxili ictimai-siyasi sabitlik, əmin-amanlıq yaranıbdır... Hesab edirəm ki, bu nailiyyətlərin əsasında respublikada cinayətkarlıqla mübarizə davam etdirilməlidir. Hələ bir çox cinayətlər mövcuddur, onların qarşısı alınmalıdır. Düşünək ki, ümumiyyətlə, cəmiyyətdə cinayət ola bilməz, bu, mümkün deyil. Ancaq bu, tamamilə elə bir vəziyyətə gətirməlidir ki, cinayət olan kimi onun qarşısı alınsın.

Bu sahədə gördüyümüz işlərlə yanaşı, hesab edirəm ki, biz cəzanın humanistləşdirilməsi sahəsində də bir çox dəyərli addımlar atmışıq və yaxşı nəticələr əldə etmişik. Bu da ondan ibarətdir ki, biz cəza çəkən insanlar haqqında da düşünürük və düşünmüşük. Cəza çəkənlərin bir qisminin əfv olunması, onlara amnistiya verilməsi, onların bağışlanması haqqında lazımi qərarlar qəbul etmişik. Bunların nəticəsində insanların bir çoxu cəzadan, cəza çəkməkdən azad olunub, yaxud da ki, cəzaları yüngülləşibdir.

Yəni biz bir tərəfdən cinayətkarlıqla mübarizəni gücləndirmişik, digər tərəfdən də cəza siyasətinin humanistləşdirilməsi sahəsində çox ciddi, dəyərli addımlar atmışıq, tədbirlər həyata keçirmişik.

Bunlar sizə məlumdur. Ancaq yığcam olaraq xatırlatmaq istəyirəm. Həbsdə olan, cəza çəkən 1705 insan bu son illərdə mənim verdiyim fərmanlar əsasında cəzadan azad olunub, əfv edilibdir. 1996-cı ilin mayında və 1997-ci ilin oktyabrında mənim təşəbbüsümlə Milli Məclis amnistiya haqqında qərar qəbul edibdir. Bu amnistiyanın tətbiq olunması nəticəsində indiyə qədər 17 min vətəndaş cəzadan azad edilibdir. 1997-ci ilin oktyabrında qəbul edilmiş amnistiya hələ ki, tətbiq olunur. O, tətbiq edilib qurtarana qədər cəmi 30 min Azərbaycan vətəndaşı cəzadan azad olunacaqdır. Biz bu sahədə öz işlərimizi davam etdirməyə çalışacağıq.

Hesab edirəm ki, cinayətkarlıqla mübarizənin gücləndirilməsi cinayət hadisələrini öz-özlüyündə azaldacaqdır. Eyni zamanda, bizim cəza siyasətimizin humanistləşdirilməsi də insanlarda cinayətə, cinayətkarlığa qarşı sağlam münasibət yaradacaqdır” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On dördüncü kitab, s. 151-152).

Heydər Əliyev cinayətlərə görə cəzanın humanistləşdirilməsinin tərəfdarı olmaqla yanaşı, hər bir cinayət əməlinə qiymət verilməsinin, cinayəti törədənlərin dövlətdə hansı vəzifə tutmalarından, xidmətlərindən asılı olmayaraq törətdiyi əmələ görə cavab verməli olmalarını tələb edirdi. Xalqın imkansız təbəqəsinin, xüsusən qaçqınların ünvanına göndərilmiş yardımların hesabına varlanmaq, sərvət toplamaq istəyənlərin əməlləri isə ölkə başçısını hiddətləndirir, belə şəxslərin yalnız məhkəmə tərəfindən cəzalandırıldıqdan, səhvlərini başa düşüb etiraf etdikdən, peşmançılıq çəkdikdən sonra əfv edilməsinin mümkünlüyünü bildirərək 27 iyun 1998-ci il tarixində qaçqınların və məcburi köçkünlərin məsələlərinə həsr olunmuş Ümumrespublika Müşavirəsində deyirdi: "…Ümumiyyətlə, hesab edirəm ki, cinayətkarı bağışlamaq olmaz. Ancaq kimisə, haradasa - əgər günahını başa düşübsə - əfv etmək olar. Bilirsiniz ki, mən çoxlarını əfv etmişəm. Ancaq bu gün də, gələcəkdə də deyirəm ki, qaçqın malına, köçkün malına, humanitar yardıma əl uzadan adamın əli kəsilməlidir. Bu adamlar qanunun tələbləri ilə, ən yüksək maddələri ilə cəzalanmalıdırlar… cinayətkarlar kimliyindən asılı olmayaraq qanun əsasında cəzalanmalıdırlar" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On altıncı kitab, s. 122-123).

13 oktyabr 1998-ci il tarixində Azərbaycanda keçirilmiş Prezident seçkiləri barədə yerli və xarici jurnalistlər üçün bəyanat və mətbuat konfransında Heydər Əliyev jurnalistin sualını cavablandıraraq deyirdi: "Sualınıza cavab verərək bəyan edirəm ki, Azərbaycanda siyasi məhbus yoxdur. Cinayət etmiş adamlar məhkəmə ilə cəza alırlar və məhkəmənin qərarını da məhkəmə özü dəyişə bilər. Mən isə son iki ildə çox humanist addımlar atmışam.

Birincisi, - dedim, yenə təkrar edirəm, - ölüm hökmünü Azərbaycanda ləğv etmişəm. Son iki ildə iki minə qədər cəza çəkən insanı cəzadan azad etmişəm, yəni bir prezident kimi, öz fərmanlarımla əfv etmişəm. Cəzaya məhkum olunmuş 40 minə qədər Azərbaycan vətəndaşları mənim təşəbbüsümlə qəbul edilmiş amnistiya vasitəsilə cəzadan azad olunublar. Mən bundan sonra da bu humanistlik fəaliyyətimi

davam etdirəcəyəm. Düşünürəm ki, bu yaxın zamanlarda yenidən amnistiya keçirilməsi haqqında təşəbbüs edəcəyəm. Əgər o müxalifətin dediyi adamlar bu amnistiyaya düşərlərsə, şübhəsiz ki, azad olunacaqlar. Ancaq yenə də deyirəm, Azərbaycanda siyasi məhbus yoxdur" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On səkkizinci kitab, s. 41).

Heydər Əliyev hər işdə olduğu kimi cinayət törətmiş şəxslərin əfv olunması barədə məsələlərə də məsuliyyətlə yanaşır, hər bir şəxsin işi ilə fərdi qaydada tanış olur, işlərin bütün detallarını aydınlaşdırdıqdan sonra qərar verirdi: "Bazar günü mən çoxlu adamın əfv edilməsi məsələsinə baxırdım və əfvolunma haqqında fərman verdim. Mən hər bir adamın işini, onun nə kimi cinayəti olduğunu, nə kimi cinayət törətdiyini, həbsdə nə qədər qaldığını, onu nə üçün əfv etməli olduğumuzu nəzərdən keçirməli idim. Bu, ciddi işdir. Mən ona bir neçə saat vaxt sərf etdim" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İyirmi səkkizinci kitab, s. 349).

Müstəqilliyini yeni bərpa etmiş, keçid dövrünün çətinliklərini addım-addım dəf edən, Ermənistanın təcavüzkar hərəkətləri nəticəsində müharibəyə cəlb olunmuş Azərbaycan dövlətinin beynəlxalq təşkilatlarda təmsilçiliyi, ölkənin beynəlxalq imicinin qaldırılması, Azərbaycanı təcrid olunmadan xilas etmək ölkə başçısının qarşısında duran əsas vəzifələrdən idi. Bu cəhətdən insan hüquq və azadlıqlarının təmin olunmasını özünün əsas məqsədlərindən biri elan etmiş Avropa Şurasına üzvlük mühüm əhəmiyyət kəsb edirdi. Ulu Öndər Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının dövlətin ali məqsədinə çevrilməsi üçün hərtərəfli fəaliyyət göstərir, bir tərəfdən qanunvericiliyin təkmilləşdirilməsi, digər tərəfdən isə məhkəmə-hüquq sahəsində islahatlar çərçivəsində insan hüquq və azadlıqlarının təmini mexanizmlərinin təkmilləşdirilməsi, yeni mexanizmlərin yaradılması, beynəlxalq təcrübənin mənimsənilməsi və onların milli səviyyədə tətbiqi, cəza siyasətinin humanistləşdirilməsi və s. sahələrdə geniş fəaliyyət həyata keçirirdi. Azərbaycanın demokratik dövlət quruculuğu yolu ilə irəliləməsinin beynəlxalq təşkilatlara çatdırılması bu sahədə görülən işlərin tərkib hissəsini təşkil edirdi. 25 yanvar 2001-ci il tarixində Av-

ropa Şurası Parlament Assambleyasındakı nitqində Heydər Əliyev deyirdi: "Mənim təşəbbüsümlə son beş ildə 55 min şəxs barəsində amnistiya elan edilmişdir. Bundan əlavə, mən 2500-dək məhbusu əfv etmişəm. Onların arasında hüquq müdafiəsi təşkilatlarının, Avropa Şurası Parlament Assambleyası deputatlarının müraciəti ilə əfv olunanlar da vardır. Bu il yanvarın 16-da mən 9 minədək şəxs barəsində amnistiya elan olunmasına dair təşəbbüslə respublika parlamentinə müraciət etmişəm. Əhalinin ümumi sayına nisbətdə məhkumların sayına görə Azərbaycan Avropa ölkələrinin göstəricilərinə yaxınlaşır.

Biz bundan sonra da Azərbaycan xalqının və dövlətinin humanizm, insanpərvərlik ideallarına və prinsiplərinə, demokratiyaya, qanunun aliliyinə, insan hüquqlarına və əsas azadlıqlara hörmət bəslənilməsinə əsaslanan dəyərlərə sadiqliyini nümayiş etdirəcəyik" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Otuz ikinci kitab, s. 171-172).

## 3.5. Amnistiya, onun hüquqi əsasları və tətbiqi qaydaları

"Amnistiya" sözü yunan mənşəli "amnestia" sözündən olmaqla unutqanlıq, bağışlama mənasını verir. Amnistiya ilə cəzadan azad edilmə qədim zamanlardan məlumdur. Onun dövlət tədbiri kimi ilkin qeyd edilməsi Qədim Yunanıstan tarixinə aiddir. Afinanın quldarlıq demokratiyası dövründə şəxsin əməlinə görə cəzalandırılmalı olması və ya olmaması, yaxud bağışlanması vətəndaşların ümumi yığıncağının qərarı əsasında həll olunurdu.

Antik dövrlərdə "amnistiya" termini həm də, müharibədən və ya daxili çəkişmələrdən sonra mövcud şikayət və tələblərə baxılmadığı, məhkəmə icraatının dayandırıldığı, verilən cəzanın ləğv edildiyi zaman barışığı ifadə edirdi.

Bu, xüsusən də Romada eramızdan əvvəl 44-cü ilin martında Sezarın öldürülməsindən sonra baş verdi. Beləliklə, amnistiya o

zaman yalnız cinayət hüququ məsələləri ilə məhdudlaşmırdı. Sonralar amnistiya daha dar mənada işlənməyə başlandı.

Amnistiya institutunun mahiyyəti ən ümumi formada ondan ibarətdir ki, ali hakimiyyət daşıyıcısı cinayətkarlara mərhəmət göstərərək, onları bağışlayır, sanki onların törətdikləri əməlləri unudur. Bütün bunlar digər məsələlərlə yanaşı, cinayətkarların qəlbində pozitiv cavab almaq ümidi ilə edilir.

Sanki cinayətkarlara rəhm edib onları bağışlayan ali hökmdarın özü də xalqın nəzakətinə ümid etmək haqqından istifadə edir. Amnistiya aktlarının qeyd olunan xarakterli ümidlərlə elan edilməsi hazırkı dövrdə də özünün aktuallığını saxlamışdır. Məsələn, Azərbaycan Respublikasının Milli Məclisi digər məsələlərlə yanaşı, "humanizm ənənələrini davam etdirərək, cinayətlərin xarakteri və ictimai təhlükəlilik dərəcəsini nəzərə alaraq, cəzadan azad olunacaq şəxslərin dövlətimizin rifahına və inkişafına öz töhfələrini verəcəklərinə ümid edərək", 5 noyabr 2021-ci ildə "8 noyabr – Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" qərar qəbul etdi.

Təcrübə göstərir ki, belə bir ümid çox vaxt özünü doğruldur. Hər halda, son illərin təcrübəsi ona şahidlik edir ki, residiv cinayət törədənlər arasında əvvəllər amnistiya tətbiq edilərək cinayət məsuliyyəti və ya cəzadan azad olunanlara nadir hallarda rast gəlmək olur.

Hüquq ədəbiyyatında amnistiya humanist və zəruri tədbir kimi qəbul edilir. Onun müsbət cəhətləri sırasında penitensiar sistemin optimallaşdırılması məqsədlərinə cavab verməsi, cəzanın yüngülləşdirilməsi, cəza çəkən şəxslərin islahına töhfə verməsi və s. qeyd olunur.

Amnistiya ali dövlət hakimiyyəti orqanının aktı olmaqla ictimai-hüquqi xarakter daşıyır. Onun göstərişləri cinayət məsuliyyətinin həyata keçirilməsi ilə bağlı bütün orqanlar və vəzifəli şəxslər üçün məcburidir və fərdi qeyri-müəyyən dairələrə şamil edilir.

Təbii ki, amnistiya aktı – özünəməxsus hüquqi sənəddir və onun xüsusiyyəti ilk növbədə zamana görə qüvvə qaydası ilə bağlı-

dır. Amnistiya aktının qüvvəsi onun verilməsindən əvvəl törədilmiş əməllərə şamil edilir və qısa zaman müddəti ilə məhdudlaşır.

Eyni zamanda, bu xüsusiyyətlər artıq törədilmiş cinayətlərin bağışlanması ideyasına əsaslanan amnistiyanın özünün mahiyyəti və məqsədləri ilə birbaşa bağlıdır.

Amnistiyaların elan edilməsi ilə nail olunması nəzərdə tutulan məqsədlərin müxtəlif xarakterinə əsasən, qeyd etmək lazımdır ki, onların məzmunu ölkənin inkişafının cinayətkarlıqla mübarizənin xüsusiyyətlərinə təsir edən siyasi və iqtisadi xüsusiyyətlərindən asılıdır. Bu da hər bir konkret amnistiya aktının xarakteri, onun tətbiqi miqyası və formalarında öz əksini tapır.

Amnistiya və əfvetmə hüquqi təbiətinə görə humanizm, mütənasiblik prinsipləri və cinayətkarlıqla mübarizə sahəsində konstitusiya dəyərlərinin tarazlığı nəzərə alınmaqla dövlət tərəfindən həyata keçirilən mərhəmət aktıdır. Bu konstitusiya səlahiyyətinin həyata keçirilməsi nəinki siyasi və iqtisadi məqsədəuyğunluqdan, ilk növbədə, ədalət və xeyirxahlığa olan inamdan, belə humanist addımın sosial şərtləndirilməsindən irəli gəlir. Bununla belə, həmin səlahiyyətlər həyata keçirilərkən Konstitusiyadan irəli gələn insan hüquqlarının birbaşa qüvvəsi, sağlamlıq, mənəviyyat, ictimai asayişin qorunması, təhlükəsizlik və s. dəyərlərə xüsusi diqqət yetirilir.

Amnistiya aktları hökmlərin qanuniliyi və ədalətliliyini şübhə altına almır. Belə ki, amnistiya və əfvetmə şəxsə bəraət qazandıran və cinayətin törədilməsi faktını aradan götürən hal deyil, barəsində tətbiq ediləcəyi şəxsə göstərilən humanizmin təzahürüdür.

Amnistiya aktı onunla razı olub-olmamasından asılı olmayaraq, təsiri altına düşən bütün şəxslərə şamil edilir. Lakin amnistiya aktına uyğun olaraq cinayət məsuliyyətindən azad edilən şəxs ona qarşı elan edilmiş ittiham üzrə özünü təqsirsiz hesab etdikdə, iş üzrə istintaqın davam etdirilməsini və işə məhkəmədə baxılmasını tələb edə bilər.

Belə halda, məhkəmə həmin şəxsin təqsirli olması qənaətinə gələrsə, amnistiya aktına əsasən, şəxs cinayət məsuliyyətindən azad

ediləcəkdir. Davam edən cinayətlər törədildikdə amnistiya yalnız o halda tətbiq edilir ki, belə cinayətin sonuncu epizodu amnistiya aktı qəbul edilənədək baş vermiş olsun. Uzanan cinayət törətmiş şəxslərə amnistiya aktı bir qayda olaraq, onların əməli amnistiya aktı qüvvəyə minənədək başa çatmış olduqda tətbiq edilir.

Amnistiya aktı özünün tətbiqi meyarlarını da müəyyən edir, bu meyarlar, əsasən, məhkumun cəzanın icrası prosesində davranışını (rejimin qərəzli pozulması halları istisna olmaqla) nəzərə almır.

Amnistiya müəyyən kateqoriyadan olan məhkumlara, məsələn, yetkinlik yaşına çatmayan uşaqları olan qadınlara, 60 yaşdan yuxarı kişilərə, I və ya II qrup əlillərə, cinayəti yetkinlik yaşına çatmamış törətmiş şəxslərə və s. şamil edilə bilər.

Amnistiya aktı özlüyündə cinayət məsuliyyətindən və ya cəzadan azad etmir, cəzanı yüngülləşdirmir və cinayət tərkibini aradan qaldırmır. Amnistiya aktı müəyyən fərdiləşdirilməmiş şəxslər dairəsinə şamil edilən müvafiq qaydaların həyata keçirilməsi üçün formal-hüquqi əsasdır. Amnistiya aktı əsasında konkret şəxslərin cinayət məsuliyyətindən azad edilməsi cinayət-prosessual qanunvericiliyinə uyğun olaraq müəyyən edilir. Belə ki amnistiya aktı cinayət işinin başlanması mərhələsində onun başlanmasından imtina edilməsi haqqında qərarla; ibtidai araşdırma mərhələsində və ya ibtidai araşdırma başa çatmış, lakin hökm çıxarılmamış işlərə münasibətdə cinayət işinə xitam verilməsi haqqında qərarla; məhkəmə baxışı mərhələsində cinayət işinə xitam verilməsi haqqında məhkəmənin qərarı ilə; məhkəmənin cəzadan və məhkumluqdan azad edilməni nəzərdə tutan ittiham hökmü ilə; cəzaçəkmə müəssisəsi rəisinin prokuror tərəfindən razılaşdırılmış qərarı və ya azadlıqdan məhrumetmə yerlərindən azad etmək üçün yaradılmış xüsusi komissiyanın qərarı ilə həyata keçirilə bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin 19-cu bəndinə əsasən amnistiyanın elan edilməsi Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətinə verilmişdir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş institutlardan biri olan cəzadan azadetmənin əsasları həmin Məcəllənin bir neçə maddəsində nəzərdə tutulmuşdur. Bu əsaslara cəzadan şərti olaraq vaxtından əvvəl azadetmə, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəzetmə, xəstəliyə görə cəzanı çəkməkdən azadetmə, hamilə qadınlar və azyaşlı uşaqları olan şəxslər tərəfindən cəzanın çəkilməsinin təxirə salınması, ittiham hökmünün icrası müddəti ilə əlaqədar cəza çəkməkdən azadetmə, amnistiya və əfvetmə aiddir (Cinayət Məcəlləsinin 76-82-ci maddələri).

Cinayət Məcəlləsinin 81-ci maddəsinə əsasən, amnistiya aktı fərdi qaydada müəyyən edilməyən şəxslər barəsində Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilir. Cinayət törətmiş şəxslər amnistiya aktı ilə cinayət məsuliyyətindən azad edilə bilərlər. Cinayət törətməyə görə məhkum olunmuş şəxslər isə cəzadan azad edilə bilərlər, yaxud onlara təyin olunmuş cəzanın müddəti azaldıla bilər və ya belə şəxslərin cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə bilər və yaxud belə şəxslər əlavə cəzadan azad edilə bilərlər. Amnistiya aktı ilə cəzasını çəkmiş şəxslərin məhkumluğu götürülə bilər.

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 39.1.12-ci maddəsi müəyyən edir ki, amnistiya aktına əsasən şəxs cinayət məsuliyyətindən azad edilməli olduqda cinayət təqibi başlanıla bilməz, başlanmış cinayət təqibinə isə xitam verilməlidir (o cümlədən, cinayət işi başlana bilməz, başlanılmış cinayət işi üzrə icraata isə xitam verilməlidir).

Həmin Məcəllənin 509-cu maddəsi, həmçinin, müəyyən edir ki, məhkəmənin hökmü çıxarıldıqdan sonra onun icrası qurtaranadək məhkum edilmiş şəxs amnistiyanın tətbiq edilməməsi və ya düzgün tətbiq edilməməsi haqqında ərizə ilə məhkəməyə müraciət etmək hüququna malikdir.

Cinayət Prosessual Məcəlləsinin 515-ci maddəsinə əsasən, cəza çəkən məhkumun barəsində amnistiyanın tətbiqi cəzanı icra

edən müəssisə və ya orqan tərəfindən amnistiya aktının müddəalarına uyğun həyata keçirilir.

Amnistiya aktının tətbiq edilməməsi və ya düzgün tətbiq edilməməsi haqqında məhkumun ərizəsinə amnistiya aktı və cinayət qanununun müddəalarına müvafiq olaraq cəzanı icra edən müəssisə və ya orqanın mülahizəsi nəzərə alınmaqla cəzanın çəkildiyi yer üzrə birinci instansiya məhkəməsi tərəfindən baxılır.

Məhkəmə tərəfindən təyin edilən cəzaların icrası və çəkilməsi, habelə cinayət-hüquqi xarakterli digər tədbirlərin tətbiqi qaydalarını və şərtlərini müəyyən edən Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 6-cı maddəsinə görə, cəzaların icrasının və cinayət-hüquqi xarakterli digər tədbirlərin tətbiqinin əsaslarını məhkəmənin qanuni qüvvəyə minmiş hökmü, qərarları, habelə amnistiya və ya əfvetmə aktları təşkil edir.

Həmin Məcəllənin 10.2-ci maddəsinə əsasən, cəzaların icrası və çəkilməsi zamanı məhkumların amnistiyanın tətbiq edilməsi hüququ vardır.

Məhkəmə cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada amnistiyanın tətbiq edilməsi məsələlərinin həlli zamanı cəzanın icrasına nəzarət edir (maddə 19.2).

Həmin Məcəllənin 167.0.5-ci maddəsində göstərilmişdir ki, digər əsaslarla yanaşı, məhkumlar cəza çəkməkdən amnistiya və ya əfvetmə aktına əsasən azad edilirlər.

Amnistiyanın tətbiqi qaydaları amnistiya aktını qəbul etmiş orqan tərəfindən müəyyən edilir (maddə 170.3).

"Amnistiya aktlarının tətbiqinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının 24 fevral 1994-cü il tarixli Qanunu ilə Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə qarşı törədilən cinayət əməlləri ilə mübarizəni gücləndirmək, təqsirli şəxslərin real məsuliyyətə cəlb olunmalarını, ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsini təmin etmək məqsədilə 1990-cı il yanvarın 19-20-də Bakı şəhərinə Sovet qoşunlarının qanunsuz yeri-

dilməsi ilə əlaqədar törədilmiş cinayətlərdə, Xocalı soyqırımının baş verməsində, Azərbaycan Respublikası torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğal edilməsində təqsirli olan şəxslər haqqında amnistiya aktlarının tətbiq olunması qadağan edilmişdir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu “Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 83.2-ci maddəsinin şərh olunmasına dair” 08 iyul 2008-ci il tarixli qərarında Cinayət Məcəlləsinin 83.2-ci maddəsinə şərh verərək qərara almışdır ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 83.2-ci maddəsi yalnız məhkəmənin ittiham hökmünə əsasən:

— cinayət məsuliyyətinə cəlbetmə müddətləri keçdiyinə görə cəza təyin edilməməsi;

— amnistiya aktına əsasən cəzadan azad edilməsi hallarını nəzərdə tutur.

Amnistiyanın peşəkarcasına səriştəli hazırlanması onun mümkün mənfi nəticələrini neytrallaşdırmağa imkan yaratmaqla, cinayət hüququnun ədalət və humanizm prinsiplərinin həyata keçirilməsinə töhfə verməyə qadirdir.

Amnistiya cinayət məsuliyyətinin diferensiallaşdırılması ilə birbaşa bağlıdır. Belə diferensiasiyanın formaları: cinayət məsuliyyətindən azadetmə; cəzadan azadetmə; cəzanın müddətini azaltma; cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəzetmə; əlavə cəzadan azadetmə; məhkumluğu götürmədən ibarət olmaqla, onların tətbiqi müxtəlif hüquqi nəticələr doğurur.

Amnistiyanın əsas məqsədlərindən biri də ilk növbədə islah və yenidən tərbiyə yoluna qədəm qoymağa hazır olanlara humanist münasibət göstərməkdir.

Amnistiya normativ-hüquqi akt olmaqla onun özünəməxsus xüsusiyyətləri var. Amnistiya elan edilməsi haqqında qərar cinayət hüququnun normalarını ləğv etmir və ya dəyişdirmir, əməlin cinayət və cəzalılığını aradan qaldırmır. Həmçinin, amnistiya aktı məhkəmə hökmünün qanuniliyini, əsaslılığını və ədalətliliyi-

ni şübhə altına qoymur. Amnistiya insanın reabilitasiyası demək deyil və yalnız cinayət törətdiyinə görə bağışlanmaqdır. Odur ki, amnistiya aktı ilə bağlı cinayət məsuliyyətindən azad edilmə yalnız təqsirləndirilən şəxsin buna etirazı olmadıqda mümkündür. Belə etirazlar olduqda, iş üzrə icraat adi qaydada davam etdirilir və məhkəmə baxışına çıxarılır, bu zaman məhkəmə ya bəraət, ya da təqsirli bilinmə ilə bağlı ittiham hökmü çıxarır, lakin şəxs amnistiya şərtlərinə cavab verirsə, amnistiya aktı ilə cəzadan azad edilir. Amnistiya aktı cinayət qanununda müəyyən edilmiş müəyyən cinayət-hüquqi nəticələrə səbəb olur: cinayət məsuliyyətindən azadetmə; cəzadan azad etmək; məhkumluğun götürülməsi. Amnistiya aktı orada göstərilən şəxslərin taleyinin yüngülləşdirilməsi (cinayət məsuliyyətindən, cəzadan azad edilməsi, cəzanın azaldılması və s.) üçün məcburi və qeyd-şərtsiz əsasdır. Bu cür əsas amnistiyanın tətbiqi həvalə edilmiş orqanların (istintaq, məhkəmə, müvafiq növ cəzanı icra edən orqanlar) mülahizəsindən və amnistiya aktının tətbiq olunduğu şəxsin sonrakı davranışından və ya hər hansı digər şərtlərdən asılı deyildir.

Amnistiya özündə cinayət törətmiş şəxsləri cinayət məsuliyyəti və onun nəticələrindən azad edən, vahid normativ bazası bir tərəfdən cinayət hüququ, bir tərəfdən də cinayət-prosessual hüquq normaları ilə formalaşan hüquq institutunu təmsil edir. Bu azadetmənin əsasını isə onun ilkin şərtlərini müəyyən edən Milli Məclisin müvafiq qərarı təşkil edir. Həmin qərar olmadan göstərilən normalar tətbiq oluna bilməz; bunlar vahid kompleks normalar olmaqla hüquqi qüvvələri ancaq onların məcmu halında tətbiqi zamanı reallaşır.

Özünün siyasi-hüquqi mənasına görə amnistiya rəhmdillik aktı kimi dövlətin cinayət qanununu tapdalayıb keçmiş vətəndaşlara münasibətdə humanizmin, genişqəlbliliyin ifadəsi olmaqla, müəyyən kateqoriyadan olan şəxslərin tamamilə və ya qismən cinayət məsuliyyəti və cəzadan azad olunmasını nəzərdə tutur.

Amnistiya qəbul edilərkən siyasi və iqtisadi məqsədəmüvafiqlik maraqları, sosial tələbatlar əsas götürülür və amnistiya aktı demokratik-hüquqi dövlətdə humanist aksiya kimi təzahür edir. Amnistiya həyata keçirilərkən onun maddi-hüquqi və prosedur qaydaları, o cümlədən Azərbaycan Respublikası Konstitusiyasının üstünlüyü və birbaşa qüvvəsi barədə müddəalar da daxil olmaqla, o, hüquqi dövlətin konstitusiya əsasları ilə uzlaşmalı, amnistiyanı icra edən dövlət orqanlarının fəaliyyəti mütənasiblik və uyğunluq tələblərinə cavab verməlidir.

Amnistiya hüquqi təbiətinə görə humanizm, mütənasiblik prinsipləri və cinayətkarlıqla mübarizə sahəsində konstitusiya dəyərlərinin tarazlığı nəzərə alınmaqla, dövlət tərəfindən həyata keçirilən mərhəmət aktıdır. Bu konstitusiya səlahiyyətinin həyata keçirilməsi nəinki siyasi və iqtisadi məqsədəuyğunluqdan, ilk növbədə, ədalət və xeyirxahlığa olan inamdan, belə humanist addımın sosial şərtləndirilməsindən irəli gəlir. Bununla belə, həmin səlahiyyətlər həyata keçirilərkən Konstitusiyadan irəli gələn insan hüquqlarının birbaşa qüvvəsi, sağlamlıq, mənəviyyat, ictimai asayişin qorunması, təhlükəsizlik və s. dəyərlərə xüsusi diqqət yetirilməlidir.

Amnistiya aktları hökmlərin qanuniliyi və ədalətliliyini şübhə altına almır. Belə ki, amnistiya və əfvetmə şəxsə bəraət qazandıran və cinayətin törədilməsi faktını aradan götürən hal deyil, barəsində tətbiq ediləcəyi şəxsə göstərilən humanizmin təzahürüdür.

Amnistiyanın konkret məzmunu amnistiya aktının özündə müəyyən edilir. Konkret amnistiyanın şamil olunduğu şəxslərin dairəsi amnistiya aktının özündə onların mümkün qədər ətraflı sadalanması ilə müəyyən edilir.

Beləliklə, amnistiya dövlət-hüquqi akt kimi aşağıdakı xüsusiyyətlərə malikdir:

Birincisi, bütün hallarda o, normativ xarakter daşıyır, yəni o, qeyri-müəyyən şəxslər dairəsinə, hansı prosessual mərhələdə olmasından asılı olmayaraq qeyri-müəyyən sayda cinayət işlərinə şamil edilir.

İkincisi, amnistiyaların qəbulu təşəbbüsü həmişə dövlət orqanından gəlir.

Üçüncüsü, amnistiya aktları həm amnistiya aktını tətbiq etməyə çağırılan hüquq-mühafizə orqanları, həm də amnistiyaya düşən şəxslər üçün ümumi məcburi xarakter daşıyır.

Dördüncüsü, amnistiya aktı yalnız şəxsin azadlığa buraxılması üçün normativ əsas yaradır, amnistiyaya düşən şəxslərin kateqoriyalarını, onun tətbiqi qaydasını və şərtlərini müəyyən edir.

## 3.6. Amnistiya və əfvin oxşar və fərqli cəhətləri

Əfv və amnistiya ayrı-ayrı hüquqi kateqoriyalar olsalar da, doğurduqları hüquqi nəticələrin yaxınlığı və bəzən də, bu nəticələrin üst-üstə düşməsi çox vaxt onların birgə və ya eyni mənada işlədilməsinə gətirib çıxarır. Həm əfv, həm də amnistiya humanizm aktıdır. Həm əfv, həm də amnistiya əsasında ayrı-ayrı və yaxud müəyyən kateqoriyadan olan şəxslərin törətdikləri cinayətlər bağışlanır, onlar cəza çəkməkdən azad olunur və ya cəzaları yüngülləşdirilir.

Həm amnistiya, həm də əfv dövlətin ali hakimiyyətinin iradəsinə əsasən qəbul olunur. Dövlətin ali hakimiyyətini həyata keçirən şəxs və ya orqan cinayət törətmiş şəxs və ya şəxsləri bağışlamaqla, onların cəmiyyətə adaptasiya olunub, xalqa xidmət istiqaməti götürəcəklərinə ümid edir. Oxşar cəhətlərə baxmayaraq, amnistiya və əfv bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Onların arasındakı aşağıdakı fərqli cəhətləri qeyd etmək olar:

1. Amnistiya normativ aktdır, əfv isə normativ xarakter daşımır. Əfv heç bir hüquq normasını əvəz etmir. Ayrı-ayrı məhkumu cəzadan azad etməklə əfv aktı başqa qaydalar yaratmır. Hətta məhkəmənin əfv olunanlar barəsində çıxardığı hökm də dəyişmir. Dövlət başçısı mühakimənin düzgünlüyü ilə bağlı olmadan şəxsin vəziyyətini yüngülləşdirir. Əfv qanunun tətbiqi aktlarına aiddir.

Əfvdən fərqli olaraq, amnistiya aktında bu aktın tətbiq ediləcəyi şəxslərin siyahısı göstərilmir.

2. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 22-ci bəndinə əsasən, yalnız ölkə Prezidentinin əfv etmək hüququ vardır. Amnistiya aktı Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin 19-cu bəndi əsasında Milli Məclisin səlahiyyətinə aiddir.

3. Əfv məhkəmə tərəfindən məhkum edilmiş və əfv fərmanında soyadı, adı, atasının adı göstərilən konkret şəxsə şamil edilir. Amnistiya isə ayrıca kateqoriyalı şəxslərə şamil edilir. Amnistiya yalnız bu amnistiya aktına məruz qalan şəxslərin kateqoriyalarını göstərir.

4. Amnistiya cinayət prosesinin istənilən mərhələsində, o cümlədən cinayət işi başlanana qədər cinayət törətmiş şəxslərə şamil edilir. Əfv yalnız cinayət törətməyə görə məhkum edilmiş şəxslərə şamil edilə bilər.

5. Bir qayda olaraq, ömürlük azadlıqdan məhrum edilmiş şəxslərə amnistiya tətbiq edilmir. Əfv bu cəzanı daha yüngül cəza ilə əvəz edə bilər.

6. Amnistiya tətbiq edilərkən məhkumun arzusu heç bir şəkildə nəzərə alınmır, yəni amnistiya aktı verərkən qanunverici onun kimə şamil ediləcəyini bilmir. Haqqında amnistiya aktı tətbiq ediləcək məhkum amnistiya aktı əsasında məhkumlar kateqoriyasına aid edilib-edilməyəcəyini əvvəlcədən bilə bilməz. Əfvdə isə təşəbbüs məhkumun özündən, nümayəndəsindən, qanuni nümayəndəsindən, vəkilindən çıxır, yəni məhkumun istəyi nəzərə alınır. Əfv birbaşa dövlət başçısına müraciəti tələb edir. Məhkum əvvəlcədən bilir ki, onun barəsində əfv fərmanının tətbiqi məsələsinə baxılır.

7. Amnistiyanın tətbiqi barədə qərar qəbul edilərkən təqsirkarın şəxsiyyətinə ciddi fərdi yanaşma və onun törətdiyi cinayətə qiymət verilməsi tələb olunmur. Əfv şəxsi xarakter, amnistiya isə obyektiv xarakter daşıyır: birincisi işin fərdi xüsusiyyətlərinə, ikincisi isə təqsirləndirilən əməllərin ictimai əhəmiyyətinə əsasla-

nır. Amnistiya və əfv bir-birindən onların qəbul olunma qaydasına, onları dərc etmək hüququ olan qurumlara görə fərqlənir.

8. Hər iki akt birdəfəlik tətbiqetmə üçün nəzərdə tutulsa da, əfvetmə yalnız qanuni qüvvəyə minmiş hökm əsasında məhkum edilmiş şəxslərə münasibətdə, amnistiya aktı isə cinayət prosesinin istənilən mərhələsində tətbiq edilə bilər.

9. Bu aktlar arasında daha bir fərq ondan ibarətdir ki, əfvetmə fərdi qaydada müəyyən edilmiş şəxslər, amnistiya isə fərdi qaydada müəyyən olunmayan şəxslər barəsində qəbul edildiyinə görə, bu aktların subyektiv tərkibinin müəyyən olub-olmaması baxımından onların tətbiq edilmə formaları da fərqlənir.

9. Əfvetmə müraciət əsasında tətbiq edildiyindən, məhkum edilmiş şəxsin işi Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyası tərəfindən araşdırılır, onun əfv edilməsinin mümkünlüyü barəsində müvafiq qurumların rəyləri alınır, baxılmış sənədlər qəti qərar qəbul edilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim olunur. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyul tarixli Fərmanı ilə təsdiq edilmiş "Əfvetmə haqqında Əsasnamə"nin 36-cı bəndinə uyğun olaraq, cəzanı icra edən orqan əfvetmə haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamını təxirə salınmadan icra etməlidir.

Qeyri-müəyyən şəxslər dairəsinə ünvanlanan amnistiyanın elan edilməsi isə birbaşa olaraq cinayəti törədən şəxsin hüquqi vəziyyətini dəyişmir. Bu akt konkret şəxslərin dəqiq hüquq və vəzifələrini deyil, müvafiq şəxslər dairəsinin hüquqi statusunun dəyişməsini şərtləndirən hüquqi faktları müəyyən edir. Belə ki, müəyyən bir şəxsə münasibətdə amnistiya aktının tətbiq edilməsi üçün əsasların olub-olmaması yoxlanıldıqdan sonra hüquqtətbiqedici tərəfindən müvafiq qərar qəbul edilməlidir.

Beləliklə, amnistiya aktının onun təsiri altına düşən şəxslər barəsində tətbiq edilib-edilməməsinin mümkünlüyünün yoxlanılması qərarla müəyyən edilmiş müvafiq orqan tərəfindən həyata keçirilir.

## 3.7. Heydər Əliyevin amnistiya haqqında fikirləri

Heydər Əliyev amnistiya aktının qəbul olunması ilə əlaqədar Milli Məclisə müraciət edərkən qəbul ediləcək aktın təsiri altına düşəcək şəxslərin səmimi peşmançılığını nəzərə alır, həmin şəxslərin islah olunduqlarına inanırdı.

5 may 1998-ci il tarixində Heydər Əliyev Azərbaycan Respublikasının Milli Məclisinə müraciət edərək 1998-ci il may ayının 28-də xalqımızın Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyini təntənəli surətdə qeyd etməsi ilə əlaqədar müstəqilliyimizin və dövlətçiliyimizin tarixində bu əlamətdar hadisə münasibətilə amnistiya verilməsini mümkün saydığını bildirdi. Müraciətdə həmçinin deyilirdi: "Məhkumlardan, onların valideynlərindən, yaxın qohumlarından daxil olan müraciətlərdən aydın olur ki, məhkum olunanlar törətdikləri əməllərdən səmimi peşmançılıq çəkir, islah olunduqlarını və qanunlara əməl edəcəklərini vəd edirlər.

Amnistiya olunmaq üçün təklif edilən şəxslər arasında Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüşlərdə iştirak etmiş şəxslər, habelə həmin döyüşlərdə həlak olmuş və ya itkin düşmüş şəxslərin yaxın qohumları, 1990-cı il 20 Yanvar faciəsində xəsarət almış şəxslər və ya həmin hadisələrdə şəhid olmuş şəxslərin yaxın qohumları, Xocalı soyqırımına məruz qalmış şəxslər və onların yaxın qohumları, Azərbaycan Respublikasının orden və medalları ilə təltif olunmuş şəxslər vardır.

Hesab edirəm ki, bu şəxslərə etimad göstərilib, onların azadlığa buraxılması dövlətimizin humanist siyasətinin təzahürü kimi, insanlara böyük qayğının nümayişi olardı.

Həm məhkumların, həm də dövlətin mənafelərinə uyğun olan bu amnistiya aktının vətəndaşlarımızın tezliklə cəmiyyətə qovuşmalarına, müstəqil dövlətimizin layiqli vətəndaşları olmalarına, onların qanunlara hörmət ruhunda tərbiyəsinə müsbət təsir göstərəcəyinə inanıram.

Amnistiya haqqında qərar qəbul olunduğu təqdirdə cinayət məsuliyyətinə cəlb edilmiş və ya məhkəmə hökmü ilə məhkum edilmiş

on mindən artıq insan tamamilə və ya qismən cəzadan azad olunacaqlar. Onlardan iki minə qədər şəxsin azadlıqdan məhrumetmə yerlərindən azad edilməsi, əməyə mütləq cəlb edilməklə azadlıqdan məhrumetməyə şərti məhkum olunmuş üç minə qədər şəxsin isə xüsusi komendantlıqlardan azadlığa buraxılması və azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan azad olunması nəzərdə tutulur.

Milli Məclis belə bir amnistiya haqqında müvafiq qərar qəbul edərsə, bu, Azərbaycan dövlətinin humanistlik, insanpərvərlik və ədalət prinsiplərinə sadiq olduğunu bir daha nümayiş etdirəcək.

Bütün bunları nəzərə alaraq, Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi münasibətilə amnistiya haqqında qərar layihəsini Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinə uyğun olaraq müzakirənizə təqdim edirəm" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On beşinci kitab, s. 258-259).

27 may 1998-ci il tarixində Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə ölkədə cəza siyasətinin humanistləşdirilməsi sahəsində görülən işlərə və perspektivdə görülməli olan tədbirlərə münasibətini bildirən Heydər Əliyev qeyd edirdi ki, "...Biz cəza tədbirlərinin humanistləşdirilməsi sahəsində də çox işlər görmüşük və görürük. Hüquqi islahatlar aparırıq, bu sahədəki tədbirlərimiz öz nəticəsini verir. Bilirsiniz ki, Şərq aləmində ilk dəfə olaraq bu ilin əvvəlində Azərbaycanda ölüm hökmü ləğv edildi. Bu, Azərbaycan dövlətinin, hökumətinin nə qədər demokratik, nə qədər humanist olduğunu dünyaya bir daha nümayiş etdirdi.

Cinayət edərək cəza çəkənlərə də bir çox əfv və amnistiya aktları tətbiq olunubdur. Mənim verdiyim fərmanlarla son üç ildə həbs cəzası çəkən 1800 nəfər əfv edilibdir. Mənim təşəbbüsümlə və Milli Məclisin qəbul etdiyi qərarla üç amnistiya həyata keçirilib, 37 min Azərbaycan vətəndaşı cəzadan azad olunub, onların əksəriyyəti həbsxanalardan buraxılıbdır. Bunlar hamısı bizim bir tərəfdən qanunçuluğu möhkəmləndirmək, ikinci tərəfdən də cəza qanunlarını humanistləşdirmək xəttimizi, eyni zamanda insanlara rəhm, humanistlik etməyimizi göstərir.

Biz bu siyasətimizi bundan sonra da davam etdirəcəyik" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On beşinci kitab, s. 407-408).

18 oktyabr 1998-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə andiçmə mərasimindəki nitqində Heydər Əliyev ictimai-siyasi sabitlik, cinayətkarlıqla mübarizə və cəza siyasətinin humanistləşdirilməsi məsələləri ilə əlaqədar bildirdi ki, "Azərbaycanda ictimai-siyasi sabitliyi təmin etmək üçün dövlət orqanları cinayətkarlıqla mübarizəni gücləndirmişlər. Bu gün məmnuniyyətlə deyə bilərəm ki, bu mübarizə öz müsbət nəticələrini vermişdir. Bir neçə il bundan əvvəl Azərbaycanda mövcud olan mütəşəkkil cinayətkarlar dəstəsi zərərsizləşdirilmiş, ləğv olunmuş, cinayətkarlar cəzalandırılmış və beləliklə də Azərbaycan vətəndaşlarının rahat yaşaması, işləməsi, fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmışdır. Ancaq bununla yanaşı, biz ötən illərdə Azərbaycanda bir tərəfdən dövlətçiliyi möhkəmləndirərək, qanun-qayda yaradaraq, nizam-intizamın gözlənilməsinə nail olaraq, eyni zamanda humanistlik siyasətini aparmışıq" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On səkkizinci kitab, s. 58-59).

6 noyabr 1998-ci il tarixində Azərbaycan Respublikası Nazirlər Kabinetinin ölkənin iqtisadi-sosial inkişafının yekunlarına həsr olunmuş geniş iclasında Heydər Əliyev Azərbaycanda insan haqlarının qorunması sahəsində görülən işlərə verilən yüksək qiymətdən, mətbuat azadlığı, fikir azadlığı, ölüm hökmünün ləğv edilməsi, insanların amnistiya və əfv vasitəsilə cəzadan azad olunmasından söhbət açaraq deyirdi:

"Azərbaycanda insan haqlarının qorunması sahəsində görülən işlər dünya miqyasında qiymətləndirilibdir. Siz Azərbaycanda görülən işlər haqqında Helsinki qrupunun, Londondakı İnsan Hüquqları İnstitutunun bəyanatını oxudunuz. Ölüm hökmünün ləğv edilməsi, nə qədər insanların amnistiya vasitəsilə, əfv vasitəsilə cəzadan azad olunması. Mən oktyabr ayının 18-də demişəm, bu yaxın vaxtlarda bu barədə mən yeni təşəbbüslər irəli sürəcəyəm. Bunların hamısı - mətbuat azadlığı, fikir azadlığı, - bunların hamısı Azərbaycanda demokratiyanın varlığını göstərir, Azərbaycanda demokratik şəraiti göstərir

və hər bir müxalifət təşkilatına normal fəaliyyət şəraiti yaranmasını göstərir. Bu şəraitdən istifadə edərək normal fəaliyyət göstərmək lazımdır. Dağıdıcı fəaliyyətə biz yol verməyəcəyik... (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On səkkizinci kitab, s. 205-206).

24 dekabr 1998-ci ildə Heydər Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün qeyd olunması münasibətilə amnistiya verilməsi üçün Milli Məclisə müraciət etdi. Müraciətdə bildirilirdi: "1998-ci il dekabr ayının 31-də bütün dünyada yaşayan soydaşlarımız böyük iftixarla və qürur hissi ilə Dünya azərbaycanlılarının həmrəyliyi gününü qeyd edəcəkdir.

Azərbaycanlılar min illərlə öz tarixi, etnik, doğma torpaqlarında - böyük Azərbaycanda yaşayıb yaratmış, bəşər sivilizasiyasına dəyərli töhfələr vermişlər. Lakin dünyada gedən müharibələr, inqilablar, hərbi münaqişələr və ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, azərbaycanlıların bir qismi yerlərindən-yurdlarından kütləvi surətdə sürgün, deportasiya olunmuş, repressiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşdür.

Dünya azərbaycanlılarının birliyi müstəqil və azad Azərbaycan ideyalarının həyata keçirilməsində, ümummilli məqsədlərimizin gerçəkləşməsində, dövlət müstəqilliyimizin möhkəmləndirilməsində və dövlətçilik ənənələrimizin inkişaf etdirilməsində müstəsna əhəmiyyət kəsb edir. Bu isə dünya azərbaycanlılarının gələcəyə inamını, mübarizə əzmini və qətiyyətini nümayiş etdirir.

Dünya azərbaycanlılarının əbədi və sarsılmaz həmrəyliyini təcəssüm etdirən bu tarixi gün münasibətilə amnistiya aktının qəbul edilməsi dövlətimizin humanist siyasətinin, insan hüquq və azadlıqlarına hörmət və ehtiramının təzahürü olardı.

Amnistiyanın Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında xidməti olmuş, soyqırımına, repressiyalara, sürgünlərə, deportasiyalara məruz qalmış, vətən uğrunda döyüşlərdə iştirak etmiş şəxslərə, həmin döyüşlərdə həlak olmuş, itkin düşmüş şəxslərin yaxın qohumlarına, habelə əlillərə, qadınlara, həddi-büluğa çatmamışlara və digərlərinə tətbiq olunması nəzərdə tutulur.

...Əminəm ki, amnistiya aktı qəbul olunduğu təqdirdə cinayət məsuliyyətindən və cəzalardan azad edilən minlərlə insan göstərilən etimaddan düzgün nəticə çıxaracaq, tezliklə cəmiyyətə qovuşacaq, qanunlara hörmət ruhunda davranacaqlar. Bu humanist addım cəzadan azad olunan şəxslərin əqidəsini və iradəsini möhkəmləndirəcək, onların gələcəyə inamını artıracaq və böyük məsuliyyət hissi ilə azərbaycanlıların həmrəyliyinə, birliyinə çalışmağa sövq edəcəkdir.

İnsan hüquqlarının və azadlıqlarının təmin edilməsini özünün ali məqsədi hesab edən Azərbaycan dövləti amnistiya aktını qəbul etməklə humanistlik, insanpərvərlik və ədalət prinsiplərinə sadiq olduğunu bir daha nümayiş etdirəcəkdir.

Bütün bunları nəzərə alaraq Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinə uyğun olaraq «Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibətilə amnistiya haqqında» qərar layihəsini müzakirənizə təqdim edirəm" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On səkkizinci  kitab, s. 460-461).

31 dekabr 1998-ci il tarixində Heydər Əliyev Azərbaycan xalqına Yeni il təbrikində Azərbaycanda  həyata keçirilən humanistlik siyasətindən söhbət açaraq deyirdi: "1998-ci il dünyada Birləşmiş Millətlər Təşkilatının İnsan Haqlarının Qorunması haqqında qəbul etdiyi bəyannamənin 50-ci ildönümü olubdur. Azərbaycanda bu sahədə çox işlər görülübdür və respublikamız demokratik dövlət kimi insan haqlarına sadiq olduğunu dünyada bir daha nümayiş etdiribdir.

Azərbaycan demokratik ölkə olaraq humanistlik siyasətini ardıcıl surətdə həyata keçirir. Şərq aləmində ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv edilibdir. Humanist siyasətimizin nəticəsində Azərbaycanda bir çox insanlara cəzadan azad olmaq imkanları verilibdir. Mənim təşəbbüsümlə bir il müddətində iki dəfə böyük amnistiyalar qəbul olunubdur. Bu iki amnistiya əsasında 24 min Azərbaycan vətəndaşı cəza çəkməkdən azad edilibdir. Cəza çəkən 270 nəfərdən artıq insan mənim fərmanlarımla əfv olunubdur. 1998-ci ildə Azərbaycanda söz, mətbuat, fikir azadlığı sahəsində də yeni addımlar atılıbdır və cəmiyyə-

timiz üçün bütün müsbət nəticələri də artıq göz qabağındadır” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On səkkizinci kitab, s. 476).

Müharibələri daim lənətləyən, sülh və barışı insanlıq üçün mühüm amil hesab edən, Azərbaycan üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə nizama salmağa çalışan, “bəşəriyyətin keçmişinin bizə dəhşətli müharibələrdən xəbər verdiyinə baxmayaraq, inanırıq ki, onun gələcəyi sülhdür” – deyən Heydər Əliyevin amnistiya elan edilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisinə sonuncu müraciəti məhz “İkinci dünya müharibəsində faşizm üzərində qələbənin ildönümü münasibətilə amnistiya haqqında” idi. Heydər Əliyev amnistiya verilməsi ilə bağlı Azərbaycan Respublikasının Milli Məclisinə 2 may 2003-cü il tarixli müraciətini aşağıdakı kimi əsaslandırırdı: “Bir neçə gündən sonra sülh və insanlıq əleyhinə ən dəhşətli müharibə olan İkinci dünya müharibəsində faşizm üzərində qələbənin ildönümü qeyd ediləcəkdir. İkinci dünya müharibəsi böyük itkilərə, faciə və məhrumiyyətlərə səbəb olsa da, faşizm üzərində qələbə ilə başa çatmış bu qələbə bəşəriyyəti böyük faciələrdən xilas etmiş, dünyanın sonrakı demokratik və azad inkişafına mühüm təsir göstərmişdir. Bütün mütərəqqi qüvvələrlə birlikdə Azərbaycan xalqı həm ön, həm də arxa cəbhədə qələbə uğrunda mübarizəyə öz dəyərli töhfələrini vermiş, xalqımızın mərd övladları müharibədə cəsarətlə vuruşmuş, ağır və qanlı döyüşlərdə böyük qəhrəmanlıq nümunələri göstərmişlər. Məhz buna görə də biz bu qələbəni böyük qürur hissi ilə qeyd edirik.

Bəşəriyyətin keçmişinin bizə dəhşətli müharibələrdən xəbər verdiyinə baxmayaraq, inanırıq ki, onun gələcəyi sülhdür. Bu inama sadiq olaraq və bütün insanlara sülh arzulayaraq, İkinci dünya müharibəsində iştirak etmiş Azərbaycan vətəndaşlarına ehtiram, həlak olmuş həmvətənlərimizin xatirəsinə hörmət əlaməti olaraq, humanizm və insanpərvərlik ənənələrini davam etdirərək, ümumbəşəri dəyərlərə və demokratiya ideallarına əsaslanaraq, İkinci dünya müharibəsində faşizm üzərində qələbənin ildönümü münasibətilə amnistiyanın elan edilməsini mümkün hesab edirəm.

Amnistiya aktının layihəsinə əsasən, İkinci dünya müharibəsi dövründə faşizmə qarşı döyüşlərdə iştirak etmiş, eləcə də həmin dövrdə keçmiş SSRİ Silahlı Qüvvələrində və arxa cəbhədə xidmət etmiş və qanunvericiliklə müəyyən edilmiş qaydada bunlara bərabər tutulan şəxslər, habelə Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda döyüşlərdə iştirak etmiş şəxslər, həmçinin bu döyüşlərdə həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları barəsində amnistiya tətbiq olunaraq, onların cəzadan azad edilməsi, habelə cinayət təqibinə xitam verilməsi nəzərdə tutulur.

Həmçinin, 1948–1953 və 1988-ci illərdə etnik təmizləmə, terrorçuluq və soyqırımı siyasəti nəticəsində Ermənistandan deportasiya olunmuş, 1988–1993-cü illərdə Azərbaycan ərazisinin bir hissəsinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı nəticəsində öz doğma torpaqlarından məcburi köçürülmüş, 1990-cı il 20 Yanvar faciəsində və Xocalı soyqırımında əlil olmuş şəxslərə və şəhid olmuş şəxslərin yaxın qohumlarına, orden və medallarla təltif olunmuş, keçmiş SSRİ dövründə repressiyalara məruz qalaraq sonradan reabilitasiya olunmuş şəxslərə, birinci və ikinci qrup əlillərə, qadınlara, 60 yaşına çatmış kişilərə, cinayət törədərkən 18 yaşına çatmayanlara və bəzi digər şəxslərə də amnistiya şamil ediləcəkdir.

Göstərilənlərdən əlavə, ehtiyatsızlıqdan cinayət törətdiyinə görə beş ildən, qəsdən cinayət törətdiyinə görə üç ildən artıq olmayan müddətə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər də cəzadan azad ediləcək, daha artıq müddətə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslərin isə cəzalarının çəkilməmiş hissəsi azaldılacaqdır...” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Qırx dördüncü kitab, s. 301--304).

## 3.8. Heydər Əliyevin ideyaları reallığa çevrilməkdə davam edir

Humanizm (lat. humanus- insana məxsus, insani) insan dəyərini şəxsiyyətin azadlığa, xoşbəxtliyə, inkişafa doğru öz qabiliyyətini nümayiş etdirmək hüququ kimi tanıyan; insan rifahını sosial institutların meyarı kimi dəyərləndirən; bərabərlik, ədalətlilik, insanpərvərlik prinsiplərini isə insanlar arasında arzuolunan münasibət norması kimi qiymətləndirən tarixən dəyişkən dünyabaxışı sistemidir.

Mərhəmət, insanpərvərlik, səhvləri bağışlamaq, humanist rəftar Ümummilli Lider Heydər Əliyevə xas cəhətlərdən idi. Ölkə başçısının şəxsi keyfiyyətləri zaman-zaman dövlət siyasətinə hoparaq humanizm ideyalarını dövlət siyasətinin əsas prioritetlərindən birinə çevirmişdir. Cinayət qanunvericiliyi, cəza sistemi ildən-ilə daha da humanistləşdirilmiş, mütəmadi olaraq cinayət törətmiş şəxslərin əfv edilməsi, amnistiya aktları əsasında bağışlanması ənənəyə çevrilmişdir.

Ümummilli Lider cəzanın humanistləşdirməsi sahəsində fəaliyyəti ilə bağlı əfvetmə, amnistiya institutuna canlanma gətirməklə vətəndaşların, xüsusən də onun həssas təbəqəsi olan məhkumların dövlətə ümid və etimadını artırmış, onların bilik və bacarıqlarını vətənə, xalqa xidmətə sərf etmələrinə şərait yaratmışdır. Bu tədbirlər eyni zamanda məhkəmə-hüquq sistemində məhkumlarla işin təşkili və icrası üçün işlək, çevik və səmərəli mexanizmlərdən istifadə edilməsinə rəvac vermişdir. Bir tərəfdən cinayətlərin vaxtında aşkar edilib cinayətkarların cəzalandırılması, digər tərəfdən isə cəzanın humanistləşdirilməsi ədalət mühakiməsinin faydalılığını artırmış, vətəndaşlarda məhkəmələrə inamı daha da möhkəmləndirmişdir.

1995-2003-cü illərdə Heydər Əliyev tərəfindən 32 əfv fərmanı imzalanmış və bu, 3104 məhkuma şamil edilmişdir. Həmçinin, 1996-2003-cü illərdə 7 dəfə amnistiya elan edilmişdir. Amnistiya aktları törətdiyi cinayət əməlindən peşmançılıq hissi keçirən 77 mindən çox

insana şamil edilmiş, 21 min 325 nəfər cəzasının çəkilməmiş hissəsindən azad olunmuşdur.

2003-cü ildən sonra Heydər Əliyev ideyalarının reallığa çevrilməsi sahəsində kompleks fəaliyyət cinayət qanunvericiliyinin humanistləşdirilməsi və məhkumlara münasibətdə humanist addımların davam etdirilməsi üçün əsas olmuş, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 35 əfv sərəncamı imzalanmış, nəticədə 10 minə yaxın şəxs cəzadan azad edilmiş, bunların da 95 faizi məhz azadlıqdan məhrumetmə cəzasının qalan hissəsindən azad edilmişdir.

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Milli Məclis tərəfindən amnistiya aktlarının qəbul edilməsi Ulu Öndərin əsasını qoyduğu xeyirxahlıq ənənələrinin davamının əyani təcəssümünə çevrilmişdir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2007-ci ildən başlayaraq qəbul edilmiş amnistiya aktları əsasında 30 minə yaxın məhkum müxtəlif növ cəzalardan azad edilmişdir.

Mehriban xanım Əliyeva hələ 2007-ci ildə Ulu Öndərin anadan olmasının 84 illiyi münasibətilə amnistiya elan edilməsi barədə parlament qarşısında təşəbbüs qaldırmış və konkret qərar layihəsini təqdim etmişdi. Qəbul edilən amnistiya qərarı o zaman 9877 nəfər məhkuma şamil edilmişdi. Penitensiar Xidmət müəssisələrində cəza çəkən 2861, intizam xarakterli hərbi hissədə saxlama cəzası çəkən 104, islah işləri növündə cəza çəkən 2091, ictimai işlər növündə cəza çəkən 226 və maddi vəziyyəti ilə əlaqədar 3 milyon manatdan artıq məbləğdə cəriməni ödəyə bilməyən 4225 məhkum amnistiya nəticəsində cəzalardan azad edildi. Həmçinin, şərti məhkum edilmiş, cəzasının çəkilməsi təxirə salınmış və cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş 370 məhkum barəsində də amnistiya tətbiq olundu.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2009-cu ilin mart ayında "Novruz bayramı münasibətilə amnistiya elan edilməsi haqqında" qərar qəbul edildi.

Böyük ictimai təhlükə törətməyən və bir sıra az ağır cinayətlərə görə məhkum edilmiş qadınlar, cinayət törədərkən 18 yaşına çatmayanlar, birinci və ya ikinci qrup əlillər, 60 yaşına çatmış kişilər, öhdəsində yetkinlik yaşına çatmayan, yaxud birinci və ya ikinci qrup əlil övladı olanlar amnistiyanın təsir dairəsinə düşdülər. Qərar, həmçinin, azadlıqdan məhrum edilmiş və cəzalarının bitməsinə bir il qalmış, islah işləri, ictimai işlər cəzasına məhkum edilmiş şəxslərə, habelə cərimə cəzasına məhkum edilmiş, cəzasının çəkilməsi təxirə salınmış, şərti məhkum edilmiş və digər qruplara daxil olan bir sıra məhkumlara da şamil edildi.

Növbəti dəfə 2013-cü il mayın 7-də Milli Məclis Heydər Əliyev Fondunun təşəbbüsünü dəstəkləyərək Ümummilli Liderin 90 illik yubileyi münasibətilə "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi münasibətilə amnistiya elan edilməsi haqqında" qərar qəbul etdi. Qərar 10 min 40 nəfər şəxsi əhatə etdi və Penitensiar Xidmət üzrə 2834 nəfər məhkuma tətbiq olundu. Onlardan 679 nəfər cəzaçəkmə müəssisələrindən, 1588 nəfər məntəqə tipli cəzaçəkmə müəssisələrindən azad edildi, 567 nəfərin isə cəza müddəti 6 ay azaldıldı.

Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva cinayət törətmiş şəxslərin öz əməllərini və onların nəticələrini dərk etməklə islah olunacaqlarına ümid edərək, 28 May - Respublika Günü münasibətilə amnistiyanın elan edilməsini təklif etdi. Bununla bağlı qərar layihəsi parlamentin mayın 20-də keçirilən iclasında müzakirəyə çıxarılaraq qəbul olundu.

Qəbul edilmiş qərara əsasən, böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum edilmiş bütün şəxslər cəzadan azad edildi. Bundan əlavə, bir sıra cinayətlərə görə məhkum edilmiş qadınlar, yetkinlik yaşına çatmayanlar, əlillər, qocalar və ahıllar, öhdəsində yetkinlik yaşına çatmayan və ya əlil övladı olanlar və bəzi digər kateqoriyalardan olan şəxslər azadlıqdan məhrumetmə cəzasından azad edildilər. Amnistiya aktı Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün qorunması uğrunda döyüşlərdə iştirak etmiş şəxsləri, həmçinin bu döyüşlərdə həlak olmuş və ya itkin düşmüş şəxslərin yaxın qohumlarını əhatə edirdi. Bun-

dan başqa, islah işlərinə, ictimai işlərə, cərimə cəzalarına məhkum edilmiş şəxslərə də amnistiya şamil edildi. Ümumi olaraq 10 min məhkum amnistiya aktının təsiri altına düşərək, onlardan 3 min 500-ə yaxın şəxs cəzaçəkmə müəssisələrindən azad edildi.

Amnistiya ilə bağlı sonuncu qərar - "8 Noyabr – Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 5 noyabr 2021-ci il tarixində Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edildi. Zəfər Günü münasibətilə həyata keçirilən amnistiya dövlətin humanist siyasətinin növbəti təzahürü idi.

Qərarın preambulasında həmin amnistiyanın qəbulunu şərtləndirən və hər bir azərbaycanlının ürəyindən xəbər verən əlamətlər öz əksini tapmışdı:

— Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin əzəli torpaqlarımız olan Qarabağı və Şərqi Zəngəzuru uzun sürən işğaldan azad etməsini;

— 2020-ci il noyabrın 8-də Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olan Şuşa şəhərinin qəhrəman Azərbaycan övladlarının hədsiz Vətən sevgisi və şücaəti sayəsində düşmən əsarətindən azad edilməsinin müharibənin gedişində həlledici rol oynadığını və Ermənistan Respublikasının təslim olması ilə nəticələnməsini;

— 8 noyabr tarixinin həmçinin uzun illər işğal altında olan torpaqlarımızın azad edilməsi üçün misilsiz səylər göstərmiş ümummilli lider Heydər Əliyevin vəsiyyətinin həyata keçirildiyi gün olmasını;

— Vətən müharibəsi dövründə yüksək əzm, möhkəm iradə, vahid amal ətrafında birləşmək, bütün gücünü və imkanlarını səfərbər etmək, əsgərinə, şəhid və qazilərinə sonsuz ehtiram kimi ali xüsusiyyətlərini nümayiş etdirmiş Azərbaycan xalqının özünəgüvən hissinin və qələbə ruhunun Zəfər Günü ilə daha da yüksəlməsini;

— Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi ilə bərqərar olmuş ədalət və hüququn aliliyi ideallarının hər bir dövlət və cəmiyyət üçün əhəmiyyətini qeyd edərək;

— Vətən müharibəsində qazanılmış tarixi qələbənin birinci ildönümü ilə bağlı bu qələbənin memarı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən irəli sürülmüş təşəbbüsü dəstəkləyərək, Azərbaycan Respublikasının Milli Məclisi 8 Noyabr – Zəfər Günü münasibətilə amnistiyanın elan edilməsini qərara almışdı.

Qərarın "Amnistiya tətbiq edilən şəxslərin dairəsi" adlanan 1-ci bölməsində təyin edilmiş cəzanın müddətindən asılı olmayaraq müəyyən müddətə azadlıqdan məhrumetmə cəzasından azad ediləcək məhkumların kateqoriyası, ayrı-ayrı cinayətləri törətmiş şəxslər və ya törətdikləri cinayətə görə təyin olunmuş cəzaların xarakterinə görə cəzadan azad olunmalı olan şəxslər qeyd olunmuşdu.

Qərarın 2-ci - "Amnistiyanın tətbiqinə məhdudiyyətlər" bölməsində Cinayət Məcəlləsinin 15.4-cü və 15.5-ci maddələrində nəzərdə tutulmuş ağır və xüsusilə ağır, həmçinin qərarda sadalanan ayrı-ayrı cinayətləri törədən şəxslərə amnistiyanın tətbiq olunmadığı qeyd olunurdu.

İkinci bölmədə həmçinin qeyd olunurdu ki, Qərar tətbiq olunanadək maddi ziyanı tam ödəməmiş şəxslər; təhlükəli və ya xüsusilə təhlükəli residiv yaradan cinayətlərə görə məhkum olunmuş və ya 2000-ci il sentyabrın 1-dək qüvvədə olmuş Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən xüsusi təhlükəli residivist hesab olunmuş şəxslər; 1991-ci il oktyabrın 18-dən sonra amnistiya və ya əfvetmə aktları ilə qəsdən törədilmiş cinayətlərə görə cəzaçəkmə müəssisələrində azadlıqdan məhrumetmə cəzasını çəkməkdən azad olunmuş və yenidən qəsdən cinayət törətmiş şəxslər; cəzaçəkmə müəssisələrində və ya intizam xarakterli hərbi hissədə cəza çəkərkən, habelə həbs yerlərində saxlanılarkən qəsdən cinayət törətmiş şəxslərə də amnistiya şamil olunmayacaqdır.

Həmin bölmədə həmçinin göstərilirdi ki, "Amnistiya aktlarının tətbiqinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının 1994-cü il 24 fevral tarixli 793 nömrəli Qanununda nəzərdə tutulmuş şəxslər barəsində amnistiya tətbiq edilmir.

Qərarın "Amnistiya aktının hüquqi qüvvəsi" adlanan 3-cü bölməsində Qərarın qəbul olunduğu gündən qüvvəyə minməsi qeyd olunmaqla, tətbiq edildiyi şəxslərin dairəsi müəyyən edilmişdi.

Qərarın 4-cü bölməsi "Amnistiyanın tətbiqi qaydaları" adlanmaqla, həmin bölmədə sənədin hansı qaydada tətbiq edilməli olduğu öz əksini tapmışdı.

Amnistiya aktının icrasının yekunlarına dair dövlət orqanlarından daxil olmuş məlumatların təhlili nəticəsində həmin aktın 17 min 267 şəxsə şamil olunduğu müəyyən edilib. Bu qərar tətbiq olunan şəxslərin sayına görə əvvəllər qəbul edilmiş ən geniş amnistiyadır. Amnistiyanın tətbiq olunduğu şəxslərdən 733-ü Vətən müharibəsinin iştirakçısı, 837-si qadın, 65-i yetkinlik yaşına çatmayanlardır.

Amnistiya qərarı azadlıqdan məhrumetmə yerlərində cəza çəkən 5971 məhkuma tətbiq edilib. Onlardan 2710 məhkum azadlıqdan məhrumetmə cəzasından azad olunub, 3261 məhkumun cəzasının çəkilməmiş müddəti 6 ay azaldılıb.

Həmçinin, azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzalara məhkum edilmiş 8559 şəxsə amnistiya tətbiq edilib. Onlardan 5722 məhkum cəzadan azad edilib, 2837 məhkumun cəzası azaldılıb. Belə ki, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 1909, islah işləri cəzasına məhkum olunmuş 2471, ictimai işlər cəzasına məhkum edilmiş 86, cərimə cəzasına məhkum edilmiş 1202 və digər cəzalara məhkum olunmuş 54 şəxs bu cəzalardan azad edilib. Şərti məhkum edilmiş, cəzasının çəkilməsi təxirə salınmış və cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş 62 məhkum barəsində də amnistiya tətbiq olunub.

Bundan əlavə, məhkəmələrin icraatında olan işlər üzrə 890, ibtidai istintaq orqanlarının icraatında olan işlər üzrə isə 1785 şəxsə amnistiya tətbiq edilib.

Ümumilikdə, 1995-ci ildən etibarən qəbul edilən 12 amnistiya aktı təxminən 135 min şəxsə tətbiq edilib, 32 mindən çox məhkum cəzaçəkmə müəssisələrindən azad olunub.

Qeyd olunanlar ona dəlalət edir ki, Heydər Əliyevin ideyaları yaşayır və yaşadıqca da reallıqda ifadəsini tapır. Heydər Əliyev yolu inam, etimad, inkişaf, zəfər yoludur. Bu yolun bizi işıqlı gələcəyə aparmasına heç vaxt ümidimizi itirməməli, Heydər Əliyevin ideyalarının həyata keçirilməsi üçün hər birimiz əzmkarlığımızı nümayiş etdirməliyik.

## 3.9. Ölüm cəzasının ləğvi Avropa Şurasına üzvlüyün zəruri şərti kimi

"İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının 2-ci maddəsinə əsasən:

1. Hər kəsin yaşamaq hüququ qanunla qorunur. Heç kəs, qanunla ölüm cəzası nəzərdə tutulmuş cinayət törətməyə görə, məhkəmə tərəfindən çıxarılmış belə hökmün icrasından başqa, həyatından məhrum edilə bilməz.

2. Həyatdan məhrumetmə, aşağıdakı məqsədlər üçün güc tətbiqində mütləq zərurətin nəticəsi olduqda, bu maddənin pozulması hesab edilmir:

(a) istənilən şəxsin hüquqa zidd zorakılıqdan qorunması üçün;

(b) qanuni həbsi həyata keçirmək və ya qanuni əsaslarla həbsdə olan şəxsin qaçmasının qarşısını almaq üçün;

(c) qanuna müvafiq olaraq iğtişaş və ya qiyamın yatırılması üçün".

Yaşamaq hüququ bütün insan hüquqları arasında ən əsasıdır: yaşamaq hüququndan qanunsuz olaraq məhrum edilməyə yol verilsəydi, qalan bütün hüquqlar mənasını itirmiş olardı. Yaşamaq hüququnun fundamental xarakterini belə bir fakt aydın göstərir ki, bu hüquqdan geri çəkilməyə yol verilmir: hətta "müharibə və millətin həyatını təhdid edən fövqəladə hallar zamanı belə, şəxs bu hüquqdan məhrum edilə bilməz».

Ölüm cəzasının cinayətə görə cəza sistemindən istisna edilməsi istiqamətində Avropa Şurası Parlament Assambleyasının ilk addımı 1980-ci ildə cinayət qanunvericiliklərində dinc dövrdə törədilmiş ci-

nayətlərə görə ölüm cəzasını saxlayan Avropa Şurasının üzvü olan dövlətlərin parlamentlərinə həmin cəzanın ləğv edilməsi xahişi ilə müraciət edilməsi ilə başlandı. Bu fəaliyyətin davamı 28 aprel 1983-cü ildə "Ölüm cəzasının ləğvi haqqında" Avropa Konvensiyasına dair 6 saylı Protokolun qəbul edilməsi oldu.

Həmin Protokolun 1-ci maddəsi nəzərdə tuturdu ki, "Ölüm cəzası ləğv edilir. Heç kim bu cür cəzaya məhkum edilə və ya edam oluna bilməz". Protokolun 2-ci maddəsinə əsasən, ölüm cəzasını ləğvetmə öhdəliyi dinc dövrlə məhdudlaşırdı. Yəni milli qanunvericilikdə müharibə dövründə və ya labüd müharibə təhlükəsi mövcud olan dövrdə törədilən əməllərə görə ölüm cəzası barədə müddəalar olsa da, o, faktiki olaraq Protokol üzrə tərəf kimi çıxış edə bilərdi. Bununla, ölüm cəzası yalnız qanunda nəzərdə tutulan hallarda və onun müddəalarına uyğun olaraq tətbiq edilməli idi.

Konvensiyanın 15-ci maddəsinə əsasən, 2-ci maddədə və 6 saylı Protokolda nəzərdə tutulan müddəaların yerinə yetirilməsindən geri çəkilməyə yol verilmir.

Protokolun 2-ci maddəsi ilə birlikdə nəzərdən keçirildikdə, bu, o deməkdir ki, ölüm cəzası yalnız müharibə dövründə və ya labüd müharibə təhlükəsi mövcud olan dövrdə (dinc dövrdə bunun mümkünlüyünü nəzərdə tutursa) icra edilə bilər. Bu Protokola əsasən, qəbul edilmiş qərar Konvensiyanın 15-ci maddəsinə nisbətən məhdud xarakter daşıdığına görə, mövcud qanunvericiliyi müharibə dövründə dəyişmək olmaz. 2002-ci ildə bütün hallarda ölüm cəzasının ləğvinə dair Avropa İnsan Hüquqları Konvensiyasının "13 saylı Protokol" qəbul edildi. Protokolun preambulasında qeyd olunur ki, hər kəsin yaşamaq hüququnun demokratik cəmiyyətdə əsas dəyər olduğuna və bu hüququn müdafiəsi üçün və bütün insanların şəxsiyyətinə xas olan ləyaqətin tam qəbul edilməsi üçün ölüm cəzasının ləğvinin vacib olduğuna əmin olaraq və yaşamaq hüququnun müdafiəsini gücləndirmək məqsədilə ölüm cəzası ləğv olunur. Heç kəs belə cəzaya məhkum edilə və ya edam edilə bilməz.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (İHAM) təcrübəsi də ölüm cəzasının ləğvi ilə əlaqədar bir sıra məqamlara aydınlıq gətirir.

"Öcalan Türkiyəyə qarşı" iş üzrə qərarında İHAM-ın Böyük Palatası qeyd etdi ki, "...Avropada dinc dövrdə ölüm cəzasının, demək olar ki, qəti ləğv edilməsi belə bir faktda öz əksini tapıb ki, iştirakçı dövlətlərin hamısı 6 saylı Protokolu imzalayıb və Türkiyə, Ermənistan, Rusiya istisna olmaqla, qırx bir dövlət onu ratifikasiya edib. Daha sonra bu xüsusat Avropa Şurasının siyasətində də öz əksini tapıb; həmin siyasət tələb edir ki, yeni üzv dövlətlər təşkilata daxil edilmələri üçün şərt olaraq ölüm cəzasını ləğv etməyi öhdələrinə götürməlidirlər. Bu inkişaf nəticəsində Avropa Şurasına üzv olan dövlətlərin əhatə etdiyi ərazilər ölüm cəzasından azad zonaya çevrilib".

Məhkəmə daha sonra qeyd etdi ki, "2-ci maddənin 1-ci bəndinin tələblərindən bu da irəli gəlir ki, həyatdan məhrumetmə "məhkəmə tərəfindən çıxarılmış hökmün icrası" vasitəsilə həyata keçirilə bilər, cəza təyin edən "məhkəmə" Məhkəmənin presedent hüququnda nəzərdə tutulan mənada müstəqil və qərəzsiz məhkəmə olmalıdır... və cinayət proseslərində istər birinci instansiyada, istərsə də apellyasiya instansiyasında ədalətliliyə dair ən ciddi standartlara riayət edilməlidir. Ölüm cəzasının icrası geriyədönməz proses olduğuna görə yalnız belə standartların tətbiqi özbaşına və qanunsuz həyatdan məhrumetmə hallarının qarşısını ala bilər.... Nəhayət, 2-ci maddənin 1-ci bəndində yer almış "cəzanın qanunla nəzərdə tutulmuş" olması barədə tələb təkcə onu nəzərdə tutmur ki, daxili qanunvericilikdə cəzanın hüquqi əsası olmalıdır, həm də onu nəzərdə tutur ki, qanunun keyfiyyəti barədə tələbə tam riayət edilməlidir, yəni hüquqi əsas Məhkəmənin presedent hüququnda başadüşülən mənada "əlçatan" və "öncədən görülə bilən" olmalıdır...

2-ci maddənin yuxarıda qeyd edilən şərhindən belə bir nəticə çıxır ki, barəsində ədalətli məhkəmə araşdırması keçirilməyən şəxsin ölüm cəzasının icrasına yol verilə bilməz".

İHAM-ın hazırkı mövqeyinə əsasən, ölüm cəzasının dinc dövrdə tətbiqi yaşamaq hüququ ilə bir araya sığmır. Beləliklə, Konvensiyanın

yol verməsinə baxmayaraq, Avropa Şurasının üzv dövlətləri ölüm cəzasını dinc dövrdə tətbiq edə bilməzlər. Hesab olunur ki, ölüm cəzasının bütün hallarda ləğvini nəzərdə tutan 13 saylı Protokolun müddəalarının Avropa dövlətlərinin praktikasına çevriləcəyi gün uzaqda deyil və o halda ölüm cəzasının həm dinc dövrdə, həm də müharibə zamanı tətbiqini qadağan edən regional "jus cogens" norması təşəkkül tapmış olacaqdır.

## 3.10. Ölüm cəzasının ləğvi ilə bağlı Heydər Əliyevin düşüncələri

Heydər Əliyevin insanpərvər duyğuları, insana yanaşma tərzi, ona verdiyi dəyər, həmçinin hadisələrin gedişini öncədən görmə bacarığı ölüm hökmünün ləğv edilməsinin zəruriliyini müzakirəyə çıxarması üçün əsas oldu. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 22 yanvar 1998-ci il tarixli Bəyanatında ölüm hökmünün ləğvi barədə fikirləri aşağıdakı kimi ifadəsini tapmışdır: "... Məlumdur ki, Azərbaycanda son illər cinayətkarlığa qarşı mübarizə güclənibdir. Hakimiyyət, hüquq-mühafizə orqanları dövlətin siyasətini həyata keçirərək ardıcıl tədbirlər keçiriblər və bunlar da öz müsbət nəticələrini veribdir.

1993-cü ildə baş vermiş vətəndaş müharibəsinin qarşısı alındı. Ondan sonrakı dövrdə - 1993-1994-cü illərdə və 1995-ci ilin birinci yarısında respublikamızda demək olar ki, o dövrə, zamana qədər yaranmış kriminogen vəziyyətin aradan götürülməsi üçün ardıcıl işlər görüldü.

...Hesab edirəm ki, Azərbaycanda cinayətkarlıqla mübarizə uğurludur. Cinayət hallarının sayı xeyli azalıbdır. Ən önəmlisi odur ki, o qatı, mütəşəkkil cinayətkarlığın, çox kütləvi cinayətkarlığın qarşısı tamamilə alınıbdır. ...ümumən desək, respublikamızda əmin-amanlıq yaranıbdır. İnsanlar rahat yaşaya, istirahət edə bilirlər, işləyə, gəzə bilirlər. Yəqin bunları - 1993, 1994, 1995-ci illərdə olmuş vəziyyətlə indiki vəziyyəti siz özünüz də görürsünüz.

Hesab edirəm ki, bu nailiyyətlərin əsasında respublikada cinayətkarlıqla mübarizə davam etdirilməlidir. Hələ bir çox cinayətlər mövcuddur, onların qarşısı alınmalıdır. Düşünək ki, ümumiyyətlə, cəmiyyətdə cinayət ola bilməz, - bu, mümkün deyil. Ancaq bu, tamamilə elə bir vəziyyətə gətirməlidir ki, cinayət olan kimi onun qarşısı alınsın.

Bu sahədə gördüyümüz işlərlə yanaşı, hesab edirəm ki, biz cəzanın humanistləşdirilməsi sahəsində də bir çox dəyərli addımlar atmışıq və yaxşı nəticələr əldə etmişik. Bu da ondan ibarətdir ki, biz cəza çəkən insanlar haqqında da düşünürük və düşünmüşük. Cəza çəkənlərin bir qisminin əfv olunması, onlara amnistiya verilməsi, onların bağışlanması haqqında lazımi qərarlar qəbul etmişik. Bunların nəticəsində insanların bir çoxu cəzadan, cəza çəkməkdən azad olunub, yaxud da ki, cəzaları yüngülləşibdir.

Yəni biz bir tərəfdən cinayətkarlıqla mübarizəni gücləndirmişik, digər tərəfdən də cəza siyasətinin humanistləşdirilməsi sahəsində çox ciddi, dəyərli addımlar atmışıq, tədbirlər həyata keçirmişik.

...Bildiyiniz kimi, ölkəmizdə Azərbaycan Respublikası yarananda indiyə qədər həm keçmiş Sovetlər İttifaqı zamanı, həm də biz müstəqilliyimizi əldə edəndən sonra ölüm cəzası Azərbaycanın cinayət məcəlləsində olubdur və bu gün də var. Ancaq biz ölüm cəzasının da bu son illərdə azaldılması və onun tamamilə ləğv olunması üçün çox işlər görmüşük. Bu, ondan ibarətdir ki, Azərbaycanın Cinayət Məcəlləsində ölüm cəzası ilə əlaqədar olan bir çox maddələrə 1996-cı ildə baxılıb, mənim təklifimlə Milli Məclisdə qərarlar qəbul olunmuşdur. Bu qərarlara görə Azərbaycanın Cinayət Məcəlləsində 21 maddədən ölüm cəzası götürülmüşdür. Ondan sonra indiyə qədər Cinayət Məcəlləsində ən ağır cinayətlər üzrə 11 maddədə ölüm cəzası saxlanılıbdır. Bununla bərabər, 1996-cı ildə qadınlara və 65 yaşına çatmış kişilərə ölüm cəzası hökmü çıxarılması qadağan edilibdir. İndi isə mən növbəti addım atmaq fikrindəyəm. Ancaq bu münasibətlə keçmiş illərin statistikasını da xatırlamaq pis olmazdı.

Mən qeyd etdim ki, ölüm cəzası Azərbaycanın Cinayət Məcəlləsində həmişə olubdur, məhkəmələr də ölüm cəzası haqqında hökmlər çıxarıblar. Ancaq ölüm cəzası haqqında hökm çıxarmaq və onu icra etmək məsələləri də, şübhəsiz, bir-birindən ayrı şeylərdir.

Keçmiş illərin statistikasına nəzər salsaq, əgər 1988-ci ildən götürsək, Azərbaycanda 1988-ci ildə 5 nəfər ölüm cəzasına məhkum olunmuş, 5 nəfər haqqında ölüm hökmü icra edilmişdir, yəni onlar güllələnmişlər. 1989-cu ildə 6 nəfər, 1990-cı ildə 3 nəfər haqqında ölüm hökmü icra olunmuşdur.

1990-cı ildən 1993-cü ilə qədər Azərbaycanda ölüm hökmü icra edilməmişdir. 1993-cü ildə 9 nəfər barədə ölüm hökmünün icra olunması haqqında fərman verilmişdir, 8 nəfər haqqında ölüm hökmü icra olunmuşdur. Bir nəfər ölüm hökmü icra edilənə qədər özü həbsxanada ölmüşdür.

...1993-cü ilin iyun ayından biz Azərbaycanda ölüm hökmlərinin icrasını dayandırmışıq. Bu da heç təsadüfi deyildir. Baxmayaraq ki, o illər bizim üçün çox mürəkkəb, ağır, çətin illər olubdur, - Azərbaycanın dövlətini, müstəqilliyini qoruyub saxlamaq, Azərbaycanda bu dövlətçiliyə olan qəsdlərin qarşısını almaq lazım idi. Şübhəsiz ki, bunlar çox qəti addımlar atmaq, tədbirlər görmək, həyata keçirmək tələb edirdi. Biz bunları etmişdik. Ancaq biz humanistliyimizi də itirməmişdik. Məhz ona görə də biz ölüm hökmünün icrasını dayandırmışdıq.

Ancaq eyni zamanda deyə bilərəm ki, bu ötən dövrdə ölüm hökmünə məhkum olunmuş adamlardan 12 nəfəri mənim fərmanımla bağışlanıbdır. Yəni onların barəsində ölüm hökmü cəza yerlərində uzunmüddətli cəza çəkməklə əvəz olunubdur.

Keçmiş illərdən indiyə qədər məhkəmələr tərəfindən çıxarılmış hökmlərlə, onların əsasında Azərbaycanın həbsxanasında ölüm hökmünə məhkum olunmuş 128 nəfər vətəndaş vardır. Bunların içərisində çox qatı cinayət etmiş adamlar da var. Şübhəsiz ki, ölüm hökmünə məhkum olunanlar ən qatı cinayət etmiş adamlardır, amma onların da dərəcəsi vardır. Onların arasında bir neçə insanı öldürmüş, həddindən artıq cinayətkarlıq etmiş, bizim dövlətçiliyimizə,

müstəqilliyimizə qarşı, respublikamızın dağılması, parçalanması ilə əlaqədar cinayətlər etmiş adamlar vardır.

Bütün bunlara baxmayaraq, mən bu məsələləri ətraflı təhlil edəndən sonra belə qərara gəlmişəm ki, Azərbaycanın Cinayət Məcəlləsində ölüm hökmü ilə əlaqədar olan bütün maddələr dəyişilməlidir və Azərbaycanda ölüm hökmü bir cəza kimi ləğv olunmalıdır. Ölüm hökmünə məhkum olunmuş insanların cəzası müvafiq qaydada, uzunmüddətli cəzalarla əvəz edilə bilər.

Beləliklə, 1993-cü ilin iyun ayından ölüm hökmünün icrasına qoyulmuş faktiki moratorium indi isə real olaraq Azərbaycanda ölüm hökmünün ləğv edilməsinə gətirib çıxardı.

Mən bununla əlaqədar Azərbaycanın Milli Məclisinə qanunvericilik təşəbbüsü ilə təqdimat göndərirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, Azərbaycanın parlamenti, Milli Məclisi bizim bu humanist addımımızı dəyərləndirəcək və mənim təklifimi qəbul edəcəkdir. Beləliklə, Azərbaycanda ölüm hökmü tamamilə ləğv olunacaqdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On dördüncü kitab, s.148-156).

22 yanvar 1998-ci il tarixində Avropa Şurası Parlament Assambleyasının (AŞPA) nümayəndə heyəti - Azərbaycan Respublikasının Avropa Şurasına daxil olmasına dair AŞPA-nın məruzəçiləri Jak Bomel və Corc Klerfayt ilə görüşdə Heydər Əliyev Azərbaycan qanunvericiliyinin Avropa standartlarına uyğunlaşdırılması sahəsində Azərbaycan Respublikasının üzərinə götürdüyü öhdəliklərə sadiqliyini bir daha nümayiş etdirərək, ölüm hökmünün ləğv olunmasını bəyan etdi: "Bu gün mən bəyan etdim ki, Azərbaycanda ölüm hökmü ləğv olunur. Mən 1993-cü ilin iyun ayından Azərbaycana başçılıq edirəm. Mən o vaxtdan ölüm cəzasını ləğv etmişdim, çünki bu müddətdə ölüm hökmü alan adamların heç birisinin hökmü icra olunmayıbdır. Bu müddətdə ölüm hökmünün ləğv edilməsi üçün bir neçə tədbir həyata keçirmişəm. 1996-cı ildə Cinayət Məcəlləsində 21 maddədən ölüm hökmünün götürülməsinə nail oldum. Cinayət Məcəlləsinin 11 maddəsində ölüm cəzası qaldı. Qadınlara, 65 yaşına çatmış kişilərə

ölüm hökmü çıxarılması da o vaxtlar ləğv olundu. Görürsünüz, bu, bir prosesdir. Bu gün isə ona son nöqtəni qoydum. Bu mənim üçün yeni fikir deyil, çoxdan bu fikirdə idim...” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On dördüncü kitab, s.160-161).

Heydər Əliyevin 3 fevral 1998-ci il tarixli Azərbaycan Respublikasında ölüm hökmünün ləğv edilməsi haqqında Milli Məclisə müraciətində aşağıdakılar öz əksini tapmışdı:

“Azərbaycan Respublikasının Konstitusiyası insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətimizin ali məqsədi kimi bəyan etmişdir. Bu məqsədə nail olmaq üçün dövlətimizdə ümumbəşəri dəyərlərə və inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanan qanunvericilik bazası yaradılır. Hazırda bu siyasətin ardıcıl və məqsədyönlü davam etdirilməsi üçün zəruri tədbirlər həyata keçirilir.

Məramı dünyəvi, hüquqi dövlət qurmaq olan Azərbaycan Respublikasında hər bir insanın təbii və ayrılmaz hüququ olan yaşamaq hüququna əsaslı təminatlar verilmiş, insanın həyatdan məhrum edilməsi yolverilməz hesab olunmuşdur.

Konstitusiyada ölüm cəzası, tam ləğv edilənədək, yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı xüsusilə ağır cinayətlərə görə müstəsna cəza tədbiri kimi göstərilmiş və daimi cəza növü kimi nəzərdə tutulmamışdır. İnsan ləyaqətinə, bütövlükdə insan hüquqları ideyasına zidd olan bu cəzanın tətbiqi, hansı dəlillərlə əsaslandırılmasından asılı olmayaraq demokratik cəmiyyətdə qeyri-insani və amansız tədbir kimi qiymətləndirilir.

Azərbaycanda ölüm cəzası uzun müddət tətbiq olunmuşdur. Son dövrün təhlili göstərir ki, 1988-ci ildə ölüm cəzasına məhkum olunmuş 5, 1989-cu ildə 6, 1990-cı ildə 3 şəxs barəsində ölüm hökmləri icra edilmişdir. Bundan sonra üç il ərzində ölüm hökmləri icra olunmadığı halda 1993-cü ilin fevral ayında 8 nəfər barəsində ölüm hökmləri tələsik icra edilmişdir.

...Son illər ölkəmizdə əmin-amanlıq, ictimai-siyasi sabitlik yaradılmış, vətəndaş cəmiyyəti bərqərar edilmiş, insanların həyatına təh-

lükə yaradan silahlı dəstələr və terrorçu qruplar zərərsizləşdirilmiş, dövlət çevrilişi cəhdlərinin qarşısı qətiyyətlə alınmış, cinayətkarlar məsuliyyətə cəlb edilərək layiqli cəzalarına çatmışlar. Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi ölkəmizdə insanların dinc, təhlükəsiz yaşamasına, qanunun aliliyinin bərqərar edilməsinə zəmin yaratmışdır. Digər tərəfdən, hüquq islahatlarının aparılması, cinayət qanunvericiliyinin humanistləşdirilməsi, insan hüquqları və azadlıqlarının qorunması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

Ölüm cəzasının icrasına 1993-cü ilin iyun ayından faktiki moratorium qoyulmuşdur.

…Cinayət-hüquq siyasətinin humanistləşdirilməsi ilə bağlı görülən işlər, o cümlədən Cinayət Məcəlləsinin ölüm cəzasını nəzərdə tutan iyirmi bir maddəsinin sanksiyalarından bu cəzanın çıxarılması, qadınlara, 65 yaşına çatmış kişilərə ölüm cəzasının tətbiqinin qadağan edilməsi, 1705 məhbusun əfv edilməsi, o cümlədən ölüm cəzasına məhkum edilmiş 12 şəxsin əfv olunaraq cəzalarının azadlıqdan məhrumetmə ilə əvəz edilməsi və amnistiya qaydasında 17 mindən artıq şəxsin müxtəlif cəzalardan azad edilməsi və onların yenidən cəmiyyətə qayıtması üçün şərait yaradılması ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğunun təzahürüdür.

...Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm.

Ölüm cəzasının ləğvini məhz bu siyasətin məntiqi nəticəsi kimi qiymətləndirirəm.

Şərq aləmində ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının ləğvi ölkəmizin dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəlilədiyini bir daha sübut edir.

...Əminəm ki, ölüm cəzasının ləğvi tarixi hadisə olmaqla bərabər, cinayət-hüquq siyasətinin humanistləşdirilməsi sahəsində atılan

qətiyyətli addımdır və bütünlükdə hüquq sistemində həyata keçirilən islahatların mühüm mərhələsidir.

Eyni zamanda, ölüm cəzasının ləğvi məsələsi müzakirə edilərkən Azərbaycanın mövcud reallıqları və ilk növbədə Ermənistan tərəfindən torpaqlarımızın işğal edilməsi nəzərə alınmalıdır. Şübhəsiz ki, müharibə zamanı hər bir dövlətin bu cəza növünü tətbiq etmək hüququ saxlanıla bilər. Bu müddəa həmçinin beynəlxalq hüquq normalarının tələblərinə uyğundur.

Bütün bunları nəzərə alaraq Azərbaycan Respublikasında ölüm cəzasının ləğv olunması ilə əlaqədar Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual və İslah-Əmək məcəllələrinə dəyişikliklər və əlavələr edilməsi haqqında qanun layihəsini Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinə müvafiq olaraq müzakirənizə təqdim edirəm" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On dördüncü kitab, s. 206-210).

Heydər Əliyev tərəfindən ölkədə cinayətkarlığa qarşı mübarizənin sərtləşdirilməsi bir tərəfdən sabitliyin, əmin-amanlığın təmininə yönəlmişdisə, digər tərəfdən də bu, insan və vətəndaş hüquq və azadlıqlarının təmini üçün zəmin yaradırdı. İnsan hüquqlarının ali dəyər kimi nəzərdən keçirilməsi, bu sahədə beynəlxalq səviyyədə tanınan irəliləyişlərin əldə edilməsi yolu ilk növbədə insan hüquqları sahəsində beynəlxalq müqavilələrə Azərbaycanın qoşulması və həmin müqavilələrdə əksini tapmış hüquqların təmin olunması üçün müvafiq qanunvericilik və təşkilati tədbirlərin həyata keçirilməsini tələb edirdi. Heydər Əliyev ölkənin demokratik inkişaf yolunu dövlət quruculuğu ilə şərtləndirdiyinə görə, onun fəaliyyətinin əsas istiqamətlərindən biri də insan hüquq və azadlıqlarının tanınması, onların təmini üçün ölkə daxilində tədbirlərin həyata keçirilməsinin reallaşdırılması idi: "Hər bir şəxsin həyatında və cəmiyyətdə insan hüquqlarının reallığa çevrilməsi amalı ilə yaşayan Azərbaycan dövləti insan hüquqları sahəsində iyirmiyədək beynəlxalq konvensiya və sazişlərə qoşulmuşdur.

Yəqin sizə məlumdur ki, bu ilin fevral ayında imzaladığım «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» fərmanla ölüm cəzasının tam ləğv edilməsinə dair öhdəlikləri nəzərdə tutan "Mülki və siyasi hüquqlar üzrə beynəlxalq Paktın İkinci Fakültətiv Protokolu"na və insan hüquqları sahəsində mövcud olan digər beynəlxalq sazişlərə qoşulması barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə tapşırıq vermişəm.

Biz insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla, o cümlədən qeyri-hökumət təşkilatları ilə əməkdaşlığı böyük məmnuniyyətlə qəbul edirik. Avropa Şurası, ATƏT-in Demokratik İnstitutlar və İnsan Hüquqları Bürosu, Beynəlxalq Amnistiya, İnsan Hüquqlarını Müşahidə edən Helsinki Təşkilatı və digər beynəlxalq təşkilatlarla əməkdaşlığımızı inkişaf etdirmək üçün bütün imkanlardan istifadə edəcəyik.

Məsuliyyətlə deyə bilərəm ki, bu gün ölkəmizdə insan hüquqlarının müdafiəsi sahəsində aparılan işlər, qazanılan dəyərlər beynəlxalq norma və prinsiplərdən irəli gəlir və Azərbaycan Respublikası məhz bu prinsiplər vasitəsilə insan ləyaqətini bundan sonra da təmin etmək əzmindədir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On altıncı kitab, s. 266).

3 dekabr 1998-ci il tarixində Azərbaycanda BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illik yubileyini keçirən Dövlət Komissiyasının iclasında Heydər Əliyev giriş sözündə ölkədə insan hüquqları sahəsində aparılan çoxşaxəli işlərdən söhbət açaraq qeyd etdi ki, "Şübhəsiz ki, bununla yanaşı, biz insan hüquqları ilə əlaqədar bütün başqa sahələrdə də öz fəaliyyətimizi göstərməliyik. Son illər görülən işlər barədə verilən məlumatlar onu göstərir ki, biz həqiqətən hüquqi dövlət yaradırıq, demokratik dövlət yaradırıq və insan hüquqlarının qorunmasını ümumxalq işi, ümumdövlət işi etməyə çalışırıq.

Məlumdur ki, görülən işləri qiymətləndirərək, bu sahədə nöqsanların, çatışmazlıqların olduğunu da etiraf etmək lazımdır. Ona görə etiraf etmək lazımdır ki, biz bu nöqsanları və çatışmazlıqları

aradan qaldıraq. Ona görə yox ki, bundan kimsə hansı məqsədlərdən ötrüsə istifadə etsin. Biz ictimaiyyətə, xalqa, ölkəyə həmişə həqiqəti bildirməliyik. Ancaq eyni zamanda, həqiqəti təhrif edənlərin də qarşısını almalıyıq. Təhrif edənlərin qarşısı - yəni o mənada ki, bu barədə düzgün məlumat verməklə - alınmalıdır.

Bizim gördüyümüz işlərdən ən əhəmiyyətlisi bundan ibarətdir ki, Azərbaycanda ölüm hökmü ləğv olunubdur.

...Ölüm hökmünün ləğv olunması hansısa bir cinayətkara rəhm etmək məqsədi daşımır. O, ümumbəşəri, ümumxalq əhəmiyyətinə malik bir məsələdir. Ölüm hökmünün ləğv olunması onu göstərir ki, respublikamız, müstəqil Azərbaycan dövləti humanist siyasət aparan bir dövlətdir.

...Mən hesab edirəm ki, bax, elə bu mövzunun özü bizim elmi-tədqiqat təşkilatları, hüquqşünaslar üçün çox əhəmiyyətli bir mövzudur. Yenə də deyirəm, mən çalışdım ki, bunun geniş əhəmiyyətini sizə izah edim. Bu, bir, beş, on adam üçün deyildir. Məsələn, biz ölüm hökmünü ləğv edəndə ölüm hökmü ilə 100-120 nəfər insan həbsxanada idi. Onların hər biri məhkəmələr tərəfindən ədalətli cəzalandırılmışdı.

Bu ölüm hökmünü ləğv etməzdən əvvəl mən bir neçə dəfə təklif vermişdim ki, ölüm hökmünə məhkum olan adamlardan bəzilərinin sənədlərinə baxıb mənə gətirin, əfv edim, yaxud ölüm hökmünü ləğv edin, başqa bir cəza ilə əvəzləndirin. Əfv bölməsi, əfv işi ilə məşğul olanlar bunları təhlil edib gəlib mənə deyirdilər ki, elələri var ki, 5-6 adam öldürübdür, özü də vəhşicəsinə öldürübdür. Onu ölüm hökmündən necə azad etmək olar? Burada da həqiqət vardır. Ancaq bunlara baxmayaraq, 5 adam öldürmüş həmin adamı da biz - dövlət öldürmək istəmədik. Bu, dövlətin nə qədər humanist, insanpərvər olduğunu, insanı nə qədər yüksək qiymətləndirdiyini və eyni zamanda, insanın tərbiyə edilməsinə nə qədər böyük inamını göstərir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On səkkizinci kitab, s. 310).

# Nəticə

Cinayətkarlıq mürəkkəb bir hadisə olaraq, cəmiyyətdə özünü, ilk növbədə, müxtəlif cinayətlər kimi göstərir. Buna görə də cinayətkarlıq məsələsini araşdırarkən ən əvvəl "cinayət" anlayışından başlamaq lazımdır. Cinayətləri həm kriminoloji, həm də cinayət-hüquqi baxımdan araşdırmaq mümkündür. Törədilmiş ictimai təhlükəli əməlin müxtəlif tərəfləri məhz bu yanaşmalar vasitəsilə üzə çıxır.

Cinayət-hüquqi yanaşmada cinayət tərkibinin hüquqi analizi mühüm yer tutur. Burada ictimai təhlükəli əməlin obyekti və obyektiv cəhəti, subyekti və subyektiv cəhətləri bir növ təcrid olunmuş şəkildə, yəni insanın təqsirli əməli kimi araşdırılır.

Kriminoloji yanaşma zamanı isə cinayət həm insanı əhatə edən ətraf mühit, onun özünün səciyyəvi cəhətləri kontekstində, həm də birdəfəlik akt kimi deyil, müəyyən məkan və zamanda baş verən proses kimi nəzərdən keçirilir.

Bu iki aspektin analizi təkcə nəzəri deyil, həm də praktiki əhəmiyyətə malikdir. Əməlin cinayət-hüquqi analizi şəxsin məhz cinayət qanununda nəzərdə tutulan əməli törətməsini və buna görə cinayət məsuliyyəti daşımalı olmasını müəyyən etmək üçün zəruridir.

Kriminoloji yanaşma isə cinayətin başvermə səbəbi və şəraitinin müəyyən edilməsi, cinayəti törədənin şəxsi keyfiyyətlərinin, cinayətkar davranışın sosial nəticələrinin aşkarlanması üçün zəruridir. Bütün bunlar yeni cinayətlərin törədilməsinin qarşısının alınması istiqamətində zəruri olanların meydana çıxarılması məqsədilə əhəmiyyət kəsb edir.

Cinayətkarlıq və cinayət arasında nisbət haqqında məsələyə düzgün yanaşmanın müəyyən edilməsi cinayətkarlıqla mübarizə üçün təsirli tədbirlərin görülməsinə öz töhfəsini verə bilər.

Cinayət qanunvericiliyinin normasını pozan, sosial davranışın neqativ növü olan cinayətkarlıq ayrı-ayrı cinayətlərdə təzahür edir. Lakin sosial hadisə kimi cinayətkarlıq ayrı-ayrı cinayətlərə xas olan xüsusiyyətlərlə məhdudlaşmır. Cinayətkarlıq cəmiyyət üçün ümum-

sosial şəraitin özünəməxsusluqları ilə şərtlənən qanunauyğun haldır. Ayrı-ayrı cinayətlər isə həmin qanunauyğunluqların fərdi təzahürləri olub, fərdi hallarla şərtlənməklə təsadüfi xarakter daşıyır. Bu isə o deməkdir ki, hər bir konkret cinayət baş verə də, verməyə də bilər və onun qarşısını almaq mümkündür.

"Cinayətkarlıq" anlayışı nəzərdən keçirilərkən cinayətkarlıqla mübarizə məsələləri üzərində dayanmamaq olmaz. Cinayətkarlıqla mübarizə mürəkkəb sistemli fəaliyyətdir və özündə üç məsələni birləşdirir: mübarizənin ümumi təşkili; cinayətkarlığın qarşısının alınması; və hüquqmühafizəedici fəaliyyət.

Cinayətkarlıqla mübarizə iki qarşı-qarşıya duran tərəfin qarşılıqlı təsirinin xüsusi növüdür. Cinayətkarlığın cəmiyyətdən törənməsinə baxmayaraq, o, rəsmi cəmiyyətə fəal müqavimət göstərən, özünütəşkil və özünüinkişaf qabiliyyətinə malik nisbətən müstəqil sosial fenomendir. Mütəşəkkil cinayətkarlığın qanuna və rəsmi cəmiyyətə müqaviməti təkcə cinayətlərin törədilməsi ilə deyil, həm də xüsusi "kriminal fəaliyyət" ilə baş verir.

Cinayətkarlıqla mübarizə - qanunun aliliyinin, onun qoruduğu maraqların, dəyərlərin və davranış qaydalarının təmini məqsədilə cəmiyyət və cinayətkarlığın fəal qarşıdurmasıdır. Hər bir sivil cəmiyyət cinayətkarlığa qarşı müqavimət göstərməlidir, əks halda o, özünü belə, bir varlıq kimi qoruyub saxlaya bilməz. Lakin eyni zamanda qarşıdurma qanun çərçivəsində, sivil formada həyata keçirilməlidir. Cinayətkarlıqla mübarizə bu ictimai təhlükəli hadisəni cilovlamağa imkan verməlidir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycan dövlətinin müstəqilliyinin bərqərar və əbədi olmasında müstəsna xidmətləri olmuşdur. Azərbaycanın müstəqil dövlət kimi üzərinə düşən vəzifələri yerinə yetirməsində və dünya birliyində layiqli yer tutmasında Heydər Əliyev ideyalarının həyata keçirilməsi əhəmiyyətli rola malik olmuşdur. Dövlətin daxili funksiyalarından biri də dövlət daxilində sabitliyə nail olunması, vətəndaşların

əmin-amanlığının təmin olunması və cinayətkarlığa qarşı səmərəli mübarizənin təşkili və aparılmasıdır.

Cinayətkarlıqla mübarizədə səmərəliliyə nail olunması özündə bir çox məsələləri cəmləşdirir. Belə ki, cinayətlərin baş verməməsi üçün ölkə daxilində sabitliyə nail olunmalı, vətəndaşların qanunauyğun davranışının təmin edilməsi üçün şərait yaradılmalıdır. Bu şərait insanların maddi rifahının yaxşılaşdırılmasını, iş yerlərinin yaradılmasını, qanunun aliliyinin təmin olunmasını, cinayət törətmiş hər bir şəxsin qanunamüvafiq qaydada cəzalandırılmasını tələb edir. Bir-biri ilə qarşılıqlı əlaqədə olan həmin məsələlərin həlli dövlət orqanlarının qarşılıqlı əlaqədə, vahid məqsəd uğrunda fəaliyyətini tələb edir. Bu cəhətdən, cinayətkarlıqla səmərəli mübarizənin təşkili, ilk növbədə, hüquq-mühafizə orqanları əməkdaşlarının öz üzərlərinə düşən vəzifəni layiqli şəkildə yerinə yetirmələrini tələb edir. Hüquq-mühafizə orqanlarında çalışanların mənəvi təmizliyi onların səmərəli fəaliyyətinin təmininin əsasını təşkil edir. Məhz bu cəhətə istinad edən Heydər Əliyev cinayətkarlıqla mübarizədə hüquq-mühafizə orqanlarının rolunu yüksək qiymətləndirir və bu orqanlarda çalışanların mənəvi cəhətdən pak və təmiz olmasını tələb edirdi.

Milli qanunvericiliyin təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsinin təmin edilməsi, cinayətkarlıqla mübarizənin məhz qanun əsasında, qanunun tələblərini pozmadan həyata keçirilməsi, qanunun aliliyinə həmişə prioritet olaraq önəm verilməsi Heydər Əliyevin cinayətkarlıqla mübarizə sahəsində irəli sürdüyü ideyaların əsas ruhunu təşkil edirdi.

Dərs vəsaitinin birinci fəsli “Heydər Əliyev cinayətkarlıqla mübarizə və onun əsas istiqamətləri haqqında” adlanır. Bu fəsildə cinayətkarlıqla mübarizənin məqsədinin cəmiyyətdə ictimai-siyasi sabitliyə nail olmaq, insan hüquq və azadlıqlarını hər cür qəsdlərdən qorumaq, dövlət hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyətinə mane olan halları aradan qaldırmaq, şəxsiyyətin əmlak və qeyri-əmlak hüquqlarını, onun üçün vacib olan maraqlarını qorumaq, ölkə

ərazisində yaşayanların təhlükəsizliyini təmin etmək, cəmiyyət və dövlətçilik üçün təhlükə yaradan halların qarşısını almaq və cəmiyyətin normal inkişafına mane ola biləcək bütün neqativ halları aradan qaldırmaqdan ibarət olması nəzərə çatdırılır. Qeyd olunur ki, cinayətkarlıqla mübarizə sahəsində peşəkar kadrların hazırlanması təkcə savadlı və peşəkar bacarığa malik kadrların deyil, həm də mənəvi cəhətdən saf, vicdanlı, öz peşə fəaliyyətini yüksək qiymətləndirən, vəzifəsindən şəxsi məqsədlər üçün istifadəni istisna edən kadrların yetişdirilməsini qarşıya məqsəd qoyur.

Qeyd olunan fəsildə Heydər Əliyevin cinayətkarlıqla mübarizə haqqında müxtəlif dövrlərdə söylədiyi fikirlər, bu mübarizənin səmərəliliyi üçün qəbul etdiyi qərarlar, o cümlədən 1994-cü il tarixli "Cinayətkarlıqla mübarizə haqqında" Fərmanın müddəaları araşdırılır, cinayətkarlıqla mübarizədə dövlət orqanlarının rolu ilə bağlı dəyərli tövsiyələri diqqətə çatdırılır.

Dərs vəsaitinin "Heydər Əliyevin ayrı-ayrı cinayətlərlə mübarizə barədə fikirləri. Həmin cinayətlərlə mübarizənin hüquqi əsasları" fəslində Heydər Əliyevin korrupsiya cinayətləri, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər, soyqırımı cinayəti, terrorçuluq cinayəti, hərbi cinayətlərlə mübarizə ilə bağlı hüquqi mövqeyi tədqiq olunur, həmin cinayətlərin hər birinin cəmiyyət, dövlət və xalqın gələcəyi üçün zərərli nəticələri, onların aradan qaldırılmasının vacibliyi, bu cinayətlərlə mübarizənin konkret istiqamətləri təhlil edilir, milli qanunvericilik və beynəlxalq hüquqi əsaslar şərh olunur.

Dərs vəsaitinin üçüncü fəsli "Heydər Əliyev cəza və onun humanistləşdirilməsi haqqında" adlanmaqla, burada cinayət hüququnda cəza və onun məqsədi, Heydər Əliyevin cəza və onun humanistləşdirilməsi haqqında fikirləri öz əksini tapmış, əfvetmə və amnistiyanın hüquqi əsasları və tətbiqi qaydaları, Heydər Əliyevin cəzanı humanistləşdirmə siyasətində əfvetmə və amnistiyanın yeri, ölüm cəzasının ləğvi ilə bağlı Ulu Öndərin düşüncələri tədqiq edilmişdir.

Hüquq və İnsan Haqları İnstitutu tərəfindən hazırlanan dərs vəsaitinin əsas məqsədi Heydər Əliyev ideyalarını gənclərə çatdırmaq, onları öz gələcək fəaliyyətlərində məhz həmin ideyalara söykənərək və xalqımızın milli-mənəvi dəyərlərini qoruyaraq Vətənə layiqli xidmət etmələrinə istiqamətləndirməkdir.

İnanırıq ki, bu dərs vəsaitindən istifadə edən tələbələrin gələcək fəaliyyətlərinin əsas devizi cinayət törətmiş hər bir şəxsin öz əməlinə müvafiq olaraq qanun əsasında cəzalandırılması və cinayət törətməmiş heç bir şəxsin əsassız olaraq cəzaya məruz qalmaması, beləliklə, insan hüquq və azadlıqlarının müdafiəsi, xalqın milli-mənəvi dəyərlərinin qorunması olacaqdır.

*Çapa imzalanmışdır: 03.12.2024*
*Kağız formatı: 60x84 ofset 80 qr . Çap vərəqi 16,75 $^{1}/_{16}$*
*Sayı: 500.*

---

*Kitab*
*“Premyer Production” MMC -nin*
*mətbəəsində hazır pozitivlərdən çap edilmişdir.*
*Ünvan: Bakı şəh. Binəqədi ray. 2-ci mədən küç. ev 90, mən. 22.*
*premyer.prod@gmail.com*